# Ulduz ömürlü insan

Bakı – 2017

# Ulduz ömürlü insan

Bakı – 2017

**Redaktor:** **filologiya üzrə elmlər doktoru, professor Hüseyn ƏSGƏROV**

**Tərtib edənlər:** **filologiya üzrə fəlsəfə doktoru, dosent Rəna MAHMUDOVA**

**filologiya üzrə fəlsəfə doktoru, dosent Məhbubə QURBANOVA**

"Ulduz ömürlü insan" kitabında görkəmli dilçi alim, filologiya elmləri doktoru, Dövlət Mükafatı laureatı, Əməkdar Elm Xadimi, professor Yusif Seyidov haqqında xatirələr, məslək dostlarının mərhumun özü və yaradıcılığı haqqında fikirləri, məqalələri toplanmışdır. Bundan başqa, professor Y.Seyidovun biblioqrafiysı da tərtib edilmiş və bu kitabda öz əksini tapmışdır. Xatirə və məqalələrdə görkəmli alimin yaradıcılığından - pedaqoji fəaliyyətindən, Azərbaycan dilçiliyinə və təhsilə verdiyi töhfələrdən bəhs edilir, həmçinin onun xarakteri, bir şəxsiyyət kimi ali və müsbət keyfiyyətləri, həyatından bəzi məqamlar oxucuların nəzərinə çatdırılır.

# ÖN SÖZ

***Bağlı qapıya açar axtarsan,***
***Ancaq alimlərdə axtar, taparsan.***
***(Nizami Gəncəvi)***

Azərbaycan elminin tarixində elə görkəmli ziyalılar olmuşdur ki, xalq onları yaxından tanımış, böyük sevgi və məhəbbətlə sevmiş, onlara dərin ehtiram bəsləmişdir. Bu insanlar xalqın ağsaqqalı, öndəri olmuş, hamı onların adı ilə fəxr etmiş, onlar barəsində fəxrlə danışmışlar.

Elə insanlar var ki, onlar öz nəcibliyi, alicənablığı, xeyirxahlığı ilə ətrafdakıları işıqlandırır, nurlandırır, saflaşdırır, həyatı necə yaşamağı müdrikliklə onlara öyrədirlər. Onların sirlərini öyrənmək, görünməyən, bu günə qədər açılmayan, dərin qatlarda gizlənmiş olan məzmunlarını üzə çıxarmaq insanlığın, bəşərin gələcəyinə xidmət etmək deməkdir. Belə insanlardan biri də mənim unudulmaz müəllimim, elmi rəhbərim, kafedra müdirim professor Yusif Seyidovdur. Bu mənada Yusif Seyidovu daha dərindən və yaxından tanımaq, eyni zamanda tanıtmaq, tanıtmaq üçün tədqiq etmək, öyrənmək, milli xəzinəmizin zənginləşdirilməsi üçün onun əsərlərini qoruyub-saxlamaq, hifz etmək bizim ən müqəddəs borcumuzdur.

Mən bu kiçik yazımda sizə böyük alim, gözəl insan, ustad pedaqoq, filologiya elmləri doktoru, professor, Dövlət Mükafatı laureatı, Əməkdar Elm Xadimi, Prezident Təqaüdçüsü ilə yanaşı, başqa mükafat və fəxri adları olan Yusif Seyidovdan, hamının böyük hörmət və məhəbbətlə çağırdığı Yusif müəllimdən danışmaq istəyirəm. Bu görkəmli alimin elmi yaradıcılıq marağı o qədər geniş və sanballıdır ki, onu açmaq, ona layiq söz

demək mənim üçün çox çətindir. Yusif Seyidovun şərəfli və çoxsahəli yaradıcılıq yolu haqqında yazmaq, onun elmi pedaqoji fəaliyyətini bir məqalədə əks etdirmək o qədər də asan deyil.

Yusif Seyidovun əsərlərini vərəqlədikcə gözümüz önündə bir dünya açılır. Bu dünyada biz sözün hikmətini duyuruq, sözün qüdrəti qarşısında heyran qalırıq, sözün şöhrətinin gücünü hiss edirik.

Müəllimlərimizi yada salmaq, onları xatırlamaq, onlar haqqında danışmaq hər zaman bizdə xoş duyğular yaradır, çünki onları xatırlayarkən, biz öz gənclik illərimizə, ömrün ən əziz, ən şirin günlərinə – tələbəlik illərinə qayıdırıq. Dünyada elə dəyərlər, elə qiymətlər var ki, onu heç bir vaxt, heç bir zaman soldura bilmir. Bu, müəllim haqqıdır. Daima xoş duyğularla xatırladığım müəllimlərdən biri də Yusif müəllimdir. Filologiya fakültəsinin III kursunda oxuyarkən Yusif müəllim mənə «Xüsusi kurs»dan (o zamanlar universitetdə belə bir fənn tədris edilirdi) dərs deyib. Biz bu kursda söz birləşmələrini öyrənirdik. Yusif müəllimin mühazirələri çox maraqlı keçirdi. Azərbaycan dilinin zənginliyini, incəliyini bizə o qədər gözəl, məntiqli şəkildə öyrədirdi ki, biz həmin dərsdən sonra dilimizi daha da çox sevir və qrammatikaya bir daha vurulurduq. Bütün tələbələr Yusif müəllimi çox sevirdi. O, mehriban siması, xoş rəftarı, qayğıkeşliyi ilə hamıya doğma və əziz bir insan idi. Yusif müəllim tədris etdiyi fənni çox gözəl bilən və onu tələbələrə sevdirməyi bacaran, auditoriyanın nəbzini tuta bilən gözəl bir pedaqoq idi. Eyni zamanda çox ciddi və olduqca tələbkar idi. Tələbələrə qiymət verməkdə çox ədalətli idi. Müəllimin sevilməsi üçün əsas şərtlərdən biri onun öz fənnini gözəl bilməsidir. Yusif müəllim məhz belə müəllimlərdən idi. Onun sakit, şirin və asta danışığı, dəqiq elmi-nəzəri təhlili indi də yadımdadır.

Biz, Yusif müəllimin tələbələri, özümüzü xoşbəxt sayırıq. Xoşbəxt sayırıq ona görə ki, Yusif müəllim kimi böyük bir alimin, ustad pedaqoqun, saf, təmiz, səmimi, təvazökar, xeyirxah bir insanın mühazirələrini dinləmişik.

Yusif Seyidov mənim sevimli müəllimim olmaqla yanaşı, həm də mənim ən böyük xeyirxahım, himayədarım olub. Tale elə gətirdi ki, mən Yusif müəllimin kafedrasında baş laborant kimi işə başladım. Bu, mənim üçün çox böyük xoşbəxtlik idi. Mənim üçün çox əziz və doğma olan müəllimimlə bir yerdə çalışacaq, ondan çox şeylər öyrənəcəkdim.

Bu illərdə mən Yusif müəllimi daha yaxından tanıdım, onun dəyərli məsləhətlərini dinlədim, tövsiyələrinə qulaq asdım, onun yaradıcılığını izlədim, əsərlərindən, dərsliklərindən bəhrələndim. Yusif müəllim işləməkdən, çalışmaqdan zövq alırdı. Bir an da olsun yazmaqdan yorulmur, usanmır, bezmir və bunu bizdən – kafedra üzvlərindən də tələb edirdi. Həmişə bizə tövsiyə edirdi ki, heç vaxt boş oturmayın, hər gün nə isə oxuyun və yazın. Deyirdi ki, əsil müəllim hər gün öz üzərində işləməli, biliyini, təhsilini artırmalı, çoxlu mütaliə etməlidir.

Yusif müəllim kafedra müdiri kimi çox tələbkar, lakin olduqca mehriban və səmimi bir insan idi. Bizim kafedra öz mehribançılığı, səmimiliyi ilə o biri kafedralardan fərqlənirdi. Yusif müəllim kafedranı çox sevirdi, kafedra onun ikinci evi idi, kafedranın hər bir üzvünün işi, fəaliyyəti ilə maraqlanır, onlara əsil atalıq qayğısı göstərirdi. Kafedrada nümunəvi nizam-intizam, səliqə-sahman, möhkəm birlik, işgüzar şərait, ən əsası isə mehribançılıq və səmimiyyət yaratmışdı.

Metodikanın sirlərini, incəliklərini böyük həvəslə kafedranın müəllimlərinə, tələbələrinə sevdirən bu böyük alim, pedaqoq 48 il özünün yaratdığı Azərbaycan dili və ədəbiyyatının

tədrisi metodikası kafedrasının müdiri oldu. İndi bu kafedraya Yusif müəllimin «mənəvi oğlu» olan, dostu, sirdaşı professor Hüseyn Əsgərov rəhbərlik edir. Çox inamla demək olar ki, Hüseyn müəllim Yusif müəllimi əvəz edə bilir. Elə bir gün olmaz ki, o, Yusif müəllim haqqında danışmasın, onu bizə xatırlatmasın. Bunun üçün biz ona çox minnətdarıq.

Kafedrada baş laborant işləyirdim. Kafedranın müəllimlərindən biri xəstələndiyi üçün dərsə gəlməmişdi. Mən makinada nə isə yazırdım. Yusif müəllim üzünü mənə tutaraq dedi: – Get, həmin müəllimin dərsini əvəz elə. Düzü, mən bir qədər çaşdım, bir anlıq dayandım, heç nə deyə bilmədim. Birinci dəfə idi ki, həmişə arzusunda olduğum auditoriyaya girməli idim. Yusif müəllim bunu hiss etdi və dedi:

– Qorxma, mən bilirəm ki, sən bunu bacararsan!

Beləliklə, ilk dəfə Yusif müəllim məni Şərqşünaslıq fakültəsinə dərsə göndərdi. Həmin gündən sonra mən universitetin müxtəlif fakültələrində (rus bölməsində) müəllim kimi fəaliyyətə başladım. Bu inamı məndə Yusif müəllim oyatdı, o, məni dərs deməyə həvəsləndirdi. O, məndə özümə qarşı inam yaratdı.

Qazandığım bütün uğurlar üçün Yusif müəllimə çox borcluyam. Dissertasiya mövzusunu da mənə Yusif müəllim özü təklif etdi. Bildirdi ki, omonimlik haqqında çox yazılıb, amma şəkilçilərin omonimliyi az işlənmiş mövzudur, bu mövzunu götür və işlə. Elmi rəhbərim olduğu illərdə mövzunun işlənməsi ilə bağlı mən Yusif müəllimə tez-tez müraciət edir, ondan dəyərli məsləhətlər alırdım. Dissertasiya işimlə bağlı söylədiyi qeydlər və bəyəndiyi məqamlar məni daha da ruhlandırır və elmi yaradıcılığa sövq edirdi.

Yusif müəllimin mənim yetişməyimdə bir müəllim, pe-

daqoq kimi xidmətlərini heç zaman unutmaram. Bunu heç unutmaq olar!? Mənim pillə-pillə yüksələrək müqəddəs müəllim titulunu daşımağımda, alim adına layiq görülməyimdə Yusif müəllimin böyük xidməti olmuş və mən həmişə həyatımda onun qayğısını hiss etmişəm.

Yusif Mir Əhməd oğlu Seyidov 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş və taleyini bu ali məktəblə bağlamışdır. O, Elmi Şuranın qərarı ilə universitetdə saxlanmış, aspiranturada oxumuşdur.

Aspiranturanı qurtardıqdan sonra universitetin «Ümumi dilçilik» kafedrasında müəllim kimi fəaliyyət göstərmişdir.

1956-cı ildə «Azərbaycan dilində feli bağlama tərkibləri» mövzusunda namizədlik, 1966-cı ildə isə «Azərbaycan dilində söz birləşmələri» adlı doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Y.Seyidov Azərbaycan dilçiliyinin ən uca zirvəsində öz yeri, mövqeyi, üslubu, öz məktəbi olan görkəmli dilçi-alim, ədəbiyyatşünas-tənqidçi, metodist, publisist, gözəl təşkilatçı, hər şeydən əvvəl isə gözəl şəxsiyyətdir. Görkəmli türkoloq alim Ramiz Əskərin dediyi kimi, «Yusif Seyidov XX əsr Azərbaycan dilçiliyinin sonuncu mogikanıdır».

Azərbaycan dilçilik elminin nüfuzlu simalarından biri olan Yusif Mir Əhməd oğlu Seyidov Azərbaycan filologiyasına vahid filoloji elm sahəsi kimi baxmış, ixtisasca dilçi olsa da, bütün yaradıcılığı boyu ədəbi prosesi ardıcıl izləmiş, araşdırdığı mövzulara filoloji təfəkkürlə yanaşmış və demişdir: *«Filologiya canlı bir orqanizmdir və həqiqi filoloq bədii ədəbiyyatın bütün problemləri ilə maraqlanmalı və tədqiqat aparmalıdır»*. Azərbaycan dilinin qrammatikasının öyrənilməsi sahəsində böyük xidmətləri olan Yusif Seyidov həqiqi filoloq idi, dili və ədəbiy-

yatı heç vaxt bir-birindən ayırmamış, hər ikisini eyni dərəcədə sevmiş, hər iki sahədə tədqiqatlar aparmışdır. Məhsuldar və gərgin yaradıcılıqla məşğul olan alim ədəbi dil, bədii dil və üslub məsələlərinin tədqiqi ilə müntəzəm məşğul olmuş, araşdırmış, Azərbaycan şair və yazıçılarının söz, sənət və dil haqqında söylədikləri fikirləri toplamış, onları təhlil etmiş və öz mülahizələrini söyləmişdir. Onun əsərlərində dil problemlərinin tematikası çox genişdir. Bu əsərlərdə, ümumən dil, milli dillər, ədəbi-bədii dil, dilin lüğət tərkibi, fonetik və qrammatik quruluşu, qrammatika problemləri, söz birləşmələri, orfoqrafiya və orfoepiya, dil və üslub, nitq mədəniyyəti kimi məsələlərə toxunulmuşdur.

Alim ana dilimizin hər kiçik ünsürü haqqında diqqətlə, ehtiyatla danışır, analiz edir, öz fikirlərini bildirir.

Yusif Seyidovun bütün elmi, pedaqoji fəaliyyəti Bakı Dövlət Universitetinin filologiya fakültəsi ilə bağlı olmuşdur. O, bütün həyatını universitetə bağlamış, tələbəlikdən professorluğadək şərəfli bir həyat yolu keçmişdir. Onun ömür yoluna nəzər salanda görürsən ki, bu yol zəngin bir ömür yoludur, daima yüksələn, irəliyə gedən bir həyat yoludur. O yol belədir: tələbə – aspirant – müəllim – baş müəllim – dosent – professor – kafedra müdiri. Bir alim kimi, elm yoludur; bir pedaqoq kimi təlim-tədris yoludur; bir vətəndaş kimi, öz xalqına xidmət yoludur.

Universitet onun üçün bir məbəd idi. Onun doğma evi, ocağı idi. Ömrünün sonuna kimi Yusif müəllim universitetdən bir an da olsun ayrılmamışdır. Yusif müəllim hər gün səhər tezdən işə gələr, özünün 1965-ci ildə yaratdığı, 48 il kafedra müdiri olduğu «Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası» kafedrasında oturar və bütün günü elmi yaradıcılıqla

məşğul olardı.

Yusif müəllimin universitetdə tələbəlik illəri maraqlı və məhsuldar olmuşdur. Təhsil illərində Cəfər Xəndan, Əli Sultanlı, Mir Cəlal, Feyzulla Qasımzadə, Muxtar Hüseynzadə, Məmməd Cəfər kimi böyük şəxsiyyətlərdən dərs almışdır. Onun gələcək taleyinin həllində məşhur dilçi, böyük alim, Azərbaycan dilçiliyində xüsusi yeri olan Muxtar Hüseynzadənin elmi rəhbər kimi böyük rolu olmuşdur. İlk məqaləsini V kursda oxuyarkən yazmışdır. Muxtar Hüseynzadənin «Azərbaycan dilinin qrammatikası» kitabı haqqında yazdığı məqalə 1952-ci ildə «Azərbaycan müəllimi» qəzetində çap olunur. Tələbənin belə bir əsər haqqında məqalə yazması hamıya qəribə gəldi. Bu, böyük bir uğurun başlanğıcı idi!

Muxtar müəllimin ən sevimli tələbələrindən biri də Yusif Seyidov idi. Yusif müəllim yazır: «Mənim elmi rəhbərim və kafedra müdirim, məşhur dilçi alim Muxtar Hüseynzadə məni rektorun – akademik Yusif Məmmədəliyevin qəbuluna apardı və xahiş etdi ki, məni baş müəllim keçirsin. Yusif Məmmədəliyev bircə söz soruşdu: Qabildimi? Muxtar müəllim də bircə sözlə cavab verdi: – Bəli! Rektor əlavə bir söz demədən, o zaman tədris işləri üzrə prorektor işləyən (sonralar ADU-nun rektoru olan) Mehdi Əliyevi çağırdı və ona tapşırıq verdi. Mən baş müəllim keçdim».

Yusif müəllim özü də tələbələrə, gənc aspirant və dissertantlara həmişə bu cür qayğı göstərmiş, xeyirxahlıq etmişdir. Bu gün kafedramızın hər bir üzvünün laborantlıqdan pillə-pillə yüksələrək şərəfli müəllim adını daşımağında, alimlik adına layiq görülməyində Yusif müəllimin böyük əməyi olmuşdur.

Yusif Seyidov hələ gənc yaşlarından yaradıcılıq fəaliyyətinə başlamış, bu fəaliyyət zaman-zaman genişlənmiş, şaxə-

lənmiş, bir-biri ilə əlaqəli olan müxtəlif sahələri özündə birləşdirmişdir.

Yusif Seyidov görkəmli alim idi, publisist, tənqidçi, geniş diapazona malik filoloq idi, ustad pedaqoq idi. Obyektivlik, düzgünlük, prinsipiallıq kimi keyfiyyətlər onun canına, qanına işləmişdi. Yusif müəllim öz prinsipiallığı, elmi və tədrisi dərindən bilməsi ilə çoxlarından seçilirdi. Elmin elə bir sahəsi yoxdur ki, Yusif müəllim bir vətəndaş kimi, bir dilçi kimi orada sözünü deməmiş olsun. Yusif Seyidovun istedadı, səriştəsi, tədqiqat bacarığı bu dilçilik ixtisasından çox-çox uzaqlara gedib çıxır.

Yusif Seyidov bütün ömrü boyu görkəmli yazıçıların, şairlərin, tənqidçilərin əsərlərini oxumuş, onların yaradıcılıqlarını izləmiş, öz fikir və mülahizələrini monoqrafiyalarda, kitablarda, məqalələrdə bildirmişdir. Alimin əsərlərində ədəbi-bədii dilimizin keçmişi və bu günü, onun inkişaf yolları və mərhələləri haqqında maraqlı mülahizələr vardır.

Yusif Seyidov sadə və aydın dillə yazdığı dərin mənalı əsərləri ilə ədəbi dilimizin inkişafına çox böyük köməklik göstərmişdir. Alim ilk yaradıcılıq illərindən başlayaraq dil məsələlərinə fəal münasibət bəsləmiş, Azərbaycan ədəbi-bədii dilinin, Azərbaycan dilçilik elminin inkişafında çox böyük rol oynamışdır. Dilçiliyimizin müxtəlif sahələrinə aid qiymətli əsərlər yazmaqla bərabər, hər zaman ana dilimizin müqəddəsliyini, varlığını, ləyaqətini qorumuş, bir vətəndaş qeyrəti ilə onu təbliğ və tədqiq etmiş, onun gözəlliyinin və əzəmətinin keşiyində durmuşdur.

Yusif Seyidovun ən böyük xidməti onun sintaksis sahəsində apardığı tədqiqatlardır. Görkəmli alimin bu sahədəki axtarışlarının nəticələri ayrı-ayrı məqalə və kitabçalar şəklində,

bütöv halda isə «Azərbaycan ədəbi dilində söz birləşmələri» adlı monoqrafiyasında əks olunmuşdur. «Azərbaycan ədəbi dilində söz birləşmələri» adlı monoqrafiyası uzun və gərgin axtarışların nəticəsidir. Bu qiymətli tədqiqat əsəri türkoloqlar tərəfindən maraqla qarşılanmışdır. Heç də təsadüfi deyil ki, məşhur dilçi alim, akademik A.N.Kononov bu əsərə görə Yusif Seyidovun adını sintaksisin əsas problemlərinin həllində böyük xidmətləri olan sovet alimlərinin sırasında çəkmiş, əsəri yüksək qiymətləndirmişdir.

Həmin dissertasiyanın rəsmi opponenti olmuş SSRİ Elmlər Akademiyasının baş elmi işçisi, filologiya elmləri doktoru, professor N.A.Baskakov dissertasiyanın yüksək elmi dəyərindən danışmış, bu dissertasiya işini dilçilik elmində yeniliyin nümunəsi kimi qiymətləndirmişdir.

Əsərdə söz birləşmələrinin nəzəri və praktik məsələləri bütövlüklə əhatə edilmiş, tədqiq tarixi araşdırılmış, söz birləşmələrinin növləri haqqında sistemli məlumat verilmişdir. Əsər 2 dəfə çap edilmişdir (1966, 1972). Azərbaycan dili sintaksisinin ən aktual problemlərinə həsr olunmuş və biblioqrafik nüsxəyə çevrilmiş bu kitab bu gün də ali məktəblərimizdə dərslik kimi istifadə olunur.

Yusif Seyidov sonralar gərgin əməyi, yuxusuz gecələri və səmərəli elmi axtarışları hesabına misilsiz uğurlar qazanmışdır.

Azərbaycan dilçiliyinin inkişafında, Azərbaycan dilçiliyi üzrə kadrların yetişməsində əvəzsiz xidmətləri olan Muxtar Hüseynzadə doktorluq dissertasiyası müdafiə etmək üçün altı aylıq məzuniyyətə gedir və mühazirələrini aspirantı Yusif Seyidova tapşırır. Bu, böyük bir etimad idi!

Yusif Seyidov sevimli müəllimi Muxtar Hüseynzadənin doktorluq dissertasiyasında rəsmi opponent kimi də çıxış et-

mişdir. Bu, hər tələbəyə qismət olmayan bir tale idi! Bu, Azərbaycan elmində, ümumən, türkologiyada yeganə hadisə idi!

Yusif Seyidov 60 ilə yaxın müddətdə fundamental əsərləri, monoqrafiyaları, dərslikləri, dərs vəsaitləri, dissertant və aspirantlara rəhbərliyi ilə elmi məktəb yaratmışdır.

Yusif Seyidovun əsərlərini oxuduqca, onun yaradıcılığını araşdırdıqca belə bir nəticəyə gəlirsən ki, bu böyük alim, elm fədaisi, özünün dediyi kimi, «*əsərlərini sətir-sətir nəzərdən keçirdiyimiz Azərbaycan şairləri yaradıcılıq yollarında nə qədər sevinib, ya kədərlənibsə, nə qədər xoş anlar keçirib, ya həyəcanlanıbsa*» bu dövrdə həmin hisslər onun üçün də doğma olub, beyninə, qəlbinə təsir göstərib.

Qədim tarixə, zəngin maddi və mənəvi mədəniyyətə malik olan Azərbaycan xalqının dilini araşdırmaq, onun dərinliklərinə əl atmaq, poetik potensialını üzə çıxarmaq, sehrini, sirrini, hikmətini açmaq, sözün qüdrətini göstərmək, sözün şöhrətini canlandırmaq tədqiqatçıdan böyük hünər istəyir.

XX əsr Azərbaycan klassik dilçiliyinin görkəmli nümayəndəsi olan Yusif Seyidovun maraq dairəsi çox geniş və əhatəlidir. Yusif Seyidov fundamental araşdırmalar müəllifidir, onun tədqiqat dairəsi genişdir, rəngarəngdir və müxtəlif istiqamətlərdə xalqımıza xidmət etmişdir.

*Yusif Seyidov – dilçidir.* O, Azərbaycan dilçilik elminə ömrünün əbədi imzasını atan dilçilərdəndir. Qrammatika problemlərinin tədqiqi onun fəaliyyətində əsas yer tutur. Azərbaycan dilçiliyində sintaktik əlaqələrin elmi əsaslarla geniş tədqiqi professor Yusif Seyidovun adı ilə bağlıdır. Onun namizədlik və doktorluq dissertasiyalarının hər biri Azərbaycan dilçiliyi tarixində yeni cığırdır. Elmi fəaliyyətinin bütün dövrlərində Azərbaycan dilçiliyinin ən aktual problemlərində, müba-

hisəli məsələlərində həmişə dəyərli fikir söyləyən alimlərimizdən biri olmuşdur. Yusif Seyidovun dilçilik məsələlərinə həsr edilmiş 300-dən çox məqaləsi vardır ki, onlar dövrü mətbuatda nəşr edilmişdir. Yusif Seyidovun filoloji tədqiqatları içərisində bir dilçi alim kimi dil problemləri xüsusi yer tutur. Alim elmi-pedaqoji fəaliyyəti ilə daim Azərbaycan dilçilik elminin inkişafına xidmət etmiş, Azərbaycan dilinin saflığının keşikçisi olmuşdur.

Yusif Seyidov «Müasir Azərbaycan dili. Sintaksis. IV hissə (həmmüəllif)», «Azərbaycan dilinin qrammatikası. Morfologiya», «Azərbaycan dilçiliyində qrammatika problemləri», «Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər», «Azərbaycan ədəbi dilində söz birləşmələri» adlı monumental əsərlərin müəllifidir. Bu əsərlərdə Azərbaycan dilinin ən zəruri, aktual, ciddi problemləri öz əksini tapmışdır.

«Azərbaycan ədəbi dilində əlavə sözlər və əlavə cümlələr» adlı əsəri türkologiyada və Azərbaycan dilçiliyində bu sahəyə həsr edilmiş ilk tədqiqat əsəridir. Professor Yusif Seyidov universitetdə Azərbaycan dilinin qrammatikasından mühazirələr söyləyir, doğma dilimizin incəliklərini tələbələrə öyrədirdi.

1974-cü il professor Yusif Seyidovun həyatında olduqca əlamətdar olmuşdur. Həmin il 4 cildlik «Müasir Azərbaycan dili. Sintaksis IV hissə» (həmmüəllif) dərsliyinə görə ona Dövlət Mükafatı laureatı adı verilmişdir. Görkəmli alimə Azərbaycan dövləti və onun rəhbəri Heydər Əliyev tərəfindən verilən bu yüksək mükafat, ümumən Azərbaycan dilinə və dilçiliyinə verilən qiymətdir.

*Yusif Seyidov – tənqidçi-ədəbiyyatşünasdır.* Professor Yusif Seyidov milli ədəbiyyatşünaslıq elmini zənginləşdirən və inkişaf etdirən qiymətli əsərlərin müəllifidir. Bu əsərlər ədə-

biyyatşünaslar üçün zəngin elmi mənbədir.

Onun yaradıcılığı təkcə dilçiliklə məhdudlaşmır. Yusif Seyidov Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Elmi axtarışlarının xeyli hissəsi yazıçı və dil probleminə aiddir: «Klassik Azərbaycan şairləri söz haqqında» (1977), «Yazıçı və dil» (1979), «Sözün şöhrəti» (1981), «Şairin fikir dünyası» (1985), «Ədəbi-tənqid və bədii dil» (1986), «Sözün qüdrəti» (1988), «Sözün hikməti» (1989) adlı monoqrafiyalarında qədim dövrlərdən başlamış müasir dövrə qədər hər bir Azərbaycan şairinin, yazıçısının, tənqidçisinin söz və dil haqqında dediklərini bir sistem halında toplamış, onları təhlil etmiş, öz mülahizələrini söyləmişdir. Həmin əsərləri yazarkən alim özü də daima *«şeir, sənət aləmində olmuş, özünü şairlər arasında hiss etmiş, Xaqaninin, Nizaminin, Füzulinin, Saibin, Vaqifin, Zakirin, Sabirin, Cavidin, Vurğunun, Rzanın, Bəxtiyarın söz rübabını dinləmişdir».*

Y.Seyidov «Sözün hikməti» monoqrafiyasında yazır: *«30-cu illərdən başlayaraq Azərbaycan ədəbi prosesində fəal iştirak edən iki böyük ədibin əsərlərini başdan-ayağa oxudum, belə qənaətə gəldim ki, bu, böyük bir məktəbdir. Və mən bu işdən böyük bir təəssüratla ayrılıram, bu iş ömrümün bir hissəsinin nişanəsidir».*

Yusif Seyidov yazıçı, akademik Mirzə İbrahimov və tənqidçi, ədəbiyyatşünas alim, akademik Məmməd Cəfərin yaradıcılığını müqayisə edir, onlar arasında fikir və ideya yaxınlığı görür, hər ikisinin obyektivliyini, nəzəri və mədəni səviyyələrini yüksək qiymətləndirir və onları filoloji fikrimizin iki sütunu adlandırır.

«Sözün qüdrəti» və «Sözün şöhrəti» kitabları da bu qəbildəndir.

«Şairin fikir dünyası» kitabı Bəxtiyar Vahabzadənin yara-

dıcılığına həsr edilmişdir. Yusif Seyidov bu kitabda şairin söz, sənət, dil və üslub, bədii tərcümə, tədris və dil haqqındakı fikir və mülahizələrini toplamış, onları analiz etmiş, öz fikirlərini söyləmişdir.

*Yusif Seyidov ədəbiyyatşünas – filosofdur*. «Şairin dərdi», «Nəsiminin dili», «Ey ulu dünya», «Xalq yazıçısı Elçin», «Akademik İsa Həbibbəyli» monoqrafiyalarında dilçi və ədəbiyyatşünas alimdən daha çox, həm də fəlsəfi düşüncəli alim kimi görünür. «Nəsiminin dili» monoqrafiyasında Nəsimi dilinin qrammatik xüsusiyyətləri morfologiya və sintaksis istiqamətində təhlil edilir. Yusif Seyidov Nəsimi dilini fəlsəfi aspektdə araşdırır və Nəsiminin fikir dünyasını özü üçün «əlçatmaz, heyratamiz, sirli bir dünya» adlandırır.

Y.Seyidov Azərbaycan dili tarixinə dair də səmərəli tədqiqatlar aparıb. Dil tarixinə dair yazdığı məqalələr («Dastani-Əhməd Hərami haqqında bəzi qeydlər», «Kitabi-Dədə Qorqud»un dilində sadə cümlə (inkişaf səviyyəsi), «Dövrün (XII-XIX əsrlər) şeir dilinə ümumi bir nəzər», «Ədəbi şəxsiyyət və dil») ciddi müşahidə və axtarışların nəticəsidir.

«Şairin dərdi» monoqrafiyası dahi şairimiz Səməd Vurğun haqqındadır. Burada Səməd Vurğunun yaradıcılığı yeni istiqamətdə tədqiq və təhlil edilir, şairin ictimai və şəxsi kədərinin mənbələri araşdırılır. Bu əsərdə Yusif müəllimin özü görünür – hissləri, həyəcanları, arzuları və istəkləri ilə...

*Yusif Seyidov – pedaqoqdur.* Müəllimlik ilahi bir sənətdir. Ata-ana övladları dünyaya gətirib böyüdürsə, müəllim onlara dünyanın hər üzünü öyrədir və yaxşı müəllim həmişə tələbələrinin ürəyində yaşayır. Yusif Seyidov bütün ömrünü elmin, təhsilin inkişafına həsr edən ziyalılarımızdandır. O, elm və

təhsil fədaisidir. Onun elmi-pedaqoji fəaliyyəti dərsliklərdə, elmi və publisistik məqalələrdə öz əksini tapmışdır. Yusif müəllim məqalələrinin birində yazır: «Orta məktəbdə dərs deyən hər bir müəllim öz ixtisasını tədris etməklə bərabər, tədris etdiyi fəndən asılı olmayaraq, bir də «tərbiyə fənnini» tədris etməlidir».

Yusif Seyidov xalqın hörmətini qazanmış, böyük bir dilçilər nəsli yetişdirmiş təvazökar insan, gözəl pedaqoqdur. Yusif müəllim tələbələrinə elmin sirlərini öyrətməklə yanaşı, eyni zamanda, onların kamil bir insan kimi yetişməsinə də xüsusi fikir verirdi. Y.Seyidov praktik Azərbaycan dilini çox gözəl bilirdi və bu yolda böyük nailiyyətlər əldə etmiş və onu həmişə inkişaf etdirmişdir.

Seçdiyi sənətə – dilə, ədəbiyyata vurğunluq, tələbələrinə verdiyi təlim-tərbiyə, atalıq qayğısı onu daima ucaltdı, zirvələrə apardı. Elmi yaradıcılığını tədris prosesi ilə uğurlu şəkildə birləşdirən alim 1952-ci ildən 2013-cü ilə qədər – 60 ildən çox dilçilik sahəsində çalışmışdır.

*Yusif Seyidov – publisistdir.* Onun kəskin publisistik qələmi vardır. «Dahilik mərtəbəsi», «Heydər Əliyevin dövlətçilik strategiyası», «Milli Elmlər Akademiyası inkişaf yollarında», «Bütün strukturları hərəkətə gətirməli», «Referendum birliyin rəmzi oldu», «Dissertasiya müdafiələrinə nəzarət günün tələbidir», «Vətənin, millətin tərəqqisi naminə», «Böyük və kiçik xalq anlayışı» və s. bu kimi publisistik məqalələrində müasir həyatın ən aktual problemlərinə toxunur, ictimai-siyasi prosesə müdaxilə edirdi.

Yusif Seyidov ədəbi yaradıcılıqla yanaşı, ictimai-siyasi həyatımızda da fəal iştirak etmiş, publisist və siyasətçi kimi də

tanınmış, müsahibə və çıxışlarında haqqın, ədalətin müdafiəçisi kimi çıxış etmişdir. 80-ci illərin axırında alim dövrün, hadisələrin tələbi ilə siyasətə qoşulmuş, Azərbaycanda demokratik qüvvələrin müdafiəsində, müstəqilliyimizin qazanılmasında iştirak etmişdir. İki hissədən ibarət olan «Demokratiyanın uzun yolu» kitabında müəllifin ictimai-siyasi hadisələrə və ayrı-ayrı şəxslərə ünvanlanan məktubları, məqalələri toplanmışdır. Bu kitab Yusif Seyidovun publisistikada siyasi fəaliyyətinin əksini göstərən bir güzgüdür.

*Yusif Seyidov – metodistdir.* Yusif Seyidov elmi məzmununa, metodiki mükəmməlliyinə görə seçilən qiymətli dərs vəsaitləri və dərsliklərin – «Müasir Azərbaycan dili» (I hissə 1959, II hissə 1963), «Müasir Azərbaycan dili. IV hissə. Sintaksis (1972, 1985, 2009) dərsliklərinin əsas müəlliflərindən biri, bir neçə dəfə nəşr edilmiş «Azərbaycan dili» (rus bölmələri üçün) və «Azərbaycan dilinin qrammatikası. Morfologiya» kimi ali məktəb dərsliklərinin müəllifidir.

Azərbaycan məktəblərinin V-XI sinifləri üçün yazdığı «Azərbaycan dili» proqramı, təlimi rus dilində olan Azərbaycan məktəbləri üçün «Azərbaycan dili» proqramı onun rəhbərliyi ilə hazırlanmış, onun redaktorluğu ilə nəşr edilmişdir.

Filoloq kimi yetişən hər bir gənc onun ali məktəb dərslikləri ilə elm aləminə qədəm qoyur. 1978-ci ildən indiyə kimi dəfələrlə nəşr olunan «Azərbaycan dili» (Ali məktəblərin rus bölmələri üçün) kitabı yeganə dərslikdir. Azərbaycan dilinin tədrisi və onun yaxşılaşdırılmasında Yusif Seyidovun xidmətləri əvəzsizdir. Hər bir azərbaycanlı ana dilimizin sirlərini onun orta məktəblər üçün yazdığı dərsliklərdən öyrənir. Onun rəhbərliyi və müəllifliyi ilə tərtib edilmiş V-IX siniflər üçün ilk

dəfə orijinal proqram əsasında yazılmış «Azərbaycan dili» dərslikləri uzun zaman gənc nəslin Azərbaycan dilini öyrənməsində əsas vasitə olacaqdır. Yusif müəllim öz prinsipiallığı, elmi və tədrisi dərindən bilməsi ilə çoxlarından seçilirdi. Universitetin tanınmış simaları əksər hallarda Yusif müəllimin fikirləri ilə razılaşırdılar.

Tərtib və çap etdirdiyi dərsliklər, dərs vəsaitləri, metodiki göstərişlər, proqramlar, məqalələr orta və ali məktəb tədrisinin elmi-metodiki əsaslarını hazırlamaq sahəsində olan maarifçilik xidmətləri onun pedaqoji fəaliyyətində xüsusi yer tutur. Dilçilik elminə ömrünün əbədi imzasını atan Yusif Seyidov dilin tədrisi metodikası məktəbinin əsasını qoydu. Bu məktəb indi də Yusif Seyidovun ənənələri ilə yaradıcı şəkildə Yusif müəllimin mənəvi oğlu hesab etdiyi görkəmli alim, bacarıqlı təhsil işçisi, professor Hüseyn Əsgərov tərəfindən davam və inkişaf etdirilir.

Yusif Seyidovun həyatı və onun yaradıcılıq yolu özü də bir məktəbdir. Əbu Türxan yazır: «*Dahilərin şəxsi həyatını onların ucaltdığı böyük abidələrin arakəsmələrində axtarmaq lazımdır*».

Bədii əsərlərin ifadə etdikləri fikirlər yazıçı və şair tərəfindən aşkar şəkildə formula olmaya bilər; bu iş daha çox tənqidçilərin öhdəsinə düşür. Ona görə də böyük tənqidçilər həm də gözəl kəlamlar, aforizmlər müəllifi ola bilir. Y.Seyidov da məhz belə alimlərdəndir.

Yusif Seyidovun əsərlərində maraqlı araşdırma, xüsusi təhlil və analizetmə xüsusiyyətləri vardır. Bütün həyatı boyu şair, yazıçı və tənqidçilərin dil, sənət, söz haqqındakı fikirlərini toplamış, analiz etmiş və özünəməxsus yeni deyimlər, fikirlər söyləmişdir.

Bu geniş araşdırma, təhlil və analiz etmə müəyyən fikirlə-

rin yaranmasına səbəb olur və onlar adi fikirlərdən seçilir. Həmin fikirlər yaddaşlarda həkk olunur, kütləviləşir və şifahi nitqdə işlədilir: *Yaxşılıq etdiyim adamlardan pislik görməyəndə sevinmişəm; Taleyin bəstələdiyi musiqini hələ notlara salan olmayıb; İçində ağlayıb, üzdə gülən insanlar əsl insanlardır; Həyat hiyləgər və məkrlidir; Dünya bütün nəsillərin həyat yolunda daimi bir mehmanxana timsalındadır. Ancaq orada bir dəfə yaşamaq olar; Ürək və dil birliyi həqiqətin açarıdır.* Yusif Seyidovun əsərlərində biz bu cür fikirlərə çox rast gəlirik.

Yusif müəllim olduqca sadə və səmimi adamdır, dərin zəka sahibidir. O, çox çətin, lakin şərəfli bir ömür yaşayıb. Elmlə məşğul olmaq yüksək keyfiyyət deməkdir. Müdriklər demişlər ki, elm insanın öz əti və qanından yaratdığı günəşdir ki, ağır və qaranlıq dalanlarda çıxış yolu tapmaq üçün alovu məşələ çevirir.

Yusif Seyidovun həyatı çox ağır keçib. Lakin bütün bunlara baxmayaraq, oxumaq, yazmaq həvəsindən düşməyib. Bir an da olsa, qələmi əlindən yerə qoymayıb. Özünün dediyi kimi *«ən ağır anlarımda da üzümdə təbəssüm gəzdirmişəm ki, başqalarına xoş əhval-ruhiyyə bağışlayım»*.

Yusif müəllimdə həyat eşqi çox güclü idi. İnsan varlığının sirri yalnız yaşamaq deyil, nə üçün yaşamaqdır – bu, Yusif müəllimin həyat fəlsəfəsidir.

Yusif Seyidov qeyri-adi dərəcədə işgüzarlığa, bənzərsiz xarakterə malik alim idi. Onun qəribə həyat tərzi və çoxlarına bəlli olmayan taleyi olmuşdur. Hələ uşaq ikən zəhmətə qatlaşan, heç bir dəbdəbə sevməyən, elmdə, fikirdə, düşüncədə daima irəliləyişdə olan, bir sıra elmi yaradıcılıq sahəsində zirvəyə yüksələn Yusif Seyidov sadə, təvazökar, asta danışan, tez-tez kövrələn, üzündə həmişə təbəssüm olan, hər sözündə incə yu-

mor hiss olunan, hamıya xeyirxahlıq, təmənnasız yaxşılıq edən səmimi, mehriban bir insan kimi yaddaşlarda qalmışdır.

Yusif Seyidov şöhrətə, qazandığı uğurlara aludə olmamış, özünün orijinal, bənzərsiz dəsti-xətti ilə ədəbiyyatımızın və dilçiliyimizin inkişafında mühüm rol oynamışdır.

Yusif müəllim özü haqqında danışmağı heç sevməzdi, həmişə öz dərdini başqalarından gizlədərdi: «Mən heç vaxt xəstə olduğumu heç kəsə demərəm. Qorxuram əhvalımı soruşan adamın əhvalı korlana...».

Yusif Seyidov gözəl təşkilatçı idi. Universitet və fakültə Elmi Şuralarının üzvü olmaqla həmişə prinsipiallıq göstərmiş və obyektivliyi ilə seçilmişdir. Uzun illər Universitet Metod-şurasının humanitar fakültələr üzrə sədri olmuşdur.

Yusif Seyidov universitetin və respublikanın ictimai həyatında fəal iştirak etmişdir. O, 1970-ci illərdə filologiya fakültəsinin partiya təşkilatının katibi, 1985-2006-cı illərdə Təhsil Nazirliyi Elmi Metodik Şurası filologiya bölməsinin sədri olmuşdur. Ali Attestasiya Komissiyasının Ekspert Şurasının sədr müavini kimi də fəaliyyət göstərmişdir. TQDK-nın Azərbaycan dili fənni üzrə (rus bölməsi) Ekspert Şurasının üzvü olmuşdur. 2001-ci ildən Azərbaycan Dövlət Dil Komissiyasının üzvü olan Yusif Seyidov ayrı-ayrı jurnallarda, qəzetlərdə dil məsələləri ilə bağlı irihəcmli yazıları ilə çıxış etmiş, hər zaman ana dilimizin ruhunu, müqəddəsliyini qorumuş, bir vətəndaş kimi onu tədqiq və təbliğ etmişdir.

Respublikada elmin inkişafında və yüksək ixtisaslı kadrların hazırlanmasında xidmətlərinə görə Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüşdür və Prezident Təqaüdçüsüdür. 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Respublikanın digər ali məktəblərində və akademik qu-

rumlarında çalışan dilçi alimlər nəslinin müəllimi, elmi rəhbəri, opponenti olan Yusif Seyidovun milli dilçi kadrların hazırlanmasında müstəsna xidmətləri vardır.

Yusif Seyidov onlarca monoqrafiyanın redaktoru olmuş, onun özü və əsərləri haqqında dövrü mətbuatda çoxlu məqalələr çap olunmuşdur.

Yusif Seyidov 16 monoqrafiyanın, 17 dərslik və dərs vəsaitinin, 300-dən çox elmi əsərin müəllifidir. Onun rəhbərliyi altında onlarla namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur. Professor Yusif Seyidov 70-ə yaxın dissertasiya işinin müdafiəsində opponent kimi çıxış etmişdir.

Respublikamızın ən qabaqcıl, mütərəqqi ziyalılarını birləşdirən «Əlincə» xeyriyyə cəmiyyətinin yaradılmasında Yusif müəllimin böyük rolu olmuşdur. Yusif Seyidov «Əlincə» xeyriyyə cəmiyyətinin üzvü kimi, vətənimizin, xalqımızın mənafeyini müdafiə etmiş, azad gələcək uğrunda fəal mübarizə aparmış, öz sözünü demişdir.

Bir dəfə mən kafedraya gələndə Yusif müəllimin stolunun üstündə ona bağışlanmış «Biblioqrafiya» kitablarını gördüm. Kitabları götürdüm, vərəqlədim və birdən Yusif müəllimdən soruşdum:

- Yusif müəllim, niyə Sizin «Biblioqrafiya» kitabınız yoxdur? Bütün görkəmli alimlərin, elm xadimlərinin bu cür kitabları var, niyə Sizinki olmasın?

Yusif müəllim başını qaldırıb özünəməxsus təbəssümlə üzümə baxdı və çox sakit səslə dedi ki, o qədər yazılarım, məqalələrim var ki, onları axtarmaq, tapmaq lazımdır, nə qədər dissertasiyalara elmi rəhbər olmuşam, rəy vermişəm, bu materialları tapmaq indi çox çətindir....

Bilmirəm, nədənsə mən bunu etməyi ürəkdən arzuladım

və Yusif müəllimə dedim ki, mən bu işdə Sizə kömək edərəm.

İlk növbədə Yusif müəllimin elmi rəhbər olduğu və rəy verdiyi dissertasiyaların siyahısını axtarmağa başladım. Bir müddət EA-nın Elmi kitabxanasında işlədim, avtoreferatları tapdım və onları Yusif müəllimə göstərdim. Yusif müəllim bunları görəndə çox sevindi və dedi ki, evdə olan bütün materialları sənə gətirərəm.

Biblioqrafiya tərtibinin özünəməxsus quruluşu və ənənəvi təcrübəsi vardır. Hər bir biblioqrafiyada alimin bütün yaradıcılıq yolu əks olunmalıdır. Mən plan tərtib etdim və onu Yusif müəllimə göstərdim, biz biblioqrafiyanı hazırlamağa başladıq.

Son zamanlar Yusif müəllim həddindən artıq çox işləyirdi. Ən böyük arzusu əsərlərinin 15 cildliyini hazırlamaq idi. Bütün günü yazı masasının arxasında oturur və çox gərgin işləyirdi. Hər dəfə onun belə gərgin işlədiyini görəndə ona yaxınlaşmaq, biblioqrafiya barəsində danışmaq istəsəm də, onu işdən ayırmağa qıymırdım. Əsərlərinin 11 cildini hazırladı, çap etdirdi. Lakin o biri cildlərini hazırlaya bilmədi....ömür vəfa etmədi..... Çox təəssüf ki, ölüm gələndə heç kimdən, heç nə soruşmur. Yusif müəllimin ölümü də bizim üçün çox gözlənilməz və ani oldu...

Əziz və unudulmaz müəllimimin xatirəsini əbədiləşdirmək üçün kafedramızın dosenti Məhbubə Qurbanova ilə birlikdə "Biblioqrafik göstərici"ni hazırladıq. Böyük alim, gözəl insan, ustad pedaqoq olan Y.Seyidov haqqında tərtib etdiyimiz bu kitabdan onun yetişdirdiyi yüzlərlə tələbə və alim, eləcə də ziyalılar bəhrələnəcək, bu alimin həyat yolu və yaradıcılığı ilə geniş şəkildə tanış olacaqlar.

Bu biblioqrafiya adi bir göstərici deyil, bu, böyük bir yaradıcılıq yolu keçmiş bir ömrün günlərini, aylarını, illərini

əks etdirən dolğun bir salnamədir. Xalqımız, ziyalılar, tələbələr Yusif Seyidovu yaxşı tanıyırlar. Bu kitab onu daha dərindən və ətraflı tanımaq üçün əhəmiyyətli vasitədir. "Həyatından səhifələr" adlı oçerkdə Yusif müəllimin həyatının oxuculara məlum olmayan, görünməyən anları, məqamları nəzərə çatdırılır. Həmin fraqmentlər onun yazdığı əsərlərin içərisindən seçilmişdir.

Yusif Seyidovun dünyasını dəyişməsi, haqq dünyasına köçməsi çox ani və hamımız üçün gözlənilməz oldu. Onun öz sözləri ilə desək «torpaqdan və göydən gələn insan yenə də öz yerinə-haradan gəlmişdisə, oraya da qayıtdı». Çox qəribədir. İnsan ölümünü əvvəlcədən hiss edir. Yusif müəllim (dünyasını dəyişməmişdən əvvəl) son zamanlar həm həddindən artıq çox işləyir, həm də çox tələsirdi. Doğrudan da, ölümünün son günlərinin yaxınlaşdığını hiss edən alim kitablarının birində belə yazmışdı: *«Tələsirəm. Tələsirəm ki, kitablarda, kitabxanalarda izim qalsın, kitab rəflərində üstündə adım yazılmış kitablarım görünsün, yad edilsin, xatırlansın».*

Yusif müəllim də dünyasını dəyişdi; ruhu isə göylərə - ruhlar aləminə çəkildi. Ziyəddin Göyüşov yazır ki, ömrümüz sonludur. Doğulmaq ölmək deməkdir. Ölüm hamı üçün bir sonluqdur.

Konfutsinin «Elm, bilik elə bir həzz mənbəyidir ki, o, insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir» – sözlərinə söykənərək qeyd etmək istəyirəm ki, sanballı yaradıcılıq yolu insanda iftixar hissi doğurur, insan hədər ömür sürmədiyini, əbədiyyət qazandığını görüb, dünyanın vəfasızlığından qorxmur. Böyük alim Yusif Seyidov da belə bir fərəhli ömür sürmüşdü.

Yusif Seyidovun əsərlərinin 15 cildliyinin 11 cildi ömrünün 80 illiyində onun Azərbaycan dilçiliyinə və Azərbaycan

ədəbiyyatşünaslığına bağışladığı böyük bir töhfə, qiymətli bir xəzinədir.

Tale, bəxt, ömür tanrı qismətidir. Yusif Seyidov 2013-cü il noyabrın 18-də, ömrünün ahıl yaşında – 84 yaşında əbədiyyətə qovuşsa da, həmişə onu sevənlərin qəlbində yaşayır.

Yusif müəllim insanların yaddaşında təkcə bir alim, pedaqoq, dilçi, ədəbiyyatşünas kimi qalmır. O, eyni zamanda yüksək insani hisslərə malik olan, mənəvi saflığı ilə seçilən, sadə, təvazökar, səmimi, xeyirxah bir şəxs kimi, bütün varlığı ilə xalqına, vətəninə bağlı olan, hamıya təmənnasız yaxşılıq edən bir şəxs kimi yadda qalır (Yaxşılıq etmək qabiliyyəti insanın ən böyük nemətidir).

Alimin xidmətləri heç zaman unudulmur, bu gün də, gələcəkdə də unudulmayacaqdır. Böyük alim, əvəzolunmaz müəllim, nəcib və xeyirxah insan olan Yusif müəllim minlərlə tələbəsinin qəlbində bu gün də anılır və yad edilir.

İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, ancaq Yusif müəllimin adı yaddaşlardan heç vaxt silinməyəcək.

***Rəna Mahmudova***
***BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti***

## ÖMRÜN ƏSAS İLLƏRİ

| | |
|---|---|
| **1929** | mayın 2-də Naxçıvan MR Dərələyəz mahalının (indiki Şərur rayonunun) Yengicə kəndində anadan olmuşdur. |
| **1935** | Yengicə kənd orta məktəbinin 1-ci sinfinə daxil olmuşdur. |
| **1944** | Orta məktəbi bitirmişdir. |
| **1944-1946** | Naxçıvan Dövlət ikiillik Müəllimlər İnstitutunun tarix-filologiya fakültəsinin tələbəsi olmuşdur. |
| **1946-1947** | Noraşen rayon orta məktəbində müəllim işləmişdir. |
| **1947** | Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat şöbəsinə daxil olmuşdur. |
| **1951** | «Əlifba: mənəvi irsimizin bərpası» adlı ilk məqaləsi çap olunmuşdur. |
| **1952** | ADU-nun filologiya fakültəsini bitirmişdir. |
| **1952-1955** | Dilçilik ixtisası üzrə aspiranturada təhsil almışdır. |
| **1955** | Kommunist Partiyasının üzvü olmuşdur. |
| **1956** | «Müasir Azərbaycan dilində feli bağlama tərkibləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. |
| **1956** | ADU-nun Ümumi dilçilik kafedrasının müəllimi olmuşdur. |

| | |
|---|---|
| **1958** | İlk kitabı-«Qrammatik cəhətdən cümlə üzvlərilə əlaqədar olmayan sözlər» çapdan çıxmışdır. |
| **1958-1963** | Ümumi dilçilik kafedrasına baş müəllim təyin olunmuşdur. |
| **1962** | Dosent elmi adını almışdır. |
| **1963-1965** | Ümumi dilçilik kafedrasının dosenti olmuşdur. |
| **1965** | ADU-da «Azərbaycan dili və metodika» kafedrasını yaratmış və ömrünün sonuna kimi həmin kafedranın müdiri olmuşdur. |
| **1966** | Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. |
| **1966** | «Azərbaycan dilində söz birləşmələri» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. |
| **1967** | SSRİ Ali Attestasiya Komitəsinin MFL №000357 nömrəli qərarı ilə elmlər doktoru adını almışdır. |
| **1968** | SSRİ Ali Attestasiya Komitəsinin 008199 nömrəli qərarı ilə professor elmi adını almışdır. |
| **1970** | Filologiya fakültəsinin partiya təşkilatının katibi seçilmişdir. |
| **1970** | V.İ.Deninin anadan olmasının 100 illiyi münasibətilə «Əməkdə fərqlənməyə görə» medalı ilə təltif olunmuşdur. |
| **1974** | Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Dövlət Mükafatı laureatı adını almışdır. |
| **1980-2013** | Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının üzvü olmuşdur. |

| | |
|---|---|
| **1982-1984** | Bakı Dövlət Universitetində filologiya üzrə elmi dərəcə verən Dissertasiya Şurasının üzvü olmuşdur. |
| **1985** | Azərbaycan Dövlət Dillər Universitetində Dissertasiya Şurasının üzvü olmuşdur. |
| **1985-2006** | Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası filologiya bölməsinin sədri olmuşdur. |
| **1986** | Universitet Metodşurasının sədri seçilmişdir. |
| **1988** | AMEA-nın nəzdində filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının üzvü olmuşdur. |
| **1988** | Azərbaycan Respublikası AAK-ın humanitar elmlər üzrə Ekspert Şurasının sədr müavini olmuşdur |
| **1989** | Moskva Dövlət Universitetində İxtisasartırma kursunda olmuşdur. |
| **1990** | Əlifba komitəsinin üzvü |
| **1993** | TQDK-nın Azərbaycan dili fənni üzrə (rus bölməsi) Ekspert Şurasının üzvü. |
| **1994** | Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur. |
| **1994** | Bakı Dövlət Universitetində uzun müddət səmərəli elmi-pedaqoji fəaliyyətinə görə BDU-nun 75 illik yubileyi münasibəti ilə xatirə medalı ilə təltif olunmuşdur. |

| | |
|---|---|
| **2000** | Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Əməkdar Elm Xadimi fəxri adını almışdır. |
| **2000** | "Şöhrət" ordeni ilə təltif olunmuşdur. |
| **2000** | «İlin ən yaxşı müəllimi» adına layiq görülmüşdür. |
| **2000-2013** | Naxçıvan Dövlət Universiteti Müdafiə Şurasının üzvü olmuşdur. |
| **2001** | Azərbaycan Respublikası nazirlər Kabineti Dövlət Dili Komissiyasının üzvü olmuşdur |
| **2004** | Anadan olmasının 75 illiyi münasibətilə BDU-nun Fəxri Fərmanı verilmişdir. |
| **2007** | Prezident Təqaudçüsü olmuşdur. |
| **2009** | Anadan olmasının 80 illiyi, elmi-pedaqoji fəaliyyətinin 55 illik yubileyi münasibətilə BDU-nun Fəxri fərmanı verilmişdir. |
| **2009** | Rəsul Rza adına Beynəlxalq mükafata layiq görülmüşdür. |
| **2011** | Azərbaycan Respublikası Təhsil Nazirinin 09.2011-ci il tarixli 1037 saylı əmrilə XVI Respublika fənn olimpiadasında tələbələrin qiymətləndirilməsi işində səmərəli fəaliyyətinə görə münsiflər heyəti tərəfindən təşəkkür almışdır. |

**2013-cü il 18 noyabr** – Yusif Seyidov dünyasını dəyişmişdir.

# HƏYATINDAN SƏHİFƏLƏR[1]

1929-cu il may ayının 2-də Naxçıvanın Şərur-Dərələyəz mahalının (indiki Şərur rayonunun) nağıllı, əfsanəli Arpaçayın nəğməli qoynunda yerləşən Yengicə kəndində anadan olmuşam.

Bu kənd dağlar arasında salınmışdı. Arpaçay dağ çayı olmaqla sürətlə axar, daşanda səsi bütün mahala yayılardı. Bu çay Şərurun həyat mənbəyi idi. Rayonun bağlarına, çöllərinə, meşələrinə can verər və əsas axarı ilə Xan Araza qarışardı. Selləri Saranı aparan, bununla da adı qəmli dastana düşən məşhur Arpaçay bu kəndin ortasından keçirdi. «Sara» əfsanəsi nə qədər məşhur olsa da, Şərurdakı qədər dillər əzbəri olmayıb. Mən lap uşaqlıqda bu əfsanəni nənəmdən və anamdan eşitmişəm.

Mənim həyatın keşməkeşlərlə dolu olubdur. Uşaqlığım, ilk gəncliyim iqtisadi çətinliklər içində keçibdir.

1935-36-cı dərs ilində Yengicə orta məktəbinin 1-ci sinfinə getmişəm. Yengicə məktəbi zəngin ənənələri olan bir məktəb olub. Başqa kəndlərdə yeddiillik məktəbi bitirənlər bu məktəbdə orta təhsillərini davam etdirirdilər. Yengicə məktəbinin görkəmli müəllimləri olduğu kimi, bu məktəbi bitirənlər arasından vətənimizə xeyir verən neçə-neçə görkəmli ziyalılar yetişmişdir.

30-cu illərin yoxsulluğu dumanlı da olsa, yadıma gəlir. O vaxtlar yay aylarını, təxminən 3 ay yarım Dərələyəzin Cüvə kəndində xalamgildə, Ələyəz kəndində dayımgildə keçirərək boya-başa çatmışam. O uca dağlara dırmanmışam, o buz bulaq-

---

[1] ***Qeyd***: «Həyatından səhifələr» adlı oçerk Y.Seyidovun əsərlərinin içərisindən seçilib.

ların suyunu içmişəm, o gözəl yaylaqlarda gəzib dolanmışam. Xalamgil 1950-ci ildə, kəndin üçdə ikisini əhatə edən torpaqlardan, dayımın uşaqları isə 1990-cı ildə o yerlərdən qaçqın düşdülər.

İndi biz yuxularda gördüyümüz kəndimizə nə qədər əl uzatsaq da, çatmır, hərdən ora baş çəksək də, həsrət odumuz, yanğımız sönmür. İstəyirik ki, yenə o sulu çayların qoynuna atılaq, dağlara, təpələrə dırmaşaq, ağaclarda yuva quraq, bağlardan meyvə dərib qoynumuza yığaq, cürbəcür uşaq oyunlarına qarışaq. Ancaq bunlar arzu, xəyal olaraq qalır, ürək dağlanır, ürək təngiyir.

Kiçik, ya böyüklüyündən, yaxın və uzaqlığından asılı olmayaraq, torpaq həsrəti, doğulduğun yurdun həsrəti insani hissdir, duyub-düşünənlərin varlığında yaşayan bir keyfiyyətdir. Ayaq tutub yeridiyin, ata-ananın məskən saldığı evə, həyətə, kəndə övlad məhəbbəti bütün böyük Vətənə məhəbbətdir, elə vətən həmin evdən, həyətdən başlanır.

Əsl insana məxsus bir psixologiya var. Uşaqlıq illəri, gəncliyində ayrı düşdüyü doğma kənd onun üçün daimi olaraq, əziz xatirələr mənbəyinə çevrilir. İllər keçsə də, yuxuda da o yerlərə qayıdır, anadan olub bir neçə il yaşadığı evi, həyəti, sümük atdığı gecələri, atılıb düşdüyü küçə və meydanları, məhəbbət bağladığı, savaşıb barışdığı məhəllə uşaqlarını, doğma məktəbi … görür, yenidən o doğmalığa qayıtmağa can atır.

Mənim yadıma gəlir ki, 1950, qismən də, 1960-cı illərə qədər bizim kəndimiz, daimi ev-eşiyimiz, əkin-biçin yerimiz, məktəbimiz və s. ola-ola, yayda Şərurdan qədim Azərbaycan dağlarına-Dərələyəz yaylaqlarına yaylağa gedərdik. Mal-qaranı yayda arandan dağlara aparmaq adət idi.

Yengicə məktəbinin qoynunda düz on il dərs almışam. Əziz və doğma məktəbim! Sən mənə əlifba, yazı-pozu öyrətmisən. Sən məndə ana dilinə, xalqa, vətənə məhəbbət hissi oyadıbsan, mənə qol-qanad veribsən, yol göstəribsən. Sən mənim ayaqyalın, köhnə cındır paltarlı uşaqlığımın, ancaq atalı-analı ilk gəncliyimin şahidisən.

Səndən başlanan həyat yolları, ömür yolları məni çox-çox uzaqlara apardı. Ancaq heç vaxt nə kəndimizi, nə onun adamlarını, nə də əziz məktəb, Səni unutmadım, yuxularıma girdin, dərs keçdiyim sinifləri, yaddaşıma silinməz izlər salan müəllimlərimi, şagird yoldaşlarımı gördüm. Müəllimlərimin, demək olar ki, hamısı dünyasını dəyişiblər. Şagird yoldaşlarım da, yəqin ki, mənim kimi qocalıblar. Nə etmək, həyatın insanın iradəsinə tabe olmayan qanunları var. Ağlaya-ağlaya dünyaya gəlirik, hərəmiz bir cür ömür sürürük, sonra da qəm-qüssə içində dünyadan köçürük. Kənd qalır, keçdiyimiz yollar, cığırlar qalır, məktəb qalır, dünyaya yeni nəsillər gəlir, həyat davam edir.

1940-cı illərin əzabları heç yadımdan çıxmır. 1941-ci il iyun ayının 22-si, gündüz saat 12 radələri idi, kəndimizdə radio var idi. Birdən radio işə düşdü və diktor bildirdi ki, son dərəcə vacib məlumatla Molotov çıxış edəcək. O vaxt V.M.Molotov SSRİ XKS-nin sədri yoldaş Stalinin birinci müavini və eyni zamanda SSRİ Xarici İşlər Komissarı idi. Molotov düz saat $12^{00}$-da radio ilə çıxış edərək bildirdi ki, Almaniya xaincəsinə, SSRİ ilə bağlanmış hücum etməmək haqqında sazişi pozaraq bu gün səhər saat 4-5 radələrində bütün sərhəd boyu ölkəmizə hücuma keçmişdir. Şəhərlərimiz bombalanmış, böyük insan itkiləri və dağıntılar var. Nazir çıxışının sonunda Sovet xalqını əmin etdi ki, bizim işimiz haqq işidir, düşmən mütləq dar-

madağın ediləcək və Qələbə bizimlə olacaq . Beləliklə, dəhşətli Böyük Vətən müharibəsi başladı.

Mənim atam Mir Əhməd Seyidov Vətənimizi müdafiə etmək üçün cəbhəyə getdi.

Yengicə kənd orta məktəbini mən 1944-cü ildə bitirdim.

1944-46-cı illər arasında C.Məmmədquluzadə adına Naxçıvan İkiillik Müəllimlər İnstitutunun tarix-filologiya fakültəsində təhsilimi davam etdirdim.

Naxçıvan ikiillik Müəllimlər İnstitutunun tarix-filologiya fakültəsində oxuyarkən müharibə dövrünün çətin günlərini yaşamışıq. Lakin sabaha inamımızı, ümidimizi itirməmişik. Həyat bizi çox sıxıb, sıxıb və sıxaraq birləşdirib; həm də elə birləşdirib ki, sonrakı 60-illik yolu (bir qədər çox) bir yerdə addımlaya bilmişik.

1945-ci ilin heç vaxt yaddaşımdan silinməyən 9 may günü bir kino lenti kimi gözlərimin qarşısından keçdi, bu sətirləri yazarkən bir daha o günlər hafizəmdə canlandı. Dərsdən sonra bizi institutun həyətindən çağırıb bir böyük auditoriyaya yığdılar. Və psixologiya müəllimimiz Murad Tutayuq ikicə söz deyə bildi: müharibə qur-tardı. Elə belə yazdığım kimi dedi, heca-heca dedi.

Gözlərimizdən sevinc yaşları tökülə-tökülə əl çaldıq, qucaqlaşdıq, öpüşdük, bir-birimizi təbrik etdik. Dördillik ölüm-dirim müharibəsi qəhrəman sovet xalqının qələbəsi ilə qurtarmışdı.

Atalarımız, böyük qardaşlarımız yavaş-yavaş cəbhələrdən qayıtdı. Biz isə oxuduq. Dövlətimizin qayğısı bizi – 16-17 yaşlı yeniyetmələri həvəsləndirir, daha yaxşı oxumağa çağırırdı. Biz isə bu qayğıya, bu köməyə cavab vermək üçün bacarığımızı

əsirgəmirdik.

1946-cı il ailəmiz üçün uğurlu oldu. Atam cəbhədən qayıtdı. Mən Müəllimlər İnstitutunu bitirib, elə həmin ildən 1946-47-ci tədris ilindən o vaxtkı Noraşen (Şərur) rayonu orta məktəbində müəllim işlədim – yalnız 1 il. Sonra Bakıya gəlib sənədlərimi Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı şöbəsinə verdim və qəbul oldum. Tələbəlik illərim (1947-1952) və aspirantlığımın ilk tədris ili (1952-1953) atam ölənə qədər bir qədər şən keçmişdir.

1944-1946-cı illər. İlk gənclik illəri, tələbəlik illərimiz yadımdan heç vaxt çıxmır. İqtisadi çətinliklər içərisində necə də xoşbəxt idik, qarnımız ac, paltarımız nimdaş, mənəviyyatımız isə yüksək və saf idi. Gələcəyə necə də böyük inam bəsləyirdik. Elə-belə düşünəndə inana bilmirəm ki, o vaxtlardan 45-46 il keçir. Axı elə bil ki, illər də o dövrün surətinə qoşulub, bir-birini ötür, bizi göz açmaca qoymur. İş və ailə qayğıları başdan aşıb, həyatımız hər gün eyni yolla dərsə gedib-gəlmək, çörək pulu qazanıb ailə dolandırmaqla məhdudlaşır. Böyük hərflə yazılan insan həyatını yaşamaq bizim nəslin bəxtinə düşməyib. Biz ancaq qayğılarla yaşamalı olmuşuq.

Biz o nəslə məxsusuq ki, əlimizdən tutub Bakıya gətirən olmayıb, 16-17 yaşlı uşaqlar özümüzü taleyin hökmünə buraxaraq ali məktəblərdə təhsil almaq üçün evdən çıxmış, bəzən hətta hara getdiyimizi, harada qalacağımızı bilməmişik. İkinci Dünya müharibəsinin dağıtdığı bu dünyanın ilk gənc sakinləri olmuşuq. İqtisadi çətinliklər girdabında boğulmaq dərəcəsinə gəlmişik. Həyatın dolanbaclarında yıxılmışıq, durmuşuq; xeyirxah insanların isti nəfəsini də hiss etmişik, əllərinin hərarətini

də duymuşuq, bununla belə, sərt sifətlərə də rast gəlmişik. Ancaq heç vaxt ruhdan düşməmişik, gələcəyə inamımızı itirməmişik, oxumaq, öyrənmək həvəsi bizə mənəvi qüvvə, yaşatmaq-yaratmaq həvəsi, eşqi veribdir. Bu həvəs, onun doğurduğu zəhmətə təhrik hissi bizi həyatın çətin yollarından keçirdi və biz, nəhayət, müstəqil həyata qədəm qoyduq.

Bizim nəslin, 1940-cı, 50-ci və 60-cı illərin cavanlarının poeziya məbədi Səməd Vurğun idi. Biz onun əsərlərini əzbərdən bilirdik. Və mən bu adlı sanlı, zahirən çox xoşbəxt şairin əsərlərinin çoxunda bir sızıltı duyurdum. Səbəblərini bilmirdim, tapmaq istəyirdim. Səməd Vurğunun 50 yaşında ölümü bizim nəsli, o sıradan məni sarsıtdı, ədəbi aləmimizdə bir boşluq əmələ gəldi. Elə bildik ki, Azərbaycan poeziyası sərkərdəsiz qaldı, şeir-sənət aləmi S.Vurğunla getdi. S.Vurğun əsərlərində açıq ağlaya bilmirdi, xısın-xısın ağlayırdı. Çünki ağlamağa ixtiyarı yox idi, gülmək tələb olunurdu: toyda da gülmək, yasda da gülmək. S.Vurğun da gülürdü, gülə-gülə də ağlayırdı. Gülürdü ki, ağlamağı bilinməsin. Bax, mən böyük Azərbaycan şairi S.Vurğunun dərdini yazmaq istəyirəm. Otuz il olar ki, bu mövzu beynimdə dolaşmaqdadır. Elə bil, şüurla yox, hisslə belə qəbul etmişəm ki, o böyük sənətkarın böyük kədəri ilə adi bir insan olan mənim həyatım arasında nə isə bir səsləşmə var. Beləliklə, 30 illik bir fasilədən sonra «Şairin dərdi» monoqrafiyasını yazdım. Faktları özümdən uydurmuram, deyə biləcəyəm, ya yox, - bunu bilmirəm. İstəyirəm ki, deyəcəklərimdə mən özüm olum, orada-burada özüm də görünüm.

Universitet bizim üçün doğma ev-ocaq olubdur. Bakıda evimiz olmayanda da, olanda da, subay da olanda, ailəli də olanda bütün varlığımızı universitetlə bağlamışıq. Bəzən isti-

rahət günləri darıxmışıq ki, həmin gün universitetə getməyəcəyik.

Həyatımızda çox şey dəyişibdir, keşməkeşli, acılı, şirinli dünyanın çox üzünü görmüşük, universitetə münasibətdə isə heç bir şey dəyişilməyibdir. 80-illik ömrün 50-ildən çoxunu öz qoynunda sənə yer verən, kimsəsiz uşaqkən əllərindən tutub səni boya-başa çatdıran universitet qədər doğma, əziz nə ola bilər? O universitet ki, səni elmin və tədrisin çətin, lakin şərəfli yollarından keçirərək, tələbəlikdən özünün dosenti, professoru, alim üçün ən şərəfli vəzifə olan kafedra müdirliyi səviyyəsinə yüksəldə, sənə elmi dərəcələr verə, ondan əziz nə ola bilər?

Qayıdım yenə tələbəlik illərimə. 1951-ci ildə universitetin son kursunda oxuduğum vaxt «Əlifba: mənəvi irsimizin bərpası» adlı ilk məqaləmi yazıb çap etdirmişəm.

Bizim nəslin və bizim kimi neçə-neçə nəsillərin xüsusi ansambl təşkil edən ali məktəb müəllimlərimiz olmuşdur. Onlar o qədər tam, o qədər bütöv idilər ki, bir-birilərini o qədər tamamlayırdılar ki, birini yada salanda o birilərini göz qabağına gətirməmək mümkün olmur. Akademik Feyzulla Qasımzadə, akad. Həmid Araslı, akad. Məmməd Cəfər, akad. Məmmədağa Şirəliyev, prof. Əzəl Dəmirçizadə, prof. Mikayıl Rəfili, prof. Əli Sultanlı, prof. Muxtar Hüseynzadə, prof. Cəfər Xəndan, prof. Hadi Mirzəzadə, prof. Mir Cəlal Paşayev və bir çoxları.

Bunlar hamısı müəyyən cəhətdən bir-birinə bənzəyirdilər, hamısı əsil müəllim idilər, xalqına, vətəninə, doğma Azərbaycana ürəklə, sidq ürəklə xidmət edən müəllimlər; təmiz, müqəddəs, ədadan uzaq, gənc nəslin yolunda şam kimi yanıb əriyən müəllimlər. Onlar həm də başqa-başqa adamlar idilər. Hər birinin öz psixologiyası, öz düşüncə tərzi, öz davranışı, mü-

raciət forması…var idi. Hər birinin özünəməxsus mühazirə oxumaq məharəti, yazı üslubu var idi. Ancaq hamısı sevimli idi; onların bütün hərəkətləri bizə xoş gəlirdi.

Sovet dövlətinin, kommunist partiyasının sərt antimilli qanunlarına baxmayaraq, onların köksündə döyünən milli Azərbaycan türk ürəyi bizə çox şey deyirdi; onların «pıçıltıları», dərslərinin milli zəminlə bağlılığı, ədəbiyyatımızın, dilimizin böyüklüyü və zənginlikləri haqqında ürək dolusu söhbətləri bizə çox şey deyirdi. Onlar bizə ancaq elm öyrətmirdilər, həm də bizə insanlıq dərsi verirdilər, xalqa, vətənə xidmət dərsi verirdilər. Onlar sanki sözləşərək bu həyatdan getdilər, ruhlar aləminə çəkildilər, yerlərini bizə verdilər. Bizə dərs deyəndə onların çoxu lap cavan idilər; 35-50 yaş arasında idilər, indi biz yaşca onlardan böyüyük. Onlardan nə saxlamışıq, tələbələrimizə nə vermişik? Deyə bilmərəm. Görəsən, biz öz müəllimlərimizin xatirəsini yad etdiyimiz kimi, bizim yetirmələrimiz də bizi yad edəcəklərmi?

Bu yazılarımı yaza-yaza düşünürəm ki, belə nəhəng alimlərdən dərs alan, elm, təhsil dalınca getməyə bilməz. Mən də təbii ki, onların təsiri ilə, bu alimlərin tövsiyələrilə özümü elmə, təhsilə həsr etdim. Bizim üçün müəllimlər məhəbbət və hörmət obyekti, ümid istinadgahı idilər. Biz tələbələrin də həyatı başqa cür idi. Sevəndə daha dərindən sevirdilər; sevdalı günlərin sevinci də, kədəri də bir cür şirin idi. İnsanlar daha vəfalı, daha səmimi, daha ciddi idilər.

1952-ci ilin payızında (biz həmin ilin iyununda universiteti bitirmişdik) ADU-da dilçilik üzrə bir aspirant yeri elan olunmuşdu, daxil olmaq istəyənlər var idi. Muxtar Hüseynzadə məni məsləhət bildi, mən Muxtar müəllimin aspirantı oldum.

Mənim sonrakı elmi və filoloji irəliləyişim də onun köməkliyilə davam etdi: müəllim, baş müəllim, dosent, kafedra müdiri.

Beləliklə, uzaq kənddən gələn bir gəncin tələbəlikdən başlayan və professorluğa qədər davam edən cığır yolu bu böyük şəxsin – professor Muxtar Hüseynzadənin fəaliyyəti ilə bağlı olubdur.

Aspirant vaxtı üç yoldaş, üc dost – Məhərrəm Bayramov (sonralar Ermənistan SSR-də böyük vəzifələr tutmuş, nüfuzlu bir şəxs olmuşdur, neçə il əvvəl müəmmalı halda tapança gülləsi ilə həlak oldu), Vəli Məmmədov və mən indiki Azərbaycan prospektində, keçmiş Lenin muzeyinin yaxınlığında bir evdə yaşayırdıq. Mən namizədlik dissertasiyası üzərində həvəslə işləyirdim. Bir qanunauyğunluğu müəyyənləşdirəndə, bir şey «kəşf» edəndə sevincimi gizlədə bilmir, Vəliyə müraciət edir, bəzən hətta onu yuxudan oyadıb deyirdim: «gör nə tapmışam». Mənim namizədlik müdafiəmdə Vəli çıxış edib bunları dedi və əlavə etdi: «Mən elə bilirdim ki, dilçilik faktların sadalanması üzərində olan quru bir elmdir. Sən demə, bu elmin özünəməxsus poeziyası var imiş».

1947-ci ildən ünsiyyət bağladığım, çətin günlərdə yavan çörəyi bölüşdüyüm Vəli Məmmədov əbədiyyətə qovuşanda nələr çəkdiyimi ifadə edə bilmirəm.

Aspiranturada oxuduğum zaman 1953-cü ildə atam 53 yaşında dünyanı tərk etdi. 30-cu illərin axırlarında, 40-cı illərin sonu və nəhayət, 53-cü ildə kiçik-kiçik üç qardaşım – Yaqub, Məhəmməd, Abdulla və sonuncu ən kiçiyimiz Məhbubə həyatdan getdilər. Yadımdadır, atam darvazadan içəri girib qardaşımın öldüyünü biləndə onu titrətmə tutdu, yeriyə bilməyib, qapının ağzında yerə çökdü.

Tələbəlik illərim (1947-1952) və aspirantlığımın ilk tədris ili (1952-1953) atam ölənə qədər bir qədər şən keçmişdir. Elə bil ki, dərddən-qəmdən azad olmuşdum. Atam, anam sağ olanda bir qədər özümü arxalı hiss edirdim. Ailəmiz çox kasıb olmasına baxmayaraq, atam mənim aspiranturada oxumağımla qürur duyurdu. Elə bil ürəyinə dammışdı ki, mən oxuyacağam, zəhmət çəkib, zəhmətimin bəhrəsini görəcəyəm. Bu gün də ürəyimi ağrıdan bir şey var ki, atam mənim qazancımı görmədi, oğul qazancı görmək, oğul hədiyyələri almaq hər adama nəsib olmur. Atam dünyadan nakam köçdü. Anam Zeynəb rəhmətlik 1989-cu ilə qədər yaşasa da, bir ağ gün görmədi. Tələbəlik, ilk aspirantlıq həyatımı sona çatdırıb özümə gəlmək istəyirdim ki, həyat məni elə məngənəyə saldı ki, indi də məni sıxır.

Bunlar, çoxlu başqa əhvalatlar məni sıxıb, əzib, ürəyimdə düyün bağlayıb, lakin təbiətimdəki indi artıq tükənməkdə olan şənlik ruhumu tam yox edə bilməyib, indi sönməkdə olan həyat eşqimi öldürə, söndürə bilməyib. Mən yaşamışam.

Doğmalarım Yengicə kəndinin məzarlığında – bu torpaqda yatırlar, tale məni hara salacaq, onu Allah bilir.

Elə düşünməyin ki, böyük şəhərlər, ad-san insanı xoşbəxt edir. Öz yuvasından uzaq düşən, gənclikdə bu ağrının acısını duymayan insanlar zaman gəlir ki, bu acını duyur, kəndin təbii həyatının, o saf insanların həsrəti ilə yaşamağa başlayırlar.

1956-cı ildə «Müasir Azərbaycan dilində feili bağlama tərkibləri» mövzusunda namizədlik dissertasiyamı Muxtar müəllimin rəhbərliyi ilə müdafiə etdim və elə həmin il də universitetin filologiya fakültəsində «Ümumi dilçilik» kafedrasına müəllim kimi işə qəbul olundum. Təxminən, bir ildən sonra mənim elmi rəhbərim və kafedra müdirim məni rektorun – aka-

demik Yusif Məmmədəliyevin qəbuluna apardı və xahiş etdi ki, məni baş müəllim keçirsin. Yusif müəllim bircə söz soruşdu: layiqdirmi? Muxtar müəllim də bircə sözlə cavab verdi:- bəli! Rektor əlavə bir söz demədən, o zaman tədris işləri üzrə prorektor işləyən (sonralar ADU-nun rektoru olmuş) Mehdi Əliyevi yanına çağırdı və ona tapşırıq verdi. Mən baş müəllim keçdim.

Akademik Yusif Məmmədəliyevin Azərbaycan ali təhsil sistemindəki fəaliyyəti, müəllimliyi də Azərbaycan ictimaiyyətində dərin izlər buraxmışdır. Tələbələrə, gənc aspirant və müəllimlərə qayğı, böyük mədəniyyət və ziyalılıq bu adamın varlığında öz əksini tapmışdır.

1962-ci ildə dosent adını aldım və üç il «Ümumi dilçilik» kafedrasında dosent kimi çalışdım. 1965-ci ildə «Azərbaycan dili və metodika» kafedrasını yaratdım və ömrümün sonlarına kimi həmin kafedrada işlədim.

1967-ci ildən elmlər doktoru, 1968-ci ildən isə professor adını daşıyıram.

Mən ədəbiyyatşünaslığa və dilçiliyə vahid filoloji elm sahəsi kimi baxmışam. Əlimə qələm alan gündən belə düşünmüşəm və yazılarımda filologiyanın süni şəkildə fərqləndirilən bu iki sahəsinə müvazi olaraq müraciət etmişəm, onların kəsişdiyi nöqtələri görmüşəm, ayrı-ayrılıqda hər iki sahədə tədqiqatlar aparmışam. Elmi axtarışlarımın xeyli hissəsi «Yazıçı və dil» probleminə aiddir. Bu problem çərçivəsində, yəni yazıçıların dilə münasibətlərindən, yazıçıların dil haqqında fikirlərindən bəhs edən zaman onların bədii yaradıcılığına, ədəbi prosesdəki yerinə nəzər salmamaq mümkün deyil. Mən də belə məcburiyyət qarşısında qalmalı olmuşam və «Yazıcı və dil»

problemi fonunda sırf ədəbi qeydlər də etmişəm.

Elmdəki uğurlarım, ailəm, uşaqlarım, öz şəxsi evim var idi. Elə bil ki, dərddən, qəmdən azad olmuşdum. Sonralar müstəqil həyata atılmaq anlarından, əlim çörəyə çatan andan daha böyük mənəvi əzablarım başladı və heç vaxt məni tərk etmədi. İqtisadi çətinliklər yox oldu, həyatın ictimai pillələri ilə yuxarıya doğru addımladım. Lakin bunlar mənə sevinc gətirmədi. Mən öz şəxsimdə insanın necə dözümlü, möhkəm varlıq olmasına bir daha inandım. Neçə on illər ərzində bir-iki dəfə ürəkdən gülə bilmişəm, ancaq ürəkdən ağladığım vaxtlar daha çox olubdur.

*Məni kam almağa qoymadı zaman,*
*Gücü çatan qədər eylədi divan.*
*Deyəsən əhd etmiş, dolandıqca hey,*
*Məni də özüylə hərlətsin dövran.*

**(Məhsəti)**

Görünür, tale yazısı həqiqətdir, taledən qaçmaq mümkün deyil. Həm də çox vaxt hər bir adamın həyatı ümumi bir xətt üzərində davam edir. Uşaqlıq, ilk gənclik illərinin həvəsi, çal-çağır çağları dərdlərin üstünü örtür, lakin onlar hiss edilmədən ürəyə yığılıb qalır. Çox vaxt da insanın vüqarı onların aşkarlanmasına imkan vermir.

Bizim nəslin taleyinə Azərbaycan elminin – Azərbaycan filologiyasının, tarixinin, fəlsəfəsinin korifeyləri, bir sıra fənlərin formalaşmasında bilavasitə xidmətləri olan müəllimlər düşübdür. Zamanın zəhərli havası dəyməyən, bütün varlıqları ilə pedaqoji işə bağlı olan müəllimlər. Onlar bizi yetiriblər,

sonra da bir neçə illər onlarla bərabər işləmişik. Əgər bu gün biz universitet Adamı sayılırıqsa, universitetə layiq hesab olunuruqsa, müəllim-tələbə münasibətlərinin müqəddəsliyini saxlaya biliriksə, öz müəllimlərimizə borcluyuq. İndi universitetdə çalışan gənc və orta yaşlı müəllimlər də bizim yetirmələrimizdir.

Şair həssaslığı, şair duyğusu, aliliyi, yüksəkliyi, saflığı və müqəddəsliyi ilə səciyyələnir. Duyub düşünmək qabiliyyəti ümumən insanlara xasdır; şair olmayıb şair qədər həssas olan «sıravi» adamlar da az deyil. Şeir yazmayıb mənən, daxilən şair olanların sayı şeir yazanlardan, bəlkə də, çoxdur. «Klassik Azərbaycan şairləri söz haqqında», «Yazıçı və dil», «Sözün şöhrəti», «Sözün qüdrəti» kitablarının hazırlandığı bir neçə ildə biz daim şeir-sənət aləmində olmuş, özümüzü şairlər arasında hiss etmişik; Xaqaninin, Nizaminin, Nəsiminin, Füzulinin, Saibin, Vaqifin, Zakirin, Sabirin, Cavidin, Vurğunun, Rzanın, Bəxtiyarın söz rübabını dinləmişik.

Əsərlərini sətir-sətir nəzərdən keçirdiyimiz Azərbaycan şairləri yaradıcılıq yollarında nə qədər sevinib, ya kədərlənibsə, nə qədər xoş anlar keçirib, ya həyəcanlanıbsa, bu dövrdə həmin hisslər bizim üçün də doğma olub, beynimizə, qəlbimizə təsir göstəribdir. Bizi riqqətə gətirən anlar da çox olubdur. Elə anlar da olub ki, sənətin izaha gəlməyən böyük qüdrəti, şair kəşfi qarşısında donub qalmış, ürək döyüntüləri ilə gələn həyəcanlarımızın ötməsini gözləmişik və həmişə bir sual qarşısında qalmışıq ki, şairlər bütün yaradıcılıq boyu onları müşaiyət edən bu təsir və həyəcanlara necə dözürlər?

Qəribə dövrdə yaşayırıq. Əsrləri yola salıb, əsrləri qarşılamaq hər adama, hər nəslə qismət olmaz. Yeni erada cəmi

iyirmi nəsil əsrlərin qovuşduğunu görüb, əsrin birində çox, o birində az, və ya hər iki əsrdə təxminən, eyni qədər ömür sürüblər. Bugünkü insan nəslini nəzərə almasaq, yeni eramızın insanlarının cəmi bir nəsli minillik keçidini görübdür; birinci minillikdən ikinci minilliyə. Bir də birinci nəsildir ki, ikinci minillikdən adlayaraq, üçüncü minilliyə qədəm qoyur. Mən və mənim yaşımda olanlar 60, 70 il XX əsrdə yaşayıblar. Biz XX əsrin adamlarıyıq. XX əsr həm də lokal və regional müharibələr əsridir. Faciələr əsridir, dözümlər və dözümsüzlüklər əsridir.

Bu əsrdə başımıza müsibətlər gəldi; qatı düşmən torpaqlarımızın beşdə birini zəbt etdi, xalqımızın yeddidə birini yurdundan-yuvasından didərgin saldı. Torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qalxan millətimizin oğullarını qanına qəltan elədilər. Tarix, Azərbaycan tarixi buna bənzər hadisələrlə çox üzləşibdir. Qırılmışıq. Yenə göyərmişik.

Bu sətirləri yaza-yaza özümün də təsadüf nəticəsində gülləyə tuş olmadığım o gecəni, onun səhərini yadıma salır, şəhər əhlinin güllə qabağında yaralılara yardım etdiklərini, böyüklər öz yerində, 13-14 yaşlı körpələrin xəstəxanalara tökülüb can verdiklərini gözlərimin qabağına gətirir, türk ürəkli türk övladlarının cəsarəti və insanlığı qarşısında baş əyirəm. 90-cı il xalqımız üçün tarixi bir imtahan oldu. O, bu imtahandan alnıaçıq çıxdı, dostunu, düşmənini bir daha tanıdı, damlardan tuşlanmış avtomat güllələrindən əsla çəkinmədən öz şəhidlərini son mənzilə yola saldı. Bu mərdlik, bu birlik, bu əzəmət imperiya qüvvələrini lərzəyə saldı. Onlar öz dərslərini götürdülər. Azərbaycan xalqı mənəvi qələbə çaldı və deyərdim ki, indiki müstəqilliyin əsaslı təməli elə o gündən qoyuldu.

O qarlı, o soyuq gündə bütün müəllimlər: dərsi olanlar da,

olmayanlar da gəlmişdi. Bəziləri yolda gülləyə tuş olmuşdular. Jurnalistika kafedrasının müəllimi Əliş Nəbili həmin gün güllə yarasından xəstəxanaya düşdü.

Fakültədə həmin gün ümumi partiya yığıncağı oldu. Partiyalılar neçə illər boyu gəzdirdikləri biletləri təhvil verib Sov.İKP üzvü olmaqdan imtina etdilər.

Biz, mən və yaşıdlarım XX əsrin övladlarıyıq. XX əsr bütün çətinlikləri ilə də bizim üçün əziz və doğmadır. XX əsr məktəblər açdı, bizi oxutdu. Əlimizə qələm verdi. Azərbaycan xalqına ilk dəfə müstəqil həyat qismət elədi, biri keçici, müvəqqəti, biri daimi. 1918-20-ci illər xalqımıza azadlığı qazandırdı, 1990-cı illərdə isə bu azadlığın həmişəlik sahibi etdi.

XX əsrdə Azərbaycan xalqı universitetli xalq oldu. İstedadlı xalqımızın sənət və elm korifeyləri meydana gəldi. Bu əsr M.Cəlil, Sabir, Hadi, Cavid, Vurğun kimi yazıcılar, Üzeyir bəy, Bülbül, F.Əmirov, Q.Qarayev, Niyazi kimi sənət nəhəngləri, Lütfi Zadə, Y.Məmmədəliyev, M.Cəfər kimi alimlər yetişdirdi.

Mən uzun həyat yolu keçmiş, dünya görmüş bir adamam. Zahirən xoşbəxt, əslində isə əzablı yollar keçən, kövrəkləşən bir qocayam, dərdə, kədərə meylli bir qoca. Ancaq duymaq və hiss etmək; sevinmək və kədərlənmək; gülmək və ağlamaq qabiliyyətimi itirməmişəm. Muğamata, insanı düşündürən, fəlsəfi mahnılara, kədərli mahnılara daha çox qulaq asıram.

Həyatda insan üçün mütləq mənada xoşbəxtlik yoxdur. Allahın yaratdığı ən ali canlı olan insan cəmi yetmiş, səksən il ömür sürürsə, onun da hələ şüursuz olan 10-15 illik uşaqlıq çağlarını, heç bir şeyə yaramayan 15-20 illik qocalığı nəzərə almasan, 30-35, ən çoxu 40 il əsil fəal həyat dövrü qalır. Belə

halda insan necə xoşbəxt ola bilər. Ancaq bu adi həyatda əlavə çətinliklər olanda əzablar başdan aşır. Ürəksiz, cansız adamlar üçün dünyaya elə-belə yaşamağa gələnlər üçün həyatın mənasını, başqa canlılar kimi, ancaq yeyib-içməkdə görənlər üçün fərqi yoxdur. Söhbət əsil insanlardan gedir, təkcə ağılla hərəkət edən insanlardan deyil, həm də duya bilən, başqalarının kədər və sevincinə şərik ola bilən insanlardan, əsil sənət qarşısında heyrətlənə bilən, həyəcanlana bilən insanlardan gedir.

Bir çox həyat problemlərində, insanlara münasibətlərdə ağlımla qəlbim arasında daima mübarizə gedibdir. Bir sıra hallarda onlar barışıblar, çox vaxt isə ürəyim, qəlbim, ağlıma qalib gəlib və bundan mənəvi zövq alsam da, zərər çəkdiyim hallar da az olmayıbdır. Lakin peşiman deyiləm. Razıyam ki, duyub-düşünmək qabiliyyətimi saxlaya bilmişəm, həyat hadisələrinə fəal hissi münasibətlərimi itirməmişəm, insanların taleyinə biganə deyiləm, gülməyi də, ağlamağı da bacarıram.

Təvazökarlıqdan uzaq olsa da, deməyə məcbur oluram ki, mən özümü, öz adımı hər bir tituldan uca tuturam. Ən yüksək elmi dərəcəm və elmi adım var, Dövlət Mükafatı laureatıyam. Əməkdar Elm Xadimiyəm. Alim üçün şərəfli olan kafedra müdiriyəm.

Bakı Dövlət Universitetində 50 ilə yaxındır ki, özüm təşkil etdiyim Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasına rəhbərlik edirəm. Bununla belə, məqalələrimin və titul tələb olunmayan yazılarımın altında Yusif Seyidov yazmağı üstün tuturam. Bəzən mənsiz bu adın qarşısında əlavələr edirlər.

İnsan yaşlaşdıqca kövrək olur, xəyallar aləmi onu çox-çox uzaqlara çəkib aparır.

Ən ağır sarsıntılar içində də üzümdə təbəssüm gəzdirmişəm ki, başqalarına, ətrafdakılara xoş əhval-ruhiyyə bağışlayım, ürəyimdən isə daima Daş asılıbdır. (Taleyin bəstələdiyi müsiqini hələ notlara salan olmayıb). Yaxşılıq etdiyim adamlardan pislik görməyəndə sevinmişəm.

Psixoloji sarsıntılar zaman-zaman zehnimin kəsərini, yaddaşımı zəiflədiblər. İşləyə bilmədiyim vaxtlar da çox olubdur. Ancaq oxumaq, yazmaq həvəsindən düşməmişəm, nə isə bir iş görmək, cəmiyyətə, ya kiməsə bir xeyir vermək arzusu məni heç vaxt tərk etməyib və bunlar məni həyata səsləyibdir. Bir də ürəyim mənə həyan olubdur.

Allah məndən çox şeyi əsirgəyibdir. Hər mənzilə daşlı-kəsəkli yollarla getmişəm. Ancaq bunların əvəzində Allah-təala mənə sevməyi də, nifrət etməyi də bacaran bir ürək veribdir. Hər cür hiylədən, məkrdən uzaq bir ürək. İnsanlara xidmət eşqi ilə döyünən bir ürək. Nadan sözünü vecinə almayan, dostun adi laqeydliyindən sınan bir ürək. Hər kəsə inanan, onun üçün də tez-tez aldanan bir ürək.

İçində ağlayıb, üzdə gülən insanlar əsil insanlardır. Dərd bələlərini daxilən yeyir, dağıdır, çürüdür, ancaq onlar başqalarına dərdsiz-ələmsiz görünür. Belə adamların həyatında hərdən közərən ümid qığılcımları da əlçatmaz olur və yeni əzablar mənbəyinə çevrilir. Beləəri çox kövrək olurlar. Adi etinasızlıq onlara toxunur, büllur kimi təmiz, saf ürəklərini sındırır, ümidsizliyə qapılırlar.

Ey insanlar! Belələrini anlamağa, başa düşməyə çalışın. Əgər başqasının qəlbində kiçik də olsa, bir işıq yandırmaq imkanınız varsa, onu əsirgəməyin. Başqalarının arzusuna adi bir xoş cavab sizin özünüzün xoşbəxtliyinə əsas ola bilər.

Azərbaycanda demokratik qüvvələrin müdafiəsində, bu günkü həyatımızın başlanmasında, Heydər Əliyevin hüquqlarının müdafiəsində çoxlarının xidmətləri olmuşdur, lakin heç kəsin xidmətini «Əlincə» xeyriyyə cəmiyyətinin, onun fəal üzvlərinin və «Səs» qəzetinin xidmətləri ilə müqayisə etmək olmaz. Cəmiyyətin fəal üzvlərindən biri kimi, mən də bu hadisələrdə iştirak edirdim, həm şəxsən, həm də yazılarımla, məqalələrimlə iştirak edirdim. O zamanlar Naxçıvanda və Bakıda hələ hakimiyyətə gəlməyən Heydər Əliyevlə görüşlərimi, o zamanlar ona göndərdiyim teleqramları xatırlayır, bir yüngüllük hiss edirəm.

1970-ci illərdə ömür təqvimimə daxil ediləsi hadisələr də oldu. Həmin il «Əməkdə fərqlənməyə görə» medalı ilə təltif edildim. 1974-cü ildə «Müasir Azərbaycan dili. Sintaksis (həmmüəllif)» kitabına görə Dövlət Mükafatına layiq görüldüm.

1980-90-cı illərdə mənim elmi və ictimai həyatımda ömrə yazılası illər az olmadı.

Həmin illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası filologiya bölməsinin sədri, Bakı Dövlət Universiteti Metodşurasının sədri, Ali Attestasiya Komissiyasının humanitar elmlər üzrə Ekspert Şurasının sədr müavini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Dövlət Dil Komissiyasının üzvü vəzifələrinə təsdiq olundum.

2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə «Əməkdar Elm Xadimi» fəxri adına layiq görüldüm. «Şöhrət» ordeni ilə təltif olundum.

Ömür kitabımın səhifələrini vərəqlədikcə, həyatım kino lenti kimi gözlərimin qarşısından keçdi: ailəm, ata-anam, məktəbim, universitetimiz, dostlarım, əziz müəllimlərim. Bu illər

ərzində itirdiklərim çox olub.

Mənim də ömür günəşim aşıb qüruba doğru gedir. Ömrümün sonları ərəfəsində əsərlərimin on birinci cildini çapa hazırlaya bildim. Onun çapını görəcəyəm, ya yox, bilmirəm. Ancaq bu hazırlığın özü bir qədər toxtaxlıq gətirir. Bir də ki, yazılan, nəşr edilən əsərlər kitabxanalarda qalır, evlərdə qalır, insanlara xidmət edir, bunlar da müəllifinin adını yaşadır.

Dünyanın iki qapısı var. Birinci qapı işıqlı dünyaya açılan qapıdır, gəncliyin qapısıdır, gəncliyin üzünə açılan qapıdır. Gənclik bu qapıdan içəri girir, qarşısına üfüqlərə uzanan yollar görünür, inamla bu yollarda addımlayır. Bu yollar, ümumən insanlığa aiddir. Bu yolar ömür yollarıdır. Hərəni bir tərəfə aparır. Uzun-gödəkliyindən asılı olmayaraq, hardasa sona yetir. Bu yolların yolçuları bir anlığa dönüb geri baxır, ömür yollarına nəzər salır, keçdiyi həyat tarixçəsini vərəqləyir, tələbəlik illərini, tələbə yoldaşlarını yada salır. Əlini uzadır, çatmır, haraylayır, səsi çatmır. O dərdsiz, ələmsiz günlər artıq xəyal olubdur. Ürək riqqətə gəlir, gözlər dolur. Heç nə edə bilmirsən.

Bu yol, ömrün zirvə yolu çox uzundur, həm də hamar deyil, daşlı-kəsəklidir, çətindir. Sonu eyni olsa da, gedişləri eyni deyil. Biz yaşlı müəllimlər başqa bir qapının astanasında dayanmışıq. Bu qapı sonu görünməyən, bəlkə də sonu olmayan qaranlıq bir dünyaya açılır. Burada sənin üçün heç nə, heç şey yoxdur. Sən özün də yoxsan. Əgər xoş bir xatirə qoyub getmisənsə, o dünyada yox, bu dünyada – işıqlı dünyada xatırlanacaqsan, tələbələrin qəlbində yaşayacaqsan.

Bu bədbin notlar həyatın sərt həqiqətindən gəlsə də, həyatın gözəllikləri daha çoxdur. Allahın xəlq etdikləri arasında ən şərəflisi olan insan canlı aləmin, ümumən xilqətin ən dö-

zümlüsü olmaqla, ömür yollarında inamla irәlilәyir, yaradır vә yaşadır.

*Юмцр дедикляри лощьун чай кими,*
*Кцкряйиб кюпцрцр, щяр заман эедир,*
*Она бел баьлама о гядяр дя сян,*
*Бязян ачылмамыш эцл, баьdан эедир.*

*Ей кюнцл, фцрсяти бадя верmя, эял,*
*Эцн кечир, ай ютцр, ил йаман эедир.*
*Йарат, сян кючяндя елляр сюйлясин:*
*Дцнйадан ня эюзял бир инсан эедир.*

***Mәmmәd Rahim***

**Yusif Seyidov**
**1999, 2003.**

# PROFESSOR YUSİF SEYİDOVUN BİBLİOQRAFİYASI

# ÇAP OLUNMUŞ ƏSƏRLƏRİ

## KİTABLARI

### Dərsliklər

**1958**

1. Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər. Dərs vəsaiti. Bakı, ADU, 1958, 75 səh.

**1959**

2. Müasir Azərbaycan dili (I kitab) Dərs vəsaiti, Azərtədrisnəşr, Bakı, 1959 (M.Hüseynzadə, Ə.Abdullayev, A.Həsənovla birlikdə), 454 səh.

**1962**

3. Müasir Azərbaycan dili. Sintaksis (II kitab) (M.Hüseynzadə, Ə.Abdullayev, A.Axundovla birlikdə), Azərtədrisnəşr, 1962, 17,5 ç.v.

**1963**

4. Təsirlik hallı feili birləşmələr. Dərs vəsaiti, Bakı, ADU, 1963, 46 səh.

**1964**

5. Dil sistemində söz birləşmələrinin yeri. Dərs vəsaiti, ADU, 1964, 61 səh.

**1972**

6. Müasir Azərbaycan dili. Sintaksis. Ali məktəblər üçün dərslik, IV hissə (Ə.Abdullayev, A.Həsənovla birlikdə). Bakı, Maarif, 1972, 476 səh.
7. Azərbaycan dili. Qrammatika və müntəxəbat (Ali məktəblərin rus bölmələri üçün Azərbaycan dilindən dərs vəsaiti). Bakı, ADU, 1972, 198 səh.

**1978**

8. Azərbaycan dili (Ali məktəblərin rus bölmələri üçün dərslik). Bakı, Maarif, 1978, 288 səh.

**1985**

9. Müasur Azərbaycan dili. Sintaksis. Dərslik. Bakı, Maarif, 1985 (həmmüəllif), 485 səh.

**1987**

10. Azərbaycan dili. Dərslik. Maarif, 1987, 270 səh.

**1991**

11. Azərbaycan dilini öyrənirik (S.Rzayeva, R.Şərbətova ilə birlikdə). Dərs vəsaiti, Bakı, Mədəniyyət Nazirliyi, 1991.

**1994**

12. Türk dili 7-8-ci siniflər üçün dərslik, Öyrətmən. (Q.Kazımovla birlikdə). 1994, 291 səh.

**1995**

13. Azərbaycan dili. 7-8-ci siniflər üçün dərslik (Q.Kazımovla birlikdə), Təhsil, 1995, 20 ç.v.

**1998**

14. Azərbaycan dili. 7-8-ci siniflər üçün dərslik (Q.Kazımovla birlikdə). Bakı, Təhsil, 1998, 20 ç.v.
15. Azərbaycan dili (Ali məktəblərin rus bölmələri üçün). Dərslik 3-cü nəşr, Bakı, BDU, 1998, 308 səh.

**2000**

16. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Dərs vəsaiti. Nəzəri kurs. Bakı, Bakı Universiteti, 2000, 375 səh.
17. Azərbaycan ədəbi dilində əlavə sözlər və əlavə cümlələr. Bakı, Bakı Universiteti nəşriyyatı, 2000, 169 səh.

**2001**

18. Azərbaycan dili (Ali məktəblərin rus bölmələri üçün dərslik). Təkmilləşdirilmiş 4-cü nəşri, Bakı, BDU, 2001, 401 səh.

**2002**

19. Azərbaycan dilinin qrammatikası. Morfologiya (Nəzəri kurs). Dərs vəsaiti. Bakı, BDU, 2002, 371 səh.
20. Azərbaycan dili (Ali məktəblərin rus bölmələri üçün dərslik). Bakı, BDU, 2002, 267 səh.
21. Azərbaycan dili. 7-8-ci siniflər üçün dərslik (Q.Kazımovla birlikdə). Bakı, Təhsil, 2002, 20 ç.v.

**2004**

22. Azərbaycan və rus dillərinin müqayisəli qrammatikası. I hissə. Fonetika (M.Abdullayeva ilə birlikdə), Dərslik. Bakı, Bakı Universiteti, 2004, 43 səh.

**2005**

23. Azərbaycan dili. 6-7-ci siniflər üçün dərslik (F.Şahbazlı ilə birlikdə), Bakı, Çaşıoğlu, 2005, 256 səh.
24. Azərbaycan dili. Təlimi rus dilində olan məktəblərin 8-ci sinifləri üçün dərslik (S.Novruzova ilə birlikdə), Bakı, YNE nəşriyyatı, 2005, 128 səh.
25. Azərbaycan dili. Dərslik. Təkmilləşdirilmiş 7-ci nəşri, Bakı, BDU, 2005, 378 səh.
26. Azərbaycan dili. 8-ci siniflər üçün dərslik (T.Əsədova ilə birlikdə). Bakı, Çaşıoğlu, 2005, 160 səh.

**2006**

27. Seçilmiş əsərləri. 15 cilddə, I cild, Bakı, Bakı Universiteti, 2006, 628 səh.
28. Azərbaycan dilinin qrammatikası. Dərslik. Morfologiya, 3-cü nəşri, Bakı, BDU, 2006, 371 səh.

**2007**

29. Müasir Azərbaycan dili. 4-cü hissə. Sintaksis (Ə.Abdullayev, A. Həsənovla birlikdə). Dərslik. Bakı, 2007, 562 səh.
30. Əsərləri, 15 cilddə, II cild. Bakı, BDU, 2007, 520 səh.
31. Əsərləri, 15 cilddə, III cild. Bakı, BDU, 2007, 566 səh.
32. Əsərləri, 15 cilddə, IV cild. Bakı, BDU, 2007, 573 səh.
33. Əsərləri, 15 cilddə, VI cild. Bakı, BDU, 2007, 569 səh.
34. Əsərləri 15 cilddə, VIII cild, Bakı, BDU, 2007, 556 səh.

**2008**

35. Azərbaycan dilçiliyində qrammatika problemləri (S.Mərdanova ilə birlikdə). Bakı, Bakı Universiteti, 2008, 312 səh.
36. Azərbaycan dili. Dərslik. Təkmilləşdirilmiş 8-ci nəşri, Bakı, BDU, 2008, 356 səh.
37. Əsərləri 15 cilddə, VII cild. Bakı, BDU, 2008, 678 səh.

**2009**

38. Əsərləri 15 cilddə, V cild, Bakı, Bakı Universiteti, 2009, 536 səh.
39. Azərbaycan dili (Ali məktəblərin rus bölmələrinin tələbələri üçün dərslik). Bakı, Bakı Universiteti, 2009, 360 səh.
40. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis. Ali məktəblər üçün dərslik (Ə.Abdullayev, N.Cəfərov, A.Həsənovla birlikdə). Yenidən işlənmiş və təkmilləşdirilmiş üçüncü nəşri. Bakı, 2009, 320 s.

**2010**

41. Azərbaycan dili (Ali məktəblərin rus bölmələrinin tələbələri üçün dərslik). Bakı, Bakı Universiteti, 2010, 360 səh.
42. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə dil, məktəb və tədris problemləri (S.Abbosova ilə birlikdə). Dərslik. Bakı, Bakı Universiteti, 2010, 188 səh.
43. Əsərləri 15 cilddə. IX cild. Bakı, BDU, 2010, 672 səh.

**2011**

44. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Dərs vəsaiti. 4-cü nəşri, Bakı, Bakı Universiteti, 2011, 368 səh.
45. Əsərləri, 15 cilddə, X cild. Bakı, Çaşıoğlu, 2011, 552 səh.

**2013**

46. Əsərləri, 15 cilddə, XI cild, Bakı, Bakı Universiteti, 2013, 532 səh.
47. Azərbaycan dili (Ali məktəblərin rus bölmələrinin tələbələri üçün dərslik). Bakı, Bakı Universiteti, 2013, 358 səh.

# Monoqrafiyalar

**1966**

1. Azərbaycan ədəbi dilində söz birləşmələri. Monoqrafiya. Bakı, Maarif, 1966, 340 səh.

**1977**

2. Klassik Azərbaycan şairləri söz haqqında. Monoqrafiya. Bakı, Gənclik, 1977, 112 səh.

**1979**

3. Yazıçı və dil. XIX və XX əsrlər. Monoqrafiya. Bakı, Yazıçı, 1979, 288 səh.

**1981**

4. Sözün şöhrəti. Monoqrafiya. Bakı, Yazıçı, 1981, 267 səh.

**1983**

5. Sözün qüdrəti. Monoqrafiya. Bakı, Yazıçı, 1983, 282 səh.

**1985**

6. Şairin fikir dünyası. Monoqrafiya. Bakı, Bilik, 1985, 75 səh.

**1986**

7. Ədəbi tənqid və bədii dil. Monoqrafiya. Bakı, Yazıçı, 1986, 240 səh.

**1989**

8. Sözün hikməti. Monoqrafiya. Bakı, Yazıçı, 1989, 488 səh.

**1992**

9. Azərbaycan dilində söz birləşmələri. Əlavələr edilmiş II nəşri. Monoqrafiya. Bakı, Bakı Universiteti, 1992, 408 səh.

**1996**

10. Nəsiminin dili. Monoqrafiya. Bakı, Azərbaycan, 1996, 272 səh.
11. Şairin dərdi. Elmi-kütləvi monoqrafiya, Bakı, Azərbaycan, 1996, 183 səh.

**2001**

12. Demokratiyanın uzun yolu. I kitab, Monoqrafiya. Bakı, Bakı Universiteti, 2001, 314 səh.
13. Demokratiyanın uzun yolu. II kitab, Monoqrafiya. Bakı, Bakı Universiteti, 2001, 314 səh.

**2003**

14. Ey ulu dünya! Monoqrafiya. Bakı, Bakı Universiteti, 2003, 813 səh.

**2008**

15. Mir Cəlal-100. Ədəbi-bədii dil problemləri. Monoqrafiya. Bakı, Bakı Universiteti, 2008, 213 səh.

**2009**

16. Akademik İsa Həbibbəyli. Monoqrafiya. Bakı, Elm və təhsil, 2009, 186 səh.

**2012**

17. Xalq yazıçısı Elçin. Monoqrafiya. Bakı, Bakı Universiteti, 2012, 324 səh.

## Məqalələr

**1951**

1. Əlifba: Mənəvi irsimizin bərpası. // Vətən səsi. – 1951, 12 yanvar.

**1952**

2. "Pioner" jurnalının 1951-ci il nömrələri haqqında // Azərbaycan müəllimi. – 1952, 3 aprel, №13.
3. "Azərbaycan dilinin qrammatikası" kitabı haqqında // Azərbaycan müəllimi. – 1952, 20 oktyabr, №37.

**1954**

4. Məsləhət, yoxsa dolaşdırma. // Azərbaycan müəllimi. – 1954, 22 aprel, №16.
5. Y.Əhmədovun "Cümləni necə təhlil etməli" məqaləsi haqqında rəy. // Azərbaycan pioneri. – 1954, 6 aprel.

**1955**

6. Azərbaycan dilində xitab // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. – 1955, №2, s.97-110.
7. Kafedramız haqqında // Lenin tərbiyəsi uğrunda. – 1955, 12 yanvar, №1.
8. Dilin daxili inkişaf qanunları haqqında // Lenin tərbiyəsi uğrunda, 1955, 26 may, №12.
9. Dilin daxili inkişaf qanunları haqqında (ardı), Lenin tərbiyəsi uğrunda. – 1955, 7 iyun, №13.
10. Dilin daxili inkişaf qanunları haqqında (ardı) // Lenin tərbiyəsi uğrunda. – 1955, 15 iyun, №14.

**1956**

11. Azərbaycan dilində sintaktik əlaqələr // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. – 1956, №1, s.37-49.
12. Feli bağlama tərkibləri söz birləşmələrinin bir növü kimi // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. – 1956, №11, s.67-77.
13. "Müasir Azərbaycan dilinin leksikası" kitabı haqqında // Azərbaycan müəllimi. – 1956, №29, 19 iyul.

**1957**

14. Feli tərkiblər və onların budaq cümlələrlə əlaqəsi haqqında // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. – 1957, №12, s.145-156.
15. Bir neçə söz // F.R.Zeynalov. "Türk dillərində nitq hissələrinin ənənəvi bölgüsü". Bakı, ADU, 1957, s. 3-4.
16. Qrammatik təhlil haqqında // Azərbaycan müəllimi. – 1957, 9 may, №19.
17. Ədəbiyyatşünaslıq terminləri lüğəti. // Ədəbiyyat və incəsənət. – 1957, 6 iyul, №27.
18. Yeni orfoqrafiyamız haqqında // Azərbaycan gəncləri. – 1957, 11 sentyabr, №108 (A.Axundovla birlikdə).

**1958**

19. Feili bağlama tərkiblərinin sintaktik vəzifəsi // S.M.Kirov adına ADU-nun filoloji fakültəsinin Elmi əsərləri. Bakı, 1958, s.57-84.
20. Uşaq dünyası // Ədəbiyyat q. – 1958, 29 mart.
21. Ədəbiyyatşünaslıq terminləri lüğəti // Bakı, axşam q., 1958, 3 fevral.

22. Faydalı bir kitabın nöqsanları // Bakı, axşam q., Bakı, 1958, 3 fevral.
23. Şirin söz ustadı. // Azərbaycan gəncləri. – 1958, 25 aprel, №10.
24. M.F.Axundovun komediyalarının frazeologiyası // Bakı. – 1958, 20 may, №116 (S.Murtuzayevin eyni adlı kitabı haqqında).
25. Yazı işləri nə göstərdi (imtahan edənin qeydləri) // Azərbaycan gəncləri. – 1958, 5 sentyabr, №106.
26. Yeni Çin əlifbası // Azərbaycan gəncləri. – 1958, 12 oktyabr, №122.
27. Feili bağlama tərkiblərinin sintaktik vəzifəsi. ADU-nun Elmi əsərləri, 1958, №2.

**1959**

28. Professor Səlim Cəfərov // Lenin tərbiyəsi uğrunda // 1959, 5 aprel.
29. Dilçilikdə söz birləşməsi problemi. Azərbaycan dili materialı əsasında. // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Humanitar seriya, 1959, №6, s.25-36.
30. İstedadlı alim // Lenin tərbiyəsi uğrunda. – 1959, 23 mart, №7.

**1960**

31. Birinci tərəfi ismin adlıq halında olan feli birləşmələr. // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. İctimai elmlər seriyası, 1960, №4, s.33-45.

**1961**

32. Bir dərslik haqqında. Ə.Əfəndizadənin “Azərbaycan dili” dərsliyi haqqında rəy (IV sinif üçün, Bakı, Azərtədrisnəşr, 1961). // Azərbaycan müəllimi. -1961, 26 noyabr, №95

**1962**

33. "Azərbaycan dili" dərsliyi (Eyni adlı dərslik haqqında rəy) // Azərbaycan müəllimi. – 1962, 28 iyun, №51.
34. İsim tədrisinin nəzəri əsasları (S.Cəfərovun eyni adlı kitabı haqqında rəy). // Azərbaycan müəllimi. – 1962, 8 iyul (Bakı, Azərtədrisnəşr, 1962).

**1963**

35. Söz birləşmələrinin tədqiqi tarixindən // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və Ədəbiyyat seriyası. – 1963, №5, s. 69-78.
36. Referendum birliyin rəmzi oldu // Naxçıvan. – 1963, 17 sentyabr.

**1964**

37. Elmin zirvələrinə doğru (universitetin birinci kurs tələbələrinə) // Lenin tərbiyəsi uğrunda. – 1964, 18 sentyabr, №15.
38. Elm yollarında // Lenin tərbiyəsi uğrunda. – 1964, 27 sentyabr, №16 (Ə.Z.Abdullayevin doktorluq dissertasiyası haqqında).
39. Alim-pedaqoq (Ə.Z.Abdullayev haqqında)// Politexnik. – 1964, 27 noyabr, №30.

**1965**

40. İsmi birləşmələr (birinci məqalə) // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1965, №2, s.19-32.
41. Türkologiyada söz birləşmələrinin tədqiqi tarixindən // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1965, №3, s.11-19.
42. İsmi birləşmələr (ikinci məqalə) // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1965, №5, s.27-34.

## 1966

43. Yeni tədqiqat əsəri. F.R.Zeynalovun "Türk dillərində köməkçi nitq hissələri" adlı doktorluq dissertasiyası və onun müdafiəsi haqqında. // Elm və həyat. – 1966, №11, s.15. F.R.Zeynalovun şəkli ilə.

## 1967

44. C.Məmmədquluzadə və dilimiz // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1967, №2, s.22-29.

45. Hekayə dilindəki bir meyil haqqında // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1967, №6, s.15-20.

## 1968

46. Azərbaycan dilinə aid qiymətli tədqiqatlar // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1968, №1, s.98-100.
47. Azərbaycan dili tədrisinə aid tədqiqatlar // Azərbaycan məktəbi. – 1968, №3, s.71-78.
48. Об одном учебнике для вузов. // Ученые записки АГУ им. С.М.Кирова. Серия языка и литературы. – 1968, №5, с.104-106. Рецензия на книгу «Современный азербайджанский язык» (Баку, Изд-во «Maarif», 1967) А.М.Курбанова.
49. Azərbaycan dilçilik elmini yaradanlar və inkişaf etdirənlər // ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1968, №1, s.11-19.

**1969**

50. Azərbaycan dilçilik elmini yaradanlar və inkişaf etdirənlər // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1969, №1-2, s.146-160.
51. Həyat həqiqətli, insan nəfəsli şeirlər // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1969, №5-6, s.3-8 (R.Rzanın dördcildliyinin, I və II cildləri haqqında).
52. Nəğməli Naxçıvan // Şərq qapısı. – 1969, 8 may, №106.

**1970**

53. İnsan və vətən haqqında nəğmələr. N.Xəzrinin "İllər və sahillər" kitabı haqqında.// S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1970, №5-6, s.20-29.
54. Nəğməli Naxçıvan. "Naxçıvan nəğmələri" almanaxı haqqında rəy. // Ədəbiyyat və incəsənət. – 1970, 14 mart.
55. Məhəmməd Hadi dil haqqında // Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1970, №3, s.12-19.

**1971**

56. Yüksək keyfiyyətli dil dərslikləri uğrunda // S.M.Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1971, №4, s.73-79.
57. Həyatın dərinliklərindən. Q.Xəlilovla birlikdə. N.Xəzrinin "Dərələr" kitabı haqqında rəy.// Bakı. – 1971, 9 fevral, №3.

**1972**

58. Elmin çətin cığırları ilə // Azərbaycan gəncləri. – 1972, 11 aprel, №21.

59. Şairin ikicildliyi. Balaş Azəroğlunun əsərlərinin ikicildliyi haqqında.// Kommunist. – 1972, 20 may, №117.
60. Şeirə dönmüş duyğular // Ədəbiyyat və incəsənət. – 1972, 24 iyun, №26.
61. Fonetikaya aid dərslik // Azərbaycan müəllimi. – 1972, 29 sentyabr, №79.
62. Ə.Dəmirçizadənin “Müasir Azərbaycan dili” (I h. Fonetika, orfoepiya, orfoqrafiya kitabı haqqında rəy. Bakı. Maarif, 1972.
63. Mübarizə günləri, həsrət illəri // Ədəbiyyat və incəsənət. – 1972, 22 oktyabr.
64. Ədəbi tənqid və bədii dil // Ədəbiyyat və incəsənət. – 1972, 2 dekabr, №49.

**1973**

65. Nəsiminin əsərləri Azərbaycan ədəbi dilinin tarixi abidəsi kimi // İmadəddin Nəsimi. Məqalələr məcmuəsi. – Bakı. Elm, 1973, s.145-156.
66. Nəsimi dilinə dair qeydlər. // S.M.Kirov adına ADU-nun elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1973, №4, s.8-12.
67. İnsan nəfəsli sətirlər // Ədəbiyyat və incəsənət. – 1973, 31 mart, №14.
68. Seyid Əzim Şirvani dil haqqında // S.M.Kirov adına ADU-nun elmi əsərləri. Dil və ədəbiyyat seriyası. – 1973, №5, s.3-9.
69. Xalqımızın gözəl şairi Cabir Novruz // Ədəbiyyat və incəsənət. – 1973, 1 sentyabr.
70. Şairin xəyal dünyası // Azərbaycan gəncləri. – 1973, 1 fevral.
71. Şairin dilinə bir nəzər. Nəsiminin şeirlərinin dili haqqında // Bakı, 1973. – 28 mart, №73.

72. İnsan və Vətən haqqında nəğmələr // Ədəbiyyat və incəsənət. – 1973, 18 avqust, №34.

## 1974

73. Yeni və orijinal dilçilik əsəri. Musa Adilovun "Azərbaycan dilində sintaktik təkrarlar" (Bakı, Elm, 1974) kitabı haqqında // Bakı, 1974. – 3 iyul, №153.
74. Azərbaycan dilində hər 2 tərəfdən oxunanda eyni cür səslənən sözlər // ADU-nun elmi əsərləri. – Dil və ədəbiyyat seriyası. – 1974, №4, s.11-13.
75. Məmməd Arifin əsərlərində dil məsələləri // ADU-nun Elmi əsərləri. – Dil və ədəbiyyat seriyası. – 1974, №6, s.9-15.
76. Əziz və hörmətli Arif müəllim! // Azərbaycan müəllimi. – 1974, 18 sentyabr.

## 1975

77. Abbasquluağa Bakıxanov dil haqqında. // ADU-nun elmi əsərləri. – Dil və ədəbiyyat seriyası. – 1975, №2, 0,7 ç.v.
78. "Dastani-Əhməd Hərami" haqqında bəzi qeydlər. // ADU-nun Elmi əsərləri. – Dil və ədəbiyyat seriyası. – 1975, №3, 0,7 ç.v.
79. Azərbaycan dili orfoqrafiyası təliminə aid monoqrafik tədqiqat əsəri. // APİ-nin Elmi əsərləri. Pedaqogika, psixologiya və fənlərin tarixi metodikası ser. – 1975, №4.
80. Sözlərin əksinə oxunuşu və bunun leksik vahidə münasibəti. // ADU-nun elmi əsərləri. – Dil və ədəbiyyat seriyası, 1975, №6. 0,4 ç.v.
81. Avropada Azərbaycan dilinin öyrədilməsi tarixindən. // Azərbaycan məktəbi. – 1975, №6.

82. Redaktordan. H.C.Abdullayeva. "Müasir Azərbaycan dilinin sintaksisi üzrə xüsusi seminar materialları" (dərs vəsaiti). B., 1975.

## 1976

83. Sevilən və unudulmayan sənətkar // ADU-nun Elmi əsərləri. – Dil və ədəbiyyat seriyası. – 1976, səh.12-19.
84. S.Vurğun əlifba haqqında // Azərbaycan müəllimi. – 1976, 7 aprel, №28.
85. Görkəmli filosof alim // Azərbaycan müəllimi. – 1976, 28 aprel. M.Hüseynzadə ilə birlikdə.
86. Sözə hörmətlə // Ədəbiyyat və incəsənət. – 1976, 31 iyul, №31.
87. Azərbaycan dilinə aid qiymətli dilçilik abidəsi. // ADU-nun Elmi əsərləri. – Dil və ədəbiyyat seriyası. – 1976, №1, s.10-16.
88. "Kitabi-Dədə Qorqud"-un dilində sadə cümlə (inkişaf səviyyəsi). // ADU-nun Elmi əsərləri. – Dil və ədəbiyyat seriyası. – 1976, №4, s.35-40.
89. S.Vurğunun elmi-publistik irsində dil məsələləri. // ADU-nun Elmi əsərləri. – Dil və ədəbiyyat seriyası. – 1976, №5, s.12-19.
90. Dildə sözün kökü və əsası məsələsinə dair. // ADU-nun Elmi əsərləri. – Dil və ədəbiyyat seriyası, 1977, №4.
91. Bir neçə söz. M.Qiyasbəyli, A.Cahangirov "Azərbaycan dilinə aid oxu kitabı" haqqında. B., 1977.

## 1977

92. Tarixin Əlincə yaddaşı // Dil və ədəbiyyat. Nəzəri, elmi, metodiki j. – 1977, №3, s.149-150.

## 1978

93. Abbas Səhhət dil haqqında // Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin Elmi əsərləri. Dil və ədəbiyyat seriyası, 1978, №5, s.14-21.
94. Əlli il maarif cəbhəsində // Azərbaycan müəllimi. – 1978, 28 aprel, №39.
95. Azərbaycan dilinin tarixinə dair maraqlı əsər. Bakı. – 1978, 1 dekabr, №277.

## 1979

96. Ana dili tədrisinə dair qiymətli əsər // Azərbaycan məktəbi. – 1979, №2, s.61-64. Y.Kərimovun "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları" kitabı haqqında.
97. Alim – müəllim // Azərbaycan müəllimi. – 1979, 28 sentyabr, №79.

## 1980

98. Ədəbi xəzinəmizə böyük qayğı. Klassik irs. // Ədəbiyyat və incəsənət. – 1980, 29 avqust.

## 1981

99. "Aldanma ki, şair sözü, əlbəttə, yalandır" // Ədəbiyyat və incəsənət. – 1981, 24 iyun.
100. Abdulla Şaiq – dilçi. Ədəbiyyat və incəsənət. – 1981, 29 sentyabr.

## 1982

101. Dörd şeir kitabı, ad və mahiyyət // Ədəbiyyat və incəsənət. – 1982, 20 iyul.

102. Nəsimi dilində tabeli mürəkkəb cümlə // Dilçilik coğrafiyası, tarixi, dialektologiya və türk dillərinin tarixi problemləri. (Elmi əsərlərin tematik məcmuəsi. ADU nəşri). – 1982, 0,5 ç.v.

**1983**

103. Ömrün kamala yetişən çağı // Kommunist. – 1983, 22 yanvar.
104. Ədəbi şəxsiyyət və dil // Kitablar aləmində j. – 1983, №2, 0,3 ç.v.
105. Ata-ana harayından oğul harayına qədər // Ədəbiyyat və incəsənət. – 1983, 18 mart.
106. Nəsiminin dilində söz birləşmələri. "Türk dillərinin quruluşu və tarixi" (Elmi əsərlərin tematik məcmuəsi). ADU-nun nəşri. – 1983. 0,3 ç.v.

**1984**

107. Bir neçə söz // A.Axundov. Azərbaycan dilinin fonetikası. – Bakı: Maarif, 1984. – s. 3-4.
108. Teleqram əvəzi // Azərbaycan müəllimi, 1984, 29 aprel.
109. Nəsimi dilində say. // "Müqayisəli-tarixi türkologiyanın aktual problemləri" (Elmi əsərlərin tematik məcmuəsi). ADU-nun nəşri. – 1984, 0,5 ç.v.
110. Nitq hissələri problemi. // "Azərb. dilində adların morfologiyası" (Elmi əsərlərin məc.). ADU-nun nəşri. – 1984.
111. Azərbaycan şeiri. // "Kitablar aləmində" j. – 1984, №3.
112. Azərbaycan poeziyası – 1983. // "Kitablar aləmində" j. – 1984, №4.

**1985**

113. Nəsiminin dilində əvəzlik. // Ədəbiyyat və incəsənət. – 1985, 22 fevral.

114.Çiçəklənən mədəniyyət. // Ədəbiyyat və incəsənət. – 1985, 22 fevral.

## 1986

115.“Dastani-Əhməd Hərami. Kamil Vəliyevin “Sözün sehri” kitabı haqqında. Bakı. – 1986.

116.Nəğməli günlərim. // Ədəbiyyat və incəsənət. – 1986, 22 fevral.

117.Bədii mətn və linqvistik təhlil. // “Ədəbiyyat və incəsənət”. – 1986, 4 iyul.

## 1987

118.Cəlil Məmmədquluzadənin ilk xatirə muzeyi. // Ədəbiyyat və incəsənət. – 1987, 10 aprel.

119.Dünya qərar tutur // Kitablar aləmində j. 1987. – 22 fevral. №3, 0,3 ç.v.

120.Nəsimi dilində işlənən bir-iki şəxs adı haqqında. // Azərbaycan Onomastikası problemlərinə dair konfransın materialları. B. – 1987, 0,5 ç.v.

## 1988

121.Azərbaycan dilinin xəlqi təbiəti və bədii vüsəti. // Nitq mədəniyyəti məsələləri (Məqalələr toplusu) B., ADU-nəşri. – 1988. 0,4 ç.v.

122.Filoloji fakültələrdə ikidillilik. Elmi-nəzəri konfransın məruzələrinin tezisləri. – B., 1988, 0,12 ç.v.

123.“Kitabi-Dədə Qorqud” orta və ali məktəb tədrisində. // Azərbaycan dili və ədəbiyyat tədrisi j. – 1988, №1,2.

124.Müstəqil fəaliyyətə istiqamətləndirilməli. // Azərbaycan Kommunisti j. – 1988, №1. 0,5 ç.v. S.Xəlilovla birlikdə.

125. S.Rüstəmxanlı. Ömür kitabı. // Ədəbiyyat və incəsənət. – 1988, 25 noyabr.
126. Müstəqil fəaliyyətə istiqamətləndirilməli. // Azərbaycan Kommunisti. – 1988, №11.
127. Qiymətli tədqiqat əsəri. Ə.Rəcəbov. Dilçilik tarixi. Maarif. // Bakı. – 1988, 11 noyabr.

**1989**

128. Televiziya: Axtarışlar və problemlər // Azərbaycan Kommunisti. – 1989, №1, 0,5 ç.v.
129. Ana harayı. Cabir Novruzun “Anam vardı, dünyam vardı” kitabı haqqında. // Ədəbiyyat və incəsənət. – 1989, 24 noyabr.
130. Yeni Ali məktəb dərsliyi (A.Qurbanovun “Ümumi dilçilik” kitabı haqqında. // Azərbaycan müəllimi. – 1989, 15 noyabr.
131. Məhkəmə icraatında milli dilin rolu. // Azərbaycan Kommunisti. – 1989, №10.
132. Ana dili, Vətən dili. // Kommunist. – 1989, 26 may.
133. Onun analı dünyası. Cəmil Əlibəyovun “Mənim analı dünyam” kitabı haqqında. // Azərbaycan müəllimi. – 1989, 24 may.
134. Yenidənqurma və milli dillər problemi. // Azərbaycan Kommunisti j. – 1989, №3, 0,7 ç.v.
135. Azadlıq // Azadlıq, – 1989, 2 dekabr.

**1990**

136. Nəsiminin xüsusi adlar aləmi. // Ulduz. – 1990, №4. 0,7 ç.v.
137. Dərsliklər. Problemlər və mülahizələr. // “Zəka” j. – 1990, 0,7 ç.v.

138. Mübarizə günləri, həsrət illəri. // Ədəbiyyat. – 1990, 22 oktyabr.
139. Yeni yaradıcılıq sınaqları. // Azərbaycan müəllimi. – 1990, 26 dekabr.
140. Bədii və publisistik yaradıcılıq birliyi. Azərbaycan müəllimi. – 1990, 28 mart.
141. Kimi aldadırsınız? // Azərbaycan. – 1990, 7 aprel.
142. Azərbaycanda əlifba hərəkatı (Azərbaycan müəllimi. – 1990, 23 noyabr).

**1991**

143. Orfoqrafiya və ümumi dilçilik fənlərinin tədrisi məsələləri. // Azərbaycan müəllimi. – 1991, 25 dekabr.
144. Alimin yeni kitabı: (M.Cəfərquliyevin "Проблемы национального языка в судопроизводства" kitabı haqqında). // Azərbaycan müəllimi. – 1991, 6 dekabr.
145. Ünsiyyət vasitəsi, yoxsa dövlət dili. // Kommunist. – 1991, 2 fevral.
146. Vətənimiz də bir, dilimiz də bir. // Azərbaycan müəllimi. – 1991, 5 aprel.
147. Ağsaqqal // Azərbaycan. – 1991, 18 oktyabr.
148. Bayram Bayramov // Şərq qapısı. – 1991, 14 mart.
149. Belə məsələlərə diqqət artırılmalıdır. // Bakı Universiteti. – 1991, 17 aprel.

**1992**

150. Millətçi sözü və millət məsələsi // Azərbaycan müəllimi. – 1992, 7 avqust.
151. Laqeydlik. // Səs. – 1992, 6 mart.
152. Şəhərimizdə adların əbədiləşdirilməsinə dair // Səs. – 1992, 10 sentyabr.

153. Təmsillər // Ədəbiyyat. – 1992, 11 sentyabr.
154. Bir kitab üzərində düşüncələr // Azərbaycan müəllimi. – 1992, 17 iyul.
155. Xəcalət təri (Şıxəli Qurbanovun “Millətin vəkili millətə belə xidmət etməməlidir” məqaləsi haqqında). // Aydınlıq. – 1 may, 1992.
156. Ana dili problemləri. // Ədəbiyyat. – 1992,17 yanvar.
157. Milli təhsil sistemi. Onu necə qurmaq olar? //Azərbaycan müəllimi. – 1992, 29 yanvar.
158. Yüksək mükafat (Rafiq Feyzullayev haqqında) // Azərbaycan müəllimi. – 1 yanvar, 1992.
159. Nə ömrə acıyır, nə yaşa dünya. // “O, vətən üçün yaranmışdı” kitabında. B., 1992.
160. “Göz yaşları” romanının müəllifinə // Azərbaycan müəllimi. – 1992, 22 may.
161. Ali məktəbdə ikidilliliyin inkişafı. // “Nitq mədəniyyəti məsələləri”. B., 1992, 0,3 ç.v.
162. İki münasibət, iki ifadə tərzi (Ə.Səfərli, K.Vəliyevlə birlikdə) // Azərbaycan müəllimi. – 1992,19 avqust.
163. Millətçi və subyektiv sözlərin işlənmə yerinə dair. // Azərbaycan müəllimi. – 1992, 7 avqust.
164. Yeni qəbul üsulu əsil bilik yarışıdır. // Xalq. – 1992, 29 avqust.
165. Sadəlik və ümumilik insanın bəzəyidir // Səs. – 1992, 30 iyul.
166. Ana dilimizin adı nə olacaq? // Azərbaycan. – 1992, 23 oktyabr.

**1993**

167. Qəbul işin başlanğıcıdır. İncəsənət. – 1993, 27 iyul.
168. Ziyalı // Yeni Turan. – 1999, 21 aprel.

169. Bizim bu günlərin qovğası çoxdur // İncəsənət. – 1993, 15 aprel.
170. İndi küsmək və incimək vaxtı deyil // Hürriyyət. – 1993, 29 yanvar.
171. Saflığın tərənnümü. İncəsənət. – 1993, 22 iyun.
172. Əslim türk oğlu // Hürriyyət. – 1993, 5 mart.
173. Səhnə arxasında qalan məqamlar // Hürriyyət. – 1993, 8 yanvar.
174. Dövlət dili haqqında mülahizələrim // Neft Daşları. – 1993, 18 yanvar.

**1994**

175. Kəmiyyət kateqoriyası ümumi qrammatik kateqoriya kimi // Bakı Universitetinin Xəbərləri. – 1994, №4.
176. Morfologiya qrammatikanın hissəsi kimi. BDU, Elmi konfransın materialları. B. – 1994, 0,1 ç.v.
177. Məmməd Araz işığı // Vaxt. – 1994, 2 iyul.

**1995**

178. Dilimiz reallığımızdır // Azadlıq. – 1995, 2 may.
179. Azərbaycan dili // Azərbaycan dili və azərbaycanlılar. – 1995, №1, 0,4 ç.v.
180. Bir daha dilimizin adı haqqında // İncəsənət. – 1995, 30 may.

**1996**

181. Ana dili – varlıq möhürümüz // N.Cəfərov. "Bəxtiyar Vahabzadə" kitabında. B. – 1996, 0,2 ç.v.
182. Eyni sözün bir və ya bir neçə nitq hissələrinə daxil ola bilib-bilməməsi məsələsi // Bakı Universitetinin Xəbərləri – 1995, №1.

**1997**

183. Bədii tərcümənin linqvistik problemləri // Panorama. – 1997, 27 may.
184. Muxtar Hüseynzadə. Klassik alim-pedaqoqlarımız // Azərbaycan müəllimi. – 1997, 9 yanvar.
185. Bu da bir tarixdir. // Bakı Universiteti Xəbərləri (humanitar elmlər seriyası). – 1997, №1.
186. Vətənin, millətin tərəqqisi naminə // Dil və Ədəbiyyat (nəzəri, elmi, metodiki j.). – 1997, 3(18), 0,1 ç.v.
187. Həqiqət belədir. // Səs. – 1997, 15 noyabr.
188. Azərbaycan dilində hal kateqoriyası. Adlıq hal // Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası). – 1997, №1.

**1998**

189. Milli dilə dövlət qayğısı. // Azərbaycan dili və ədəbiyyatı tədrisi j. – 1998, №3.
190. Dilimizin böyük havadarı. // Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası). – 1998, №1.
191. "Kitabi-Dədə Qorqud" orta və ali məktəb tədrisində (I məqalə). // Azərbaycan dili və ədəbiyyatı tədrisi j. – 1998, №1.
192. Tarixin Əlincə yaddaşı // Dil və Ədəbiyyat (nəzəri, elmi, metodiki j.). –1997, №3.
193. Ön söz // M.Abdullayeva. Azərbaycan dilində xalçaçılıq leksikası. – Bakı: Qismət, 1998, s. 3-4.
194. "Kitabi-Dədə Qorqud" orta və ali məktəb tədrisində (II məqalə). // Azərbaycan dili və ədəbiyyatı tədrisi j. – 1998, №2.
Professor Yusif Seyidov Azərbaycan dilçilik elmi üçün sintaktik əlaqələrlə bağlı bir sıra başqa ciddi və mühüm məsələləri də müəyyənləşdirmişdir. Məsələn, Azərbaycan dilçiliyində ənənəvi olaraq ikinci və üçüncü növ təyini söz birləşmələrinin tərəfləri birlikdə bir mürəkkəb cümlə üzvü kimi təhlil edilir. Bu, dilçilərimizin həssas dilçilik intuisiyasının nəticəsi idi. Lakin həmin birləşmələrin cümlə üzvü kimi parçalana bilməməsinin elmi qrammatik əsasları ilk dəfə professor Yusif Seyidov tərəfindən müəyyənləşdirilmişdir. Yusif Seyidov sintaktik əlaqələr əsasında cümlənin şəxsə görə növlərinin formalaşma sistemini vermişdir.

Keçən əsrin əllinci illərinin ortalarından başlayaraq, Yusif Seyidov qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlərin tədqiqi kimi xüsusi tədqiqata ehtiyacı olan elmi problemlərlə məşğul olur. Onun bu dövrdə çap etdirdiyi əsərlərdə xitabın formaca üçüncü şəxsə, məzmunca ikinci şəxsə aid

olması; xitabın əvəzliklə ("sən", "siz" əvəzlikləri ilə) ifadə olunması; xitab vasitəsilə münasibət ifadə etmək və bu məqsədlə istifadə olunan leksik və qrammatik vasitələr; xitabın üslubi mövqeyi; ara sözlərin ismi və feli növləri, köməkçi sözlərlə işlənmə imkanları və s. cəhətləri yüksək nəzəri səviyyədə həll edilir. Professor Yusif Seyidov türkologiyada ilk dəfə olaraq belə bir elmi-nəzəri müddəa ilə çıxış edir ki, hər bir cümlə üzvü müxtəlif nitq hissələrinə aid sözlərlə ifadə olunduğu kimi, ara sözlər də ayrı-ayrı nitq hissələrinə aid sözlərlə ifadə oluna bilər. Lakin çox təəssüf ki, indiyə kimi ara söz rolunda çıxış edən sözlər, hətta söz birləşmələri, eləcə də bu rolda olan cümlələr modal söz kimi təqdim edilmiş və bu əsasda bir nitq hissəsi olaraq, modal sözlərin lüğəti bu söz qrupuna aid olmayan söz və birləşmələrlə doldurulmuşdur. Ciddi dilçi alim olan Yusif Seyidovun "Azərbaycan ədəbi dilində əlavə söz və əlavə cümlələr" monoqrafiyasına qədər Azərbaycan dilçiliyində həmin məsələlər haqqında adi anlayış belə olmamışdır. Yusif Seyidov ilk dəfə təkcə Azərbaycan dilçiliyinə deyil, ümumən türkologiyaya əlavə söz və əlavə cümlə anlayışı gətirmiş, bu sintaktik kateqoriyaların nəzəri əsaslarını müəyyən etmiş və konkret şəkildə Azərbaycan dilində onların təzahür formalarını müəyyənləşdirmişdir. Həmçinin Yusif Seyidov morfologiyanın bir sıra nəzəri problemlərinə aydınlıq gətirmiş və onları elmi-nəzəri istiqamətdə işləmişdir: "Sözün kökü və əsası məsələsi", "Morfologiya və söz yaradıcılığı", "Nitq hissələri və cümlə üzvü problemi", "Nitq hissələri nitq yox, dil kateqoriyalarıdır", "Söz leksik vahid kimi, söz nitq hissəsi kimi", "Eyni sözün yalnız bir və ya iki (daha artıq) nitq hissəsinə aid ola bilib-bilməməsi məsələsi", "Qrammatik (morfoloji) kateqoriya" anlayışı, "ümumi qrammatik (morfoloji) kateqoriyalar", "Nitq his-

sələrinin təsnifi prinsipləri" və bir sıra başqa problemlər bu qəbildəndir. Qeyd etmək lazımdır ki, hər hansı dilçi alim üçün bu əsərlərdən bir – ikisi özünü böyük elmdə təsdiq etmək üçün kifayət edə bilərdi. Professor Yusif Seyidov isə son yarım əsr ərzində Azərbaycan dilçilik elmini, geniş mənada türkologiyanı böyük bir silsilə təşkil edən yeni elmi- nəzəri müddəalarla, kəşf xarakterli qənaətlərlə dərinləşdirmiş və inkişaf etdirmişdir. Belə ciddi elmi tədqiqatlardan bir çoxunun, ümumiyyətlə, dilçilik elmi üçün yeni və əhəmiyyətli olduğunu nəzərə alsaq, onda Azərbaycan aliminin ümumən dünya miqyasında qrammatika-şünaslığa ciddi, sanballı töhfələr verən görkəmli dilşünas olduğunu etiraf etmək lazım gələr. Biz bu fikirdəyik ki, professor Yusif Seyidovun bir çox əsərləri dünya dillərinə mükəmməl tərcümə olunarsa, Qərbin və Şərqin tanınmış dilçilərini kölgədə qoyar, Azərbaycan dilçilik elminə beynəlxalq miqyasda böyük şöhrət gətirə bilər.

Ənənəvi təqdimatdan fərqli olaraq, Yusif Seyidov müəyyənləşdirmişdir ki, Azərbaycan dilində əsas nitq hissələrindən sayın, əvəzliyin, felin, eləcə də köməkçi nitq hissələrinin quruluşca mürəkkəbi yoxdur, ayrıca leksik vahid halında kəsr sayı və inkar əvəzlikləri mövcüd deyil. Yusif Seyidov müəyyən etmişdir ki, bu sahələrdə olan ənənəvi səhvlər dillə nitqi, dil vahidləri ilə nitq vahidlərini fərqləndirə bilməməkdən irəli gəlmişdir.

Yusif Seyidovun cümlə probleminə aid tədqiqlərində cümlənin ənənəvi tərifi açıqlanır, ən mənalı nitq vahidi olmaq etibarilə onun mahiyyəti, əsas əlamətləri aydınlaşdırılır. O, indiyə qədərki dilçilik qənaətindən fərqli olaraq, ilk dəfə müəyyən etmişdir ki, türk dillərində adlıq cümlələr mübtəda əsasında formalaşdığı kimi, xəbərin kütləsi əsasında da formalaşa bilir.

Məlum olduğu kimi, Azərbaycan dilçiliyində cümlənin qrammatik təhlili məsələsində, xüsusən sintaktik təhlilində anlaşılmaz cəhətlər çoxdur. Professor Yusif Seyidov həm morfoloji, həm də sintaktik təhlilə dilçiliyin ümumi nəzəri müddəaları baxımından yanaşaraq öz yeni sözünü deyir. O belə hesab edir ki, bir yerdə bir cümlə üzvü kimi götürülməsindən asılı olmayaraq, nitq hissəsi olmaqla hər söz ayrılıqda qeydə alınmalıdır. Məsələn: "Dərsə qulaq asıram" cümləsində dərs – isim, qulaq- isim, asıram- fel; "Heç kim danışmır" cümləsində heç- ədat, kim- əvəzlik, danışmır- feldir. Dilçilər etiraf edə bilərlər ki, bunlar sadə məsələlər deyildir, mütəxəssisləri uzun illər düşündürən problemlərdir.

Y.Seyidov cümlənin sintaktik təhlilində belə məsələlər qoyur:

1) Mümkün qədər hər söz ayrıca cümlə üzvü kimi təhlil edilməlidir. Ancaq bəzən bu mümkün olmur, bəzən iki və daha artıq sözü də bir yerdə bir cümlə üzvü kimi götürmək lazım gəlir. Y.Seyidov bunun da səbəblərini və elmi əsaslarını müəyyənləşdirmiş və göstərmişdir ki, iki halda bu mümkün olur:

a) Sözlərin məna əlaqələrinə görə. Məsələn, "qol çəkmək," "qulaq asmaq", "bu vaxt" kimi birləşmələr.

b) Qrammatik cəhətdən formalaşmasına görə. Məsələn, "mənim kitabım", "kağız qovluğu" kimi birləşmələr.

2) İkinci dərəcəli üzvlər baş üzvlərə aid olduqları kimi, özləri də bir-birlərinə aid ola bilər. Yəni tamamlığın, zərfliyin mütləq xəbərə aid olması vacib deyil. Tamamlıq xəbərə aid olduğu kimi, təyinə, zərfliyə, başqa bir tamamlığa da aid ola bilər, zərflik də onun kimi.

Bu nəzəri yanaşma bir yanlış ənənənin düzgün həllini də həyata keçirməyə imkan yaradır. 1950-ci illərdə qeyri-elmi

səbəblər əsasında belə bir fikir ortaya atılmışdı ki, neçə sözdən ibarət olmasından asılı olmayaraq, feli tərkiblər bir cümlə üzvü kimi təhlil edilsin. Y.Seyidov cümlə üzvü haqqında nəzəri fikrə əsaslanaraq, bu tərkiblərin "tərkibidir"- deyə bütöv halda bir cümlə üzvü kimi götürülməsinin yalnış olduğunu müəyyənləşdirdi.

Yusif Seyidovun sintaktik yaradıcılığının zirvəsini onun söz birləşmələrinə aid tədqiqləri təşkil edir. Görkəmli alimin bu sahədəki axtarışlarının nəticələri ayrı-ayrı məqalə və kitabçalar şəklində, bütöv halda isə "Azərbaycan ədəbi dilində söz birləşmələri" monoqrafiyasında əks olunmuşdur. Bu əsərdə qədim hind, yunan dilçilərindən başlamış ötən əsrin 60-cı illərinə qədər söz birləşmələri haqqında elmi fikir və mülahizələrin ardıcıl və yığcam elmi xülasəsi verilmişdir. Müəllif yunan filosoflarının sözlərin əlaqələnməsi – söz birləşmələri barədə ibtidai baxışlarında işıqlı cəhətləri açıb göstərmiş, müasir filosofların bu problemlə əlaqədar fikirlərini təhlildən keçirmişdir. Əsərdə söz birləşmələrinin dil sistemindəki yeri müəyyənləşdirilmiş, onların digər dil və nitq vahidləri ilə (söz, mürəkkəb söz, qoşa sözlər, sintaqm, cümlə ilə) oxşar və fərqli cəhətləri izah olunmuşdur.

"Azərbaycan ədəbi dilində söz birləşmələri" kitabında müəllif yenidən sintaktik əlaqələr məsələsinə qayıdır və onlara yeni aspektdən – söz birləşməsi mövqeyindən nəzər salır; söz birləşmələrinin, bir qayda olaraq, tabelilik əlaqəsi əsasında yarandığını təsdiq etməklə bərabər, tabesizlik əlaqəsi ilə də təşəkkül tapdığını qeydə alıb əsaslandırır. Müəllif söz birləşmələrinin mövcud təsnifatını nəzərdən keçirir, söz birləşmələri haqqında sintaktik təlimin hüdudlarını müəyyən edir; Azərbaycan dilçiliyində söz birləşmələrinin ənənəvi izahından xeyli

kənara çıxaraq, ilk dəfə olaraq ismi birləşmələrin təyini söz birləşmələrindən ayrılan bir sıra yeni növlərini tapır; "feli birləşmələr" adı altında "feli tərkiblər"dən fərqlənən təlimin əsasını qoyur və istiqamətini müəyyən edir, bu birləşmələrin ilk və müfəssəl sistemli, nəzəri təhlilini verir. Həm də bütün bunlar ümumi türkoloji əsasda verilir, ümumi dilçiliyin nəzəri əsasları işığında, dialektik inkişaf qanunauyğunluqları fonunda təqdim olunur. Etiraf etmək lazımdır ki, bu tədqiqatlar Azərbaycan dilçiliyinin nadir nümunələrindəndir. İdeoloji sistemin dəyişməsinə baxmayaraq, dəyişməyən, qətiyyən köhnəlməyən, əksinə, aktuallığını və elmi mənasını saxlayan belə əsərlər dilçilik elmimizdə azdır.

Y.Seyidovun dilin konkret problemlərinə həsr edilmiş əsərlərində nəzəri əhəmiyyətli ümumiləşmələr aparılır.O, eyni zamanda sırf nəzəri əsərlərin də müəllifidir. "Dilin daxili inkişaf qanunları", "Çto takoe sintaqma, çem ona otliçaetsya ot slovosoçetaniye", "Dil sistemində söz birləşmələrinin yeri", "Sözün kökü və əsası məsələsinə dair","Dilçilikdə nitq hissələri problemi" və s. ümumiyyətlə, dilçilik üçün yeni və əhəmiyyətli olan bu tip tədqiqatlarında Yusif Seyidov həqiqi bir dünya dilçisi kimi yüksək professionallıq nümayiş etdirir.

Böyük dilçi alim Yusif Seyidov Azərbaycan dili tarixinə dair də səmərəli tədqiqatlar aparıb: "Nəsiminin əsərləri Azərbaycan ədəbi dilinin tarixi abidəsi kimi", "Dastani- Əhməd Hərami" haqqında bəzi qeydlər", "Kitabi- Dədə Qorqud"un dilində sadə cümlə (inkişaf səviyyəsi)", "Kitabi- Dədə Qorqud" dastanlarının dilində tərkib və budaq cümlə paralelizmi", "Dövrün (XII- XIX əsrlər) şeir dilinə ümumi bir nəzər", "Ədəbi şəxsiyyət və dil" və s. məqalələri, habelə "Nəsiminin dili" monoqrafiyası ciddi müşahidə və axtarışların məhsuludur.

Professor Yusif Seyidov "Yazıçı və dil" problemi ilə də müntəzəm məşğul olur. Onun bu sahədəki tədqiqləri iki istiqamətdədir: ədəbi-bədii dil, onun inkişaf meyilləri və yolları; yazıçıların söz, dil, bədii dil haqqında fikir və mülahizələri. Yusif Seyidov bir sıra məqalələrində, "Klassik Azərbaycan şairləri söz haqqında" (1977), "Yazıçı və dil" (1979), "Sözün şöhrəti" (1981), "Sözün qüdrəti" (1988), "Sözün hikməti" (1989) və s. kimi sanballı monoqrafiyalarında XI əsrdən başlayaraq müstəqillik dövrünə qədərki, təxminən min ilə qədər, Azərbaycan yazıçılarının söz və sənət haqqında, dil və onun insan həyatında, cəmiyyətdə rolu, əhəmiyyəti barədə fikirlərini toplayıb sistemə salmış, ədəbi-tarixi ardıcıllıqla təsvir və təhlil etmiş, xalqın dilçilik, qismən də ədəbiyyatşünaslıq və estetik görüşlərinin yığcam salnaməsini yaratmışdır.

Bir dilçi-filoloq kimi Yusif Seyidovu səciyyələndirən əsas xüsusiyyətlərdən biri də onun ədəbi prosesi ardıcıl izləməsi, xalis ədəbiyyat xarakterli tədqiqlərə meyilli olmasıdır. O, tələbəlik illərindən başlayaraq sırf dilçilik tədqiqləri ilə müvazi, ədəbi- tənqidi əsərlərini də çap etdirir ki, bunların bir qismi "Ədəbi tənqid və bədii dil" (1986) "Ey ulu dünya"(2003) kitablarında və onlarca məqalələrində öz əksini tapmışdır. O, Azərbaycan filologiyasına vahid elmi yaradıcılıq sahəsi kimi baxır və belə hesab edir ki, yazıçının dilinə nəzər yetirmədən, onun ustalığını, onun yaradıcılığının əsl mahiyyətini açmaq olmaz. Qeyd etmək lazımdır ki, həm "Yazıçı və dil" silsiləsinə aid olan qiymətli monoqrafiyalarında, həm də sırf ədəbiyyatşünaslıq xarakterli əsərlərində Yusif Seyidov dilçilikdə nümayiş etdirdiyi qədər professionaldır. Onun sosioloji yanaşmalardan uzaq sırf elmi-nəzəri xarakter daşıyan ədəbiyyatşünaslıq əsərlərinə əsl ədəbiyyatşünaslar qibtə edə bilərlər. Yusif Seyi-

dov Azərbaycan dilçiliyi ilə yanaşı, milli ədəbiyyatşünaslıq elmini də zənginləşdirən və inkişaf etdirən qiymətli əsərlərin müəllifidir. Bu əsərlər ədəbiyyatşünaslar üçün ciddi elmi mənbə və bələdçidir.

Yusif Seyidov elmi məzmununa, metodiki mükəmməlliyinə görə qiymətli dərs vəsaitləri və dərsliklərin- "Müasir Azərbaycan dili"- (I h.-1959, II h – 1963); "Müasir Azərbaycan dili. IV hissə. Sintaksis"(1972, 1985, 2009) dərsliklərinin əsas müəlliflərindən biri, bir neçə dəfə nəşr edilmiş "Azərbaycan dili" və "Azərbaycan dilinin qrammatikası. Morfologiya" kimi ali məktəb dərsliklərinin müəllifidir. Bütün bu əsərlər müasir filologiyanın nəzəri prinsiplərini zəngin elmi-pedaqoji təcrübə və hazırlıqla, gərgin metodiki zəhmətlə birləşdirə bilmək bacarığının səmərəli nəticələridir, onları sadə və aydın dildə, aksiomatik tərzdə çatdırmağın nümunəsidir.

Professor Yusif Seyidovun müəllifi olduğu "Müasir Azərbaycan dili" silsiləli dərsliklər dövlətimiz tərəfindən Dövlət mükafatına layiq görülmüşdür. Ali məktəb tədrisinin ümumi məsələlərinə, ali və orta məktəb dərsliklərinə, nəhayət, Azərbaycan dilinin tədrisinə dair çap etdirdiyi onlarca jurnal və qəzet məqalələri, resenziyaları tədris işinin yaxşılaşmasında, dərsliklərin mükəmmələşməsində az rol oynamamışdır. O, VI-VII və VIII-IX siniflərə aid "Azərbaycan dili" dərsliklərinin müəllifidir. Bu dərsliklər dilçiliyin müasir nəzəri tələbləri işığında yazılmaqla, ənənə halında təkrar edilən səhv fikirlərdən azad yeni dərsliklər kimi meydana çıxmışdır. Azərbaycan məktəblərinin V-XI sinifləri üçün "Azərbaycan dili proqramı", təlim rus dilində olan Azərbaycan məktəbləri üçün "Azərbaycan dili" proqramı onun rəhbərliyi ilə hazırlanmış, onun redaktorluğu ilə nəşr edilmişdir.

Görkəmli alimin bir sıra məqalələri monoqrafik dilçilik əsərlərinin təhlilinə, görkəmli dilçi alimlərin yaradıcılığına, dilçilik tarixinə həsr edilmişdir.

Professor Yusif Seyidovun əsərlərinin 15 cildliyi çapa hazırlanmışdır. Artıq bunlardan hər biri 600 səhifə həcmində olan səkkiz cildi nəşr olunmuşdur. Bu, həm Azərbaycan dilçiləri, həm də ədəbiyyatşünaslar mühitində meydana çıxan birinci onbeşcildlik külliyyatdır. Elmi ictimaiyyətə təqdim edilən 8 cild və çap prosesində olan əsərlərindən görünür ki, Yusif Seyidovun külliyyatında asan yolla yazılmış heç bir əsər yoxdur. Bunlar Yusif Seyidovun 80 illik ömrünün layiqli hesabatı olmaqla yanaşı, geniş mənada böyük elmə bəxş edilən qiymətli töhfələrdir.

Respublikanın digər ali məktəblərində və akademik qurumlarında çalışan dilçi alimlər nəslinin müəllimi, elmi rəhbəri, opponenti olan Yusif Seyidovun milli dilçi kadrların hazırlanmasında müstəsna xidmətləri vardır. O, bu gün Bakı Dövlət Universiteti ilə yanaşı, Naxçıvan Dövlət Universitetinin də müdafiə şurasının üzvü kimi, kadr hazırlığına geniş mənada xidmət edir.

Y.Seyidov onlarca monoqrafiyanın redaktoru olmuş, əsərləri haqqında məqalələr çap olunmuşdur.

Y.Seyidov aspirantlıq illərindən başlayaraq 60 ilə yaxındır ki, BDU-da mühazirələr oxuyur. O, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının yarandığı vaxtdan (1965) onun müdiri olmaqla, özünü bacarıqlı elm və tədris təşkilatçısı kimi göstərmişdir. Sonradan universitetin başqa kafedralarında çalışan bir sıra elmlər doktorları və elmlər namizədləri, dosentlər və professorlar ilk elmi-pedaqoji fəaliyyətlərini bu kafedrada başlamış və burada işləmişlər. Başqa ali

məktəblərdə və elmi müəssisələrdə işləyən bir çox elmlər doktoru və elmlər namizədlərinin dissertasiyaları bu kafedrada müzakirə edilmiş və müdafiəyə buraxılmışdır. Yusif müəllim tədrisdə və kadr hazırlığında uğurlarına görə Təhsil Nazirliyinin, rektorluğun Fəxri fərmanları ilə təltif olunmuşdur.

Y.Seyidov indi də gənclik həvəsi ilə fəaliyyət göstərir. 2008-2009-cu illərdə onun iki ali məktəb dərsliyi, iki monoqrafiyası çap olunmuş, Rəsul Rza adına beynəlxalq mükafata layiq görülmüş, elmi uğurlarına görə BDU- da "İlin alimi" adı almışdır.

***İsa Həbibbəyli***
***AMEA-nın vitse-prezidenti, filologyia elmləri doktoru, professor, Əməkdar Elm Xadimi, akademik.***

***Azərbaycan müəllimi.-2009.-13 noyabr.***

# Görkəmli alim, ustad pedaqoq, gözəl insan (Professor Yusif Seyidovun portret cizgiləri)

Artıq neçə ildir ki, Yusif müəllim aramızda yoxdur. O, haqq dünyadadır, biz isə nahaqq. Amma Yusif müəllimin nurlu siması onu tanıyanların yadından çıxmır. Ad günü, yubiley keçirməyi xoşlamırdı və sağlığında nə qədər istəsək də, Yusif müəllimin yubileyini keçirə bilmədik. Yusif müəllimlə bağlı kitab çıxacağını eşidəndə yadıma düşdü ki, 1999-cu ildə – Yusif müəllimin 70 yaşı tamam olarkən onun haqqında kiçik bir yazı yazıb "Səs" qəzetində çap etdirmişdim. Həmin yazını olduğu kimi burada verməyi məqsədəuyğun hesab etdim. Çünki sonrakı 17 il ərzində mənim Yusif müəllim barədəki fikirlərimdə heç bir dəyişiklik olmayıb, əvvəl necə idisə, elə də qalıb.

Yusif Mirəhməd oğlu Seyidov 1929-cu ildə Naxçıvanın Şərur rayonunun Yengicə kəndində anadan olub. 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) filologiya fakültəsini bitirib. 1956-cı ildə namizədlik, 1966-cı ildə isə doktorluq dissertasiyası müdafiə edib. 1965-ci ildən Bakı Dövlət Universitetində Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiridir. O, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dil və ədəbiyyat üzrə Ekspert Şurasının, universitetin filologiya fakültəsinin və böyük Elmi Şurasının üzvü, universitet metodşurasının sədridir. Professor Yusif Seyidov uzun illər Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-metodik Şurasının Azərbaycan dili bölməsinin sədri olmuşdur.

Yusif müəllim haqqında nəsə yazmaq, onun haqqında söz söyləmək həm asan, həm də çətindir. Ona görə asandır ki, Yusif müəllim həm görkəmli alim, həm bacarıqlı pedaqoq, həm

də gözəl insandır. Ona görə çətindir ki, balaca bir yazıda Yusif müəllimin elmi-pedaqoji fəaliyyətini, bir şəxsiyyət kimi ona xas olan cəhətləri əhatə etmək mümkün deyil. Professor Yusif Seyidovun çoxşaxəli yaradıcılığı, sonrakı nəslə örnək olası həyat yolu, insani keyfiyyətləri barədə qalın bir kitab yazmaq olar. Yəni yalnız onda Yusif müəllim haqqında nəsə bir şey demək olar.

Professor Yusif Seyidov müasir Azərbaycan dilçiliyinin yaradıcılarından, onun ağsaqqallarındandır. Bu sözü deməyə onun qələmindən çıxmış onlarla kitab, yüzlərlə məqalə, yetişdirdiyi çoxlu gənc və istedadlı alimlər əsas verir. Onun yaradıcılığına xas olan elə mühüm xüsusiyyətlər var ki, biz bunu digər dilçi alimlərimizdə görmürük. Yusif müəllimdə dil duyğusu, dil intuisiyası var. Buna görə də o, dildə baş verən istənilən təzahürü şərh edir, ona ən uyğun kommentari verir, öz fikrini elə əsaslandırır ki, opponentlərinin deməyə sözü qalmır. Çünki Yusif müəllim elmdən dilə gəlməyib, dildən elmə gəlib. Yəni o, ayrı-ayrı qrammatika kitablarında yazılmış qaydaları Azərbaycan dilinə tətbiq etmir, faktik dil materiallarından istifadə edərək bu dilin özünün qrammatikasını yazır. Professor Yusif Seyidov dilə donuq bir mətn parçası kimi baxmır. Yusif müəllim üçün dil ana laylası ilə onun beyninə və qanına hopmuş möhtəşəm bir dünyadır. O, bu dünyaya yad ünsürlər, yad qaydalar gətirmir, bu dünyanın özünün qaydalarını axtarır, tapır, bu dünyada hər şeyi yerbəyer edir. Məhz bu istiqamətdə qırx ildən çox gərgin elmi axtarışları onu Azərbaycan dilçilik məktəbinin ön sıralarına çıxarmış, təkcə öz həmkarları arasında deyil, bütün Azərbaycanda ona dərin hörmət və nüfuz qazandırmışdır.

Professor Yusif Seyidovun əsərlərinə xas olan əsas

cəhət onların məzmun baxımından yeniliyi və orijinallığıdır. Bu böyük alim öz əsərlərində həmişə yeni problemlər qaldırmış, həmin problemlərin inandırıcı həllini təqdim etmişdir. Onun Azərbaycan dilinin sintaktik quruluşuna həsr etdiyi kitab və məqalələri təkcə Azərbaycanda deyil, bütövlükdə bütün türkologiyada təqdirlə qarşılanmış, Azərbaycan dilinin materialları əsasında ümumiləşdirilmiş fikirləri böyük nəzəri əhəmiyyətə malik müddəalar kimi qəbul edilmişdir. Bu onunla bağlıdır ki, bu əsərlərdə sintaksis, onun vahidləri və bu vahidlər arasındakı münasibətlər dərin elmi şərhini tapmış, Azərbaycan dili sintaksisinin ən maraqlı və mübahisəli problemləri işıqlandırılmışdır.

Professor Yusif Seyidov ciddi alimdir. Onun əsərlərinin belə yüksək səviyyəyə qalxmasının səbəbi də onun dilçiliyə ciddi yanaşması ilə bağlıdır. O, dilin inkişafının və dəyişməsinin dialektik qanunauyğunluqlarını araşdırır, Azərbaycan dili faktlarını ümumi dilçiliyin nəzəri müddəaları fonunda izah edir.

Yusif müəllim novator alimdir, onun hər yazısında yenilik hiss olunur. O hər hansı bir problem barədə özündən əvvəl deyilmiş fikir və mülahizələri aksioma kimi qəbul etmir, həmin problemin fərqli həll yolunu göstərir, özündən əvvəlki şərhləri daha da dolğunlaşdırır.

Yusif müəllim təkcə müasir Azərbaycan dili ilə məşğul olmur, təkcə müasir Azərbaycan dilinə aid problemləri tədqiq etmir. Dilimizin tarixi də həmişə onun maraq dairəsində olmuşdur. Onun ədəbi dil tarixi və tarixi qrammatikaya dair yazdığı kitab və məqalələrini buna misal göstərmək olar. Nümunə üçün 1996-cı ildə çap olunmuş "Nəsiminin dili" monoqrafiyasına nəzər salaq. Bu əsər elmi sanbalına və əhəmiyyətinə görə dil tariximiz üçün etibarlı mənbədir. Nəsiminin dilindən yazmaq üçün təkcə Nəsiminin əsərlərini bilmək kifayət etmir. Bunun

üçün tarixi filologiyanın bütün sahələrinə, o cümlədən tarixi poetikaya dərindən bələd olmaq tələb olunur. Yusif müəllim öz əsərində Nəsimini qüdrətli söz ustadı, böyük şair kimi təqdim etməklə yanaşı, XIV əsr Azərbaycan ədəbi dilinin inkişaf səviyyəsi barədə dolğun təsəvvür yaradır.

Professor Yusif Seyidov öz elmi yaradıcılığını pedaqoji fəaliyyəti ilə uzlaşdırır. Onun Azərbaycan dilinin tədrisi tarixinə və müasir dilin tədrisi metodikasına aid əsərləri (kitablar, məqalələr) bu əsərlərin müəllifini istedadlı metodist alim, yaradıcı və ustad müəllim kimi tanıtmışdır.

Yusif müəllim Azərbaycan dilinin, demək olar ki, bütün sahələrinə aid əsərlər yazmışdır. Bu baxımdan onun əlifba, orfoqrafiya, orfoepiya, leksikologiya, leksikoqrafiya, frazeologiya, terminologiya və digər sahələrə aid yazdığı əsərlər elmi ictimaiyyət tərəfindən təqdirlə qarşılanmışdır. Əlbəttə, dilçilik elminin müxtəlif sahələrindən yazmaq alimin geniş erudisiyasından xəbər verməklə yanaşı, həm də alim-müəllimin şüurlu və məqsədəuyğun fəaliyyətinin, Azərbaycan dilinə qayğısının təbii təzahürüdür.

Professor Yusif Seyidovu bir dilçi-filoloq kimi səciyyələndirən əsas cəhətlərdən biri də onun müasir ədəbi prosesi izləməsi, ədəbiyyatşünaslıq araşdırmalarına meyl göstərməsidir. Onun üçün filologiyanın dilçilk və ədəbiyyatşünaslıq sahələri arasında sərhəd yoxdur. O, bu elmə klassik filologiya gözü ilə baxır. Alimin fikrincə, bir-birindən xeyli aralanmış filologiya elm sahələrinin yenidən yaxınlaşması, ədəbi tənqidin dil problemlərinə diqqəti, ədəbi prosesə dilçi prizmasından baxış bu ümumi proseslə bağlıdır və öz inkişafını davam etdirir. Bu, ədəbi prosesi filoloji fonda müxtəlif cəhətlərdən qiymətləndirməyə imkan verir. Ədəbi prosesə ədəbiyyatşünas və dilçi

baxışı bir-birini tamamlayır. Dilçilikdən çox ədəbiyyatşünaslıq intuisiyası bu görkəmli alimi şeir-sənət məsələləri ilə məşğul olmağa, ədəbi dilimizin tarixi inkişafını, bu dilin bədii üslubunda baş verən keyfiyyət dəyişmələrini şərh etməyə gətirib çıxarır. Bu baxımdan alimin qələmindən çıxmış "Klassik Azərbaycan şairləri söz haqqında" (Bakı, 1977; professor S.Q.Əlizadə ilə birlikdə), "Yazıçı və dil" (Bakı, 1979), "Sözün şöhrəti" (Bakı, 1981), "Sözün qüdrəti" (Bakı, 1983), "Sözün hikməti" (Bakı, 1989) əsərləri xüsusi qeyd edilməlidir. Bu monoqrafiyalar professor Yusif Seyidovun ədəbi yaradıcılıq, bədii dil və üslub məsələləri, ədəbi tənqidlə müntəzəm məşğul olduğunu, araşdırdığı mövzulara analitik filoloji təfəkkürlə yanaşdığını göstərir.

Yusif müəllim dövrlə, zamanla ayaqlaşan alimdir. Azərbaycan Respublikası Prezidentinin "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin qeyd edilməsi haqqındakı qərarı ilə əlaqədar olaraq professor Yusif Seyidov bu dastan haqqında vaxtilə (lap gənclik illərindən) başladığı tədqiqatını davam etdirərək bu problemlə bağlı bir sıra sanballı əsər yazıb çap etdirmişdir. Bu baxımdan onun "Kitabi-Dədə Qorqud" orta və ali məktəb tədrisində", "Kitabi-Dədə Qorqud"da tərkib və budaq cümlə paralelizmi", "Kitabi-Dədə Qorqud"da qadın surətləri" məqalələri qorqudşünaslar tərəfindən rəğbətlə qarşılanmışdır.

Professor Yusif Seyidov vətəndaş alimdir, öz vətənini, öz xalqını dərin məhəbbətlə sevir. Azərbaycanın ictimai həyatında baş verən istənilən hadisəyə, cəmiyyəti narahat edən, düşündürən hər hansı bir təzahürə Yusif müəllim bir vətəndaş kimi münasibət bildirir, həmin problemlərin həlli yolları barədə öz fikirlərini ictimaiyyətlə bölüşür.

Bu il professor Yusif Seyidovun yetmiş yaşı tamam ol-

du. Universitetə qəbul olunduğu gündən öz həyatını universitetə bağlayan, universitetlə bir yerdə böyüyən və şan-şöhrətə çatan, universitet elminin və təhsilinin inkişafında böyük xidməti olan, 34 il universitetin ən böyük kafedralarından birinə rəhbərlik edən bu görkəmli alimi hər yerdə tanıyır, hörmət edir, ictimai və şəxsi keyfiyyətlərinə, böyük elmi uğurlarına, nəhayət, pedaqoji ustalığına görə hamı ona dərin ehtiram bəsləyir.

Professor Yusif Seyidov işıqlı, nurlu insandır. Onun işığına, onun nuruna çoxlarının ehtiyacı var və istəyən hər kəs bu işıqdan, nurdan öz payını alır. Müdriklik yaşında olan Yusif müəllimə bundan sonra da can sağlığı və yaradıcılıq uğurları arzulayırıq. Keçdiyi ömür yolunu o özü seçib. Bu gündən dünənə baxanda isə bu görkəmli alimin hansı şərəfli yolla gəlib bu yüksək zirvəyə çatmasını aydın görmək olur.

***Məmmədəli Qıpçaq***
***BDU-nun türkologiya kafedrasının professoru***
***1999***

# Yusif Seyidovun ədəbi-bədii fikir dünyası

Görkəmli alim Yusif Seyidovun Azərbaycan dilçiliyinin problemləri ilə bağlı yazdığı tədqiqat işləri qiymətli olduğu qədər, ədəbiyyatşünaslıqla, ədəbi tənqidlə bağlı əsərləri də dəyərlidir. Özü bu barədə belə yazır: "Mən ədəbiyyatşünaslığa və dilçiliyə vahid elm sahəsi kimi baxıram. Əlimə qələm alan gündən belə düşünmüşəm və yazılarımda filologiyanın süni şəkildə fərqləndirilən bu iki sahəsinə müvazi olaraq müraciət etmişəm, onların kəsişdiyi nöqtələri görmüşəm, ayrı-ayrılıqda hər iki sahədə tədqiqatlar aparmışam" (1, 15). Y.Seyidovun ədəbi fəaliyyətinin daha çox "yazıçı və dil" problemi kontekstində aparıldığını görürük. Onun görkəmli söz sənətkarlarının yaradıcılığına həsr etdiyi tədqiqatlarında sənətkar və dil xətti aparıcı mövqedə durur, yəni alimin ədəbi-tənqidi fikirləri dil problemi kontekstində özünü göstərir. Alim yazıçı və dil problemini, özü dediyi kimi, iki istiqamətdə tədqiq edir: 1) Yazıçının bədii əsərlərinin dili (üslubu, ifadə tərzi, sözdən istifadə etmək məharəti və s.); 2) Yazıçının dil haqqında, xüsusən bədii dil haqqında fikirləri. Sənətkar və dil problemi müstəvisində Yusif Seyidovun həm də fəlsəfi düşüncələri, etik və estetik baxışları öz əksini tapıb.

Y.Seyidovun ədəbi fikir dünyası bir sıra kitab və monoqrafiyalarında öz əksini tapıb – "Klassik Azərbaycan şairləri söz haqqında" (1977), "Yazıçı və dil" (1981), "Sözün şöhrəti" (1981), "Sözün qüdrəti" (1983), "Şairin fikir dünyası" (1985), "Ədəbi tənqid və bədii dil" (1986), "Sözün hikməti" (1989), "Şairin dərdi" (1996), həmçinin "Ey ulu dünya" (2003), "Mir Cəlal – 100. Ədəbi-bədii dil problemləri" (2008), "Xalq yazıçısı Elçin" (2012) və s.

Bu əsərlərində yazıçı və dil problemi çərçivəsində, yəni yazıçıların dilə münasibətindən, dil haqqındakı fikirlərindən bəhs edən zaman Y.Seyidov onların bədii yaradıcılığına, ədəbi prosesdəki yerinə nəzər salmaya bilməzdi. Özü də etiraf edir ki, o, "Yazıçı və dil" problemi fonunda sırf ədəbi qeydlər edib. Belə əsərlərində alim XI əsrdən başlayaraq müstəqillik dövrünə qədər böyük bir zaman kəsiyində yaşayıb yaratmış Azərbaycan yazıçılarının söz və sənət haqqında, dil və onun insan həyatında, cəmiyyətdə rolu, əhəmiyyəti barədə fikirlərini toplayıb sistemə salmış, ədəbi-tarixi ardıcıllıqla təsvir və təhlil etmiş, xalqın dilçilik, ədəbiyyatşünaslıq və estetik görüşlərinin yığcam salnaməsini yaratmışdır.

Professor Yusif Seyidovun Azərbaycan ədəbiyyatının tədqiqində yönəldiyi əsas istiqamət Maksim Qorkiyə istinad etdiyi ideyalar – "Ədəbiyyatın ilk ünsürü dildir; dil ədəbiyyatın əsas silahı, həyat faktları, hadisələri ilə birlikdə onun materialıdır" (2, 267).Yusif Seyidovun bədii sözün dəyəri haqqındakı fikirlərini ilkin olaraq "Klassik Azərbaycan şairləri söz haqqında" kitabında görürük. O, belə yazır: "Dil hamıdan çox yazıçıya xidmət edir, dilə də hamıdan çox yazıçı xidmət göstərir" (2, 268). Kitabda XI-XVIII əsrlərAzərbaycan şeir dili haqqında tarixi xülasə verilir.

Bədii dili "ədəbi dilin bəzəkli qolu" adlandıran Y.Seyidov "Klassik Azərbaycan şairləri söz haqqında" kitabında ədəbi dilin bədii dil hesabına inkişaf etməsi faktına diqqət yetirir. Alim Molla Pənah Vaqifin ədəbiyyat tarixindəki yüksək mövqeyinin, ilk növbədə, onun dili ilə bağlı olmasını, XX əsr Azərbaycan şairi Məhəmməd Hadi kimi böyük sənətkarın isə düşüncələrini sadə ana dilində deyə bilmədiyinə görə ümumxalq dil zəminində yurd sala bilməməsini yada salır. Professor Yusif

Seyidovun özünün də dili, hansı janrda yazmasından asılı olmayaraq, sadə, anlaşıqlı və oxunaqlıdır.

**“Sözün şöhrəti”, “Sözün qüdrəti”** və **“Sözün hikməti”** kitablarında Azərbaycan yazıçılarının və şairlərinin əsərlərinin dili, xüsusən, onların bədii dilin cəmiyyətdəki rolu haqqında, insanın əqli inkişafına, zövqünün formalaşmasına, etik və estetik tərbiyəsinə təsiri haqqında söylədikləri fikir və mülahizələri araşdırılır.

“Sözün şöhrəti” 1940-cı ilə kimi, “Sözün qüdrəti” isə 1940-cı ildən sonra yaradıcılığa başlamış Azərbaycan şairlərinin söz və sənət, bədii əsərlərin dili və üslubu haqqında fikirlərindən, ədəbi-bədii dilimizin inkişafında, ümumən, dil məsələlərinin həllində onların oynadığı roldan bəhs edilir.

“Sözün şöhrəti” kitabının girişində müəllif yazır ki, oxuculara təqdim etdiyi kitabında Azərbaycan sovet şairlərinin dil haqqında fikirləri toplanmışdır. Lakin əsəri oxuduqda məlum olur ki, orada həm də müəllifin özünün dil, söz və nitq haqqında bədii-fəlsəfi fikirləri hər addımbaşı özünü göstərir. Məsələn, sözün and, vəd funksiyasını, yəni etik funksiyasını qəhrəmanlığa çağırış kimi dəyərləndirən Y.Seyidov sözün psixoloji təsir qüvvəsindən danışır, bu fakta xüsusi diqqət yetirir. (4, 96).

Kitab üç hissədən ibarətdir. Birinci hissədə inqilaba qədər yaradıcılığa başlamış şairlərin (Əlağa Vahid, Əhməd Cavad, Bayraməli Abbaszadə, Hacıkərim Sanılı) dilimizlə bağlı fikirləri, düşüncələri və şeirləri haqqında danışılır. Dilimizin təəssübkeşləri olan bu şairlərin dilimizin təmizliyi, əcnəbi sözlərdən – fars və ərəb sözlərindən təmizlənməsi ilə bağlı fikirləri şərh edilir.

“Sözün şöhrəti” kitabının “Yeni dövrün ilk gənc yaradıcı qüvvələri” adlanan ikinci hissəsi iyirminci illərdən otu-

zuncu illərin birinci yarısınadək olan dövrü əhatə edir. Bu dövr şairlərini Y.Seyidov "yeni dövrün qaranquşları" adlandırır və belə yazır: "Lakin çox keçmədi, dövrün yeni yaradıcı qaranquşları görünməyə başladı; əvvəlcə tək-tək, az sonra isə bir-birinin ardınca mətbuat səhifələrində yeni-yeni imzalar oxundu. Onlar ədəbiyyata yeni həyat, yeni nəfəs gətirdilər. O vaxta qədər ağır addımlarla hərəkət edən ədəbiyyatımızı sakit axan dərin sulara bənzətsək, yeni qüvvələrin yaradıcılığını böyük coşqunluqla, səs sala-sala axan çaylarla müqayisə etmək olar" (4, 27).

Yusif Seyidov vətənə bütün varlığı ilə bağlı adam idi. Vətənə sevgisi onun, demək olar ki, bütün yazılarında özünü göstərirdi. O, şairlərin vətənlə bağlı şeirlərini xüsusi şövqlə araşdırır, öz hiss və duyğularını təsvir etməyi də unutmur. İki hissədən ibarət olan **"Sözün qüdrəti"** kitabının birinci hissəsi ***"Nədən başlanır VƏTƏN?"***adlanır. Burada alim maraqlı lirik ricət edir və ricətin sonunda yazır: "Burada müasir Fransanın görkəmli proqressiv rəssamı və publisisti Fransua Lejen Jan Effelin bu sözlərini də yada salırıq: "Vətən, hər şeydən əvvəl, dil deməkdir". Professor Y.Seyidov ana dilimizin təəssübkeşi olaraq bütün həyatını dilin elmi-nəzəri, ədəbi-bədii, ictimai-fəlsəfi mahiyyətini və funksiyalarını tədqiq etməyə həsr etmişdir. Dilimizlə bağlı bütün problemlər onu narahat edirdi, düşündürürdü. Y.Seyidov mili dil probleminə ciddi yanaşırdı. O, bütün respublikalarda, o cümlədən, Azərbaycanda milli dilin ictimai həyatın bütün sahələrində işlənilməsinin zəruriliyindən danışırdı: "Böyük və kiçikliyindən asılı olmayaraq, kadr seçilməsində ana dilini bilmək də əsas göstəricilərdən sayılmalıdır. Həyatda sınanmış bir həqiqəti yaddan çıxarmaq lazım deyil ki, ana dilinə, milli mədəniyyətinə, ədəbiyyatına, tarixinə biganə qalan, bunlara yuxarıdan baxan, hətta ana dilini bilməməklə

öyünən adamlardan öz xalqı üçün əsl rəhbər işçi ola bilmir" (3, 17). Alimin həm də bir pedaqoq kimi gənc nəslin tərbiyəsində ana dilinin öyrənilməsi faktoruna başlıca yer verməsi diqqəti çəkir: "Bəzi gənclərin öz ana dillərinə laqeydliyi şəxsi kəsir, şəxsi məhdudiyyət çərçivəsindən çıxır, belələri öz tarixinə, mədəniyyətinə, adət-ənənəsinə biganə qalır, öz milli mənliyini itirir, yenisinə isə tam yiyələnə bilmir, ortada qalır, mənəvi cəhətdən naqis olur. Onlar əslində heç bir xalqa mənsub ola bilmirlər. Ona görə də gənc nəslin bu cəhətdən də tərbiyəsi vacib vəzifələrdən sayılır" (3, 13).

1983-cü ildə qələmə aldığı "Sözün qüdrəti" əsərində 40-cı illərdən sonra yaradıcılığa başlamış Azərbaycan şairlərinin bədii söz, ədəbi-bədii dil, ana dili və başqa dillər haqqında fikirləri araşdırılır. Müəllif, özünün yazdığına görə, çalışmışdır ki, Azərbaycan Yazıçılar İttifaqının üzvü olan şairlərin hamısını kitabda əhatə etsin. Bu məqsədlə o, həmin şairlərin əsərlərinin hamısını nəzərdən keçirmiş, bəzən bir neçə kitabdan yalnız bir cümlə, bir misra seçə bilmişdir. "Bir də görürsən ki, nisbətən çox tanınan, daha populyar şairin əsərlərində dillə bağlı fikirlər az yer tutur; nisbətən az tanınan, bəkə də heç məşhur olmayan şair isə bu məsələlərə ayrıca şeirlər həsr etmişdir" – deyə müəllif az tanınan, yaxud da tanınmayan şairlərin fikirlərinə kitabda nə üçün çox yer ayırdığını izah edir.

"Sözün qüdrəti" əsərində xalq şairi Bəxtiyar Vahabzadənin dil problemi ilə bağlı fikirlərinin fundamental təhlili verilib; bu təhlil 345 səhifə həcmində olan əsərin yüz səhifəsini təşkil edir. Bütövlükdə isə əsərdə 82 şairin qoyulan problemə baxışı, münasibəti təhlil edilib.

Yusif Seyidovun "Yazıçı və dil" silsiləsindən olan növbəti kitabı **"Sözün hikməti"** adlanır. Bu kitabda xalq yazıçısı,

akademik Mirzə İbrahimovun və tənqidçi, ədəbiyyatşünas alim Məmməd Cəfərin bədii söz və bədii dil, sənətkar və dil, bədii tərcümə və digər məsələlərə aid fikir və düşüncələri alimin şərhləri kontekstində verilir. Y.Seyidov özünün dediyi kimi, yaradıcı insan üçün səciyyəvi olan məhsuldarlıq, obyektivlik, yüksək nəzəri və mədəni səviyyə, fəlsəfi düşüncə, ümumiləşdirmə qabiliyyəti, gözəl ədəbi-bədii dillə ifadə bacarığı bu ədibləri yaxınlaşdırdığı üçün onları ədəbi tənqidimizin və filoloji fikrimizin iki sütunu kimi təqdim edir.

Yusif Seyidovun "Yazıçı və dil" silsiləsinə aid olan kitablarından biri də **"Mir Cəlal – 100. Ədəbi-bədii dil problemləri"** monoqrafiyasıdır. Monoqrafiyada "böyük alim, ustad müəllim, görkəmli yazıçı" Mir Cəlal Paşayevin ədəbi-bədii dil barəsində mülahizələri araşdırılır; kitabda Yusif Seyidovun 1958-ci ildə (28 yaşında ikən) Mir Cəlalın 50 yaşı münasibətilə "Azərbaycan gəncləri" qəzetində çap etdirdiyi "*Şirin söz ustadı*" məqaləsinin verilməsi diqqəti çəkən faktdır.

Monoqrafiyada Y.Seyidov Mir Cəlal Paşayevi həm də pedaqoq kimi yad edir: "1947-ci ilin sentyabrın ilk günündə Mir Cəlal müəllim bizim auditoriyaya girib ədəbiyyatşünaslığa giriş fənnindən dərsə başladı. O zaman biz 17-18 yaşlı uşaqlar idik. Bizim üçün səmalar qədər uca, təmiz, aydın olan universitet həyatı başladı. Necə də şən və xoşbəxt idik. Necə sevinirdik. Qarşımızda böyük və uğurlu yol görürdük" (5, 207). Və həqiqətən, gənc tələbənin arzusu onu alim həyatının zirvə həddinə apardı. Gənc tələbə bilə bilməzdi ki, bir vaxt Səməd Vurğunun həyatının qəmli "epopeyasını" araşdırarkən böyük şair haqqında dediyi sözlər onun özünə də aid olacaq – "Böyük istedadlar ilk gənclik illərindən öz gələcəklərinə inanmışlar" (6, 9).

**"Şairin dərdi"** monoqrafiyası problemin qoyuluşu ba-

xımından Y.Seyidovun digər əsərlərindən bir qədər fərqlənir. Həcmcə müəllifin ən kiçik əsəri olan bu monoqrafiya hisslərin, duyğuların dərinliyi, emosional yaşantıların və fəlsəfi düşüncələrin zənginliyi ilə diqqəti cəlb edir. Y.Seyidov bu əsərində də çox sevdiyi sənətkarların yaradıcılığına təkrar-təkrar qayıdır, onların fikir və söz dünyasını qarış-qarış gəzir. Onun üçün Nizaminin, Füzulinin Nəsiminin sözü və söz haqqında düşüncələri müqəddəslik statusunda dayanır.Səməd Vurğun Y.Seyidovun çox sevdiyi və yaradıcılığına dönə-dönə müraciət etdiyi şairlərdən biri idi. "Sözün şöhrəti" kitabında Səməd Vurğun fenomeni "yazıçı və dil" kontekstində araşdırılırsa, "Şairin dərdi" monoqrafiyasında şair və dünya qarşılığında təhlil olunur. Y.Seyidov "Şairin dərdi" kitabında S.Vurğunun həyat və yaradıcılığında dərd fenomeninə tarixi-bioqrafik, sosial psixoloji və estetik yönlərdən baxır; böyük şairin mənəviyyat aləmini xarakterizə edən və "Vurğun və mühit" münasibətlərini tənzimləyən "dərd" problemini "şairin dərdi" kontekstində araşdırır.

Yusif Seyidovun son kitabı **"Xalq yazıçısı Elçin"** adlanır. Kitabda alimin epoxial yazıçı adlandırdığı, yazıçı və filoloq alim Elçin Əfəndiyevin yaradıcılığına ümumi nəzər salınır, söz və dil haqqında düşüncələri, dramaturgiyası araşdırılır. Əslində, Y.Seyidov Elçin yaradıcılığını bütöv halda təhlildən keçirmək istəyirdi, lakin "qələminin yorğun vaxtı" buna imkan vermir. Alim yaşının 83-nü haqladığını, artıq əvvəlki gücə, entuziazma sahib olmadığını söyləyir.

Vətənini, dilini, ədəbiyyatını və mədəniyyətini bütün varlığı ilə sevən Yusif Seyidov hələ gənclik illərindən başladığı və özünün həm peşə, həm də vətəndaşlıq borcu hesab etdiyi elmi yaradıcılıq işini ömrünün axırınadək uğurla və ləyaqətlə davam etdirdi.

**Ədəbiyyat**

1. Seyidov Y.M. Ey ulu dünya. Bakı, 2013
2. Seyidov Y.M. Əsərləri, 3-cü cild. Bakı, 2007
3. Seyidov Y.M. Sözün hikməti. Bakı, 1989
4. Seyidov Y.M. Əsərləri, 8-ci cild. Bakı, 2008
5. Seyidov Y.M. Mir Cəlal – 100. Bakı, 2008
6. Seyidov Y.M. Şairin dərdi. Bakı, 1996
7. Abdullayeva M.Ə. Yusif Seyidovun bədii-fəlsəfi düşüncələri. "Filologiyanın aktual problemləri" Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 2015

***Mətanət Abdullayeva***
***BDU-nun Azərbaycan dili***
***və ədəbiyyatının tədrisi metodikası***
***kafedrası, fəlsəfə üzrə elmlər doktoru***

## Elm səmasında parlayan ömür

Elmin zirvəsində yaşanan ömür mərhum professor Yusif Seyidov ömrüdür. Yusif Seyidov deyəndə – ilk növbədə gözlərimiz qarşısında işıqlı, nurlu bir səhər canlanır. Yusif müəllim elm fədaisi – böyük alim, filosof, görkəmli dilçi və ədəbiyyatşünas, tənqidçi-publisist və sözün əsl mənasında böyük pedaqoq idi. Bunu demək yerinə düşər ki, dəniz nə qədər təlatümlüdürsə, insan gücü də o qədər tükənməzdir. Günəş nə qədər parlaq və əbədidirsə, insan zəkası da həmişə işıq saça bilər. Təbiət və şəxsiyyət oxşarlığını, vəhdətini Y.Seyidov fenomenində açıq-aydın dərk etdik, -desək, yanılmarıq.

Yusif müəllimi 50 ilə yaxın bir vaxtdan – bizə dərs dediyi illərdən tanıyırıq. Lakin birgə işlədiyimiz müddətdə onun dilçilik elminin inkişafı üçün əzmlə çalışdığının canlı şahidi olduq. İnsan nə qədər yazar, nə qədər işləyərdi. İşə gələndən gedənə qədər qələm əlindən düşməzdi. Bu zəhmətsevərlik bütün insanlar, bütün gənclik üçün bir örnək deyildirmi? Onun yazıb-yaratdığı elmi əsərlər, monoqrafiyalar, dərsliklər, ədəbi-tənqidi məqalələr xalqımız üçün ən qiymətli sərvətdir.

Yusif Seyidovun elmi yaradıcılığı o qədər geniş, o qədər çoxşaxəlidir ki, bu yaradıcılığın hansı sahəsinə nəzər salsaq, çox dərin ideyaların, mürəkkəb elmi məsələlərin həllinin şərh edildiyini görərik.

Y.Seyidov görkəmli dilçi alim idi, filoloq idi. Dissertasiya müdafiə edənlər, alimlik dərəcəsi alanlar çoxdur. Lakin hər alim məktəb yarada bilmir. Yusif müəllim məktəb yaradan alimdir. Bir məqalə, yaxud bir elmi iş yazarkən Y.Seyidov yaradıcılığına istinad etmədən ötüşə bilmirik. Y.Seyidovun əsərlərindən sitat gətirir, onun ideyalarına əsaslanaraq yazdıqlarımızın düzgün olduğunu sübuta yetirməyə çalışırıq.

Y.Seyidov Azərbaycan dilinin qrammatikası, qrammatik quruluşu haqqında çox dəyərli əsərləri ilə Azərbaycan dilinin incəliklərini, zənginliklərini, kateqoriyalar, sintaqmlar sistemini əks etdirməyə müvəffəq olmuşdur. O, qrammatika tədrisinin çox da vacib olmadığını söyləyən metodistlərə sübut etməyə çalışırdı ki, qrammatika insanların nitqinin – istər şifahi, istər yazılı nitqinin tənzimləyicisidir. Buna görədir ki, kitablarının əksəriyyətində Lomonosovun aşağıdakı fikrini epiqraf kimi vermişdir: "*Qrammatikasız oratoriya kütdür, poeziya pəltəkdir, fəlsəfə əsassızdır, tarix xoşagəlməzdir, hüquqşünaslıq şübhəlidir". "Qrammatika elə dilin özüdür, lakin dil də qrammatikasız, qrammatik qayda-qanunlarsız keçinə bilməz*".

Y.Seyidov 1952-ci ildən hələ ADU-nun V kursunda oxuyarkən, tələbəlik illərindən başlayaraq məqalələr yazıb çap etdirmişdir. İlk kitabı isə 1958-ci ildə çap olunmuşdur.

Y.Seyidovun ilk fundamental əsəri "Azərbaycan dilində söz birləşmələri" kitabıdır. Azərbaycan dili sintaksisinin mühüm, aktual problemlərinə həsr edilmiş bu əsər, 1992-ci ildə yenidən işlənərək əlavələrlə çap olunmuşdur. Qeyd etmək lazımdır ki, əsərdə irəli sürülən nəzəri müddəalar bütün dilçilik elmi tərəfindən qəbul edilmiş, yüksək qiymətləndirilmiş və əsər bu gün də ali məktəblərdə dərslik, dərs vəsaiti kimi istifadə olunur. Akademik A.N.Kononov hələ 1977-ci ildə bu əsərin müəllifinin – Y.Seyidovun adını türk dilləri sintaksisinin əsas problemlərinin həllində böyük xidmətləri olan sovet alimlərinin sırasında çəkmiş, əsəri yüksək qiymətləndirmişdir. Əsərdə söz birləşmələrinin tədqiq tarixi, növləri, kriteriyaları göstərilmiş, bu sintaktik vasitənin sözlə, mürəkkəb sözlə, frazeoloji birləşmələrlə, cümlələrlə oxşar və fərqli xüsusiyyətləri, komponentlər arasındakı əlaqə növləri, komponentlərin ifadə vasitələri konkret dil faktları üzərində öz dərin elmi həllini tapmışdır. Əsərdə

istifadə olunan zəngin ədəbiyyat siyahısı, müəllifin bütün dünya dilçiliyindən xəbərdar olmasını təsdiq edir. Y.Seyidov bu sahədə bütün türkoloji ədəbiyyatı, rus dilçiliyini araşdırmış, Azərbaycan dilinin sintaktik quruluşunda söz birləşmələrinin bütün spesifik xüsusiyyətlərini açıqlamağa müvəffəq olmuşdur.

Azərbaycan dilinin zəngin qrammatik quruluşunu dərindən dərk edən görkəmli alim bundan sonra biri-birinin ardınca "Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər", daha sonra "Azərbaycan ədəbi dilində əlavə sözlər və əlavə cümlələr" adlı kitablarını yazır. Burada müəllif cümləni təşkil edən sözlər arasında həm qrammatik, həm də məna əlaqələrinin mövcudluğundan danışır. Bu mövzular onun ali və orta məktəb dərsliklərində də geniş yer alır.

Y.Seyidovun doğma dilə vurğunluğu, ana dilinə olan məhəbbəti müasir Azərbaycan dili çərçivəsində deyildi. Bu vurğunluq alimi Azərbaycan ədəbi dilinin tarixinə də baş vurmağa sövq edirdi.

O, 1969-cu ildə YUNESKO-nun Nəsiminin anadan olmasının 600 illik yubileyi ilə əlaqədar qərarından sonra bir-birinin ardınca Nəsimi haqqında silsilə məqalələr dərc etdirir. Yusif müəllim bununla kifayətlənməyərək 1996-cı ildə "Nəsimin dili" adlı kitabını nəşr etdirir. Kitabda şairin əsərlərinin dili XIV əsr Azərbaycan-türk ədəbi dilinin nümunəsi kimi təqdim edilir.

Görkəmli alim XI-XVIII əsrlər Azərbaycan şeir dili haqqında geniş araşdırmalar aparmış, Xətib Təbrizidən başlayaraq Vidadi və Vaqifə qədər Azərbaycan şairlərinin dili və sənətkarlığı haqqında gözəl əsərlər yazmışdır. "Klassik Azərbaycan şairləri söz haqqında" kitabı buna misaldır. Y.Seyidov klassik şairlərin dilini tədqiq etməklə yanaşı, dil tarixinə aid yazılmış əsərləri də nəzərdən qaçırmır və bu əsərləri də geniş təhlil edir.

1979-cu ildə Y.Seyidov "Yazıçı və dil" kitabını çap

etdirir. Bu kitabda XIX əsr və XX əsrin əvvəllərində yaşayıb-yaradan Azərbaycan yazıçılarının ədəbi dil uğrundakı mübarizələrdən danışır, ədəbi üslub, eyni zamanda dilin tədrisi haqqında maraqlı fikirlər söyləyir.

1986-cı ildə Y.Seyidovun "Ədəbi tənqid və bədii dil" kitabı işıq üzü görür. Bu kitabda 1960-80-ci illərin ədəbi prosesində dil və üslub məsələləri öz həllini tapmışdır.

1989-cu ildə Y.Seyidovun "Sözün hikməti" adlı monoqrafiyası nəşr olundu. Sözə, dilə vurğunluq bu kitabın əsas leytmotivini təşkil edir. Kitabda üç böyük mövzu əks etdirilir: I. Yeni dövr və ədəbi dil problemi; II. Mirzə İbrahimov; III. Məmməd Cəfər Cəfərov. Bu kitab onun "Yazıçı və dil" silsiləsindən olan araşdırmalarının davamıdır. Bu kitabda xalq yazıçısı M.İbrahimov və akademik Məmməd Cəfərin bədii söz, bədii dil, tərcümə, sənətkarlıq və s. məsələlərə dair fikir və düşüncələri öz əksini tapmışdır. "Sözün qüdrəti", "Sözün şöhrəti" kitabları da bu qəbildəndir.

"Sözün şöhrəti" 1981-ci ildə nəşr edilmişdir. Kitabda Ə.Vahid, Ə.Cavad, Ə.Cəmil, M.Dilbazi, M.Rahim, S.Rüstəm və b. sənətkarların əsərləri, şeirləri təhlil edilir.

"Sözün qüdrəti" kitabı 1983-cü ildə çap olunmuş və burada B.Vahabzadə, R.Rza, H.Arifin, İ.Səfərli, N.Həsənzadə, Xəlil Rza, F.Qoca və s. kimi şairlərimizin söz, dil haqqında maraqlı fikirlərindən bəhs edilmişdir.

Müəllifin ölməz şairimiz S.Vurğuna həsr etdiyi "Şairin dərdi" kitabı 1996-cı ildə çap olunmuşdur. Kitabda S.Vurğun yaradıcılığı yeni istiqamətdə təhlil edilir, sənətkarın şəxsi və ictimai kədərindən danışılır və müəllif bu kədərin səbəbini açıqlamağa çalışır, bu fonda öz kədərini, dərdini də sətiraltı göstərir: "*Mənim həyatım keşməkeşlərlə dolu olubdur. Uşaqlığım, ilk gənclik illərim iqtisadi çətinliklər içərisində keçib*".

Y.Seyidov dilçi alim kimi fəaliyyət göstərsə də, çox duyğulu bir insan idi. S.Vurğunun fəlsəfi düşüncələrini qələmə alan müəllif özü də bir filosof kimi çıxış edir. O, "Vaqif" dramından Vidadinin monoloqunu belə təhlil edir:

*Xudaya! İnsanın halı yamandır*
*Nələr çəkdiyimiz sənə əyandır.*
*Mənası varmıdır min təriqətin,*
*Aç, aç qapısını sən həqiqətin...*

- deyərək S.Vurğun Vidadinin dili ilə öz dərdini qələmə almışdır. Şairin dərdi bədbin və nikbin notlarla verilir. Əzab-əziyyətlərdən yorulan insan Allahdan kömək istəyir, yaxşılığın insana adət, dünyanın başdan-başa cənnət olmasını istəyir.

Y.Seyidov yaradıcılığını izləyərkən onun dilçi, tənqidçi, ədəbiyyatçı kimi fəaliyyətindən başqa, siyasətçi olması da nəzəri cəlb edir. 2001-ci ildə nəşr edilmiş iki cilddən ibarət "Demokratiyanın uzun yolu" adlı kitablarında müəllifin ictimai-siyasi məzmunlu məqalələri toplanmışdır. Bu kitablarda milli azadlıq hərəkatı, qazandığımız müstəqillik və demokratiyanın çətin yollarından bəhs edilmişdir.

2003-cü ildə mərhum professor "Ey ulu dünya" kitabını nəşr etdirir. Bu kitabda isə müəllifin insan və həyat, sənət və sənətkar, klassik və müasir ədəbi irsə dair ədəbi-elmi-nəzəri fikir və düşüncələrini əks etdirən məqalələri toplanmışdır.

Hamımıza məlumdur ki, Y.Seyidov bir çox ali və orta məktəb dərsliklərinin müəllifidir. Bunların hamısı haqqında danışmaq, əlbəttə, imkan xaricindədir.

2006-ci ildə ali məktəblər üçün "Azərbaycan dilinin qrammatikası", 2008-ci ildə çap olunmuş "Azərbaycan dilçiliyində qrammatika problemləri" adlı dərsliklər maraqlı və dilçilik elmimiz üçün çox gərəklidir. Burada: "Nitq hissələri

sözlərin dəqiqləşmiş ünvanıdır". "Bir söz bir nitq hissəsi ola bilər" – sifət-zərf, say-zərf məsələləri elmi, dəqiq və inandırıcı şəkildə izah edilir. Hal kateqoriyası, şəxs-xəbərlik kateqoriyası, feilin növ kateqoriyası və s. mövzular da geniş, elmi baxımdan yeni aspektdə izah edilmişdir.

2008-ci ildə "Mir Cəlal-100 – Ədəbi-bədii dil problemləri" adlı monoqrafiyasını çap etdirir. Bu kitabda müəllif böyük alim, yazıçı, müəllim, nəcib insan, alicənablığı ilə yaddaşlarda yaşayan Mir Cəlalın geniş yaradıcılıq sahələrindən biri olan ədəbi-bədii dil haqqında mülahizələrini qələmə almışdır.

2012-ci ildə yazdığı "Xalq yazıçısı Elçin" adlı monoqrafiyasında yazıçı, filoloq, ictimai xadim Elçinin yaradıcılığından bəhs edilir və yazıçının söz və dil haqqında düşüncələri geniş oxucu kütləsinə çatdırılır, dramaturgiyası təhlil edilir.

Y.Seyidovun yaradıcılıq diapozonu o qədər genişdir ki, bu yaradıcılıq yolu haqqında bir məqalə çərçivəsində məlumat vermək çətindir. Yekun olaraq xatırlatmaq istəyirik ki, Yusif müəllim ömrünün sonuna yaxın daha cidd-cəhdlə işləyərək bir arzusunu reallaşdırdı. O arzu edirdi ki, kitabları onu sevənlərin kitab rəflərində düzülsün, əsərləri ilə daim anılsın, xatırlansın, əbədi yaddaşlarda qalsın.

Yusif müəllim bu yola Allahın adı ilə çıxdı və 15 cildlik əsərlərini tamamlamağa tələsdi. Hər cildin əvvəlində yazırdı: "Allahın adı ilə başlayıram. Böyük yaradan mənə imkan versin ki, bu əsərimi də başa çatdırım". Və Böyük Allah ona imkan verdi ki, o, kitablarını hər biri 500-600 səhifədən ibarət olmaqla 11 cilddə öz sağlığında çap etdirib, dostlarına, tələbələrinə, onu sevənlərinə bağışlaya bildi. Kitabın girişində yazıb ki, "*Əsərlərimi 15 cilddə çap etdirməyi nəzərdə tutmuşam, əgər ömür vəfa etməsə, cildlərdən kənarda qalan əsərlərimi də yığıb çap etdirməyi məni tanıyanların öhdəsinə buraxıram*". Arzu edər-

dim ki, o gün olsun ki görkəmli alimin, müəllimin bu istəyi də yerinə yetsin, dörd cildi də tamamlansın.

Ölüm – həyat! Ölüm – əbədiyyət! Bu məsələlər poeziyanın daimi mövzusudur. Ölməz şairimiz Bəxtiyar Vahabzadənin fikrincə, ölümü mənalandıran əqidədir. Böyük əqidəli insanın ölümü də böyük olur. Şairin idealı ömrün mənasını duyan, həssas düşünən, özünü millətinin, bəşəriyyətin bir hissəsi hesab eləyən və öz ölümü ilə ömrünü mənalandıran insanlardır. Yusif müəllim öz qələmi ilə xalqına, vətəninə xidmət edən, mənalı həyat yolu keçən, böyük əqidə sahibi kimi xalqının yaddaşında həmişə yaşayan şəxsiyyətlərdən biridir. Onun keçdiyi şərəfli həyat yolu gəncliyə, tələbələrə örnək olmalıdır.

Yusif müəllim Azərbaycanın bütün klassik və müasir sənətkarlarını çox sevirdi. Bu sənətkarların içərisində Səməd Vurğunun yeri onun üçün məxsusi idi. Çünki Səməd Vurğun sənətin, poeziyanın Vurğunu idi, Yusif Seyidov isə elmin vurğunu idi. Bu vurğunluq hər iki sənətkarın düşüncə tərzindən, xalqına xidmət mövqeyindən, vətəndaşlıq ruhundan, mənəvi dünyasından irəli gəlirdi. Prof. Y.Seyidovun Azərbaycan dilçilik elminə bəxş etdiyi töhfələr – fundamental elmi əsərləri, tədqiqat əsərləri, dərslikləri, monoqrafiyaları zəngin bir xəzinədir. Bu xəzinə daim tədqiqat mənbəyi olaraq yaradıcısnı əbədi yaşadacaqdır.

***Rəhilə Quliyeva***
***BDU-nun Azərbaycan dili***
***və ədəbiyyatının tədrisi metodikası***
***kafedrasının dosenti***

ജ്ഞ

Yusif Seyidov üçün dildə kiçik fakt yoxdur; əksər hallarda onun əsas çıxış və dayaq nöqtəsi canlı dilin özü, yaxud yazılı mənbələrdir. O, ana dilinin hər kiçik ünsürü haqqında ehtiyatla, düşünə-düşünə danışır, əsərlərində, hətta qrammatik quruluşun riyazi dəqiqlik tələb edən qayda-qanunlarının araşdırılmasında oxucuya sirayət edən bir səmimiyyət vardır. Bəlkə də, onun əsərlərinin asanlıqla başa düşülüb sevilməsinin əsas səbəblərindən biri həmin əsərlərin vurğunluqla, məhəbbətlə və şövqlə yazılmasıdır. Yusif Seyidovun yaradıcılığı onu Azərbaycan Sovet dilçilik məktəbinin ön sırasına çıxarmışdır, öz həmkarları arasında ona dərin hörmət və nüfuz qazandırmışdır (1.8. Yazıcı və dil).

***Samət Əlizadə***
***Türkologiya kafedrasının***
***dosenti, filologiya elmləri namizədi***
***1979***

ജ്ഞ

Sizin «Şairin dərdi» adlı böyük Səməd Vurğuna həsr etdiyiniz kitabı bir nəfəsə oxudum. Bu, nəsrlə yazılmış kitab mənə romantik duyğu, alimanə tədqiqlər, zəngin bədii dil ilə yazılmış poema təsiri bağışladı. Eşq olsun Sizə, haqqı nahaqqa verməyən, sözləri qılıncdan kəskin alim!

***Xalq şairi Mirvarid Dilbazi***
***1996***

ജ്ഞ

Yusif Seyidov qəlbi, ruhu poeziya çələngi ilə hörülmüş, hər bir şeir parçasını sahmana salan, hər kəsi öz dilində dindirən böyük istedad sahibi, şöhrətli alimdir

***Filologiya elmləri doktoru,***
***professor, Əməkdar müəllim***
***İfrat Əliyeva***
***2016***

ʚɞ

Yuzif müəllim hər şeydən əvvəl təbiətən gözəl müəllim idi. Yəni, onda olan sadəlik, səmimiyyət, hər kəslə dil tapmaq bacarığı çox güclü idi. Bir alim kimi, o, çoxcəhətli idi. Hər şeydən əvvəl Azərbaycan dilçiliyinin praktiki problemlərini xüsusi ilə gözəl bilirdi. Eyni zamanda Yusif müəllim Azərbaycan ədəbiyyatını, xüsusən poeziyanı yaxşı bilirdi, yaxşı duyurdu, bədii əsərlərin ideya-estetik məziyyətlərindən kifayət qədər baş çıxarırdı. Onun ədəbiyyatşünaslıq məqalələri bu cəhətdən diqqəti cəlb edir.

Fakültəmizdə Yusif müəllimin yeri görünür və həmişə də görünəcəkdir!

***Təhsin Mütəllibov,***
***Azərbaycan ədəbiyyatı tarixi***
***kafedrasının professoru***
***2016***

# Yusif Seyidova ithaf olunmuş şeirlər

## Mənim müəllimlərim

Məni mən eyləyənlər, mənə qüvvət verənlər,
Allahımı tanıdıb, mənə qüdrət verənlər,
Torpağımı sevdirib mənə cürət verənlər,
Əlimdən tutub mənə "ana" sözün yazdıran
Vətən məhəbbətini möhür kimi qəlbimə
Əbədilik basdıran, mənim cəfakeşlərim!
Əziz müəllimlərim! İnsan mühəndislərim!
Möhtərəm alimlərim! Hansını söyləyim mən?
Yusif, Təhsin, Əlövsət, onlar çoxdur, mənsə tək.
Hər birinin önündə minnətdardır bu ürək.
Ömrün hər yoxuşunda bir əl uzandı mənə.
Qoruyucu mələklər enmişdi yer üzünə.
Biri ciddi, qayğılı, biri mənəvi tacım.
Hər birinə həyatda var böyük ehtiyacım.
Mənim arxalandığım mənəvi dayaqlarım!
Sönməyən çıraqlarım – İfrat, Təhminəxanım!
Siz mənim ürəyimdə solmayan baharsınız,
Siz mənim taleyimdə əbədilik varsınız.

***Məhbubə Qurbanova***
***2016-cı il***

## Yusif müəllimə ithaf

Elm, alim, üləma - insanlığın xilası,
Bəşərin yüksəlişi, ağızların duası.
Qaranlıqdan, dar yoldan çıxaran bir qüvvəni
Alçaqda yox, ucada görmək olur qübbəni.
İnsanlıq tarixində ziya yolu göstərmiş,
Elmin sərdabəsində şah nöqtəyə yüksəlmiş
Dağların kölgəsi də təpə deyil, dağ olur,
Şöhrət sevməyən alim öləndə də sağ olur!

Ulduzlu səmalarda işıq yolu görünür,
Alimin xatirəsi ürəklərdə döyünür.
Ağıl, təfəkkür odu kağızlara nur saçır,
Hər alim millətiyçün yeni səhifə açır.
“Bilik xilasdır” - deyən peyğəmbərin kəlamı,
Nadanlıqdan çıxaran alimlərin məramı
Bəşər üçün bir udum şəffaf su ola bilib,
Allah əsil alimə ən yüksək məqam verib!

Xalqı, dövləti üçün təmənnasız iş görmüş,
Elm məbədgahmın təməlin düzgün hörmüş,
Uşaqlığın acısın elmin nuruna qatan,
Dəyərlilər içində öz dəyərini tapan,
Əqlinin ziyasından insanlara pay düşən,
Qələminin ucunda xeyirlə şər döyüşən,
Alimlərin haqq işi əbədiyə uzanır,
Uca məramlı insan rəhmətini qazanır!

***Mətanət Abdullayeva***
***18 noyabr 2016-cı il***

## Müəllimim və ustadım
## Yusif Seyidovun əziz xatirəsinə

***«Sən getdin, elə bil dünya boşaldı»-****mahnısından*

Sənlə dünya yaman maraqlı idi
Sən getdin, həyata maraq azaldı.
Sənlə işıqlı idi, çıraqlı idi
Sən getdin, çıraqlar söndü, sozaldı.

Dünya məhvərindən çıxıb elə bil,
Ruhumu təkliyim incidir yaman.
Dünyanı başıma yıxıb elə bil
Yollar da çiskinli, göylər də duman…

Bir anlıq qayıtsan xoş baxışınla,
İnan ki, ömrümü qurban verərdim,
Dünyamı bəzərdin söz naxışınla
Ondan sonra nə azarım, nə dərdim…

Qayıt, sən ruhuma, qəlbimə, ustad!
Qayıt ki, bu dünya yenə şadlansın…
Qayıt bu dünyanın gözəllər şahı
Yenə sənin adın ilə adlansın.

***Əhəd Cavadov***
***2016-cı il***

# XATİRƏLƏR

# Görkəmli alim, xeyirxah insan

Görkəmli dilçi alim, xeyirxah və nəcib insan, filologiya elmləri doktoru, Dövlət Mükafatı laureatı, Əməkdar Elm Xadimi, professor Yusif Mir Əhməd oğlu Seyidov ölkəmizin, o cümlədən Bakı Dövlət Universitetinin ən dəyərli ziyalılarından biri kimi adını tarixə qızıl hərflərlə yazmışdır. 1929-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yengicə kəndində anadan olmuş Yusif Mir Əhməd oğlu Seyidov gənc kadr kimi 38 yaşında – 1967-ci ildə artıq professor adını qazanmışdı. Azərbaycan dilçilik elminin nüfuzlu simalarından olan Y.Seyidov Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının ilk müdiri seçilmiş, 35 ildən artıq həmin kafedraya rəhbərlik etmişdir. Yusif müəllim böyük ziyalı, görkəmli alim kimi Universitetdə yüksək nüfuz sahibi olmuşdur. Prinsipial mövqeyi, qətiyyəti, hərtərəfli biliyi ilə kollektivdə dərin hörmət qazanmışdır. Uzun müddət BDU Metodiki Şurasına rəhbərlik edən Yusif müəllim həm də Elmi Şuranın üzvü olmuş, orada ən həlledici anlarda müdrik fikirləri ilə çıxışlar etmişdir. Yusif müəllimlə görüşlərimizdə, fikir mübadilələrimizdə universitetimizin, elmimizin inkişafı ilə bağlı ondan dəyərli məsləhətlər alırdım. Hamı bilir ki, rektorun həmişə vaxt qıtlığı var və bu seyt-not zamanında əgər kiminləsə söhbət etməyə vaxt tapılırsa, demək həmin adam xüsusi adamdır. Professor Yusif Seyidov belə şəxsiyyətlərdən idi.

Azərbaycan klassik dilçiliyinin görkəmli nümayəndəsi Y.Seyidov filologiyanın nəzəri və tətbiqi problemlərinə aid 150-dən çox elmi əsərin, o cümlədən 30-dan çox kitabın (monoqrafiya, dərslik və dərs vəsaitlərinin), onlarla publisist qəzet məqaləsinin müəlifidir. Yusif müəllim Azərbaycan dilçiliyində,

ümumən türkologiyada görkəmli mütəxəssislərdən hesab olunur. Onun elmi-tədqiqat sahəsi Azərbaycan filologiyasının bir sıra əsas problemlərini əhatə edir, əsərləri elmi-nəzəri səviyyəsi, metodoloji kamilliyi ilə fərqlənir. Professor Yusif Seyidovun «Azərbaycan dilində söz birləşmələri», «Azərbaycan dilinin qrammatikası. Morfologiya», «Ey ulu dünya», «Nəsiminin dili», «Şairin dərdi» və s. kimi əsərləri haqqında çoxsaylı məqalələr yazılmış və onlar filologiyamızın uğurlu tədqiqatları kimi qiymətləndirilmişdir. Alimin 1978-ci ildən indiyə kimi dəfələrlə nəşr olunan «Azərbaycan dili» dərsliyi ali məktəblərin rus bölmələrində yeganə dərslik kimi istifadə olunur. Yusif müəllim, eyni zamanda, ümumtəhsil orta məktəblərinin VI, VII, VIII və IX siniflərinə aid «Azərbaycan dili» dərsliklərinin müəlifidir.

Dilçiliyin bir çox sahələrinə dair araşdırmalar aparmış alimin əsərləri orijinalliği, elmi-nəzəri səviyyəsi ilə seçilmişdir. Tənqidçi və ədəbiyyatşünas kimi nüfuz qazanan Yusif Seyidov Azərbaycan ədəbiyyatşünaslığı və dilçilik elminin tarixində bir sıra sanballı əsərlərə imza atıb və Azərbaycan dilinin sintaksisi öz inkişaf meyarlarına görə məhz Yusif Seyidova minnətdardır.

Yusif müəllim universitetin və respublikanın ictimai həyatında fəal iştirak edirdi. O, 1970-ci illərdə fakültə partiya təşkilatının katibi, universitet partiya komitəsinin üzvü, 1985-2006-cı illərdə universitet metodşurasının, bir neçə il Təhsil Nazirliyi Elmi Metodik Şurası filologiya bölməsinin sədri olmuşdur. AAK-nın Ekspert Şurasının sədr müavini kimi fəaliyyət göstərmişdir. Yusif müəllim gənc dilçi kadrların və ali məktəb müəllimlərinin yetişməsinə böyük əmək sərf etmiş, çoxsaylı elmlər namizədlərinin elmi rəhbəri, elmlər doktorları və elmlər namizədlərinin dissertasiya müdafiələri üzrə rəsmi

opponenti kimi çıxış etmişdir.

Professor Yusif Seyidov universitet kollektivinin xatirində yüksək mənəviyyatı, ziyalılığı, insanpərvərliyi ilə qalmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinə hörmət ilə yanaşan alim müəllim kimi fəaliyyət göstərdiyi illərdə tələbələrinə də bu müqəddəs hissləri aşılamış, onları Vətənə sədaqətlə xidmətə səsləmişdir. Nümunəvi həyatı və fəaliyyəti ilə hər birimizin yaddaşına həkk olmuş professor Yusif Mir Əhməd oğlu Seyidovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

***Abel Məhərrəmov,***
***BDU-nun rektoru, akademik***

## Filologiya elmləri doktoru professor Yusif Seyidovun əziz xatirəsinə

Yusif Seyidov sözün əsl mənasında peşəkar bir dilçi idi. Onun yazdığı kitablar və dərsliklərdə Azərbaycan dilinin elə incə məqamları, elə spesifik xüsusiyyətləri təhlil edilmişdir ki, onları ancaq yüksək professional hazırlığa malik olan mütəxəssis-alim edə bilər.

İlk baxışda Yusif müəllimin bəzi yazıları kiməsə quru görünə bilər, lakin onun yazılarının dərinliyinə vardıqda Yusif müəllimin çox həssas, linqvistik məsələlərin şərhində onun nə qədər dərin biliyə malik bir mütəxəssis olduğu özünü büruzə verir. Dilçi olmasına baxmayaraq o, həm də ədəbi tənqidlə də məşğul olurdu. Onun ayrı-ayrı şair və yazıçıların dili və əsərlərinin təhlilinə həsr olunmuş məqalə və monoqrafiyaları onun həm də ədəbiyyatı dərindən bildiyini göstərir.

Rəhmətlik Yusif müəllim çox məhsuldar bir alim idi. İndiyə qədər onun on beş cildlik əsərlərinin külliyyatının on bir cildi nəşr edilmişdir.

Dilçiliyə və ümumiyyətlə filologiyanın müxtəlif sahələrinə dair bu qədər sanballı monoqrafiya, dərslik, dərs vəsaiti və məqaləni yazıb nəşr etdirmək, necə deyərlər, hər oğulun işi deyil. Belə bir çətin işin öhdəsindən rəhmətlik Yusif müəllim kimi yüksək istedada, intellektə malik olan mütəxəssis gələ bilər.

Yusif müəllim Azərbaycan dilçiliyi tarixində özünəməxsus yer tutmuş bir alim, bir müəllim kimi daim yaşayacaqdır.

***Vasim Məmmədəliyev,***
***akademik***

# Gözəl insan, böyük alim

Həyatda elə insanlar var ki, elm tarixinə adını yazır, müəyyən iz qoyub gedir. Dahi Nizami Gəncəvi demişkən, hər şeydən ucadır alimin adı. Bəzən gözlərim önündən gəlib keçir, unudulmaz xatirələrdən boy qaldırır Yusif. Belə anlarda düşünürəm ki, nə yaxşı ki, Azərbaycan xalqının ömrünü elmə həsr eyləyən belə alimləri var. O, özündən sonra kadrların yetişdirilməsində də fəaliyyət göstərmiş, işlədiyi kollektivin dərin hörmət və ehtiramını qazanmışdır. Elmə töhvə verdiyi tədqiqatları onun alim kimi qiymətləndirilməsinə səbəb olur, fəqət Yusifi ucaldan insani keyfiyyətləridir.

Yusif Seyidov mənim unudulmaz dostum və şəxsiyyətinə böyük hörmət etdiyim alimlərdən biridir. Onunla mənim tanışlığımın 45 ildən çox yaşı var. O, mənim nəzərimdə sadə, səmimi, özü bütöv, sözü bütöv bir insan idi, istiqanlı, vətən-canlı insan. Yusif müəllim hər şeydən əvvəl müəllim şərəfini yüksək daşıyan, ona məbəd və ocaq kimi baxan təhsil işçisi idi.

E.ə. IV əsrdə yaşamış yunan alimi Platon yazır ki, vali-deynim məni göydən yerə endirdi, müəllimim məni yerdən göyə qaldırdı. Bu yerdə Şərqin böyük mütəfəkkiri Sədi Şirazini xatırlamamaq olmaz. Onun təbirincə desək: Şah oğlunun əlindən tutub mədrəsəyə apardı, gümüş lövhənin üzərinə qızıl hərflərlə bu sözləri yazdı: «Mən valideynlərimin nəvazişindən çox, müəllimimin tələbkarlığına borcluyam». Bu hikmətli, ibrətamiz müdrik kəlamları deməkdə məqsədim ondan ibarətdir ki, əzizim, mehribanım Yusif Seyidov belə müəllimlik şərəfinə layiq təhsil işçisi idi. Yusif müəllim həm də son dərəcə istedadlı, zəhmətsevər dilçi alimlərimizdəndir. Onun coxsaylı elmi əsərləri təkcə tələbələrin deyil, geniş oxucu kütlələrinin

nəzərini cəlb edən qiymətli əsərlər cərgəsindədir. Məhəmməd Peyğəımbərimiz buyurub ki, elm Çində də olsa, onun arxasınca gedin. Bir də deyib ki, alimin bir damla mürəkkəbi yüz şəhidin qanına bərabərdir. Unudulmaz Yusif Seyidov bu şərəfi uca tutan alimlərdən idi. Bu yerdə bəzi xatirələrim yada düşür. Mənim "Anam birdi, vətən tək" bayatılar kitabım çıxanda bununla bağlı qəzetdə Yusif müəllimin bir məqaləsi çıxdı. Orada mənim görkəmli şair və bayatı ustası olduğum ürək sevinci ilə qeyd edilmişdi. Məqaləni oxudum, pərişan oldum. Ona zəng çaldım və ay Yusif müəllim, səninlə təcili görüşmək istəyirəm və görüş zamanı dedim: - Sən məni biyabır eləmisən, məndən nəinki, görkəmli şair, heç həvəskar şair də olmaz. Qucaqlaşdıq, o gülümsəyərək "mən bilirəm nə yazmışam, sən hər bir şeyə layiq ziyalısan"- dedi. Bir dəfə də Naxçıvana birgə getdik. O, dövlət imtahan komissiyasının sədri kimi, mən də Naxçıvanın arxeoloq və etnoqrafları ilə görüşə gedən bir alim kimi. O, səmimi söhbət əsnasında möhkəm giley-güzar elədi ki, akademiklər mənim əməyimi layiqincə qiymətləndirmədilər. AMEA-nın müxbir üzvülüyünə ərizə vermişdim. Bu sözdən sonra mən bir az utandım və üzr istədim ki, tək məndən asılı olan məsələ deyil. Yusif dedi ki, ay Teymur müəllim, mən səni yaxşı tanıyıram, ürəyinə bələdəm. Bir güllə yaz açılmaz. Canın sağ olsun.

Çox keçmədi ki, Yusif Seyidov dünyasını dəyişdi. Dostumu itirdim. Unudulmaz dostumu, gözəl müəllim, böyük alim və gözəl ziyalı olan dostumu. Əlimizdən nə gəlir ki, qəbrin rahat, ruhun şad olsun deyirəm, ay Yusif.

***Teymur Bünyadov,***
***akademik***

# Ulduz ömürlü İnsan

Azərbaycan Respublikasının çox ucqar dağ kəndlərindən birindən başlayaraq, Yer Kürəsinin 3 böyük qitəsində 100 min km-lərlə məsafə qət etdiyim 70 illik ömür yolumda olduğum ictimai, siyasi, təhsil, elm, mədəniyyət məkanlarında rastlaşdığım və ünsiyyətdə olduğum yadda qalan insanların – nəhəng siyasətçilərin, görkəmli alimlərin, incəsənət xadimlərinin, sadə peşə və əmək adamları sırasında çox şirin və xoş xatirələrlə yadımda qalan insanlardan biri də, heç də hər kəsdə olmayan ali insani keyfiyyətlər sahibi, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikası Dövlət Mükafatı Laureatı, Əməkdar Elm Xadimi, Prezident Təqaüdçüsü ilə yanaşı, başqa mükafat və fəxri adları da olan Yusif Mirəhməd oğlu Seyidov, daha dəqiq ünvanı ilə dedikdə isə, sözün şöhrətini, qüdrətini, hikmətini, dəyərini lazımınca anlayan, qiymətləndirən; sözün, dilin və onların insan həyatındakı, cəmiyyətdəki əhəmiyyətini, rolunu həmsöhbətlərinə doğru, dürüst çatdıra bilən, səmimi, təvazökar, çox mürəkkəb mətləbləri sadə şəkildə şərh edə bilən yumşaq qətiyyəti və təmənnasız sadəliyi ilə onu tanıyanların rəğbətini, hörmətini qazanmış, onların yaddaşında özünə əbədi bir abidə yaratmış Yusif müəllimdir.

Xoş bir təsadüf nəticəsində elə alınmışdı ki, mən Yusif müəllimi hələ 1963-cü ilin yayında rayondan Bakıya gəlib, Bakı (o vaxtkı Azərbaycan) Dövlət Universitetinin Fizika Fakültəsinə qəbul imtahanları verdiyim vaxtdan uzaqdan-uzağa tanıyırdım. Həmin vaxtlar mən iyul-avqust aylarında indiki "Elmlər Akademiyası" metro stansiyasının qarşısında olan və "Universitet müəllimlərinin həyəti" adlanan məhəllədə kirayədə

qalırdım (İndi həmin məhəllə və evlər yoxdur. Deyilənə görə, həmin evlər qəza vəziyyətində olduğundan onları söküb, yerində çox gözəl arxitekturaya malik çoxmərtəbəli binalar tikiblər). Həmin vaxt qəbul imtahanlarının hamısından (beş fəndən) bütün Universitet üzrə "əla" qiymət almış 2 nəfər abituriyentdən biri olmaqla bərabər, mənə başqa da iki (heç də hər abituriyent həmkarıma nəsib olmayan) xoşbəxtlik nəsib olmuşdu. Birincisi o idi ki, mən kirayədə qaldığım mənzilin üstündəki mənzildə məşhur və sevimli müğənni Sara Qədimova öz oğlu (hələ kiçik yaşlı məktəbli olan) Akif İslamzadə ilə yaşayırdı. Ikincisi isə o idi ki, çox vaxt darıxanda və ya dərs oxuyub- yorulanda eyvana çıxıb, həyətə baxarkən mənimlə birlikdə həmin mənzildə kirayədə qalan və məndən xeyli yaşlı olub, Azərbaycan EA Fizika İnstitutunda çalışan oğlan axşamüstü həyətdə gəzişib-söhbətləşən adamları mənə göstərib deyirdi: "Bax, onlar sənin gələcəkdə təhsil alacağın Universitetin müəllimləridir – Yəhya Məmmədov, Fərhad Zeynalov, Qafar Əfəndiyev, Hüseyn Çəndirov və başqaları, o cümlədən də 30 yaş ətrafında olan ortaboylu, xüsusi saç düzümlü, həmişə də Fərhad Zeynalovla qoşa gəzişən Yusif Seyidov.

Ancaq mənim kirayəniş "həmkarım" deyirdi ki, Yusif müəllim onların İnstitutunda çalışan məşhur nəzəriyyəçi fizik alim Yühənnaz Seyidovun qardaşıdır. Sonralar mən Yühənnaz müəllimi tanıyanda gördüm ki, doğrudan da Yusif müəllimlə o, bir-birlərinə çox oxşayırlar, həmyaş və həmyerlidilər, ancaq nəinki qardaş, heç bir-biri ilə qohum da deyillər. Onlardan biri Mirhəsən, digəri isə Mirəhməd oğludur.

Universitetə qəbul olunandan sonra uzun müddət, yəni 1970-ci illərin ortalarınadək mən Yusif müəllimi cəmi bir neçə dəfə – Universitetdə keçirilən bəzi tədbirlərdə, 1 May və 7

Noyabr Bayram Nümayişlərində gördüm. Çünki həmin vaxtlar filologiya fakültəsi Universitetin köhnə, bizim fakültə isə – təzə binasında yerləşirdi.

Nəhayət, Universitetin təzə binasının "Filologiya korpusu" tikilib, istifadəyə verildi və 1970-ci illərin ortalarında Filologiya Fakültəsi də bu binaya köçdü. Yusif müəllimin müdir olduğu "Azərbaycan dili" kafedrası Fərhad müəllimin (Zeynalovun) müdir olduğu "Türkologiya" kafedrası ilə həmin korpusda, eyni mərtəbədə, qonşu otaqlarda yerləşirdi.

Mən bayram günlərində və başqa əlamətdar günlərdə Fərhad müəllimi təbrik etmək, yaxud da sadəcə olaraq görüşmək üçün onun kafedrasına gedərdim. Bu zaman demək olar ki, hər dəfə Yusif müəllimlə də rastlaşar, görüşərdim.

Yusif müəllim Universitetin ən gənc elmlər doktorlarından olmuşdu – 34 yaşında. Ətrafdakılar onun savadına, hərtərəfli fundamental və ensiklopedik biliyinə, işgüzarlığına, alimliyinə qibtə qarışıq, həm də böyük hörmətlə yanaşırdılar. O isə öz ətrafındakılara, xüsusilə də gənc mütəxəssislərə, tələbələrə çox diqqət və qayğı göstərirdi.

Zaman keçdikcə mənimlə Yusif müəllim arasındakı münasibətlər daha da istiləşdi və dərinləşdi. Sonralar (1970-ci illərin sonlarında) mən də elmlər doktoru, professor, 1990-cu illərin əvvəllərində isə - kafedra müdiri, Müstəqil Azərbaycan Respublikasının Təhsil Nazirinin Müavini, vaxtaşırı Nazir Əvəzi vəzifələrində oldum. Bu məqamların hamısında mən Yusif müəllimə öz işini yaxşı bilən bir alimlə yanaşı, həm də bir müdrik ağsaqqal kimi münasibət göstərir, onu keçirdiyimiz vacib tədbirlərə dəvət edir, onun elmi-pedaqoji iş təcrübəsindən və ağıllı məsləhətlərindən bəhrələnməyə çalışırdım. (Bütün bunlar bizim ümumi işimizin – təhsilimizin xeyrinə idi).

Həmişə hiss edirdim ki, Yusif müəllim də mənim uğurlarıma sevinir, fərəhlənir. O, həm də mənim gördüyüm müsbət işlərə və buraxdığım səhvlərə də dolayısı ilə öz münasibətini bildirirdi. Belə ki,hərdən Yusif müəllimin də iştirak etdiyi hansısa bir rəsmi tədbirdə, yaxud da qeyri-rəsmi bir söhbətdə mənim işlətdiyim bəzi diqqətəlayiq söz və ifadələri Yusif müəllim dərhal tutur və sonra imkan düşən kimi mənə: "Əhməd, dilçi biz, ədəbiyyatçı biz ola-ola, sən belə baməzə və daşdan keçən sözləri, ifadələri haradan tapıb-deyirsən?" – deyə soruşardı. Mən də ona cavabında deyərdim: "Yusif müəllim, gör bir neçə illərdir ki, mən sizlərlə birlikdəyəm. Ona görə mən də yavaş-yavaş filoloq oluram." O da gülümsəməklə mənim bu cavabımdan da mənmun olduğunu bildirərdı.Mənim keçirdiyim, yaxud iştirakçısı olduğum hansısa bir tədbirdə iştirak edən Yusif müəllim həmin tədbirdən sonra mənimlə rastlaşanda, yaxud da telefonla danışanda deyərdi:"O günkü tədbirdə niyə isə çox əsəbi idin." Yaxud da: "O günkü tədbirdə çox yorğun görünürdün."Onun bu sözlərindən mən dərhal anlayardım ki, həmin tədbirdə ya həddən artıq emosionallığa, ya da biganəliyə yol verrmişəm.

Başqalarından fərqli olaraq, Yusif müəllim mənə heç vaxt tutduğum vəzifələr və titullarımla yox, ağız dolusu və şirin bir ifadə ilə sadəcə adımla, yəni "Əhməd" – deyə müraciət edirdi. Mən bundan çox xoşlanırdım. Sonralar bildim ki, onun oğlunun da adı Əhməddir.

Mən Respublika Təhsil Nazirinin müavini vəzifəsində çalışarkən dərsliklər məsələsinə birbaşa məsul olan rəhbər şəxs idim. 1990-cu illərin əvvəlində qəfildən bizim qarşımızda çox qısa müddət ərzində orta məktəb dərsliklərinin tamam yeni məzmunda yazılıb, çap olunması tələbi qoyuldu. Bu, çox çətin

və məsuliyyətli bir iş idi. Mən bu məsələ ilə bağlı təcili və geniş tərkibli bir müşavirə keçirtdim. Müşavirə iştirakçıları tərəfindən müxtəlif təkliflər irəli sürüldü. Yusif müəllim isə vəziyyətin gərginliyini nəzərə alaraq, heç bir təklif irəli sürmədən, 6-7-ci siniflərin "Azərbaycan dili" dərsliklərini tələb olunan vaxtda hazırlamağı öz üzərinə götürdü. O, həmin işin öhdəsindən layiqincə, şərəflə və ən başlıcası isə vaxtında gəldi. 1997-1999-cu illərdə "Kitabi-Dədə Qorqud" Dastanlarının 1300 illik Yubileyinin keçirilməsi ərəfəsində bizim təşkil etdiyimiz tədbirlərdən birində söhbət əsnasında mən Yusif müəllimə müraciətlə: "Bəlkə "Kitabi-Dədə Qorqud" Dastanlarının dilində fel məsələlərinə dair ciddi bir tədqiqat işi aparılsa, həmin Abidənin məhz bizə, yəni azərbaycanlılara məxsus olduğu bir daha sübut olunar. Çünki bildiyimə görə bizim dilimizə başqa dillərdən çoxlu sayda müxtəlif nitq hissələri keçsə də, fel keçməyib". O, yenə də həmişəki kimi gülümsəyərək və çox maraqlı baxışlarla məni süzərək: "Bu fikir sənin öz fikrindir? Belədirsə, deməli, elə sən də biz düşündüyümüz kimi düşünürsən. Belə tədqiqat işləri aparılır" – dedi. Bir neçə ildən sonra mənim Sevinc qızım da Yusif müəllimin Elmi Rəhbərliyi ilə " Kitabi-Dədə Qorqud" dastanlarının dilində feili birləşmələr" mövzusunda namizədlik dissertasiyası işinı uğurla müdafiə etdi. Həmin müdafiədə Müdafiə Şurası üzvlərindən biri Sevincə sual verdi ki, onun dissertasiyaişi "Kitabi-Dədə Qorqud" dastanlarının hansı mıllətə və ya xalqa mənsub olması barədə konkret bir söz deməyə imkan verirmi? Sevinc dərhal həmin professorun sualına cavab verib-dedi: "Bu məsələ artıq çoxdan öz sübutunu tapıb. Bununla belə, mənim apardığm tədqiqatların nəticələri də göstərir ki, "Kitabi-Dədə Qorqud" Dastanları, heç kəsə yox, məhz və yalnız Oğuz Türklərinə, yəni bizim Soykö-

kümüzə məxsusdur. Sevincin bu cavabı hamını razı saldı. Yusif müəllim isə Sevincin qətiyyətli və məzmunlu cavabından sevinərək, dərhal mən tərəfə baxdı.(Bizim hər ikimiz yenə də eyni cür sevinirdik-birimiz övladımızın, digərimiz isə şagirdimizin uğuruna).

Mənə elə gəlirdi ki, Yusif müəllim son vaxtlar bir tənhalıq hissi keçirir. Bəlkə də bu onunla bağlı idi ki, onun illərlə yaxın ünsiyyətdə olduğu dost, yoldaş və həmkarlarının əksəriyyəti artıq Dünyasını dəyişmişdi. Buna görə də, mən hərdən ona daha çox diqqət və qayğı göstərməyə, tənhalığını ona unutdurmağa çalışırdım. Əksər vaxtlarda Yusif müəllimin mənim ona belə münasibətimdən daha artıq, mənim öz uğurlarımdan sevinib-fərəhləndiyini hiss edirdim.

Yusif müəllim hərdən həmkarlarından, işçilərindən, Dünyasını dəyişmiş dost və yoldaşlarının övladlarından olan kimə isə köməklik etməyi məndən xahiş etsə də, heç vaxt öz şəxsi problemləri ilə bağlı mənə müraciət etməzdi.

Mənim fikrimcə, kimliyindən asılı olmayaraq, yaxşı İnsanlar Dünyalarını dəyişdikdən sonra onların əsil dəyəri daha düzgün verilir. Bu fikrim elə Yusif müəllimin timsalında da təsdiqlənir.

Mən Yusif müəllimi xatırlayarkən Ulduzlar yadıma düşür. Əlbəttə, indi dəbdə olan və bəzilərinin öz adlarının qarşısına yazdıqları "Ulduzlar" yox, səmadakı Ulduzlar. Hamıya olmasa da, biz fiziklərə yaxşı və dəqiq məlumdur ki, Səmadakı Ulduzlar yalnız müəyyən zaman müddəti ərzində fiziki mövcud olurlar. Sonra onların hər biri öz cismani ömrünü başa vurur və yox olur – yanır, buxarlanır, parçalanır və s. Ancaq cismən yox olmuş hər bir Ulduzun bundan sonra da uzun müddət (milyon illərlə) şüası, ziyası, işığı, parıltısı qalır, müşahidə olunur və biz

onun öldüyünü hiss etmirik.

Yusif müəllim də bizim ziyalılar, alimlər, təhsilçilər, dostlar və yoldaşlar Dünyasının, Aləminin Ulduzlarındandır. O, cismən Dünyasını dəyişsə də hələ uzun müddət yaddaşlarda qalacaq – Yusif Seyidov, Yusif müəllim, Yusif müəllimin kitabları, Yusif Seyidovun kafedrası, Yusif müəllimin şagirdləri və s. dedikdə, heç bir şərhsiz o, anılacaq, canlanacaq, bizimlələşəcək.

Allah Yusif müəllimə rəhmət etsin, qəbrini nurla doldursun!

***Əhməd Abdinov,***
***BDU-nun Fiziki Elektronika***
***kafedrasının müdiri,***
***fizika-riyaziyyat elmləri doktoru, professor***

# Professor Yusif Seyidov haqqında

*Böyük insanların ömrü*
*illərlə deyil, əməllərlə ölçülür.*
*(ingilis dramaturqu Riçard Şeridan)*

Bəli, böyük insanların ömrü məhz onların əməlləri ilə ölçülür. Əməlləri ilə yaddaşlarda qalan, xalqın dilini, ədəbiyyatını, mədəniyyətini yaradan və yaşadan, tarixləşən müdrik insanlar heç zaman unudulmur. Azərbaycan dilçiliyi tarixində də öz sözünü demiş, bu xəzinəyə dəyərli əsərlər bəxş edən müdriklərimiz – alimlərimiz çox olmuşdur. Elə dilçi alimlərimizin fədakarlığıdır ki, dilimizin qədim tarixi köklərə malik olduğu sübuta yetirilmiş, dövrümüzə qədər öz əzəmətini, gözəlliyini, tarixini qoruyub saxlaya bilmişdir.

Belə şəxslərdən biri görkəmli dilçi alim, təvazökar insan, tanınmış müəllim və təhsil təşkilatçısı, filologiya elmləri doktoru, Əməkdar Elm Xadimi, Azərbaycan Respublikasının Dövlət Mükafatı Laureatı, Azərbaycan Respublikası Prezidentinin Fəxri təqaüdçüsü, professor Yusif Seyidovdur. Onun Bakı Dövlət Universiteti tarixində özünəməxsus yeri və dəstxətti vardır.

Yusif müəllimi 1970-ci illərin əvvəllərindən – Bakı Dövlət Universitetində müəllim kimi fəaliyyətə başladığım vaxtdan tanımışam. Y.Seyidov "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasının yaradıcısı və əsasını qoyanlardan biri olmuş, 50 ilə yaxın bir müddətdə ona rəhbərlik etmişdir.

Onun kafedrasında çalışan müəllimlər Mexanika-riyaziyyat fakültəsində dərs deyirdilər. Fakültələrarası əməkdaşlıq biz müəllimləri sanki doğmalaşdırmışdı. Yusif müəllim kafedrasının müəllimlərinin fəaliyyəti ilə bağlı tez-tez bizim fakültəyə

gəlir, müzakirələr aparır, əgər narazılıq olardısa, yaranan problemlərin tez və operativ şəkildə aradan qaldırılmasına nail olardı.

Bir dəfə universitetə xəbər yayıldı ki, "Müasir Azərbaycan dili" dördcildlik monoqrafiyasına görə bir qrup dilçi alimə Azərbaycan Dövlət Mükafatı verilmişdir. Çox sevindirici hal idi ki, həmin monoqrafiyanın müəlliflərindən biri professor Yusif Seyidov idi.

Xüsusi diqqəti çəkən məqam o idi ki, o dövrdə Azərbaycan dili dövlət dili olsa da, dövlət dili statusunda deyildi və belə bir vaxtda ciddi addım atılmış, dilimizlə bağlı əzəmətli bir monoqrafiya yaranmışdı. 45 yaşı yenicə tamam olmuş professor Yusif Seyidovun Azərbaycan dili ilə bağlı möhtəşəm bir əsərin ərsəyə gəlməsində yaxından iştirakı mənim üçün xüsusilə əlamətdar idi.

1978-1998-ci illərdə – 12 il Mexanika-riyaziyyat fakültəsində dekan müavini vəzifəsində, 1993-1996-cı illərdə universitetin tədris işləri üzrə prorektoru və 1996-1998-ci illərdə BDU-nun rektoru olduğum zaman Yusif müəllimi daha yaxından tanımaq imkanım oldu. Gördüm ki, bütün məsələlərin müzakirəsində öz prinsipiallığı, ədalətli mövqe bildirməsi, elmi və tədrisi dərindən bilməsi ilə çoxlarından seçilir. Universitetin tanınmış simaları əksər hallarda onun fikirləri ilə razılaşırdılar.

Bu illər ərzində Yusif müəllimi böyük bir universitet fədaisi kimi tanıdım. O, hər gün səhər tezdən işə gələr və bütün günü yaradıcısı olduğu kafedranın, əməkdaşı olduğu fakültənin, ən əsası isə şərəfli və mənalı həyat yolunu həsr etdiyi Bakı Dövlət Universitetinin inkişafı naminə sədaqətlə çalışırdı.

1998-2013-cü illərdə Azərbaycanın Təhsil naziri vəzifəsində çalışdığım illərdə professor Yusif Seyidovla münasibət-

lərimiz daha da istiləşdi. Onun köməyinə çox ehtiyacımız var idi. Müstəqil Azərbaycanın ali və orta məktəbləri üçün yeni, müasir tələblərə cavab verən dərsliklərə olan ciddi ehtiyac bunu tələb edirdi. Onda Yusif müəllimin yaşı 70-i keçsə də, səhərdən axşama qədər bu məsələ ilə bağlı var qüvvəsi ilə çalışırdı və qısa müddətdə onun rəhbərlik etdiyi işçi qrupun gərgin fəaliyyəti nəticəsində biz məktəblərimizi yeni Azərbaycan dili dərslikləri ilə təmin edə bildik.

Onu da qeyd etmək istərdim ki, professor Yusif Seyidovu tanıdığım 40 ildən çox bir müddət ərzində onu səmimi, işgüzar, təvazökar, prinsipial, öz millətini ürəkdən sevən, bütün mənalı həyatını Azərbaycan dilinin inkişafına həsr etmiş bir insan kimi tanıdım. Düşünürəm ki, xalqımız bu böyük alimin və əsil müəllimin xatirəsini əbədi olaraq yaşadacaqdır.

***Misir Mərdanov,***
***AMEA-nın Riyaziyyat və***
***Mexanika İnstitutunun direktoru,***
***professor***

## Yusif Seyidov
## – dilçilik elmimizin parlaq siması,
## gözəl və səmimi insan

Filologiya elmləri doktoru, professor, Əməkdar Elm Xadimi, Respublika Dövlət Mükafatı Laureatı Yusif Seyidovun adı Azərbaycanın ən görkəmli dilçi alimlərindən olan, dilçilik elmimizin parlaq simalarından sayılan Məmmədağa Şirəliyev və Əbdüləzəl Dəmirçizadənin, Muxtar Hüseynzadə və Əlövsət Abdullayevin, Səlim Cəfərov və Fərhad Zeynalovun, Ağamusa Axundov və Tofiq Hacıyevin... adları ilə qoşa çəkilir, həmişə böyük məhəbbətlə yada salınır, sonsuz ehtiramla xatırlanır. Xüsusilə də Azərbaycan dilinin sintaksisindən, söz birləşmələri ilə bağlı məsələlərdən söz düşəndə ilk növbədə professor Yusif Seyidov yada düşür, onun bu sahədəki böyük xidmətləri xüsusi olaraq vurğulanır.

Professor Yusif Seyidov haqqında hələ Azərbaycan Dövlət Universitetində (indiki BDU-da) oxuyarkən (1963-1971-ci illər) eşitmiş, bu böyük dilçi alimi qiyabi olaraq tanımışdım. Qohumum, tarix elmləri namizədi İbrahim Hüseynov həmin vaxtlar tez-tez Yusif müəllimin adını çəkərək, onunla birgə Naxçıvan Müəllimlər İnstitutunda təhsil almalarından, tələbə yoldaşının böyük istedad sahibi olmasından ağızdolusu danışırdı... Bir müddət sonra isə keçən əsrin 80-cı illərində artıq respublikamızın görkəmli dilçi alimlərindən biri kimi tanınan professor Yusif Seyidovla şəxsən tanış olmaq mənə də nəsib olmuş və bu böyük alimlə arabir görüşmüş, söhbət etmişik...

1994-cü ildə doktorluq dissertasiyamın avtoreferatına professor Yusif Seyidov geniş bir müsbət rəy yazmış, hətta

orada bir iradını da bildirmişdi.

1998-2002-ci illərdə isə professor Yusif Seyidovla tez-tez yol yoldaşı olmuş, bir-birimizi daha yaxından tanımışıq. Məsələ burasındadır ki, həmin vaxtlar hər ikimiz Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Müdafiə Şurasının üzvü kimi fəaliyyət göstərmiş və ildə bir neçə dəfə böyüyüb boya başa çatdığımız doğma torpağa səfərlərə çıxmış, şəhərdəki qonaq evində otaq yoldaşı olmuşuq. Bütün bunların nəticəsində unudulmaz Yusif müəllimlə daha yaxından təmasda, ünsiyyətdə olmuş və bu böyük alimin dərin biliyi və yüksək savadı ilə yanaşı, yüksək insani keyfiyyətləri haqqında da tam və dolğun təsəvvür əldə etmişəm...

Professor Yusif Seyidovun insani keyfiyyətlərindən söz açarkən ilk növbədə onun olduqca sadə və təvazökar, səmimi və qayğıkeş, xeyirxah və nəcib bir insan olmasını xüsusi olaraq qeyd etmək, vurğulamaq lazım gəlir. Yusif müəllimi bir insan, bəşər övladı olaraq sadələrin sadəsi, yaxşıların yaxşısı, səmimilik və təvazökarlıq nümunəsi kimi dəyərləndirmək olar. Hər şeyin yerini bilir, böyüklə böyük kimi, kiçiklə onun yaşıdı kimi davranır, hər kəsin qəlbini ələ almağı bacarırdı. Kimsənin xatirinə dəyməz, qəlbinə toxunmazdı. Qarşısındakı insanı, istər alim olsun, istər tələbə olsun, böyük səbir və hövsələ ilə dinləyirdi. Müdafiə zamanı iradlarını da elə bir tərzdə, elə mədəni şəkildə deyərdi ki, aspirant və dissertantların, necə deyərlər, ruhu da inciməzdi. Belə bir insan idi Yusif müəllim...

Bir dəfə Naxçıvanda Müdafiə Şurasının iclasından sonra bizi füsunkar təbiəti, gözəl mənzərəsi ilə seçilən Batabata apardılar. May ayının ortaları idi. Batabat lalələri, cürbəcür gülləri, çiçəkləri ilə göz oxşayırdı. Tanınmış folklorçu alimimiz professor Qara Namazov da bizimlə yol yoldaşı idi. Yusif müəllim

səmimi söhbətləri, şən zarafatları ilə məclisi ələ alır, ona necə deyərlər, duz qatır, vaxtımızın şən və mənalı keçməsinə çalışırdı. Bəli, Yusif Seyidov mənim xatirimdə həm görkəmli bir dilçi alim, həm də gözəl və səmimi bir insan kimi qalmış, özünə əbədi məskən salmışdır. Bu sözləri tam cəsarətlə bir çoxlarına da aid edə bilərəm. Bəli, professor Seyidov onu yaxından tanıyan bütün həmkarlarının, qohum və qonşularının, dost və tanışlarının qəlbində daima yaşamış və yaşayacaqdır.

**Allah rəhmət eləsin, ruhu şad olsun!**

***Möhsün Nağısoylu,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Yusif müəllim

Yusif Seyidov mənə dərs deməyib, ancaq onu öz müəllimlərimdən biri hesab edirəm. Hər şeydən əvvəl ona görə ki, qrammatikanın bir sıra məsələlərini, xüsusilə söz birləşmələri sahəsini onun ümumtürkoloji miqyaslı araşdırmalarından öyrənmişəm… İkincisi, mənim opponentim olub, ilk elmi işlərimə xeyirxahlıqla yanaşıb. Sonralar da bu xeyirxahlığını heç zaman əsirgəməyib… Və üçüncüsü, Yusif müəllimlə mənim aramda həmişə elə böyük səmimiyyət olub ki, onun düşündüyünü mən, mənim də düşündüyümü o, bir kəlmədən anlamışıq, uzun söhbətə, nəyisə geniş izah etməyə ehtiyac olmayıb…

Mən dekan olanda hərdən Yusif müəllimin maraqlı təklifləri olardı. Özü də bilərdi ki, onları həyata keçirmək nə onun, nə də mənim imkanım daxilindədir. Təəccüblə baxdığımı görüb gülər, sonra da əlavə edərdi: «bəs onda necə eləyək?» Deyirdim ki, Yusif müəllim, gözləyək. Deyirdi: «Nə vaxta qədər?..»

«Köhnə kişi»lərdən olduğuna görə Universitetdə həmişə hamı onu tanıyıb, hörmət edib, məclislərdə başda əyləşib… Çox şadam ki, özünün çoxcildliyini tərtib etməyi, elmi redaktorluğunu mənə etibar etdi. Ancaq bu işdə də «kiçik» bir xəta çıxdı. Qırx- əlli il bundan əvvəl yazdığı məqaləsinə elə bir «cümlə»- çıxarış əlavə elədi ki, böyük bir qanqaraçılığı çıxdı… Yusif müəllimin xətrinə gərək dəyməyəsən, təsadüfən dəymisənsə, gərək peşimanlığını hiss edə, günahından keçə, yoxsa iyirmi- otuz ildən sonraya qalsa da, əlindən bir xata çıxacaqdı. Çünki o nə qədər böyük alim olsa da, həm də çox böyük bir ürək adamı idi.

Yusif müəllim məhsuldar işləyən, oxuyub yazan, yalnız

dilçilik sahəsində yox, ədəbiyyatşünaslıq, siyasətlə bağlı maraqlı fikirlər irəli sürən enerjili bir tədqiqatçı olmuşdur. Və görünür, elə bu enerji çoxluğunun nəticəsi idi ki, onun qarşısıalınmaz bir xüsusiyyəti də vardı: Universitetdə hansısa kafedranın, müəllimin, heç olmasa, bir laborantın fəaliyyətini yoxlamaq (özü də əsaslı şəkildə!) həvəsini heç zaman gizlədə bilmirdi. Ona belə bir iş tapşırılanda xüsusi hazırlaşır, elə bir yoxlama aparırdı ki, «obyekt» tamamilə tərk- silah olurdu.

Və mənim bildiyimə görə, Yusif müəllim yeganə professor idi ki, əgər Bakıdadırsa, dərs oldu-olmadı, hər gün Universitetə gəlir, gedəndə isə rastına çıxan, kiminsə səhlənkarlığı ucbatından auditoriyalarda, dəhlizlərdə yanılı qalmış lampaları da söndürürdü ki, bütün həyatını bağışladığı bu müəssisəyə ziyan dəyməsin.

Həyatdan ləzzət almağı bacaran, ahıl yaşında da məclislərə yaraşıq verən Yusif Seyidov incə zarafatlardan da qaçan deyildi. Hətta bu zarafat onun özünə yönəlsə belə… Danışırdı ki, bir dəfə bərk xəstələndim. Kafedradakı müəllimlərdən biri canıyananlıqla mənə dedi ki, Yusif müəllim, bizim bir tanış da bu xəstəliyə tutulmuşdu, həmişə filan dərmandan içirdi. Mən də soruşdum ki, nəticəsi necə oldu? Dedi: «Öldü»… Dedim: «Daha o dərmanın nə xeyri oldu ki?»

…Bir dəfə də Gəncədə gecə gözəl bir bağda gəzişə-gəzişə söhbət edirdik. Vasim Məmmədəliyev, Yusif Seyidov, Tofiq Hacıyev, bir də mən. Söhbətin axırı, həmişə olduğu kimi, gəlib çıxdı lətifə danışmağa. Əvvəl bir az ədəblilərini danışırdıq. Bu məqamda mənim bir ziyalı, ədəbiyyat həvəskarı kəndçim də gəlib bizə qoşuldu. Gəncədə yaşayırdı, eşidib gəlmişdi. Böyük alimlərlə tanış olmağından fəxr duyur, getmək istəmirdi.

Tədricən lətifələrin ədəb səviyyəsi aşağı düşməyə

başladı. Mən də həvəslənib bir- iki biədəb (ancaq mənalı!) lətifə danışdım. Gülüşdülər. Tofiq müəllim də istədi ki, belə bir şey desin, ancaq kənar adamın olduğunu xatırlayıb söhbəti dayandırdı. Yusif müəllim mənim bayaq həddimi aşmağıma işarə edib gülə- gülə:

- Tofiq, danış, heç nə olmaz, Nizaminin kəndçisidir,- dedi. Və o qədər zərif dedi ki, hamıdan qabaq özüm uğunub getdim.

Belə bir sözü ancaq yüksək dil duyumu olan bir insan deyə bilərdi…

Universitetdə böyük nüfuzu olan bu alimi, eşitdiyimə görə, yerliçilik, ya da başqa bir zəmində müəyyən intriqalara qoşmaq istəsələr də, alınmırmış; çünki işin lap həlledici məqamında onun heç nəyə güzəştə getməyən humanizmi, içdən gələn obyektivliyi hər şeyi vurub dağıdır, camaatın «zəhmət»i hədər gedirmiş.

Yusif müəllimin elmi səviyyəsi heç zaman mübahisə obyekti olmayıb, ancaq xarakterinə gələndə ziddiyyətli fikirlər söylənir: «liberaldır» deyənlər də var. «yox, prinsipialdır» deyənlər də… Mənə isə elə gəlir ki, onda bu cəhətlərin hər ikisi mövcuddu: o məsələ ki, vacib deyil, Yusif müəllim liberallıq eləyirdi, o məsələ ki, vacibdir, bircə addım geri çəkilə bilərdi, ikinci addım mümkün deyildi.

Diplom işlərinin müdafiəsi gedirdi. Rəyasət heyətində Dövlət İmtahan komissiyasının üzvləri – Əlövsət Abdullayev, Yusif Seyidov, Fərhad Zeynalov və sədr Bəkir Nəbiyev əyləşmişdilər. Abbas Zamanov isə qabaq cərgədə oturub bir ağsaqqal kimi müdafiəyə qeyri-rəsmi rəhbərlik (əslində, «drijorluq»!) edirdi.

Tələbə yoldaşlarımızdan biri tribunaya çıxdı, girişsiz-

filansız:

- Köçürüb… - dedi. Və dayandı… Sən demə tribunadan baxıb görüb ki, plaqiatlığını ifşa edəcəyi müəllimimiz buradadır, ona görə də özünü itirib. Belə məclisləri idarə etməkdə usta olan (bu həm də sədr kimi onun vəzifəsi idi) Bəkir müəllim tələbədən soruşdu:

-Kim köçürüb, kimdən köçürüb, nəyi köçürüb?..

Özünü tamamilə itirmiş tələbə bircə köçürən müəllimin adını deyə bildi. Və ara qarışdı… Bəkir müəllim məsələni yenə də ustalıqla həll etdi: Sözü Abbas müəllimə verdi.

«Köhnə» usta pedaqoji- tərbiyəvi mövzuda müəfəssəl bir girişdən sonra üzünü komissiya üzvlərinə tutub:

- Hər kəs öz fikrini söyləsin, - dedi.

Əlövsət müəllim özünəməxsus təmkinlə tələbəni müdafiə edib yüksək qiymət təklif elədi. Və sual dolu nəzərlərlə Yusif müəllimə baxanda o da həmin təklifi bəyəndiyini dedi. Fərhad müəllim isə, əksinə, tələbənin hərəkətinə ciddi iradını bildirdi… Abbas müəllim komissiya üzvlərini «danlamağ»a başladı:

- Belə olmaz. Siz ümumi rəyə gəlməlisiniz, bu nə deməkdir?.. Fərhad müəllim, indi də səndən başlayaq…

Fərhad müəllim əvvəlki acıqla:

- Mən öz fikrimdə qalıram. Tələbə bilikli olsa da, müəllimi təhqir edə bilməz, - dedi.

- Yusif müəllim, buyur.

Liberallığı tutmuş Yusif müəllim bu dəfə Fərhad müəllimin təklifilə razılaşdı. Əlövsət müəllim əvvəlki fikrində qaldı.

Abbas müəllim zidd tərəfləri razılaşdırmaq əvəzinə düşdü Yusif müəllimin üstünə ki, sən nə vaxt prinsipial olacaqsan?.. O isə içdən şirin- şirin gülə- gülə həmkarlarını göstərib:

- Abbas müəllim, qoyurlar ki, prinsipial olaq, - dedi.

Əslində, Yusif müəllim bu məsələdə prinsipiallıq göstərmək üçün heç bir əsas görmürdü: nə tələbənin, nə də onun tənqid etdiyi müəllimin elə bir səviyyəsi yox idi ki, işə ciddi yanaşılsın. Və onu da bilirdi ki, Əlövsət müəllim nə desə Fərhad müəllim əksini deyəcək, eləcə də Fərhad müəllim nə desə Əlövsət müəllim əksini…

Ancaq o da yadımdadır ki, Elçin adlı çox istedadlı bir tələbəyə qarşı haqsızlıq olanda (yenə də diplom müdafiəsi zamanı) Yusif müəllim elə bir prinsipiallıq göstərdi ki, heç birimiz o qədər dərinə getmək istəməzdik…

Elə müəllimlər var ki, onlardan yalnız auditoriyada dərs alırsan; elə müəllimlər də var ki, hər yerdə, ən müxtəlif şəraitlərdə… Yusif müəllim sonunculardan idi…

***Nizami Cəfərov,***
***filologiya üzrə elmlər doktoru, professor,***
***AMEA-nın müxbir üzvü***

# Məqsədi insanlıq olan insan

Həyat insana bir dəfə verilir və heç şübhəsiz ki, hər kəs onu mənalı yaşamağa çalışır. Nə edəsən ki, həmişə belə olmur: bir qisim insanlar Tanrının ona verdiyi ömrü, sadəcə, yaşayır, başa vurur; başqa bir qisim insanlar isə həm yaşayır, həm də yaşadır, ömrünü ömürlərə calayır, dünyaya işıq və ilham gətirir. Belə insanların ölümü haqqında düşünəndə həyəcanlanmamaq, kövrəlməmək, dərdlənməmək, yanıb-yaxılmamaq mümkün deyil. Təsəlli bircə ondadır ki, onların ömürləri yaşadıqları illərlə yox, nəsillərin yaddaşı ilə ölçülür.

Dövlət Mükafatı Laureatı, Əməkdar Elm Xadimi, filologiya elmləri doktoru, professor Yusif Seyidov belə insanlardan biriydi. O, son dərəcə təvazökar, sadə, mehriban, nəcib, həssas və ciddiydi. Dərs deməkdən yorulmaz, zəhmətdən həzz alardı. Dinclik nə olduğunu bilməz, istək və arzularını, sevincini biz tələbə və həmkarları ilə bölüşərdi, amma kədərini bildirməzdi, başqalarına dərdsiz görünərdi, belə vaxtlarında ürəyi ilə həmsöhbət olması da hiss olunmazdı, üzündə təbəssüm gəzdirərdi ki, başqalarına xoş əhval-ruhiyyə bağışlasın, heç kimi əndişələndirməsin.

Sözün əsil mənasında, Yusif Seyidov dərs deməyin, müəllimliyin örnəyi, saflıq nümunəsiydi. Bir müəllim, pedaqoq kimi ən çətin anlarda belə dözüm və ümüd nümayiş etdirərdi. Yaxşı oxuyan tələbələrinə olan istək və münasibətini doğma, təbii övladlarına olan istək və münasibətindən fərqləndirmək mümkün deyildi. Bütün varlığını tələbələrinin xidmətinə verən, məşəl olub onların yolunu işıqlandıran Yusif müəllimi Tanrı belə yaratmışdı. Onun ən böyük sərvəti elmi və yetirmələriydi.

Bir sözlə, bəşəriyyətin ən çox möhtac olduğu ədalət və insanlıq Yusif Seyidov yaşamının təməl prinsipiydi.

Müəllimim və dostum Yusif Seyidovun bu dünyadan gedişi ilə uzun müddət barışa bilmədim. Çünki bu adi gediş, adi ayrılıq deyildi. Bu ayrılıq həmişəlik ayrılıq idi, həyatdan ayrılıq idi. Və görünür, böyük, əvəzsiz insanların itkisi ağır olduğundan insan acizləşməsilə bacara bilmir.

Müəllimin böyüklüyü yalnız onun sənətində deyil, həm də insani keyfiyyətlərində, vətəndaşlığındadır. Yusif müəllim həm də böyük vətəndaş idi. Azərbaycanı hədsiz məhəbbətlə sevərdi. Bütün varlığı ilə elinə, obasına, vətəninə bağlı olan bu insan Azərbaycanın müstəqilliyini ən böyük tarixi nailiyyətimiz və sərvətimiz hesab edirdi.

Yusif Seyidovun əbədiyyətə qovuşması ilə Universitetdə, xüsusən filologiya fakültəsində böyük bir boşluq yarandı. Lakin böyük elmi-nəzəri biliyə və dünyagörüşə sahib Yusif Seyidov hər cəhətdən zəngin bir irs qoyub getdi. Onun elmi-tədqiqat marağı Azərbaycan dilçiliyinin, demək olar ki, əsas problemlərinin hamısını-fonetika, leksikologiya, frazeologiya, morfologiya, sintaksis, eləcə də dil tarixi, tarixi qrammatika, dilçilik tarixi, bədii ədəbiyyatın dili və s. əhatə edir. O, ədəbi tənqidlə də məşğul idi.

Azərbaycan dilçiliyində, bütövlükdə türkologiyada çox ilklərə imza atan Yusif Seyidov elmi yaradıcılığa "Azərbaycan müəllimi" qəzetinin 3 aprel 1952-ci il tarixli nömrəsində çap olunmuş "Pioner" jurnalının 1951-ci il nömrələri haqqında" məqaləsi ilə başlamışdır. Məqalə "Pioner" jurnalının 1951-ci il nömrələrində çap olunmuş bədii əsərlərin təhlili və dilinə həsr olunmuşdur. O zaman Yusif Seyidovun 21 yaşı vardı. Bunları xatırlatmaqla demək istəyirəm ki, 21 yaşında ikən elmi yara-

dıcılıqla məşğul olmaq hər kəsə nəsib olan xoşbəxtlik deyil. Bu ancaq və ancaq nadir istedad sahibi olan insanların qismətinə düşən Tanrı payıdır.

Yusif Seyidov 200-dən çox elmi əsərin, o cümlədən 30-dan çox kitabın müəllifidir. Onlardan "Azərbaycan ədəbi dilində söz birləşmələri", "Azərbaycan dili", "Yazıçı və dil", "Sözün şöhrəti", "Sözün qüdrəti", "Sözün hikməti", "Ədəbi tənqid və bədii dil", "Nəsiminin dili", "Şairin dərdi", "Azərbaycan dilinin qrammatikası. Morfologiya", "Ey ulu dünya", "Demokratiyanın uzun yolu"(1l cilddə) və s. qeyd etmək olar.

Professor Y.M.Seyidov həmçinin "Müasir Azərbaycan dili" adlı iki cildlik dərs vəsaitinin, eyni adlı dörd cildlik dərsliyin dördüncü cildinin müəlliflərindəndir.

Azərbaycan dilçiliyində sintaktik əlaqələrin elmi əsaslarla fundamental tədqiqi professor Yusif Seyidovun adı ilə bağlıdır. O, türkologiyada ilk dəfə olaraq tabesizlik və tabelilik əlaqələrinin bütün sintaktik vahidlər üzrə təzahür hallarını müəyyən etmiş, bu sahədə bir sıra yeni elmi fikirlər irəli sürmüşdür.

İkinci və üçüncü növ təyini söz birləşmələrinin cümlə üzvü kimi parçalana bilməməsinin elmi-qrammatik əsasları da ilk dəfə prof. Yusif Seyidov tərəfindən müəyyənləşdirilmişdir. Yusif Seyidov sintaktik əlaqələr əsasında cümlənin şəxsə görə növlərinin formalaşma sistemini vermişdir.

Professor Yusif Seyidov ilk dəfə olaraq, belə bir elmi-nəzəri müddəa ilə çıxış edir ki, hər bir cümlə üzvü müxtəlif nitq hissələrinə aid sözlərlə ifadə olunduğu kimi, ara sözlər də ayrı-ayrı nitq hissələrinə aid sözlərlə ifadə oluna bilər.

Bundan əlavə, Yusif Seyidov ilk dəfə təkcə Azərbaycan dilçiliyinə deyil, ümumən türkologiyaya əlavə söz və əlavə cümlə anlayışı gətirmiş, bu sintaktik kateqoriyaların nəzəri

əsaslarını müəyyən etmiş və konkret şəkildə Azərbaycan dilində onların təzahür formalarını müəyyənləşdirmişdir.

Yusif Seyidov müəyyənləşdirmişdir ki, Azərbaycan dilində əsas nitq hissələrindən sayın, əvəzliyin, felin, eləcə də köməkçi nitq hissələrinin quruluşca mürəkkəbi yoxdur; ayrıca leksik vahid halında kəsr sayı və inkar əvəzlikləri möcud deyil.

Məlum olduğu kimi, Azərbaycan dilçiliyində cümlənin qrammatik təhlili məsələsində, xüsusən sintaktik təhlilində anlaşılmaz cəhətlər çoxdur. Professor Yusif Seyidov həm morfoloji, həm sintaktik təhlilə dilçiliyin ümumi nəzəri müddəaları baxımından yanaşaraq belə hesab edir ki, bir yerdə bir cümlə üzvü kimi götürülməsindən asılı olmayaraq, nitq hissəsi olmaqla hər söz ayrılıqda qeydə alınmalıdır.

Ümumiyyətlə, Yusif Seyidovun "Sintaktik" yaradıcılığının zirvəsini onun söz birləşmələrinə aid tədqiqləri təşkil edir. Görkəmli alimin bu sahədəki axtarışlarının nəticələri ayrı-ayrı məqalələr və kitabçalar şəklində, bütöv halda isə "Azərbaycan ədəbi dilində söz birləşmələri" monoqrafiyasında əks olunmuşdur.

Professor Yusif Seyidov "Yazıçı və dil" problemi ilə də müntəzəm məşğul olmuşdur. Onun bu sahədəki tədqiqləri iki istiqamətdədir: ədəbi-bədii dil, onun inkişaf meyilləri və yolları; yazıçıların söz, dil, bədii dil haqqında fikir və mülahizələri.

Yusif Seyidov bu əsərlərində XI əsrdən başlayaraq müstəqillik dövrünə qədərki, təxminən, min il ərzində Azərbaycan yazıçılarının söz və sənət haqqında, dil və onun insan həyatında, cəmiyyətdə rolu, əhəmiyyəti barədə fikirlərini toplayıb sistemə salmış, ədəbi-tarixi ardıcıllıqla təsvir və təhlil etmiş,

xalqın dilçilik, qismən də ədəbiyyatşünaslıq və estetik görüşlərinin yığcam salnaməsini yaratmışdır.

Bir dilçi filoloq kimi, Yusif Seyidovu səciyyələndirən əsas xüsusiyyətlərdən biri də onun ədəbi prosesi ardıcıl izləməsi, xalis ədəbiyyat xarakterli tədqiqlərə meyilli olması idi. Yusif Seyidov tələbəlik illərindən başlayaraq sırf dilçilik tədqiqləri ilə yanaşı, ədəbi-tənqidi əsərlərini də çap etdirir ki, bunların da bir qismi "Ədəbi tənqid və bədii dil", "Ey ulu dünya" kitablarında və onlarla məqalələrində öz əksini tapmışdır.O, Azərbaycan filologiyasına vahid elmi yaradıcılıq sahəsi kimi baxır və belə hesab edir ki, yazıçının dilinə nəzər yetirmədən, onun ustalığını, onun yaradıcılığının əsl mahiyyətini açmaq olmaz.

Professor Yusif Seyidovun müəllifi olduğu "Müasir Azərbaycan dili" dərsliyi dövlətimiz tərəfindən Dövlət mükafatına layiq görülmüşdür.

Hələ aspirantlıq illərindən BDU-da mühazirələr oxumağa başlamış Yusif Seyidov ömrünün sonuna qədər sonralar yaradıcısı olduğu "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası" kafedrasına rəhbərlik etmiş, respublikamızda dilçi alimlər nəslinin hazırlanmasında müstəsna xidmətlər göstərmişdir.

Yusif müəllim əbədiyyətə qovuşsa da, qəlbində əbədi yuva qurduğu yüzlərlə, minlərlə, on minlərlə... hər gün ünsiyyətdədir: zəngin elmi, ədəbi-bədii irsi və insanlığı ilə.

***Hüseyn Əsgərov,***
***BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri,***
***filologiya üzrə elmlər doktoru, professor***

## Bir kövrək xatirə işığında

Təsadüfdür, ya nədir bilmirəm. Yusif adı mənim üçün getdikcə doğmalaşır. Bu, bəlkə də səbəbsiz deyildir.

Əvvəla, qeyd etmək istərdim ki, mənim rəhmətlik anamın atasının adı Yusif olmuşdur. İndi isə anamın nəticəsinin adı Yusifdir.

… Deyilənə görə, İslam tarixində Yusif adlı Peyğəmbər də olmuşdur.

…Azərbaycanın dahi şairi, mütəfəkkiri Şeyx Nizami Gəncəvinin də atasının adı Yusif olmuşdur.

…Mənim ali məktəbdə ilk rektorumun da adı Yusif idi. Akademik Yusif Məmmədəliyev. Bu, 1956-cı il idi. İş elə gətirmişdir ki, mən həmin ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə daxil olmuşdum. Məndən ədəbiyyat üzrə yazılı və şifahi qəbul imtahanları götürənlərdən birinin də adı Yusif idi. Bəli, haqqında «bir kövrək xatirə işığında» adlı yazı yazdığım Yusif Seyidov.

…Böyük dilçi, filoloq-ədəbiyyatşünas alim, gözəl, sadə, təvazökar insan olan Yusif Seyidov.

Yusif Seyidovu 1956-cı ildən tanıyırdım. O zaman mən S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmaq üçün qəbul imtahanları verirdim. Birinci imtahan ədəbiyyat yazılı idi. Yazı lövhəsinə sərbəst mövzu da yazılmışdı. **«Səməd Vurğunun «Vaqif» pyesində Vaqif obrazının səciyyəvi xüsusiyyətləri».** Mən bu mövzunu seçdim. Sual oluna bilər. Məhz nə üçün bu mövzunu? Cavab. Bu mövzunu ona görə seçdim ki, dahi xalq şairi Səməd Vurğunun «Vaqif» pyesini yaxşı mənimsəmişdim.

…Balakən rayonunun, Ernest Telman adına 1№-li Katex

orta məktəbində təşkil olunmuş dram dərnəyində **«Vaqif»** pyesində Vaqif obrazını oynamışdım. Dərnəyimizin rəhbəri o zaman Balakən rayonunda yazıb-yaradan, istedadlı şair Rüfət Əhmədzadə idi. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, müasirimiz olan gözəl şair, filologiya elmləri doktoru, professor Vüqar Əhmədzadə Rüfət Əhmədzadənin oğludur.

…Səməd Vurğunun pyesindəki Vaqif obrazının daxili aləminə yaxşı bələd idim.

…Ədəbiyyatdan yazılı imtahanını üç nəfər götürürdü. Məşhur yazıcı-pedaqoq, alim, professor Mir Cəlal Paşayev. Böyük dilçi alim, professor Səlim Cəfərov və gənc dilçi alim Yusif Seyidov.

…Ədəbiyyatdan yazılı imtahandan «əla» qiymət aldım.

… Ədəbiyyatdan şifahi imtahanı da yuxarıda adları qeyd olunan alimlər götürdülər.

…Biletdə ədəbiyyatdan (şifahi imtahana) düşən sual indiki kimi yadımdadır. **Səməd Vurğunun «Zamanın bayraqdarı» poemasının baş qəhrəmanı**.

…professorlardan Mir Cəlal Paşayev Səlim Cəfərov və dosent Yusif Seyidov mənə diqqətlə qulaq asdıqdan sonra dedilər:

– Görünür, bu oğlan qəbul imtahanlarına yaxşı hazırlaşıb. Belə olmasaydı ədəbiyyat yazısından, özü də sərbəst mövzudan əla qiymət almazdı.

– Gəlin, ona biletin suallarından biri olan Səməd Vurğunun «Zamanın bayraqdarı» poeması barədə bir sual verək.

– Ay oğul, bu poema demək olar, təzə çapdan çıxıb, onu oxumusanmı?

– Bəli, -deyə cavab verdim.

– Poema neçə fəsildən ibarətdir?

– Səkkiz.

– Əzbər bilirsənmi?

– Bəli.

– Yadında qalan varsa, söylə görüm.

*...Bəşərin vicdanı, eşqi, ürəyi,*
*Zehni, düşüncəsi, fikri, diləyi,*
*Bütün yer üzünün xoş gələcəyi,*
*Hər zövqu, səfası-partiyamızdır!*

***

*Odur ilhamçısı şerin, sənətin.*
*Dağ üstə dağ qoyan zehnin, zəhmətin,*
*Bir bayraq altında yüz min millətin,*
*Qardaşlıq dünyası-partiyamızdır!*

***

*O böyük hüsnüdür adi sözün də;*
*O al bir şəfəqdir ömrün üzündə,*
*Hər sadə, mürəkkəb cümləmizin də*
*Əzəl mübtədası -partiyamızdır!*

– Əsərin baş qəhrəmanı kimdir? – deyə Yusif Seyidov əlavə sual verdi.

– Sovet İttifaqı Kommunist Partiyası, – deyə cavab verdim.

– Bəsdir, sağ ol, gedə bilərsən, deyə, – Yusif müəllim, özünün də müəllimləri olmuş professorlar Mircəlal Paşayevi və Səlim Cəfərovu təmsil etdi.

Beləliklə, mənə ədəbiyyat şifahi imtahanından da «əla» qiymət yazıldı.

Əlbəttə, əsasən Yusif Seyidovun diqqəti, obyektivliyi sayəsində.

… Sonralar iş elə gətirdi ki, qrupumuzda bizə Azərbaycan

dilindən mühazirəni professor Səlim Cəfərov, seminarları dosent Yusif Seyidov, ədəbiyyatşünaslıqdan professor Mir Cəlal Paşayev aparmalı oldular.

Professor, – ünlü yazıcı Mir Cəlal Paşayev auditoriyada gəzişə-gəzişə mühazirə oxuyurdu. Hərdən bir də sağ əlini tələbələrin çiyninə qoyurdu.

…Birinci kursda yay imtahanı idi.

Professor Mir Cəlal Paşayev və dosent Yusif Seyidov məni və tələbə yoldaşım Səyyarə Tağıyevanı cavab verməyə dəvət etdilər.

– Bu oğlanı tanıyırıq, yaxşı oxuyandır, – deyə məni göstərdikdən sonra Səyyarəyə üzünü tutub dedilər:

– Səyyarə, qızım, sənə bayatılar düşüb. Bir orijinal bayatı deyə bilərsənmi ?

Səyyarə Tağıyeva:

– *«Qızıl gül olmayaydı,*
*Saralıb solmayaydı.*
*Oxumaq yaxşı şeydi.*
*İmtahan olmayaydı.*

Yusif Seyidov dedi:

Mir Cəlal müəllim! Bu qızın da böyük gələcəyi var, buna da bir «əla» düşür, necə baxırsınız?

– Yusif, səninlə mən də razıyam, yazaq «əla»-sını.

… Əsas mətləbə keçmək istərdim.

Gözəl müəllim-pedaqoq, tanınmış dilçi alim… Yusif Seyidov kimdir?

Yusif Seyidov haqqında 50 ildən çox bir universitetdə çalışan müəllim kimi aşağıdakıları deyə bilərəm. Yusif Seyidov 1929-cu ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Naxçıvanın indiki Şərur rayonu) Yengicə kəndində anadan olmuşdur.

O məkan, elə o zaman da, indinin özündə də öz yetişdirmələri ilə məşhur olmuş və məşhurdur. Yusif Seyidova gəldikdə isə deyə bilərəm ki, o, çox erkən olaraq elmə, təhsilə, maarifə, müəllimliyə çox böyük həvəs göstərmişdir. Müəllim olmaq, sanki onun əzəli və son arzusu idi. Bu xoş niyyət onu 1944-1946-cı illərdə ikiillik Naxçıvan Dövlət Müəllimlər İnstitutuna apardı. İnstitutu əla qiymətlərlə bitirdikdən sonra təyinatla Naxçıvanın Noraşen – indiki Şərur rayonunda orta məktəbdə dil-ədəbiyyat müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır.

…Ali təhsil almaq həvəsi Yusif Seyidovu bir an belə rahat buraxmırdı. Bu arzu onu 1947-ci ildə Azərbaycan Dövlət Universitetinə gətirdi. Universitetin filologiya fakültəsini əla qiymətlərlə başa vuran Yusif Seyidov 1952-1955-ci illərdə universitetin aspiranturasında oxudu. Aspiranturanı da müvəffəqiyyətlə bitirən Yusif Seyidov dissertasiya üçün mövzu seçdi:

**«Müasir Azərbaycan dilində feli bağlama tərkibləri».** O, bu mövzu üzrə 1956-cı ildə filologiya üzrə müdafiə edərək, elmlər namizədi oldu.

Təbii ki, Yusif Seyidov, təkcə, elmlər namizədi olmaqla kifayətlənə bilməzdi. Madam ki, Azərbaycanın dünəni, bugünü və sabahı olan Bakı Dövlət Universitetində çalışırsan, gərək mütləq elmlər doktoru, professor olasan. Belə də oldu. O, 1965-ci ildə **«Azərbaycan dilində söz birləşmələri»** mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək sözügedən sahə üzrə elmlər doktoru, professor oldu... Quş qanadlı illər bir-birini əvəz etdikcə Yusif Seyidov da öz bilik və bacarığının artırılmasına xüsusi diqqət yetirirdi. Yusif Seyidovun elmi-pedaqoji işdə təşkilatçılıq səriştəsi, bacarığı yüksək idi. Təsadüfi deyildi ki, o, bu sahədə də səylərini əsirgəməyərək 1965-ci ildə universitetdə **«Azərbaycan dili və metodika»** kafedrasının

açılmasına, yaradılmasına nail oldu. İndi bu kafedra **«Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası»** adlanır.

…Xoşbəxtlikdən hazırda kafedranın professoru Yusif Seyidovun yetirməsi olan professor Hüseyn Əsgərov kafedraya bacarıqla rəhbərlik edir, əziz və istəkli müəllimi, ustadı Yusif Seyidovun yolunu uğurla davam etdirir.

... Professor Yusif Seyidov 1986-cı ildə yekdilliklə universitetin Elmi-Metodiki Şurasının sədri seçilmişdir.

… Professor Yusif Seyidovun səmərəli elmi-pedaqoji fəaliyyəti tək doğma universiteti ilə məhdudlaşmırdı. O, sözügedən sahədə respublika miqyaslı fəaliyyətlə də çox ciddi məşğul olurdu. Bu münasibətlə konkret və xarakterik bir fakta diqqəti cəlb etmək istərdik.

Bəli, professor Yusif Seyidov 1985-2006-cı illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasında, filologiya bölməsinə çox böyük bacarıqla, səriştəliklə sədrlik etmişdir.

…Görkəmli dilçi-alim Yusif Seyidovun sözügedən sahələrdəki əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, 1974-cü ildə digər həmkarları, professorlar Əlövsət Abdullayev və Ağamalı Həsənovla birlikdə Azərbaycanda dilçilik elminin inkişafındakı böyük xidmətlərinə görə Dövlət Mükafatına layiq görülmüşdür.

…Professor, görkəmli alim Yusif Seyidov **«Əməkdar Elm Xadimi»** fəxri adına da layiq görülmüşdür.

…Böyük vətəndaş-alim Yusif Seyidov 2007-ci ildə **Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.**

… Professor Yusif Seyidovun elmi yaradıcılığı çox rəngarəng və məhsuldar olmuşdur. Bunu təsdiq etmək baxımından, geniş diapazona malik olan alimin aşağıdakı bəzi fundamental

xarakterli əsərlərinin adlarını çəkmək istərdim.

1. Böyük Azərbaycan şairi, filosof Bəxtiyar Vahabzadənin anadan olmasının 60 illiyinə həsr olunmuş «Şairin fikir dünyası» (Bakı, 1985-ci il) adlı kitabında professor Yusif Seyidov poeziyada fəlsəfə, fəlsəfədə poeziya problemini çox böyük ustalıqla şərh etmişdir.

2. ... Professor Yusif Seyidov 1989-cu ildə **«Sözün hikməti»** adlı fundamental xarakterli monoqrafiyasında əbədiyaşar söz sənətinin bütün incəliklərini çox böyük məharətlə, ustalıqla şərh edərək, mütəxəssislərə öz qiymətli töhfəsini vermişdir.

3. Professor Yusif Seyidov 1996-cı ildə dahi xalq şairi, böyük Səməd Vuğunun əbədiyaşar yaradıcılığına həsr olunmuş **«Şairin dərdi»** adlı məşhur kitabını yazmışdır.

…Vurğunşünas alim – Yusif Seyidov dahi şairin **«İnsan»** pyesində onun fəlsəfəsinin humanizm ideyalarını tərənnüm edir. Şair-filosof-filosof şair üçün baş qəhrəmanı filosof Şahbazın dili ilə deyir:

*«İnsanlar öpüşüb qardaş olsalar,*
*Dünyada nə matəm, nə məhbus qalar,*
*Həya da, ilham da o vaxt ucalar».*

**«İnsan»** pyesindəki gənc filosof Şahbazın, qoca filosof Şahbaza verdiyi fəlsəfi sual da insanı çox düşündürür. **«Qalib gələcəkmi cahanda kamal?»** Bütün bunlar professor-alim Yusif Seyidovun güclü qələmindən çıxan qiymətli fikirlərdir.

4. Peşəkar, məşhur dilçi alim Yusif Seyidovun 2002-ci ildə çapdan çıxan **«Demokratiyanın uzun yolu»** adlı iki hissədən ibarət olan kitabında Azərbaycançılıq ideologiyasının, milli və ümumbəşəri məziyyətlərindən bəhs olunur.

…Professor Yusif Seyidov yuxarıda adı çəkilən kitabın 1-ci hissəsində Azərbaycan demokratiyasının Heydər Əliyev

dövründən, ikinci hissədə isə tarixin 3-cü minilliyimizin "ağlı-qaralı günləri"ndən bəhs edir

…Professor Yusif Seyidov bu əsərində özünü dərin düşünən, düşündürən bir alim kimi təqdim edir.

Yeri gəlmişkən, dilçi-ədəbiyyatşünas alim, professor Yusif Seyidovun **«Demokratiyanın uzun yolu»** adlı iki hissədən ibarət olan dəyərli kitabı haqqında bəzi mülahizələrimi bildirmək istərdim. Əlbəttə bütövlükdə bu maraqlı kitabın bütün müsbət məziyyətlərindən deyil, orada şərh olunmuş bir çox vacib məqama toxunmaq istərdim.

**Birincisi, «Heydər Əliyevin dövlətçilik strategiyası»** adlı məqaləyə. Yusif müəllim bu məqalədə ulu öndərin dövlətçilik strategiyasının fəlsəfi çalarlarına toxunur və qeyd edir ki, Heydər Əliyev milli dövlət quruculuğu strategiyasının baş memarıdır.

**İkincisi**, Heydər Əliyevin milli-mənəvi dəyərlərimizdən bəhs edərkən, o, dinşünas, islamşünas və quranşünas alim kimi çıxış edir. Yusif müəllim bu məqaləni çox böyük ustalıqla yazır.

**Üçüncüsü**, Yusif müəllim Heydər Əliyevi dünya, planet miqyaslı siyasətçi kimi xarakterizə edir.

Yeri gəlmişkən, bu münasibətlə mən təsadüf etdiyim bir epizodu qeyd etmək istərdim.

…1982-ci il idi. İxtisasartırma kürsü üzrə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində müdavim idim. Günlərin birində, orada Heydər Əliyevin Moskvaya-MDU-ya göndərdiyi azərbaycanlı tələbələrlə görüşüm oldu. Onlardan bəziləri çox həyəcanlı idi. Soruşdum. Nə olub? Dedilər, bizlərdən 13 nəfər MDU-nun tələbələri sırasından çıxarılmışıq.

-Nə üçün?

-Müxtəlif, obyektiv və subyektiv səbəblərdən.

Bu məsələ barəsində MDU-nun partkomu ilə söhbət etdik.

-Nə etmək olar?

-Bu məsələ rektorluqdur.

-O zaman MDU-nun rektoru, dünya şöhrətli akademik Loqunov familiyalı bir böyük alim idi.

Onun qəbulunda oldum. O, məni diqqətlə dinlədikdən sonra dedi:

-Bu tələbələr necə olub, MDU-ya düşüblər?

-Onları milli kadr kimi Heydər Əliyev buraya göndərib.

-Qeydar Aliyeviç?!!,-deyə sual, nida dolu nəzərlərlə mənə baxdı və dedi.

... Telefonun dəstəyini götürüb, o zaman tədris hissə üzrə 1-ci prorektor olan Sadovniçiyi yanına dəvət etdi.

(Akademik Sadovniçiy indi MDU-nun rektorudur)

- Heydər Əliyev ixtisasca nəçidir? O, hansı ali məktəbi bitirib?

-O, ixtisasca tarixçidir. Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib.

…Akademik Loqunov sözünə əlavə edərək dedi:

-Bir-neçə gün bundan əvvəl Sov. İKP MK-nın Bürosunun üzvü SSRİ Nazirlər Sovetinin sədri Heydər Əliyev SSRİ Təhsil Nazirliyinin kollegiya iclasında parlaq nitq söylədi. O, müdrik şəxsiyyətdir. Onun tələbələrini qovmaq olmaz.

-Yoldaş Sadovniçiy, həmin tələbələrin qovulması barədəki mənim əmrim qüvvəsindən düşür. Məncə, onları bərpa etmək lazımdır. Elə də oldu. Həmin tələbələr MDU-nu bitirdilər. Onlar indii respublikamızda müxtəlif məsul vəzifələrdə çalışırlar. Aralarında elmlər doktorları, professor olanlar da

vardır.

... Uğurlu nəticələrindən olan, eloğlusu ədəbiyyatşünas alimə-akademikə həsr olunmuş «İsa Həbibbəyli» adlı fundamental monoqrafiyası da (Bakı, 2009) vardır. Bu əsərdə Yusif Seyidov çox obyektiv olaraq həm də böyük elm təşkilatçısı olan İsa Həbibbəylinin bütövlükdə uğurlu yaradıcılıq yoluna nəzər salır.

6. …Professor Yusif Seyidovun öz müəllimi, böyük, ünlü ədib Mir Cəlal Paşayevə həsr olunmuş **«Mir Cəlal-100»** adlı monoqrafiyası da Mir Cəlal sevərlərin müqəddəs stolüstü kitabıdır.

Göründüyü kimi, professor Yusif Seyidov əsasən dilçi alim olsa da, ədəbiyyatşünaslığımızın, elmi-nəzəri məsələlərini də dərindən bilən, onları zaman, məkan və müasirlik baxımından dərin araşdıran, tədqiqatçı alim olmuşdur. Məsələn, yuxarıda dediyimiz kimi, dahi xalq şairi, Səməd Vurğunun və böyük şair-filosof Bəxtiyar Vahabzadənin yaradıcılıqlarından onların fəlsəfi fikirlərini poetik dillə, özü də Azərbaycan ədəbi-bədii dilinin üslub xüsusiyyətlərindən çox bacarıqla, səmərəli və orijinal şəkildə istifadə etmişdir.

... Professor-dilçi-ədəbiyyatşünas alim Yusif Seyidovun böyük xalq şairi Səməd Vurğunun və şair filosof Bəxtiyar Vahabzadənin dərin fəlsəfi fikrilərlə yoğrulmuş axtarışlarından belə doğru, düzgün məntiqi qənaətə gəldim ki, həqiqi poeziya fəlsəfədir, öz növbəsində hikmətsevərlik elmi olan fəlsəfə də poeziyadır. Məsələn, professor Yusif Seyidov böyük Səməd Vurğunun yaradıcılığına həsr etdiyi **«Şairin dərdi»** adlı kitabında şairin ölməz, əbədiyaşar poeziyasından bəhs edərkən, onun **«Dünya»** adlı şerinin fəlsəfi cəhətindən söhbət gedir. **«Dünya»** şeri fəlsəfi düşüncələrin ifadəsidir, lakin birbaşa

ifadəsi deyil, beyindən, şüurdan keçib gələn ifadəsidir.

*… «Bir də görürsən ki, açılan solur,*
*Düşünən bir beyin bir torpaq olur,*
*Bir yandan boşalır, bir yandan dolur,*
*Sirrini verməyir sirdaşa dünya!*

Yaxud, götürək, professor Yusif Seyidovun Bəxtiyar Vahabzadənin yaradıcılığına həsr olunmuş **«Şairin fikir dünyası»** (1985) adlı kitabında qeyd etdiyi fikri.

Professor Yusif Seyidov, «**Bəxtiyar Vahabzadə, bədii əsərlərində,-yaradıcılığında həm də alim, elmi yaradıcılığında həm də şair, hər ikisində isə müəllimdir, tərbiyəçidir».**

Dilçi alim - Yusif Seyidov ədəbiyyatşünas həmkarı **«Akademik İsa Həbibbəyli»** adlı (2009) monoqrafiyasında yazır:

**«İsa Həbibbəyli-İsa Əkbər oğlu Həbibbəyli. Bu ad çox şey deyir, əslində hər şey deyir. Bu ad, onun sahibi hər bir tituldan yuxarıda durur».**

Akademik İsa Həbibbəyli, həm istedadlı ədəbiyyatşünas alim, həm görkəmli elm təşkilatçısı, həm də fəlsəfi-bədii təfəkkürə malik, tanınmış alimdir. O, ədəbiyyatşünaslığa aid çoxsaylı, iri fundamental əsərlərin, elmə və onun təşkilinə aid dəyərli yazıların və lirik epik səpkidə poetik nümunələrin müəllifidir.

Müqtədir bir ədəbiyyatşünas, dilçi alim, Yusif Seyidov həmkarı ədəbiyyatşünas, akademik şair – İsa Həbibbəyli haqqında kitabında yazır:

«İsa Həbibbəyli müxtəlif münasibətlərlə son illərdə şeir yazmışdır. Məsələn, 2001-ci ildə **«Naxçıvan»** adlı şerini götürək. Şeir «şair Əliheydər Qəmbərin xatirəsinə həsr edilmiş-

dir. Oxucu bilsin ki, Əliheydər Qəmbərov Bakıdan idi. İxtisası həkim idi. 1940-cı illərin ortalarında Naxçıvana gəlmiş və ya göndərilmiş, uzun zaman burada işləmişdir. O, həm də şeir yaradıcılığı ilə tanınmışdır. Bəlkə də çox adam bilmir ki, dillər əzbəri olan, toylarda, rəsmi tədbirlərdə daim oxunan məşhur **«O Naxçıvandır, nəqşi-cahandır»** mahnısının sözləri həmin həkimindir. İsa Həbibbəylinin şeri Əliheydər Qəmbərin şerinə nəzirədir orijinal şerdir. Bu şeirlərdən hər birində Naxçıvanın özünəməxsus tərənnüm yolu var.

*Ağrı dağı məğrur duran,*
*Sularından Araz keçən,*
*Yolu-İqdır, yaşıl oba,*
*Şərur düzü və Çaldıran…*

*Gəlin qaya çatır göyə,*
*Batabatdır-əlvan gölümüz,*
*Yaxasında Muradiyyə,*
*Sinəsində Van gölü…*

*Alınmazlıq qarşısında,*
*Gülsün dostlar, bilsin düşmən,*
*Qoca Şərqin qapısında*
*Qoşa yurdum – Naxçıvan-Van!»*

İsa Həbibbəylinin elmi əsərlərində də obrazlı cümlələr, bədiyyat təsiri bağışlayan fikirlər az deyildir. Bütün bunlar hamısı bir yerdə İsa Həbibbəylinin yaradıcılıq taleyində bədiilik faktorunun iştirak etdiyini təsdiqləyir. Bu isə onun baxışlarının özünəməxsusluğunu müəyyən edən faktorlardan biri kimi diqqəti cəlb edir. İndiki halda şeir yazmaqla müqayisədə

poetik baxış, bədii yanaşma İsa Həbibbəylinin elmi əsərlərində daha üstün mövqedə dayanır.

Elmi düşüncənin mütləq üstünlüyünü təmin etməklə bərabər, bədii dəyərləndirilmələrdən yerli-yerində istifadə İsa Həbibbəylinin üslubunun özünəməxsus keyfiyyətlərinə çevrilir. Alim düşüncəsində bədiilik foktorunun iştirakı həmişə elmin xeyrinə olur».

...Təsadüfi deyildir ki, Yusif Seyidovun 15 cildlik seçilmiş əsərləri nəşrə hazırlanır. Yusif Seyidovun həmin 15 cildlik seçilmiş əsərlərindən 11-cildi işıq üzü görmüşdür. Əlbəttə, əziz və unudulmaz müəllimim professor Yusif Seyidov haqqında xatirələrimə aid yazını da uzada bilərdim. Hesab edirəm ki, əziz müəllim barədə nə isə deyə bildim.

…Qismət, əcəldən-macal olsa, bu qəbildən olan xatirələrimi davam etdirə bilərəm.

***Əsədulla Qurbanov.***
***BDU-nun İslamşünaslıq***
***Elmi-Tədqiqat mərkəzinin rəhbəri, fəlsəfə elmləri***
***doktoru, məşhur «91-lərdən biri, «Qızıl Qələm»***
***mükafatı laureatı, BMT-nin "Sülh səfiri",***
***Ankara Beynəlxalq Söz Akademiyasının üzvü,***
***və akademik Yusif Məmmədəliyev mükafatları***
***laureatı***

# Gözəl dilçi alim, sadə və zəngin mədəniyyətli insan, sevimli həmkarımız Y.Seyidov

Yusif müəllimi çox illərdir ki, tanıyırdım. Mənim çalışdığım «Fəlsəfə» kafedrası Universitetin indiki İstiqlaliyyət küçəsində yerləşən binasında Filologiya fakültəsi ilə eyni mərtəbədə yerləşirdi. Biz Yusif müəllimlə lap yaxından tanış olmasaq da tez-tez görüşüb bir-birimizə isnişirdik. Onunla əsl tanışlığımız, yaxınlığımız BDU-nun yerləşdiyi indiki binada işlədiyimiz vaxt başlandı. Qonşu otaqlarda dərs deyər, tez-tez görüşərdik. Yusif müəllim doktorluq dissertasiyasının müdafiəsinə hazırlaşırdı. Deyəsən, hələ o vaxtlar mən dosent vəzifəsində işləyirdim, prof. Mehdi Əliyev də universitetin rektoru idi. Yusif müəllim məndən xahiş etdi ki, mən onun müdafiəsində rus dilində çıxış edim. Mən də gələcək çıxışıma ciddi hazırlaşdım, rus dilində də bir mətn yazıb, hazırladım. Müdafiə başlandı. Moskvadan çox görkəmli dilçi alim gəlmişdi. Məqamı çatanda mən çıxış etmək üçün söz istədim. Müdafiə Şurasına sədrlik edən prof. Mehdi Əliyev gülümsəyərək mənə söz verdi. Əlavə edim ki, rəyasət heyətində çoxcildlik rusca-Azərbaycanca lüğətin tərtibçilərindən biri olan Orucov oturmuşdu. Mən çıxışıma Azərbaycan dilində başladım və dedim ki, indi rus dilində yazılmış mətni oxuyacağam. Bu, Orucovun xoşuna gəlmədi və o dedi: «Çox təəssüf!». Amma onu da deyim ki, çıxışım auditoriyanın və rus qonağın xoşuna gəlmişdi. Belə hesab edirəm ki, fəlsəfə mütəxəssisinin dil məsələlərindən bəhs etməsi tamamilə məntiqi idi.

Sonrakı illərdə Yusif müəllimlə ünsiyyətimiz daha da gücləndi. Tez-tez kafedrasında görüşüb, söhbətləşərdim, hətta

şirin-şirin zarafat da edərdik. Mən bir neçə il müddətində Universitetin humanitar fakültələrində elmi-tədqiqatlar üzrə yoxlama komissiyasının sədri olarkən də Yusif müəllimin də kafedrasında iclas keçirib, elmi hesabatları dinləyərdim.

Yusif müəllim son dövrdə respublikamızda baş verən ictimai-siyasi hadisələrə dərin maraq göstərirdi. Özü də adi müşahidəçi və seyrçi kimi yox. Onun qələminin məhsulu olan «Demokratiyaya gedən yol» kitabını yada salmaq istərdim. Bəzi məqamları da diqqətə çatdırmaq istərdim. Yusif müəllimin balaca, bir qədər də köhnəlmiş bir maşını vardı. Haraya istəsə, sürüb gedərdi. Bir gün Gədəbəydə kəndimizdə olarkən ermənilərin vaxtilə yaşadıqları Başkənd tərəfə gəlmişdi. Təsadüfən gördüm ki, Yusif müəllim orada maşını ilə dayanıb, özü də bir az kefsiz. Yaxınlaşıb, salamlaşdım, haraya getdiyini soruşdum. Dedi ki, İsalı kəndinə getmək istəyirəm və orada Həsən adında dostum var, məni qonaq çağırıb. Məlum oldu ki, həmin Həsən müəllim mənim doğmaca xalamoğludur.

Yusif müəllim idmanı çox çevirdi. Uzun müddət Universitetdə müəllimlərlə voleybol oynayardı. Sonrakı illərdə daha voleybola getmirdi. Görünür səhhəti daha buna imkan vermirdi.

Yusif müəllim insan gözəlliyinə dərin qiymət verən adamlardan biriydi. Çox sadə və mehriban idi. Mən heç zaman onda lovğalıq, təkəbbürlülük əlaməti görmədim. Amma bununla belə əsl mənada şəxsiyyət və dəyərli alim, səmimi vətəndaş idi.

Yusif müəllimin ruhu şad olsun!

***İzzət Rüstəmov,***
***fəlsəfə elmləri doktoru,***
***professor, «Şöhrət» ordenli***

## Elm və təhsilə həsr olunmuş ömür

Həyatda elə insanlar olur ki, onlar dünyaya gələndə sanki öz həyat yollarını bilirlər. Niyə belə düşünürəm? – deyə soruşa bilərsiniz. Sözsüz ki, belə bir düşüncəyə gəlməyim səbəbsiz deyil. Həyata gələndən niyə və nəyə yaşadıqlarını qəti olaraq bilən və ömrünün sonuna qədər tutduğu yolda ən yüksək zirvəyədək yüksələn insanlar məhz öz həyat yollarını düzgün müəyyənləşdirən insanlardır. Bu insanlar tutduqları yolda bütün çətinliklərə sinə gərir, durmadan irəliləyirlər və mənzil başına çatanda düzgün yolda olduqları məlum olur. Yusif Seyidov da məhz belələrindən idi. Azərbaycan dilçilik tarixində öz imzasını qoyan, öz sözünü deyən və sözünün ağası olan Yusif Seyidov. Azərbaycan dili tarixində özünəməxsus dəst-xətti olan bu insan sanki anadan olanda elə dilçi olacağını anlamışdı. Bəlkə də məhz o səbəbdən o, filologiyanı seçmişdi. Digər hansısa sahədə olsa, bu uğuru qazana bilməzdi. Bəlkə də...

Professor Yusif Seyidov respublikamızda filologiya elminin inkişafında xüsusi xidmətləri olan görkəmli alimlərdəndir.

Professor Yusif Seyidov özünün dərin, hərtərəfli biliyi, çox yüksək insani keyfiyyətləri və mənəvi zənginliyi ilə fərqlənirdi. O, ömrünün mənasını vətənə, xalqa xidmətdə görürdü.

Mən Yusif müəllimi ilk gündən çox sadə, səmimi, son dərəcə zəhmətkeş bir insan kimi tanıyırdım. O, özünün duzlu-məzəli zarafatları, şirin söhbətləri ilə hamının hörmətini qazanmış bir insan idi. Yusif Seyidov güclü insan idi. Həyat onu dəfələrlə sınağa çəkmiş və həyatın bu sınaqlarından Yusif müəllim üzüağ çıxmışdır. Ağır xəstəlikdən sonra özündə güc tapıb duran, yenidən öz sevimli işinə, doğma universitetinə,

müəllim kollektivinə, tələbələrinin yanına dönən Yusif müəllimi yaşadan da elə həyata olan bu sevgisi idi. O, öz həyatını universitetsiz, tələbəsiz təsəvvür belə etmirdi.

Həyatda belə insanlar nadir olur. Öz həyat yolunu seçən, cığır açа-aça təkcə özünə yox, özündən sonra gələn nəsillərə də yol göstərən bir alim olmaq, bir şəxsiyyət olmaq hər kəsə nəsib olmur. Yusif Seyidovun açdığı elm cığırında hələ yüzlərlə tələbələr, alimlər addımlayacaq, elmin yollarında işıq saçacaq və öz adlarını bu cığırın bir kənarına yazacaqlar.

Allah Yusif Seyidova qəni-qəni rəhmət eləsin!

Gözəl dost, gözəl insan, ruhun şad olsun!

***Qasım Zülfəli oğlu Hüseynov***
***BDU-nun professoru,***
***həmin universitetin nəzdindəki***
***"Gənc istedadlar" liseyinin direktoru,***
***Əməkdar müəllim***

## Görkəmli dilçi alim, ustad müəllim, gözəl təşkilatçı

Yaınız Azərbaycan dilçilik mühitində nəzərdə tutmuram, ümumən respublikamızın bütün humanitar elm aləmində, türk-dilli xalqlar dilçi, Dövlət Mükafatı laureatı, professor Yusif Seyidovu yaradıcı, yenilikçi, təcrübəli alim, eyni zamanda, xeyirxah, alicənab, təvazökar və prinsipial ziyalı kimi tanıyır və sevirdilər. Bu sevgi həmişə təbii və əbədi, indi də, ustadın və-fatından sonra da eyni səviyyədə davam edir. Təbii ki, bu sev-giləri Yusif Seyidov öz elminin, yaradıcı fəaliyyətinin sayə-sində, bir insan, şəxsiyyət kimi alicənablığı, təvazökarlığı, sadəliyi, mülayim və həlim təbiəti, xeyirxahlığı ilə yaradıb.

Yusif Seyidov bütün ömrünü BDU-nun divarları arasında keçirdi. Işlədiyi Filologiya fakültəsinə qəlbən-ruhən bağlı oldu. Onu öz doğma ocağı, məskəni hesab etdi, bir an da olsa ondan ayrılmadı. Odur ki, Filologiya fakültəsində indi də Yusif Seyidovun ruhu yaşayır.

Yusif Seyidov gözəl ədəbiyyatşünas idi. Ədəbiyyata, xü-susilə, klassik irsə olan məhəbbətilə həmişə fərqlənirdi. Yazdığı elmi-nəzəri əsərlərdə gətirdiyi misalların, iqtibasların əksə-riyyəti klassikadan olardı. “Klassik Azərbaycan şairləri söz haqqında” (Bu monoqrafiya görkəmli dilçi S.Əlizadə ilə birlikdə yazılıb), “Azərbaycan ədəbi dilində söz birləşmələri”, “Sözün qüdrəti”, “Yazıçı və dil”, “Ədəbi tənqid və bədii dil” və digər samballı monoqrafiyalarında Yusif Seyidov həm böyük dilçi, həm də ədəbiyyatşünas alim kimi çox aydın görünür. S.Vurğuna həsr etdiyi “Şairin dərdi”, “Xalq yazıçısı Elçin”, geniş həcmli “Ey ulu dünya!” monoqrafiyalarında Yusif Seyi-dov dilçi və ədəbiyyatşünas olmaqdan savayı, həm də müasir filosof kimi görünür.

Yusif Seyidov tədqiqatlarında, araşdırmalarında şərəfli bir

ömür yaşadı. Yaratdığı praktik, elmi-nəzəri əsərlər, çoxsaylı məqalələr, dərslik, dərs vəsaitlərinə əsasən, demək olar ki, o, taleyin ona verdiyi ömürdən də artıq yaradıcı fəaliyyət göstərdi. Dilçilik elminə ömrünün əbədi imzasını atdı, sadə, aydın təbiəti ilə dilin tədrisi metodikası məktəbini qorudu, yaşatdı. Bu məktəb indi də Yusif Seyidovun ənənələri ilə yaradıcı şəkildə davam və inkişaf etdirilir. Etibarlı dost, yoldaş kimi ziyalı Yusif Seyidov zəngin təbiətə malik idi. Əksər müasir elmlərə, yaradıcılıq sahələrinə bələd olduğu üçün, həm şifahi, həm də yazılı nitq üçün seçdiyi misallar, nümunələr təbii və inandırıcı olurdu. Xoş rəftarı, sadəliyi, ağıllı məsləhətləri ilə güclü inandırma qabiliyyətinə malik idi. Ona görə də bütün fakültə Yusif Seyidovu çox istəyirdi. Bu istək həm də onun nəsli Seyidliyi ilə bağlı idi.

Mən Yusif Seyidovun bir neçə monoqrasiyası haqqında məqalə yazdım, çap olundu. Çalışırdım ki, mülahizələrim Yusif Seyidovu incitməsin. Onun düşüncələrinə yaxın olsun. Elə də oldu. Oxuduqdan sonra o, razılığını bildirdi. Mən inandım ki, Yusif Seyidov monoqrafiyada irəli sürdüyü inandırma, düşündürmə, nəticə çıxarma və təqdim etmə məsələlərinə münasibəti, düzgün yanaşdığımı nəzərdə tuturdu.

Yusif Seyidov gözəl müəllim, təşkilatçı idi. Mən bir dəfə də olsun Yusif Seyidovdan inciyən tələbəyə rast gəlmədim. Hətta kafedra üzvlərinə olan güclü tələbatına baxmayaraq ondan küsən kafedra üzvünə rast gəlmədim. Çünki Yusif Seyidovun xeyirxahlığı nəticə etibarilə hamıya məlum idi. Yusif Seyidov dünyasını dəyişsə də o, yaradıcı fəaliyyəti, elmi, insanlığı ilə əbədi yaşayır. Allah Yusif Seyidova rəhmət eləsin.

Yusif Seyidov xatirələrdə, yaddaşlarda yaşayan alimlərdəndir. Mən 1950-ci ildən ta vəfatına qədər Yusif Seyidovla bir fakültədə tələbə, aspitant, müəllim kimi düz altmış beş il birlikdə çalışdım. Onun duzlu-məzəli söz-söhbətlərinin şahidi

oldum. Çoxsaylı ədəbi – bədii məclislərdə, elmi şuralarda iştirak etdim, onunla yol yoldaşı oldum. Yusif Seyidovun doğulduğu kəndə, "Dərələyəz"ə getdim, dillərdə əzbər olan, əfsanələrdə yaşayan "Arpa çayı"nı gözümlə gördüm. Onun qohumları ilə tanış oldum. Bu yerlər, insanlar məndə qəribə hisslər oyatdı. Hiss etdim ki, Yusif Seyidovda olan sadəliyin, təbiiliyin, alicənablığın kökləri bu təbii yerlər, torpaqlar və səmimi insanlarla bağlıdır. "Dərələyəz" Azərbaycanın köklü torpağı, dədə-baba türk yurdu olsa da onda da, indi də Ermənistan Respublikasına daxil edilmişdi. Öz dillərini, adət-ənənələrini, mədəniyyət və dinini qoruyub saxlayan "Dərələyəz" və onun əhatə etdiyi otuz beş türk kəndi dərin türksevərlik, vətənpərvərliyi ilə nümunə idi. Mən "Dərələyəz"ə görkəmli ziyalılarla; Yusif Seyidov, Firudin Hüseynov, Fərhad Zeynalov, İnayət Bektaşi ilə birlikdə getmişdim. O illərin, o insanların, o təbiətin xatirələri məndə olmazın xoş təəssüratlar yaratmışdır. O illəri yenidən xatırladıqca erməni qəsbkarlarına nifrətim qat-qat artır. "Göyçə mahalı", "Dərələyəz", "Basar Keçər", "Vedi" və digər dədə-baba Azərbaycan torpaqlarında türk dünyası üçün bəla olan Ermənistan kimi mənfur, xain bir respublika yaradanlara qəzəb dolu nifrətlər yağdırıram.

Yusif Seyidov doğma yer, yurd, ocaq dərdini bir əsrə yaxın qəlbində yaşatdı. Hər sözündə, hər danışığında o yerləri, insanları xatırlayır, tez-tez yada düşürdü. O yerləri bir də, əbədi olaraq qayıdacağı günü gözləyirdi. Allah sənə rəhmət eləsin Yusif Seyidov...

***Abdulla Əsgər oğlu Abasov***
***BDU-nun Müasir Azərbaycan***
***ədəbiyyatı kafedrasının professoru***

## Özü gedən, sözü qalan böyük ustad

İnsan həmişə ömrünün müəyyən anları və məqamlarında keçirdiyı həyat yollarına nəzər salır, xəyalən ötən illərə qayıtdıqca çoxlu suallar qarşısında qalır, bəzisinə cavablar tapır, bəzisinə isə ... nə isə... suallar qarşısında lal-kor olaraq xeyli dayanır və qəribə bir ah çəkir. Fikir dünyasının belə qatma-qarışıq çağlarında ilk günlər rastlaşdığın, sonralar isə bir həmkar kimi ömür salnaməsinə daxil olan işıqlı insanları heç bir an, heç bir zaman xəyal və röya xatirələrindən silə bilmir, ədəbi olaraq fikrində, düşüncəsində, xəyal dünyasında saxlayır. Necə ki, çoxlarına, o cümlədən bu yazının müəllifinə şərəfli müəllimlik sənətinə təmənnasız qəbul edən professor Yusif Seyidov kimi.

Yaxşı yadımdadır. Çoxlarımızın məbədgah saydığımız Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini yenicə bitirmişdim. İlk fəaliyyətim də elə filologiya fakültəsində başladı. Özüm kafedranın laborantı hesab olunsam da, (o vaxtlar fakültənin dekanı, çox hörmətli professor Əlövsət Abdullayev idi), dekanımızın məsləhəti ilə bir müddət dekanlıqda işləməli oldum. Onu da deyim ki, dekanlıqla, professor Yusif Seyidovun müdiri olduğu kafedra ilə qonşu idik. Elə günün bu günündə o qonşuluq necə var elə də qalır. Amma... xeyli nəsillər dəyişib. Nə etməli? Əlbəttə, cavab verə bilmirəm. Yazıya pozu yoxdu. Yalan olmasın, demək olar ki, Yusif müəllim hər gün dekanlığa gələr (Əlövsət müəllim ilə çox yaxın idi), içəri daxil olarkən hamımızla çox mehriban salamlaşar, özünəməxsus zarafatlarından da qalmazdı. Artıq mən neçə il idi ki, işləyirdim. Günlərin bir günü yenə dekanlığa gələndə Yusif müəllim mənə dedi: "Gəlsənə sənə bir az dərs

verim". Bu sözü eşidər-eşitməz elə bildim bütün dünyanı mənə bəxş etdilər. Gözü tox, son dərəcə səmimi və qayğıkeş bir insan kimi tanıdığım Yusif müəllim təmənnasız məni işə qəbul etdi. Mən bu yaxşılığı, mənə olan bu inamı ömrüm boyu unutmayacağam. Yusif müəllim bu təmənnasız xeyirxahlığı təkcə mənə yox, saya gəlməz gənclərə etmiş və ömrü boyu da edirdi də. Beləliklə, ilk dəfə auditoriyaya daxil oldum. Ani olaraq otağa nəzər saldım. Bir anlığa özümü itirdim. Elə bil auditoriya, bir-birindən gözəl, səliqə-səhmanla geyinmiş tələbələr üstümə gəldi.

Özümü toplayaraq Yusif müəllimin təqdim etdiyi proqramla işə başladım. Məşğələlər davam etdikcə kursla tanışlığım artır, tələbələrin münasibəti və səviyyəsi məndə xoş təəssürat oyadırdı. Get-gedə auditoriyaya alışır, tələbələrin mənə və mənim də tələbələrə qarşı olan isti məhəbbətim günbəgün artırdı.

İndi siz mənə deyin görüm, məni ilk dəfə auditoriyaya layiq bilən, sinif, jurnal, tələbə, müəllimlik məsuliyyəti nədir? kəlmələrini öyrədən, rəhbərlik etdiyi kafedrasına üzv edən (onu da deyim ki, bu kafedra həmişə nümunəvi bir kafedra kimi tanınmışdır, bugünün özündə də ustadın qurub-yaratdığı bu ənənə filologiya elmləri doktoru, professor hörmətli Hüseyn Əsgərovun rəhbərliyi ilə layiqincə davam etdirilir), ən ümdəsi isə çoxlarına yol göstərən, böyüklük və pasibanlıq edən gözü tox, nəfsi bütöv belə bir şəxsiyyəti unutmaq olarmı? Əsla, tövbə!

Bu ad Yusif müəllimə çox yaraşırdı. Yusif Peyğəmbərin ulu adını daşıyan, Seyidlər, üləmalar ocağının, ibadətgahının ruhunu, nəfəsini soykökündə yaşadan, hər sözündə, söhbətində ətrafında, rəftarında haqqı-nahaqqa verməyən Allah adamı idi

Yusif müəllim. O, həmişə cavan müəllimlərinə və dərs dediyi tələbələrinə deyərdi: "Çalış həyatda yaxşılıq et, ikiüzlü, paxıl olma, bir də bir səhv iş görəndə bir qədər çəkin, qorx, ehtiyatlı ol, axı o gözəgörünməz ilahi qüvvə bizim bütün işlərimizdən xəbərdardır" söyləməklə dəyərli məsləhətlərini verərdi.

Yusif müəllim çox cavan yaşlarından ta ömrünün sonunadək ömrünü-gününü Bakı Dövlət Universitetinə bağlamışdı. Nə az, nə də çox düz 60 il! Ozü də necə bağlanmışdı? "Almaz" pyesində deyildiyi kimi, o bir neçə saat dərs deməklə kifayətlənməz, təkcə fakültənin yox, bütün universitetin işlərinə sidqi ürəklə yanaşar, üzərinə götürdüyü tapşırıqları vicdanla, məsuliyyətlə yerinə yetirərdi. O, Azərbaycan dilçiliyində öz dəsti xətti ilə tanınan, sayılan-seçilən alimlərdən idi. Xeyli sayda sanballı elmi əsərlərin, dərsliklərin, monoqrafiyaların müəllifi olmaqla yanaşı, eyni zamanda bacarıqlı, işgüzar və təşkilatçı kimi də tanınırdı. Dəfələrlə fakültə partiya bürosunun üzvü, universitetin Metodşurasının sədri, Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının üzvü, Ali Təhsil Nazirliyində Metodşuranın üzvü, nələr, nələr, ən nəhayət, özündən də çox sevdiyi və bağlandığı Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına atalıq, rəhbərlik etmişdir. Bu və buna bənzər cəhətlərinə görə onun adı universitet miqyasında böyük hörmətlə çəkilərdi.

Yuxarıda söylədiyim kimi, Yusif müəllim özünün dediyi kimi ikinci evi adlandırdığı universitetə, onun kollektivinə çox bağlı olduğuna görə oradan heç cürə ayrıla bilmirdi, gününün 14-16 saatı eləcə doğmaca kafedrasında, yazısında, pozusunda olar, yeri gəldikcə gənclik illərindən aspirantlıq dövrünün söz-söhbətlərini yada salar, bəzən də kədərlənər, ona dərs demiş müəllimləri xatırlarkən sanki üzündə, gözündə, danışığında bir

şölə, bir ziya işığı pərvazlanar və deyərdi: "Mən ustadlarımdan – M.Hüseynzadədən, Mir Cəlaldan, M.Arifdən, C.Xəndandan, M.Cəfərdən, Əli Sultanlıdan, M.H.Təhmasibdən, F.Qasımzadədən, H.Mirzəzadədən, H.Araslıdan, M.C.Cəfərovdan, N.Məmmədovdan, M.Bağırovdan, Y.Şirvandan, fars dili müəllimi Ə.Azəridən, rus dilinin dərin bilici Əfəndi müəllimimdən (bəlkə də unutduqlarım varsa bağışlayın) həyat, yaşamaq, yaratmaq nədir, elmə, sənətə yiyələnmək, şərəfli müəllim titulunu daşımaq nədir? suallarını eşitmiş və onların bu dürlü tövsiyələri bugünün özündə də, bu yaşımda da qəlbimdə, hissimdə, ruhumda yaşamaqdadır. Elə bu söhbət əsnasında ötən günləri xatırlayan Yusif müəllim bilirsiniz nə dedi? Bir haşiyə çıxmaq istəyirəm. Bayaq söylədiyim kimi Yusif müəllimin gəncliyi, tələbəlik illəri o vaxtlar "Kommunist" küçəsi adlanan (indiki "İstiqlaliyyət") Azərbaycan Dövlət Universitetində keçdiyinə görə hər dəfə ağzı bağlı xatirə dəftərini açarkən universitetin hər bir auditoriyası, hansı partada əyləşməsi, tələbə dostları və s. barədə çox şirin söhbətlər edər, bir qədər susar, dinməz, mən isə kirimişcə ona baxar və onun röyalar aləminə qapıldığını, şair demişkən "ey məni mənə qaytaran xatirələr" burulğanında çırpındığını, üzünün ifadəsində, gözünü bir nöqtəyə zilləyərək nələri, nələri götür-qoy etdiklərini duyurdum, sanki mən də tələbəlik illərimi xatırlayırdım. Elə bu andaca ayağa qalxaraq, dərindən bir ah çəkər, sanki acılı-şirinli, sevincli-kədərli ötən günlərinə bir xatirə möhürü vurardı. Fikir verin, o həqiqətən universitetə vurğun idi, aludə idi. Vurğun sözünü yazarkən yadıma bir əhvalat düşdü. Əziz oxucu, onu da sizinlə bölüşmək istəyirəm.

Yadımdadır, 1978-ci ilin sentyabr ayında Bakı Dövlət Universiteti yenicə tikilmiş, doqquz mərtəbəli – hal-hazırda

fəaliyyətdə olan (Z.Xəlilov küç.23) binaya köçməli oldu. Yusif müəllim də 30 ildən yuxarı, ömrünün sonunadək bu geniş və işıqlı binada işıqlı insanlarla, səmimi, mehriban kollektivi ilə işlədi. Amma hər dəfə köhnə bina yadına düşər, yenə də röyalar dünyasında yatıb qalan xatirə boxçasını bir daha varaqlar, danışar, danışar, eh deyərək kövrək bir şəkildə: "nə olaydı ötən günlərimi qaytaraydılar, gələn günlərimi qurban verərdim" deməklə sakitləşməz, bir də üstəlik əlavə edərdi, "vallah-billah ürəkdən deyirəm, kaş o kasıb tələbəlik günlərimi, Nüsrət Kəsəmənli demişkən, birin tapıb, birini tapmadığım o günlərə, o saatlara, o dəqiqələrə qaytaraydılar" deyər, ona qulaq asanlara isə kədərli notlara toxunduğuna görə “məni bağışlayın” deyərdi. Mən şəxsən bu söhbətlərin şahidi olduğuma görə söyləyirəm. Sonra isə əlavə olaraq özünəməxsus gülüşü ilə üzünü bizlərə tutub – inanın, mən hər gün işdən sonra yorğun olsam da, olmasam da, işim başımdan daşsa da bir vaxt, bir məqam tapıb, mehr-məhəbbət saldığım “Kommunist" küçəsinə, doğma evimə gedər, düz beş il oxuduğum universitetin soyuq divarlarına əl çəkər, elə bil bu divarlara əl çəkdikcə canımdan, ruhumdan bir qığılcım, bir istilik çıxardı, bununla sanki sakitliyimi tapar, həmin gün özümü çox gümrah, çox rahat hiss edərdim.

Bəli, Yusif müəllimi təhsil aldığı, fəaliyyət göstərdiyi universitetə bağlayan bir sıra amillərdən biri də tələbələrə olan sevgisi və məhəbbəti idi. Tələbələrini öz övladları kimi sevər, onların qayğısına qalar, gələcəyinə ümid bəslədiyi gəncləri elmi işə cəlb edərdi. Tələbələrin ideya-siyasi tərbiyəsinə xüsusi diqqət yetirər, el üçün, xalq üçün layiqli kadrların yetişməsinə çalışardı. Onun gələcəyinə böyük ümid bəslədiyi, elmi rəhbəri olduğu saysız-hesabsız yetirmələri artıq elmlər namizədi, elmlər doktoru, professor, hətta akademik səviyyəsinədək yüksəl-

mişlər. Göründüyü kimi zər qədrini zərgər dəqiqliyi ilə bilən ustad alimin ustadlığı nəticəsində əməyi və zəhməti hədər getməmişdir. O, həmişə yetirmələri ilə fəxr edərdi.

Yusif müəllim əsil elm adamı idi. O təkcə respublika miqyasında deyil, digər respublika və ölkələrdə dərin məzmunlu məruzələri, çıxışı ilə görkəmli dilçi alimlərin nəzər-diqqətini cəlb edərdi. Yusif müəllim təkcə dərs dediyi tələbələrin deyil, bütün fakültə tələbələrinin müəllimi idi. Onu fakültəmizin bütün gənc məzun və müəllimləri, eləcə də respublikamızm müxtəlif elm ocaqlarında, ali və orta təhsil məktəblərində çalışan mütəxəssislər də öz müəllimi hesab edir və bundan sonsuz şərəf duyurlar. Müəllimlik peşəsi Yusif müəlimin simasında öz əzəməti və vüqarı ilə canlanırdı.

Yusif müəllim haqqında bu yazını hazırlayarkən onun bir sıra məqalələri ilə tanış oldum. Bu xatirə-məqalələrindən biri də ona 1948-ci ildə dərs demiş tanınmış yazıçı Mir Cəlal müəllim haqqında söylədiyi fikri olduğu kimi sizlərə çatdırıram: "Müəllimlik, el deyimilə ifadə etsək, onun boynuna biçilmişdir. O, bütün varlığı ilə müəllim idi, oturuşu-duruşu ilə, gəlişi-gedişi ilə, danışığı-gülüşü ilə, bütün hərəkətləri ilə müəllim idi. Yaradıcılığında da müəllim idi, alimliyində də alim idi". Güman edirəm ki, bu məqalə ilə tanış olanlar bu ürəkdən gələn ifadələrin, sözlərin məhz Yusif müəllimin özünə aid olmasını uf demədən təsdiq edə bilərlər.

Yusif müəllim eyni zamanda əsil adam idi. Mənim çox yaxşı tanıdığım Yusif müəllim çox mehriban, səmimi və xeyirxah bir insan idi. Onun mehribanlığı və xeyirxahlığı, ədalətliliyi və humanistliyi, səmimiliyi və alicənablığı və s. mənəvi keyfiyyətləri sanki onun çoxsaylı, çoxsanballı elmi əsərlərinin məzmununa və ruhuna hopmuşdu. O, əməli fəaliyyətində özü-

nün həyat idealı hesab etdiyi xeyirxahlıq və xoşrəftarlıqla, elmi əsərlərində təcəssüm olunan insanpərvərlik və xoşniyyətlik arasında qırılmaz vəhdət yaratmışdı. O, əməli işində necə idisə, elmi yaradıcılığında da məhz belə idi.

Artıq bir neçə ildir ki, yüksək insanlıq, vətəndaşlıq kimi dəyərli keyfiyyətlərə malik bu müqtədir insan aramızda yoxdur. Bu müddətdə Yusif müəllimin yaxın dostlarının, müdiri olduğu kafedra müəllimlərinin, tələbələrinin onun barəsində səslənən fikirlərini, xatirələrini oxuduqca, dinlədikcə bir daha əmin olursan ki, ömrünü əsil vətəndaş kimi yaşayıb, xalqına, elinə, elminə, təhsilinə təmənnasız xidmət göstərən insanların adı həmişə minnətdarlıq duyğusu, səmimiyyət, hörmət və ehtiramla yad edilməyə layiqdir və günün özündə də yad edilir...

Məhz Yusif müəllimin adını ucaldan, şəxsiyyətini əbədiləşdirən ən ümdə keyfiyyətlərindən biri də güman edirəm ki, onun xarakterinin ülviliyində, paklığında və bir də insani keyfiyyətlərinin ucalığındadır. Elə buradaca şair Söhrab Tahirin bu misraları yada düşür:

*Səadətdən, səxavətdən ucadır,*
*Yer üzündə bəşər kimi qocadır,*
*Dünya boyda ancaq üççə hecadır,*
*İnsan gedər, adı qalar yaxşılıq,*
*Gedənləri yada salar yaxşılıq.*

Yaxşı deyiblər, gedən qayıtmaz, gələn qalmaz. Həyat davam edir. Nəsillər nəsilləri əvəz edir. Amma nəsillər nəsilləri əvəz etsə də, illər, qərinələr ötsə də xoş xatirələrdə Yusif müəllimin insanpərvərliyi, xeyirxahlığı, duzlu-məzəli zarafatları sözsüz-söhbətsiz, dilbilməz qəlbimizdən silinməyəcək və əbədiyaşarlığını saxlayacaqdır.

Yusif müəllim bu işıqlı dünyadan getdi. Amma bizlərə onun ılıq münasibəti, aşıb-daşan sözü və şirin söhbətləri qaldı. Sözün gücünə, qüdrətinə böyük məna və dəyər verən ustad özünün "Sözün qüdrəti" adlı əsərində deyir: "Söz qalır deyirlər, söz olaydım. Bir də gələydim bu dünyaya". Narahat olmayın, uyuduğunuz o Ana torpaqda rahat yatın. Çünki sözə verdiyiniz böyük hikmətli fikirləriniz, düşüncələriniz qalaq-qalaq əsərlərinizdə sözə dönüb yaşayır. Yaşayır, ona görə ki, hər ulduzun yeri var kəhkəşanlar içində. Həqiqətən də belədir, saya gəlməz bu ulduzlar kəhkəşanında Yusif Seyidov imzası, dəsti xətti olub, olmuş və olacaqdır, dünya durduqca o da qəlblərdə, konüllərdə əbədi yaşayacaq. Şair Rəfiq Zəkanın dediyi kimi:

*Nə qədər yaxşılar gəlir dünyaya,*
*Yenə yaxşıların yeri boş qalır.*

Bəli, qayğıkeş və nəcib insan, əvəzolunmaz pedaqoq, nadir ziyalı professor Yusif Seyidovun yeri boş qaldığı kimi.

***İfrat Əliyeva***
***BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının professoru, filologiya üzrə elmlər doktoru***

## Görkəmli alim, kamil şəxsiyyət

Bəzən hər hansı bir mövzuda danışarkən, hər hansı bir adam haqqında bəhs edərkən təyinedici sözləri yerli-yerində işlətmir, bol-bol tərif deyir adi insanı – alim, şairdən daha çox, aktyorları dahi adlandırırlar. Bu, tərifdən uzaqlaşaraq təhrifə keçir. Çox vaxt (indi bu dəbdədir) adi bir müğənni kiminsə, nəyinsə hesabına xalq artisti adı alır. Onun evindən veriliş gedəndə, müsahibə aparılanda özünü dağ basına qoyur. Mənə dahi deyin, professor deyin – deyə tələb edir. Bunun sahibi mən özüm olmuşam. Amma elə böyük adamlar da olur ki, böyüklüyü özünün təyinedici (deyktik) sözlərində deyil, daxili kamilliyndə, zənginliyində görür. Yusif müəllim məhz sonunculardan idi. Mən ona professor – deyə müraciət edildiyni bir dəfə də görmədim. Onu tanıdığım 56 il sürəsində onu bircə cür gördük, bircə cür də çağırdıq. Yusif müəllim!

Mən Yusif müəllimin həmkarı içərisində onunla birlikdə olan adamlardan birincisiyəm – desəm, yanılaram.

Yaxşı yadımdadır. 1957-ci ilin sentyabr ayının axırı idi. Muxtar müəllimin seminarını aparmaq üçün auditoriyaya ortaboylu, qarayanız, 28-29 yaşlarında bir cavan müəllim gəldi. Salam verib özünü təqdim etdi. Mənim adım Yusif, familiyam Seyidovdur. Filologiya elmləri namizədiyəm, M.Hüseynzadənin oxuduğu mühazirənin seminarlarını aparacağam. Tələbələr bir-birinə baxıb Yusif müəllim dedilər. Bu ad mənim üçün 57 il doğma oldu. İndi də doğmadır.

Yusif müəllimlə biz, nəinki Azərbaycan dilçliyini, habelə böyük bir həyat məktəbi kursunu məhz Yusif müəllimin izi ilə keçdik. Yusif müəllin 1966-cı ildə doktorluq dissertasiyası müdafiə etdi. Həmin il yenicə təşkil olunmuş Azərbaycan dili

və onun tədrisi metodikası kafedrasının müdiri oldu. 1969-cu ildə mən namizədlik dissertasiyası müdafiə edəndə birinci opponentim oldu. Bundan sonra yazdığı bir sıra məqalələrində mənim haqqında danışmış, elmi fəaliyyətimi yüksək dəyərləndirmişdir.

Yusif müəllimlə mənim münasibətlərim 2003-cü ildən başlayaraq müəllim-tələbə çərçivəsindən çıxaraq yoldaşlıq, sirdaşlıq, həmkarlıq müstəvisinə daxil oldu. Yay tətili vaxtlarını çıxmaq şərti ilə, demək olar ki, biz 10 ay (hər ayın axırıncı şənbə günü) təyyarə ilə Naxçıvana gedirdik. NDU-nun rektoru akad. İ.Ə.Həbibbəyli, dediyi kimi, bizim bircə qaibimiz yox idi. Yusif müəllin həmişə təyyarədə pəncərə tərəfdə oturmağı sevərdi. Çünki, kiçik bir pəncərədən böyük bir aləmi seyr eləmək mümkün olurdu. Bəzən də görürdüm ki, pəncərədən baxa-baxa mürgüləyir. Naxçıvanda təyyarədən düşən kimi bizi qarşılayıb mehmanxanalardan birinə aparardılar. Bizim ayrılmaz olduğumuzu bildiklərindən həmişə bizə iki nəfərlik bir otaq tutardılar. Bəzən olurdu ki, birimiz bu gün, digərimiz sabah Naxçıvana gedirdik – fərqi yoxdu, kim getsə o biri üçün də eyni otaqda çarpayı hazırladırdı. Bəzən müdafiədən əvvəl və ya sonra hər birimiz öz kəndimizə baş çəkərdik. Bir neçə dəfə Yusif müəllimin təklifi ilə onların kəndinə – Yengicəyə getmişdik. Həmişə kəndə çatmamış yolun sağ tərəfində yerləşən kənd qəbiristanına dönər, anasının baş daşı yanında dayanar, gözləri doluxsunar, uşaq kimi yanaqlarından yaş axardı. Bir dəfə mən bir surə oxumağa başladım.

Yasin, vəl Quranil-Həkim, innəkə ləminəlmursəllin əla siratin-mustəqim, Tənziləl-əzizizrəhim...

Yusif müəllim heyrət və sevinclə:

- Sən Yasin surəsi oxuyursan?

Başımla “bəli” – dedim. Surənin yarısında “Sədəqəllahu-əliyyuləzim” - deyə surəni bitirib bağışlanma və Fatihə dedim. Sonra məni qucaqlayıb: indi mənim ən əzizim oldun.

Sonra onların kənd evinə getdik. Yay meyvələri yetişmişdi. Yusif müəllim özü əkdiyi ağacların meyvəsindən həvəslə yedi və mən də ona qoşuldum. Bir il ötüb keçdi... Yenə onların kənddəki kərpicdən tikilmiş evlərinə getdik. Qonşu məlumat verdi ki, evə baxmağı tapşırdığınız qohumunuz evi satmışdır. Hər ikimiz təəccüb etdik. Yusif müəllim isə hiddətləndi:

– Necə yəni satıblar. Bəs mənə niyə deməyiblər?

Qonşu çiynini çəkdi... Deməyə söz tapmadı. Nəhayət:

– Açarlar məndədir, verim, girin həyətə. Açarları alıb qapını açaraq içəri girdik. Yusif müəllim dünyada onun üçün ən doğma olan guşədə yad bir insan kimi köksünü ötürdü. Heç nə demədi. Yəqin ki, deyə bilmədi. Hər ikimizin gözündən yaş axdı. Yusif müəllim bir daha o kəndə getmədi. Bir aydan sonra biz yenidən Naxçıvana gedəndə prof. Hüseyn Əsgərov da bizimlə idi. Yusif müəllim Hüseyn müəllimgilin kəndinə uzunbayıq getməyi təklif etdi. Yaz vaxtı idi. ərik ağacları təzə çiçəyini sovmuşdu. Yusif müəllim dedi:

- Gəlin, killikgə yeyək (Biz buna qırar deyirik). Bir qədər killikgə yedikdən sonra Hüseyn müəlimgilin halal süfrəsi ətrafında oturub səhər çayı içdik. Sonra müdafiəyə getdik. Həmişə Yusif müəllim və mən dissertasiya və dissertant haqqında çıxış edərdik...

Yaxşı yadımdadır, 2008 və 2013-cü illərdə iyun ayının 10-da C.Məmmədquluzadə adına Naxçıvan Musiqili Dram Teatrında mənim ulu öndər H.Əliyevin ikinci dəfə hakimiyyətə qayıtmasından bəhs edən “Koroğlunun Çənlibel qayıdışı” adlı

mənzum pyesimin tamaşasına baxmışdıq. Əsər haqqında hamı kimi Yusif müəllim də yüksək fikir söylədi.

Heç yadımdam çıxmayan bir hadisə... 2013-cü ilin noyabr ayının 4-6-da Türkiyənin Əskişəhər şəhərində Beynəlxalq simpoziuma getməli idim. Noyabrın 1-də Yusif müəllimlə görüşmək üçün onun kafedrasına getdim. O, öz xidməti stolunun arxasında deyil, aşağı başda elektrik qızdırıcısının (radiator) yanında oturub əllərini qızdırıcının üstünə tutmuşdu. Mən ona zarafatla Yusif müəllim üşüyərmiş – dedim. O:

- Adil, bütün bədənim buz bağlayıb, donuram.

Mən ona Türkiyədə beynəlxalq simpoziuma getdiyimi dedim. Gözləmədiyim halda (çünki, o görüşməyi sevməzdi) ayağa durub məni öpdü. Kövrəldi. Mən zarafatla: məni əsgərliyə yola salırsan?

- Yox, dedi. Amma... sözünü tamamlamadı.

- Sən demə, bu bizim axırıncı görüşümüz olduğu onun ürəyinə dammış imiş. Belə də oldu. Türkiyədən geri qayıdanda onu daha görmədim. 37 il oturduğu stolunu əbədi tərk etmişdi. Lal kimi stolun önündə dayandım...

***Adil Balayev,***
***professor,***
***Yusif müəllimin tələbəsi***

## Elm ağsaqqalı, böyük ustad, nurlu insan, axirət dünyasına işıq salan alim

İnsanın xoşbəxtliyi onun elmindədir. Hər kəs elmə cığır açırsa, ona ölüm yoxdur. Həzrət Əli (ə.s).

*“Kimin elmi çoxsa, o güclü olar*
*Qoca qəlbə elmlə gənclik dolar ”.*
*İnsan çoxdur, insanlıq azdı.*
*İnsanda insanlıq öləndən bəri,*
*İtmiş insanlığın parlaq gövhəri.*

İnsanın gözəlliyi onun elmində və davranışındadır. Dünyada iki şeyi aldatmaq olmaz, bir şeyin də sübuta ehtiyacı yoxdur, yəni, qulaq və gözü aldatmaq olmaz; gözəlliyin də sübuta ehtiyacı yoxdur, yəni gözəllik göz qabağındadır. Yəni qızılı hamı qızıl kimi görür. Bir də ki, insanlar doğulur ölmək üçün, bunu sübut etməyə ehtiyac yoxdur.

*Adam var ölüdür, lap diri-diri,*
*Ölən var yaşayır min-min illəri.*

Bax, böyük ustad Yusif müəllim də belə alimlərdəndir, yəni nə qədər ki, biz varıq (Yusif müəllimi sevənlər var) Yusifimiz də var bizim. Səsimizdə, qanımızda, ürəyimizdə yaşayacaqdır bizim.

Yusif müəllimin çox insanlara yaxşılığı dəyib, onları çörək sahibi edib və ərsəyə çatdırıb. Yetirdiyi alimlərə və tələbələrinə atalıq qayğısı göstərib.

Dünyanın ən xoşbəxt insanı o insandır ki, onun başqalarının xoşbəxtliyində payı olsun. Bax, Yusif müəllim belə şəxsiyyətlərdəndir. Ona görə dünyasını dəyişəndən sonra yada

salınır və əzizlənir.

Yaxşılıq bütün sevinclərin əsasını təsdiq edir. Yaxşılıq insanı düşüncəli, uzaqgörən, müdrik, mərd, ehtiyatlı, saf ürəkli, xoşbəxt və tərifəlayiq edir. Yaxşılıq insanın balaca dünyasının günəşidir. Təmiz vicdan isə onun göy qübbəsidir. Belə insanları həm uca tanrı, həm də insanlar çox sevir. Belə şəxsiyyətlər həm sağlığında sevilir, həm də dünyalarını dəyişəndə unudulmurlar. Yusif müəllim belə alimlərdən biri idi. Yusif müəllim əmək-sevər, zəhmətsevər, mərd, ciddi və lütfkar bir alim idi. Əmək insan həyatının lampasıdır, zəhmət onun yanacağıdır, ağıllı düşüncə onu yandıran atəşdir. O, həm də ciddi alim idi. Ciddilik bütün müvəffəqiyyətin anasıdır.

Dövlətin qanunları nə vaxtsa yox olur, ölür. Kitab yazan alimlər heç vaxt ölmür. Azərbaycan dövlətini sevən, qanı və canı ilə dövlətçiliyimizə bağlı bir şəxsiyyət olan Yusif müəllimin yazdığı kitablar özü ilə bərabər heç vaxt ölmür və kitabların ömrü qədər öz ömrünü uzadır.

Kitablar gənclərin yol bələdçisidir. Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli söz külçəsini nəsildən-nəsilə daşıyıb gətirən fikir gəmisidir. Görkəmli alim, əziz Yusif müəllimin yazmış olduğu kitablar tələbələri tərəfindən sevilə-sevilə oxunur. Ulu tanrı bütün insanları yaradır. Lakin özünə yaxın və sevdiyi insanlara ağıl, ədəb, elm, əqidə, tərbiyə, iffət, fütuvvət və bəsirət verir.

Burada Həsən Küskünün bir neçə bənd şeri yerinə düşər:

*Gərdişi dövrana bir nəzər salın,*
*Kim gəldi cahana götürdü dünya.*
*Yüz yaman köçəndə bəxti gətirdi,*
*Bir yaxşı köçəndə itirdi dünya.*

*Nadanlar ellərə nə qoydu getdi,*
*Abad könülləri pərişan etdi.*
*Üzdən iraq oldu əriyib itdi,*
*Özünü zinhara gətirdi dünya.*

*Kim aqil doğuldu ad qoydu getdi,*
*Ağızlarda şirin dad qoydu getdi,*
*Tikdi sınıq könül şad qoydu getdi,*
*Belə də insanlar yetirdi dünya.*

Yusif müəllim kimi insanlar da yetirdi dünya.

*Biz dünyadan gedər olduq qalanlara salam olsun.*
*Bizim üçün xeyir-dua qılanlara salam olsun.*
*Xəstə ikən halımızı soranlara salam olsun.*
*Bu qaydadır gələn, gedər,*
*Əcəl ki var bizi güdər.*

*(Y.İmrə)*

Yusif müəllimin məzarı önündə baş əyir və deyirəm! Uca tanrı sizi bağışlasın, qəbriniz nurla dolsun. Sizi unutmayanlara kömək olsun.

***Hacı Əyyub Teymur oğlu Əzizov***
***BDU-nun kimyanın tədrisi***
***metodikası kafedrasının müdiri,***
***professor***

## Unudulmayan ziyalı Yusif Seyidov

Mən filologiya fakültəsində bir neçə müəllim olub ki, onları yaxından tanımışam. Bu kiçik yazımda onlardan yalnız bir neçəsinin xüsusi adını çəkmək istəyirəm. Birincisi Bəxtiyar Vahabzadə. Bəxtiyar müəllim Azərbaycan Xalq şairi, həm də filologiya fakültəsinin professoru idi. Biz o vaxtlar – tələbəlik illərindən başlayaraq böyük şairin poeziyası ilə çox maraqlanırdıq. Bəzən onun səsini eşitmək, çıxışlarına qulaq asmaq üçün məxsusi olaraq filologiya fakültəsində keçirilən tədbirlərə qatılardıq.

İkinci xatırlatmaq istədiyim şəxs filologiya elmləri doktoru, professor Əlövsət Abdullayevdir. Qardaşlarını çox yaxşı tanıyırdım. O, universitetin ən yaxşı prorektorlarından olmuş, filologiya fakültəsinin dekanı və kafedra müdiri kimi uzun müddət universitetdə çalışmışdır.

İşıqlı bir insan kimi Əbdülhəmid müəllimin adını çəkməyi özümə borc bilirəm. Rəhmətlik Əbdülhəmid Bağırovu bir həmyerlim – ağsaqqal, intellektual səviyyəli, insanlar arasında ünsiyyət yaratmaq bacarığı olan kübar bir insan kimi çox yaxından tanıyırdım.

Professor Yusif Seyidovun yetirməsi və Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının hörmətli müəllimlərindən, təxminən 20 ilə yaxın bizim biologiya fakültəsinin rus bölməsində Azərbaycan dilini tədris edən, Əbdülhəmid müəllimin qızı Məhbubə xanım məndən Yusif Seyidov haqqında xatirələrimi yazmağı xahiş edəndə, doğrusu, çox təsirləndim. Mərhum professor Yusif Seyidovun biblioqrafiyasını hazırlamaq, onun haqqında xatirələr toplamaq – bu, çox təqdir olunası bir işdir. Ustadı, müəllimi unutmaq olmaz. Biz xatırlamalıyıq ki, bizi də xatırlasınlar.

Yusif müəllim, səhv etmirəmsə, bəlkə, həyatının 60 ildən

çoxunu universitet divarları arasında keçirmişdir. O, yuxarıda adlarını çəkdiyim və adlarını çəkmədiyim digər alimlərdən daha artıq ömür sürmüş, dünyasını dəyişənə qədər filologiya fakültəsində çalışmış, saç ağartmış, qocalmışdı. O, işlədiyi kafedranı özü yaratmış, ömrünün sonuna kimi həmin kafedraya rəhbərlik etmişdir. Yusif müəllim onlarla alim yetişdirmiş, cild-cild kitablar – dərsliklər yazmış, minlərlə tələbələrə dərs demişdir.

Mən Yusif müəllimi filologiya fakültəsinin ağsaqqalı, müdrik insan, böyük alim, ömrünü universitetdə tələbələrin təlim-tərbiyəsinə və maariflənməsi işinə sərf edən bir pedaqoq, 30-dan çox kitab, 300-yə yaxın elmi məqalə müəllifi kimi tanıyıram.

Prof. Y.Seyidov uzun müddət universitet Elmi Şurasının üzvü olmaqla, həmişə prinsipial olmuş və öz sözünü obyektiv demişdir. Yusif müəllim Dövlət Mükafatına layiq görülmüşdü. «Əməkdar müəllim» fəxri adı da ona çox yaraşırdı. Çünki o, öz peşəsinə qəlbən bağlı idi və özü də böyük müəllimlər ordusu yetişdirmişdi.

Düşünürəm ki, professor Yusif Seyidov kimi nüfuzlu bir alim, ömrünü universitet üçün çıraq kimi yandıran bir insan haqqında memuar yazmağa dəyər. Çünki o, belə bir hörmətə, ehtirama və bu qiymətə layiqdir. Filosofların dediyi kimi, Yusif müəllim dünyasını dəyişdikdən sonra ikinci dünyasını yaşayır. Dostlarının, tələbələrinin, həmkarlarının, onu istəyənlərin ürəyində döyünən ikinci ömrünü yaşamaq hər insana nəsib olmur.

Yusif müəllim həmişə ürəklərdə yaşayan unudulmaz ziyalılarımızdındır. Onun dünyadan köçməsini təkcə BDU üçün deyil, bütövlükdə Azərbaycan xalqı üçün böyük itki hesab edirəm.

**Allah ona rəhmət eləsin.**

*Məcnun Babayev*
*Rusiya Ekologiya Akademiyasının həqiqi üzvü,*
*Beynəlxalq Koosfeh Akademiyasının həqiqi üzvü,*
*professor*

# Azərbaycan dilçiliyinin sonuncu mogikanı – Yusif Seyidov

Azərbaycanda, bütün türkdilli ölkələrlə müqayisədə, dilçilik elmi kifayət qədər yaxşı inkişaf edib. Filoloji elmin bu sahəsinin çox inkişaf etməsinin bir səbəbi də ondan ibarətdir ki, Azərbaycanda tarixən dilçilik məktəbi güclü olub. Hələ XIX əsrdə görkəmli mütəfəkkirlər, dünya şöhrətli yazıçı-dramaturq, maarifçi-filosof M.F.Axundzadə, məşhur Sankt-Peterburq və Kazan universitetlərinin professoru Mirzə Kazımbəy, akademik H.Hüseynov, İ.Qaspıralı, F.Köprülü kimi klassiklərin yaradıcılığında Azərbaycan dilçiliyinin bir sıra aktual problemləri dərin peşəkar səviyyədə işlənmişdir. Sonrakı dövrlər Azərbaycan dilçilik elminin inkişafında və formalaşmasında akademiklər M.Şirəliyevin, A.Axundovun, T.Hacıyevin, eləcə də professorlar M.Hüseynzadənin, S.Cəfərovun, Ə.Abdullayevin, Z.Budaqovanın, H.Mirzəzadənin, F.Zeynalovun, S.Əlizadənin, Y.Seyidovun xüsusi rolu olmuşdur. Bu gün də Azərbaycanda milli dilçilik elmimizin, xüsusilə də türklologiyanın çoxsaylı problemləri ilə məşğul olan xeyli istedadlı və dəyərli alimlərimiz var.

Professor Yusif Seyidov Azərbaycan dilçilik məktəbinin klassik nümayəndələrindən biri olmuşdur. Onun yaradıcılıq və fəaliyyət diapazonu həddindən artıq geniş idi. Şübhəsiz ki, Yusif müəllim ilk növbədə çox istedadlı, görkəmli dilçi alim idi. O, Azərbaycan dilinin müxtəlif problemləri ilə məşğul olsa da, dilçilik elimimizin tarixində söz birləşmələri sahəsində yaxşı mütəxəssis sayılırdı. Necə ki, M.Şirəliyev dialektologiyada, A.Axundov fonetikada, M.Hüseynzadə morfologiyada, S.Cəfərov leksikologiyada, Ə.Abdullayev sintaksisdə, F.Zeynalov kö-

məkçi nitq hissələri sahəsində əsas mütəxəssis sayıldıqları kimi, Yusif Seyidov həm də çox gözəl metodist alim idi. O, Azərbaycan dilinə aid orta məktəb üçün bir neçə dərslik yazmış və uzun müddət (ömrünün sonuna qədər) Bakı Dövlət Universitetində Azərbaycan dilinin metodikası kafedrasının müdiri vəzifəsində çalışmışdı.

Yusif Seyidovda dilçilik sahəsində olduğu qədər də ədəbiyyatçı istedadı da var idi. Onun Azərbaycan ədəbiyyatının müxtəlif sahələrinə həsr etdiyi məqalə və kitabları öz elmi səviyyəsinə görə bir çox peşəkar ədəbiyyatçının əsərlərindən geri qalmır. Xüsusilə, onun yarıpublisist, yarıbədii və yarıelmi səciyyə daşıyan Səməd Vurğun haqqında yazdığı kitab öz orijinallığı ilə seçilir.

Bu kitabda Yusif müəllim bir yazıçılıq sənətkarlığı nümayiş etdirmişdir. Yusif Seyidov xarakterinə görə novator-yenilikçi alim, ziyalı idi. Demək olar ki, onun bütün əsərlərində yenilik, orijinallıq ab-havası müşahidə olunur. Yusif Seyidov eyni peşəkarlıqla həm müasir Azərbaycan dilinin qrammatikasının, həm də klassik ədəbiyyatımızın (xüsusilə klassik poeziyamızın) ən aktual problemləri ilə məşğul olmuş, bu sahələrdə dəyərli əsərlər yazmışdır.

Yusif Seyidovun bir dilçi alim kimi qələmə aldığı «Kitabi-Dədə Qorqud» dastanının dili» və «Klassik Azərbaycan şairləri söz haqqında» əsərləri də xüsusi əhəmiyyət kəsb edir.

Əlbəttə, Yusif Seyidovun həyat və yaradıcılığına ənənəvi yolla yanaşmaq, nəzər salmaq olar, məsələn, onun neçənci ildə, hansı bölgənin, hansı kəndində doğulması, təhsili və əmək fəaliyyəti haqqında ətraflı məlumat vermək olar. Amma bütün bunlar sadəcə təsvir olaraq qalacaq, bu böyük alimin, müəllimin, ziyalının əsl portretini, zəngin daxili aləmini əks etdir-

məyəcək. Çünki, Yusif müəllim ənənəvi adam deyildi. O, şair qəlbli, çox həssas hissiyyatlı bir insan idi. Onun çox zəngin və dərin mənəvi aləmi var idi.

O, zahirən quru adam təəssüratı yaradırdı. Amma onunla yaxın olan, uzun müddət onunla dostluq edən, onun daxili aləminə azacıq da olsa bələd olan adam bu insanın nə qədər maraqlı, duyğulu, kövrək bir insan olduğunu görə bilərdi.

Bütün bu insani keyfiyyətləri sayəsində Yusif Seyidov qəlblərə çox tez yol tapa bilir, sevilirdi. Yusif Seyidovu azacıq yaxından tanıyan tanışları da, əsl dostları da, içərisində olduğu elmi mühit də, xüsusilə, tələbələri də onu çox sevirdi. Söz tələbələrdən düşmüşkən, Yusif Seyidov yalnız kitab yazmaqla öz alimlik missiyasını bitmiş hesab etmirdi (o, çox məhsuldar alim idi – həddindən artıq dəyərli 15 cildlik əsərlərini çap etdirmişdir), o, həm də əsl müəllim idi. Onun yetişdirdiyi ziyalı nəsli, alimlər bu gün vətənimizin müxtəlif yerlərində – Naxçıvanda, Bakıda və digər şəhərlərdə çalışır.

Yusif müəllim həssas, duyğulu müəllim olduğu kimi, həm də qayğıkeş valideyn idi. Bir sözlə, professor Yusif Seyidov gözəl insan idi. O, Azərbaycan ziyalılarının, klassik dilçiliyimizin sonuncu mogikanı idi. Allah Yusif müəllimə rəhmət eləsin, qəbri nurla dolsun.

***Cəlil Nağıyev***
***BDU-nun Dünya ədəbiyyatı kafedrasının müdiri,***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

## Azərbaycan dilçiliyinin ağsaqqallarından biri professor Yusif Mirəhməd oğlu Seyidov

Filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Əməkdar Elm Xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Yusif Seyidovun Azərbaycan dilçiliyinin formalaşması, inkişafı və təbliğində müstəsna xidmətləri vardır.

Yusif Seyidovun 1929-cu ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonun Yengicə kəndində doğulmuşdur. O 1946-cı ildə Naxçıvanda ikillik Müəllimlər İnstitutunu bitirmiş, sonra təhsilini ADU-nun (indiki BDU) fılologiya fakültəsində davam etdirərək buranı 1952-ci ildə bitirmiş və universitetin aspiranturasında saxlanılmışdır. Yusif Seyidov 1956-cı ildə "Müasir Azərbaycan dilində feili bağlama tərkibləri" mövzusunda namizədlik, 1966-cı ildə isə “Azərbaycan dilində söz birləşmələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Professor Yusif Seyidov bütün ömrünü Bakı Dövlət Universitetində gənclərimizə ana dilimizin sirrlərini öyrətməyə sərf etmişdir. Görkəmli alim və peşəkar pedaqoq kimi o, ömrünün işıqlı günlərini elmimizin və təhsilimizin inkişafına həsr etmişdir.

Professor Y.Seyidov monoqrafık tədqiqatlarını, əsasən, müasir Azərbaycan dilinin qrammatik quruluşunu, xüsusən də onun sintaksisinin öyrənilməsinə həsr etmişdir. Alim bədii dilin üslubiyyatı mövzusuna, Azərbaycanın orta əsrlərdə yaşamış və çağdaş dövrümüzü təmsil edən Azərbaycanın ayrı-ayrı şair və yazıçılarının dili və üslubunu şərtləndirən fərdi və ümumi cəhətlərini müəyyənləşdirən, onların sənətkarlıq məsələlərini açıb göstərən kitablarında çox dəyərli, həm də hər zaman

qiymətini qoruyub saxlayacaq dilçilik məsələlərinə ithaf etmişdir. Onun klassik və müasir ədəbiyyat nümayəndələrinin söz, dil və mədəniyyətimiz barədə həmişə müasir səsləşən ölməz fikirləri, qənaətləri geniş yer alan kitab və monoqrafiyaları filoloji ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən incilərdir.

Yusif Seyidov görkəmli araşdırıcı olmaqdan ziyadə həm də ustad pedaqoq idi, müəllim idi. Əgər məndən birisi soruşsa ki, hansı peşəni daha şərəfli sanırsan, o zaman deyərdim ki, müəllimlik peşəsini. Azərbaycan milli mətbuatının yaradıcısı, böyük alim, əvəzolunmaz xeyriyəçi insan və əsil pedaqoq olan Həsənbəy Zərdabinin vaxtilə müəllim haqqında söylədiyi sözləri xatırlamaq yerinə düşərdi. Müəllimlik sənətini dəyərləndirməkdə onun mülahizələri ən sərrast düşüncənin ifadəsi kimi qiymətlidir. Bu cətin, şərəfli və nəcib sənətə yiyələnib ona layiqincə dəyər verənlər, öz xalqının, millətinin övladlarının qarşısında üzərlərinə düşən məsuliyyəti dərk edənlər əsil müəllimlərdir. Dövlət Mükafatı laureatı professor Yusif Mirəhməd oğlu Seyidov məhz belə müəllimlərə nümunədir. Hörmətli professorun 60 ildən artıq bir dövrü əhatə edən elmi yaradıcılığının məhsulu son ucu olan nəşr etdirdiyi 15 cildlik elmi irsi onun elmə və yaradıcı adamlara cismani ömrünün davamı kimi olduqca dəyərli yadigarlardır. Unudulmaz müəllimimiz (mənə xoşdur ki, onun uzun müddət rəhbərlik etdiyi Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında 10 ildən artıq çalışmışam) təbiətən tələbkarlığı ilə hamıya nümunə olduğu kimi özünə, öz əsərlərinə qarşı da tələbkar olmuşdur. Yusif müəllimin çoxcildliyinin I cildində yazdığı bu cümlələr ibrətamiz səslənir: “Dünya dəyişdikcə, zaman öz hökmünü verir, baxışlar dəyişir, elm inkişaf edir, kəşflər meydana gəlir. Vaxtlara münasibətlərdə yeniləşmələr əmələ gəlir. Bir problemin 1950-

ci illərdəki qoyuluşu və həlli ilə 40-50 ildən sonrakı qoyuluşu və həllini eyniləşdirmək dəqiq olmur. Tələbənin, aspirantın, gənc adi müəllimin yazdığı əsərlə artıq müəyyən elmi və təcrübi yol keçmiş bir tədqiqatçının yazdıqlarını da eyniləşdirmək olmur...dilçi tədqiqatçılar təqdim olunan bu cildlərdəki (15 cildlik nəzərdə tutulur) fikirlər arasında ümumi elmi-nəzəri fon birliyi əsasında fərqlər də, ziddiyyətlər də, hətta biri digərini inkar edən qeydlər də görəcəklər. İstərdim ki, bunları təbii saysınlar,, (alimin morfologiya və sintaksis sahəsində əvvəlki illərdən fərqli mülahizələrinə çox rast gəlmək olar. Azərbaycan dilinin qrammatikası, 2000-ci il nəşrini nəzərdə tuturam.) Bu sözlər möhtərəm professorun həm təvazökarlığını, həm də obyektivliyini göstərir.

Professor dilimizin qrammatikasına aid “Azərbaycan dilinin qrammatikası. Morfologiya. Nəzəri kurs" adlı ikinci bir araşdırma da yazmışdır. Bu əsər dərs vəsaitindən daha çox monoqrafiya mahiyyəti daşıyır. Kitabın əksər hissəsi nəzəri məsələlərin təhlilindən, sonrakı paraqrafları isə nitq hissələrinin təsnifatı və tədqiqindən bəhs edir. Monoqrafiyanın birinci bölməsində sözün morfoloji quruluşu, nitq hissələri problemi, belə söz qrupları ümumdil hadisəsi kimi, nitq hissəsi və cümlə üzvü mövzusu, nitq hissələrinin nitq, yoxsa dil kateqoriyası olması, söz leksik vahid kimi, sözün bir və ya bir neçə leksik-qrammatik kateqoriyaya aidliyi, qrammatik kateqoriyalar, şəxs-xəbərlik kateqoriyası kimi və başqa məsələlər araşdırılır. Burada dilimizin morofoloji quruluşunun tədqiqi bu günə qədərki yanaşmalarda kökündən fərqlənir, yəni yenidir.

Professor Yusif Seyidovun bir çox kitabları şair və yazıçılarımızın bədii dili və üslublarının öyrənilməsinə həsr olunmuşdur: “Klassik Azərbaycan şairləri söz haqqında" (S.Əlizadə

ilə həmmüəllif), “Yazıçı və dil”, “Sözün qüdrəti", “Sözün şöhrəti", “Sözün hikməti”, “Şairin dərdi" (S.Vurğun poeziyasından bəhs edilir), “Nəsiminin dili". Bu əsərlərdə orta əsrlərdən tutmuş ta bu günümüzün şair və yazıçılarınadək dil və üslub məsələləri təhlil süzgəçindən keçirilir. Bu kitabların siyahısından da görünür ki, professorun diqqətindən yaşından, ustadlıq dərəcəsindən asılı olmayaraq bütün ədəbiyyat adamlarının əsərləri elmi-filoloji təhlilə cəlb olunmuşdur.

Sonda onu da qeyd etmək istərdik ki, böyük dilçi alim, alim-metodist Y.Seyidov orta və ali məktəblər üçün də dərslik və dərs vəsaitlərinə böyük önəm vermiş, bir çox dərsliklər tərtib etmişdir. Görkəmli alim, həm də ictimai-siyasi xadim adlandıra bildiyimiz prof. Y.Seyidov 2 cildlik "Demokratiyanın uzun yolu", “Ey ulu dünya" (ədəbiyyata, sənətə aid) məqalələr toplusunu da ilhamla yazıb ictimaiyyətin mühakiməsinə vermişdir.

Tanınmış dilçi filoloq, professor Yusif Seyidov bu gün sıralarımızda olmasa da, onun elmi-bədii irsi sağlığındakı kimi yenə də öyrənilir, əsərlərinə istinad edilir, bu tükənməz xəzinə öz dəyərini və təravətini qoruyub saxlayır.

***İsmayıl Məmmədli,***
***Azərbaycan Respublikasının Prezidenti***
***yanında Dövlət Dil Komissiyasının üzvü,***
***Səməd Vurğun mükafatı laureatı,***
***filologiya elmləri doktoru, professor***

## Müəllimlər müəllimi

Yusif müəllim haqqında söz demək məşhur metodist, dilçi alim, müdrik insan barəsində danışmaq deməkdir. Məlum olduğu kimi, Yusif müəllimin elmi fəaliyyətinin ən məhsuldar dövrü sovet hakimiyyətinin son illərinə və ötən əsrin sonlarına təsadüf etmişdir. Bu səbəbdən də onun yaradıcılığına baxışı ifadə etmək üçün həmin ölkədə mövcud olan siyasi və ictimai mühiti nəzərə almaq lazım gəlir. Belə ki, o nəhəng ölkədə kiçik respublikaların mədəniyyətləri, o cümlədən milli dilləri kölgədə qalmışdı. Əsas diqqət dövlət dili sayılan rus dilinə yönəldilirdi. Bu cür şəraitdə kiçik xalqların dillərinə ögey münasibət göstərilirdi, onların dərindən öyrənilməsinə maneələr törədilirdi. Bununla belə Yusif müəllim kimi istedadlı alimlər bütün çətinliklərə baxmayaraq milli təəssübkeşlik göstərərək öz xalqının dilini öyrənirdilər və qoruyub saxlayırdılar. Bununla yanaşı, doğma dilimizin tədris problemlərinə də diqqət yetirilirdi.

Onu da demək lazımdır ki, həmin dövrdə yazıb-yaradan tədqiqatçılar, o cümldən Yusif müəllim rus dilinə dərindən bələd idilər. Buna sübut kimi onların əsərlərində rus alimlərinin kitablarına istinadın çox olmasıdır. Məsələn, Yusif müəllimin əsərlərində L.V.Şerba, A.A.Şahmatov. V.V.Vinoqradov, A.N.Tixonov və digər məşhur ruz dilçilərinin nəzəri mülahizələri araşdırılır.

Mən bir rus dili müəllimi, rus təhsilli mütəxəssis kimi deyə bilərəm ki, Yusif müəllim rus dilçiləri haqqında həmişə rəğbətlə danışırdı və xarici dillərin öyrənilməsini vacib sayırdı. O, böyük alman şairi və filosofu V.Hötenin müdrik sözlərini tez-tez xatırlayırdı: «Başqa dilləri bilməyən kəs öz dili haqqında da heç nə bilməz»

Müasir dövrdə rus dilinin statusu dəyişdiyindən (indi bu dil xarici dillərdən biri sayılır), onun tədrisinə də münasibət dəyişməkdədir. Bununla belə rus dili hələ də 6 dünyəvi dil-

lərdən biri kimi öz yüksək nüfuzunu saxlayır və bizim tərəfimizdən bu dilin mənimsənilməsi ancaq xeyir gətirər.

Yenə də Yusif müəllimlə bağlı bir epizodu xatırlmaq lazım gəlir. Tale elə gətirdi ki, mən Yusif müəllimlə birlikdə eyni dissertasiyanın opponentləri qismində Rostov şəhərinə müdafiəyə getdik. Orada Yusif müəllim öz rəyini rus dilində Müdafiə Şurasının üzvləri tərəfindən qəbul olunan səviyyədə təqdim etdi və sonra yerli alimlərlə fikir mübadiləsinə qoşuldu. Əlbəttə ki, biz orada olan azərbaycanlılar qürur hissi keçirdik.

Daha bir məqam. Yusif müəllimin hamımıza yaxşı tanış olan «Azərbaycan dilinin qrammatikası. Morfologiya» (2000) adlı kitabının, proloqunda üç rus alimi və yazıçısının adı çəkilir (M.V.Lomonosov, N.M.Karamzın və A.A.Barsovun). Bu faktın özü müəllifin rus elminə və dilinə yüksək dəyər verməsinə işarədir. Düşünürəm ki, həmin proloqun dilə aid olduğunu və mərhum Yusif müəllimin vaxtı ilə seçib öz kitabına saldığını nəzərə alaraq oradan bir kəlməni yada salmaq yerinə düşərdi: «…dil elmi əsil bəşəri və ən mühüm elmdir» (N.M.Karamzin).

Yusif müəllim uzun illər boyu filologiya fakültəsinin Metodşürasına başçılıq etdiyi üçün xarici dillərin, o cümlədən rus dilinin tədrisi ilə həmişə maraqlınırdı və imkan tapanda bizlərlə öz zəngin təcrübəsini bölüşürdü və öz dəyərli tövsiyələrini verirdi. Xatırlayıram, ötən əsrin sonlarında universitetdə xarici dillərin tədrisinə dair müxtəlif fikirlər söylənirdi. Bəziləri təklif edirdilər ki, xarici dillər ilk mərhələdən başlayaraq ixtisasyönümlü qaydada tədris olunsun.

Ancaq Yusif müəllim haqlı olaraq buna etiraz edirdi və söyləyirdi ki, qəliz elmi anlayışları və terminoloji materialı, elmi üsluba xas olan mürəkkəb ifadə və kəlmələri mənimsəmək üçün tələbələrin müəyyən söz ehtiyatı, hazırlığı olmalıdır. Hər şey sadədən mürəkkəbə doğru yönəlməlidir. Belə ardıcıllıq ol-

masa, elmin, biliyin uğurundan danışmaq mümkün deyil. Hiss olunurdu ki, bu məsələyə Yusif müəllim bir təcrübəli metodist kimi çox həssaslıqla yanaşırdı. Ümumiyyətlə, təhsilimizin səviyyəsi onu həmişə düşündürürdü. O, çalışırdı ki, gündən-günə inkişafda olan elmimiz daha da irəli getsin. Bunun üçün o, özü ömrünün sonuna qədər gərgin işləyirdi və həmkarlarını da işləməyə həvəsləndirirdi. Hətta onun səhhətində problem olanda da o, var gücü ilə çalışırdı ki, onun öhdəsinə düşən işləri vicdanla yerinə yetirsin. Bununla da Yusif müəllim nümunəvi vəzifə sahibi olduğunu sübut edirdi. Bir də ki, o, elmi rəhbəri olduğu gənc mütəxəssislərə fərdi yanaşaraq onların yaradıcılıq potensilanın üzə çıxmasına kömək edərdi və onların uğurlarına sevinərdi.

Yusif müəllimin həmkarları və çoxsaylı tələbələri onun xeyirxahlığını və intellektual təsirini unuda bilməzlər. İnanırıq ki, Yusif müəllimin zəngin elmi irsi fədakar bir alim zəhmətinin bəhrəsi olaraq gələcək nəsillər üçün tükənməz bilik mənbəyi olaraq qalacaq.

Sonda onu da deməliyəm ki, Yusif müəllim kimi alimlərin ömür yoluna, müəllimlik fəaliyyətinə nəzər salsaq bir həqiqəti dərk etməyimiz lazımdır. Mark Avrelinin sözləri ilə desək: «Ən yüksək elm müdriklikdir, ən yüksək müdriklik isə xeyirxahlıqdır». Deməli, insan üçün xeyirxahlıq yüksək keyfiyyətdir. Gərək xeyirxah olasan ki, sənin xatirən insanların qəlbinə yol tapsın. Şübhəsiz ki, Yusif müəllimin xatirəsi onun həmkarları və yaxınlarının qəlbinə yol tapmışdır və hamımızın ürəyində daima yaşayacaqdır.

Allah ona qəni-qəni rəhmət eləsin!

***Mikayıl Cəfərov***
***BDU-nun Təbiət fakültələri***
***üzrə rus dili kafedrasının müdiri,***
***professor***

# Sonuncu mogikan

Professor Yusif Seyidovu 1972-ci ildən tanıyırdım. Mən həmin il Bakı Dövlət Universətetinin jurnalistika fakültəsinə daxil olmuşdum. 1975-ci ilə qədər burada oxumuş, o dövrdə Heydər Əliyevin hər il Azərbaycanda kənara oxumağa göndərdiyi yüzlərlə gənc arasında III kursdan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinə keçmişdim. Bakıda təhsil aldığım illərdə mənə dərs deməyən alimlərdən ikisinə xüsusi rəğbət bəsləyirdim. Onlardan biri Yusif Seyidov, digəri isə Pənah Xəliliov idi. Bunun səbəbi o idi ki, Yusif müəllim özü arıq və çəlimsiz, əsərləri möhtəşəm və sanballı idi. Pənah müəllim isə əsaya söykənsə də, kitabları ilə başqalarına, özəlliklə gənclərə dayaq idi. Neçə illər sonra mənə onların hər ikisi ilə universitetin filologiya fakültəsində işləmək nəsib oldu.

Bilənlər bilir, Yusif müəllim həyat yoldaşını erkən itirmişdi (sonra oğul dağı da görmüşdü), evdə duruş gətirə bilmirdi, bütün günü universitetdə olurdu, dərslər başa çatandan sonra da öz otağında yazı masasının arxasında oturur, yeni-yeni əsərlər yazırdı. O vaxtlar bizdə altıgünlük iş həftəsi var idi, mən onu hər gün universitetdə görürdüm. Bazar günləri barədə bir şey deyə bilmərəm. Bir xobbisi də voleybol oynamaq idi. Komanda yoldaşı Məmmədəli Qıpçağın dediyinə görə, Yusif müəllim usta oyunçu idi, onun zərbələrini hələm-hələm qaldıran yox idi.

Yusif müəllim üçün havanın xoş, yaxud boz olmasının heç bir fərqi yox idi. Yağış, hətta qar da ona təsir etməzdi. Beş-altı il əvvəl qar yağmış, yollar buz bağlamışdı. Şiddətli külək Yusif müəllimi yıxmışdı, ayağı da incimişdi. Yenə də hər gün

universitetə gəlirdi. Bu zərif bədəndə nə qədər böyük enerji və əzm vardı!

Seçilmiş əsərlərinin 15 cildliyini hazırlayırdı. Öz sağlığında on bir cildi nəşr edilimişdi. Mənə çıxan bütün cildlərini vermişdi. Mən bir dəfə Prof. Dr. Əhməd Bican Ərcilasuna onun cildləri haqqında danışdım. Hədsiz dərəcədə maraqlandı və məndən xahiş etdi ki, Yusif müəllimdən onun üçün də kitablar alım. Mən bunu Yusif müəllimə dedim, əlavə olaraq Türk Dil Qurumunun kitabxanasına, TDQ başqanı H.Şükrü Akalına və Osman Fikri Sərtqayaya da kitablar verməsini xahiş etdim. Yusif müəllim razılaşdı. Mən hər dəfə Türkiyəyə gedəndə xocamın yeni nəşr olunan kitablarını da aparırdım. Onun əsərləri Türkiyədə böyük maraqla qarşılanırdı. Məsələn, Əhməd Bican Ərcilasun deyirdi ki, Yusif müəllim rus qrammatika məktəbini çox gözəl bilir və öz əsərlərində bunu əks etdirir. Onun kitabları rus dilçilik elminin səviyyəsi haqqında bizə dolğun məlumat verir.

Bir dəfə türk universitetlərindən birində işləyən tanışım öz aspirantına təyini söz birləşmələri mövzusunda dissertasiya işi vermək istəyirdi. Kömək üçün mənə müraciət etdi. Mən ona Yusif müəllimin bu mövzuda yazdığı məşhur əsərini göndərdim. Əvəzində Yusif müəllimə alqış, mənə təşəkkür gəldi.

2006-cı ilin sonunda mən Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərinin (4 cilddə) tərcüməsini nəşr etdirdim. Yusif müəllim "Divanü lüğat-it-türk" Azərbaycan dilində" adlı geniş bir məqalə yazdı və mətbuatda dərc etdirdi. Bu mənim üçün böyük şərəf idi. Yusif müəllim burada mənim haqqımda mübaliğəyə varır, mənə tərif yağdırırdı. Məsələn, yazının ilk cümləri belə idi: "Azərbaycanın istedadlı və vətənpərvər alimi Ramiz Əskər türk dünyasının titanlarından biri Mahmud Kaş-

ğarinin "Divanü lüğat-it-türk" əsərini Azərbaycan dilinə tərcümə və nəşr etmişdir. Bu, xalqımız, millətimiz, vətənimiz və tariximiz üçün, elmimiz, mədəniyyətimiz üçün böyük hadisədir. Ramiz Əskər bundan sonra heç bir iş görməsə, heç nə yazmasa, bir iş onun adının tarixdə qalması üçün bəs edər".

Yazının son abzası isə bu şəkildə bitirdi: "Ramiz Əskər, adı böyük hərflə yazılan Azərbaycan ziyalısıdır. Onun fəal ictimai həyat fəaliyyəti, yaradıcılıq yolu çox zəngindir. "Divanü lüğat-it türk"ün Azərbaycan dilinə çevrilməsi, nəşrə hazırlanması və nəşri onun gördüyü belə mühüm işlərdən biri, ancaq ən görkəmlisidir. O, Lomonosov adına Moskva Dövlət Universitetini bitirmiş, hər bir ziyalının qibtə edə biləcəyi jurnalistik yolu keçmiş, çoxlu əsərlərin müəllifidir, milli və xarici ölkələrin mükafatlarına layiq görülmüş, dünyanın bir sıra ölkələrində Azərbaycanı təmsil etmişdir və s. Mahmud Kaşğari öz "Divanü lüğat-it-türk" əsərini və onun bölmələrini Quranın "Bismillah ir-rəhman ir-rəhim" sözləri ilə başlayır, "Könül verdiyim bu işdə ulu Tanrıdan yardım dilədim. Hər cür güc və qüvvə ancaq ona güvənməkdədir" deyir, qarşıdakı planlarından, görəcəyi işlərdən bəhs edəndə "Əlbəttə, əgər ulu Tanrı istəsə", - deyə Allaha güvənir. M.Kaşğari o qaranlıq dünyada Tanrıya güvənərək, əsrlərlə yaşayan və öz müəllifini yaşadan "Divan" yaratmışdır. Ramiz Əskər bu azad dünyamızda yaşayıb yaradır. Biz Tanrıdan ona can sağlığı, uzun illər əli qələmli fəal həyat istərdik".

Mən 2009-cu ildə "Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərinin morfologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etdim. Ondan əvvəl 70-dən çox məqalə yazmışdım. Onlardan bəzilərini Yusif müəllimin köməyi ilə elmi jurnallarda, o cümlədən Bakı Dövlət Universitetinin Xəbərlə-

rində dərc etdirmişdim. Dissertasiyamı əvvəlcə Yusif müəllimin "Müasir Azərbaycan dilinin morfologiyası" kitabının mündəricatını nümunə alaraq yazmaq istəyirdim. Bir nöqtədən sonra gördüm ki, bu, mümkün deyil. Yusif müəllim uzun-uzadı elə nəzəri məsələlərə girişir ki, mən onu izləyə bilmərəm. Gəlib məsələni özünə dedim. Mənə məsləhət gördü ki, nümunə kimi Muxtar Hüseynzadənin kitabını götürüm, yoxsa "dənizdə batarsan".

Çox xeyirxah adam idi. Xeyirdən-şərdən əsla qalmazdı. Onu utana-utana qızımın toyuna dəvət elədim, "Gələ bilməsəniz heç incimərəm" dedim. "Elə şeymi olar, hökmən gələcəyəm" dedi. Gəldi, sevincimi bölüşdü.

Prinsipial adam idi. Bəzi adlı-sanlı alimləri yerində oturdurdu. Hamı ondan çəkinir, mübahisəyə girişmək istəmirdi.

Mənim Yusif Seyidova vəfa borcum var idi. Bu yazını daha geniş, daha əhatəli yazmalı idim. Ancaq vaxt tapa bilmirdim. Nəhayət, borcumu yarımçıq da olsa verə bildim.

Məncə, Yusif Seyidov Azərbaycan dilçiliyinin axırıncı korifeyi, sonuncu mogikanı idi. İndi məşhur alimlər var, ancaq korifeylər yoxdur. Onların nəsli Prof. Dr. Yusif Seyidovla kəsilmiş olmasın?

***Ramiz Əskər***
***BDU-nun türkologiya kafedrasının müdiri,***
***professor***

# Yusif Seyidov və dil tarixi məsələləri

Əməkdar Elm Xadimi, professor Y.Seyidov öncə səmimi, təvazökar insan, təcrübəli pedaqoq, istedad və bacarığını ana dilimizin tədqiqinə sərf etmiş elm fədaisidir. O, ömrünün çox hissəsini Azərbaycan dilinin tədqiqi və tədrisinə həsr etmiş, dilçilik elmini dəyərli monoqrafiya və dərslikləri ilə zənginləşdirmişdir.

Y.Seyidovun dilçilik araşdırmalarının zirvəsi "Müasir Azərbaycan dilində söz birləşmələri" adlı monoqrafiyasıdır. Bu əsər dilçiliyin konkret bir sahəsinə aid olsa da, alim yaradıcılıq imkanlarını ildən-ilə genişləndirərək, dilçiliyin bütün sahələrinə öz töhfəsini vermişdir. Azərbaycan dili tarixinin problemləri də alimin diqqətindən yayınmamış, ardıcıl şəkildə olmasa da, bu sahədə xüsusi aktuallıq kəsb edən məsələlərə münasibətini məqalə və monoqrafiyalarında bildirmişdir. Onun dilimizin tarixi məsələlərinə və mənbələrinə dərindən bələdliliyi hər bir əsərindən, xüsusilə də "Nəsiminin dili", "Klassiklər söz haqqında (S.Əlizadə ilə birlikdə)" kitabların dan və "Kitabi- Dədə Qorqud" və "Dastani- Əhməd Hərami" abidələri ilə bağlı məqalələrindən aydın görünür.

Y.Seyidov Nəsiminin dilinə dair tədqiqatlarını 1969- cu ildə "Nəsimi əsərləri Azərbaycan ədəbi dilinin tarixi abidəsi kimi" məqaləsi ilə başlamış, 1994- cü ildə monoqrafiya şəklində yekunlaşdırmışdır. Alimin Nəsiminin dilinə müraciət etməsi təsadüfi deyildir. İ.Nəsiminin Azərbaycan ədəbi dilinin inkişafında mütərəqqi rolu, dilinin qrammatik və leksik baxımdan zənginliyi, bir sözlə, XIV yüzillik ədəbi dilimizin ümumi mənzərəsini tam əks etdirməsi onun diqqətini cəlb etmişdir. Böyük klassikin dili Ə.Dəmirçizadə, H.Mirzəzadə,

T.Hacıyev, S.Əlizadə, N.Xudiyev tərəfindən araşdırılsa da, Y.Seyidovun monoqrafiyasında şairin dilinin görünən və görünməyən tərəfləri bütöv halında tədqiq olunmuşdur. Tədqiqatdan aydın olur ki, Nəsimi dilinin morfologiyası zəngin quruluşu ilə müasir ədəbi dilimizlə eyniyyət təşkil edir; leksik və qrammatik şəkilçilər tam formalaşmış şəkildədir, milli mənşəli köməkçi nitq hissələrindən kifayət qədər istifadə olunmuşdur. Müəllif morfoloji zənginliyi xəlqiliyin əsas atributu kimi səciyyələndirmiş və üç cəhəti xüsusi qeyd etmişdir: sayların, əvəzliklərin və xüsusi adların zənginliyi. Bunlar monoqrafiyada Nəsiminin fəlsəfi görüşləri, təbiətə və insana baxışı fonunda aydınlaşdırılır. Say, əvəzlik və xüsusi adların semantikası dini və məntiqi qanunauyğunluqlar əsasında izah edilmişdir. Hər bir dil faktından söhbət açarkən statistik metodun imkanlarından geniş istifadə olunması Nəsimi dilində milli və alınma sözlərin, eləcə də əksər şəkilçilərin nisbətini, işlənmə mövqeyini və tarixi inkişaf prosesini müəyyənləşdirməyə imkan verir. Oxucuya bir daha aydın olur ki, Nəsimi dilində milli qrammatik vasitələr üstünlük təşkil edir. Alimin bu qənaəti statistik metodun nəticəsi əsasında müəyyənləşir: “Şol ləbi şirinə, ya rəb, gər şəkər dersəm, nola? Misrası ilə başlanan on beytlik qəzəlində yüzdən çox şəkilçidən istifadə olunmuşdur. Fars və ərəb izafətlərində istifadə edilən **i** və **ül** ünsürlərindən, eləcə də fars dilinə məxsus olub indi də Azərbaycan türk dilində sifət düzəldən şəkilçi kimi işlənən **-i, -bi** şəkilçilərindən başqa, həmin qəzəldə istifadə olunan şəkilçilərin hamısı Azərbaycan türk dilinin milli faktlarıdır”.

Ədəbi dil tarixində klassiklərin dili araşdırılarkən sintaksis məsələlərinə az yer ayrılır. Bu da dilimizin sintaktik quruluşunun möhkəmliyindən, inkişaf prosesində dəyişikliklərə

az məruz qalmasından irəli gəlmişdir. Bu monoqrafiyada isə Nəsimi dili oxuculara tam şəkildə təqdim olunur, o cümlədən də sintaktik xüsusiyyətlərə ciddi əhəmiyyət verilir. Sintaktik vahidlərin bütün növlərini nəzərdən keçirən, hər birinin mövqeyini statistik metodla dəqiqləşdirən müəllif belə qənaətə gəlir ki, şairin dilində söz birləşmələri və cümlələrin bütün struktur tipləri müasir dilimizə uyğundur. Bu monoqrafiyanın bədii və elmi məziyyətləri barədə çox danışmaq olar. Lakin bir məsələni vurğulamaq istərdik ki, hamını düşündürən "Nəsimi dilinin mükəmməlliyinin və xəlqiliyinin səbəbi nədir?" sualına Yusif müəllimin cavabını bu kitabdan öyrənmək olar. Nəsimi yaradıcılığına dərindən bələd olan alim bunun səbəblərini ümumiləşdirilmiş şəkildə belə açıqlayır: ana dilinə məxsus sözlərin çoxluğu, bir sıra əcnəbi sözlərin yeni dilə uyğunlaşması, belə sözlərin ünsiyyətin ən vacib həlqələrini təşkil edən, daha çox işlənən, dilin əsas lüğət fonduna daxil olan sözlərdən ibarət olması, cümlələrin ümumi strukturunda, formalaşmasında bu sözlərin təşkiledici rolu, xüsusilə cümlənin formalaşmasında ən əhəmiyyətli rol oynayan xəbərin əsasən bu sözlərlə, daha çox feillərlə ifadə olunması, sözlərin və cümlələrin əlaqələnməsində Azərbaycan türk dilinə məxsus qoşma və bağlayıcılardan, milli şəkilçilərdən istifadə, sözlərin iltisaqi dil (Azərbaycan türk dili nəzərdə tutulur) qaydalarına əsaslanan sırası, ərəb və fars sözlərinin də bu əlaqələnmə və sıralanma qaydalarına tabe olması və s. Bütün bu cəhətlərinə görə Nəsiminin dili dövrünün mükəmməl ədəbi dili səviyyəsinə yüksəlmişdir.

Dilimizin ən möhtəşəm abidəsi olan "Kitabı-Dədə Qorqud" eposu Yusif müəllimin əsərlərində tez-tez istinad etdiyi mənbələrdəndir. Bu abidənin sintaksisinə dair alimin iki məqaləsi çap olunmuşdur: 1) "Kitabi-Dədə Qorqud"un dilində

sadə cümlə (inkişaf səviyyəsi); 2) “Kitabi-Dədə Qorqud” dastanlarının dilində feili tərkib və budaq cümlə paralelizmi”. Hər iki məqalə yazıldığı dövrdə abidənin az tədqiq olunmuş sahəsinə aiddir. Tarixi abidələrin yarandığı dövrü, dilinin xüsusiyyətlərini, inkişaf səviyyəsini müəyyənləşdirmək üçün başlıca meyarlardan biri də dilin sintaktik quruluşudur. Dilimizin sintaktik quruluşu birdən-birə meydana çıxmamış, uzun tarixi inkişaf yolu keçərək formalaşmışdır. Sadədən mürəkkəbə doğru inkişaf istiqaməti sintaktik quruluşda da özünü göstərmişdir. Təsadüfi deyildir ki, bizə bəlli olan “Dədə Qorqud Kitabı”nın nüsxəsi XVI yüzilliyə aid edilir. Lakin tədqiqatçılar abidənin dilində sintaktik quruluşun formalaşmış şəkildə təzahür etməsini onun daha da qədimliyini göstərən başlıca amil hesab edirlər. Y.Seyidovun birinci məqaləsində sadə cümlənin struktur-semantik tipləri, onların işlənmə kəmiyyəti və inkişaf səviyyəsi müəyyənləşdirilmişdir. Məqalədə sadə cümlənin ümumi mənzərəsi aydın şəkildə göstərilir: “... müəyyən şəxsli cümlələr əksəriyyət təşkil edir, kəmiyyətcə ikinci sırada qeyri-müəyyən şəxsli cümlələr dayanır, ümumi şəxsli cümlələr daha az işlənir. 70 qeyri-müəyyən şəxsli cümlə, 4 ümumi şəxsli cümlə, 35 şəxssiz cümlə işlənmişdir”. Müəllif abidənin dilində mübtədasız müəyyən şəxsli cümlələrdən qeyri-müəyyən şəxsli cümlələrə keçid meylinin olması qənaətinə gəlmişdir. İkinci məqalədə ilk dəfə “Dədə Qorqud Kitabı” nın dilində işlənmiş feili tərkiblərlə budaq cümlələr tutuşdurulur. Bu xüsusiyyət sintaktik quruluşun təzahür forması kimi abidənin dilində geniş yayılmışdır. Bəzi şeirlərin mətni başdan-ayağa feili tərkiblərdən və ya budaq cümlələrdən ibarətdir. Eyni fikrin hər iki forma ilə ifadə olunması bu sintaktik vahidlərin arasında keçid əlaqəsini göstərir. Y.Seyidov məqalədə bu problemi zəngin nümunələr

əsasında şərh etmiş, tabeli mürəkkəb cümlənin inkişafında qədim mərhələ kimi səciyyələndirmişdir. Bir daha aydın olur ki, abidənin dilində mübtəda, tamamlıq, təyin, zaman, məqsəd və qarşılıq-güzəşt budaq cümlələrinin feili tərkiblərdən ibarət sinonimləri işlənmiş, xəbər, səbəb, nəticə, yer budaq cümlələrinin isə feili tərkiblərlə paralelizminə təsadüf olunmamışdır.

Adları çəkilən əsərlərə görə Yusif müəllimin adı dilimizin tarixinin tədqiqatçıları sırasında şərəfli yer tutur. Bu əsərlər dilimizin tarixinin, inkişaf mərhələlərinin, dil faktlarının təşəkkülü və təkamülünün öyrənilməsində dəyərli mənbədir.

***Məhərrəm Məmmədli***
***BDU-nun Türkologiya kafedrasının professoru***

## Yusif müəllim sağ olsaydı...

Elə insanlar var ki, onlar yalnız öz ailələri, əzizləri üçün deyil, el üçün, cəmiyyət üçün doğulurlar. Həyatdan köçəndə də elə bir iz qoyub gedirlər ki, həmişə xatırlanırlar, yada düşürlər, hətta belə deyirlər ki, "indi sağ olsaydı belə edərdi, belə deyərdi" və s.

Belə insanlardan biri də Yusif Seyidov idi. Yusif müəllim görkəmli alim, yaxşı müəllim, xeyirxah insan idi. Yusif müəllimi çoxdan tanısam da 2003-cü ildən daha tez-tez onu görürdüm. Həmin müddətdən dünyasını dəyişənə qədər demək olar ki, bəlkə də hər gün bir neçə dəfə onunla ünsiyyətdə olurdum. Çünki bunu mənim işim tələb edirdi. Mən dekan müavini işləyirdim, Yusif müəllim də kafedra müdiri kimi hər gün saat 9-da işdə olardı. Hətta otağının qapısını da səhər özü açardı, axşam üstü özü də bağlayardı, laborantlarından tez gələrdi, gec də gedərdi. Nə vaxt qapını açıb baxsan görərdin ki, əlində qələm nə isə yazır. Özü də həmişə çernellə yazan qələmlə işləyərdi.

Mən Yusif müəllimin sağlığında üç dekana müavin olmuşam. İstər dekanlar, istərsə də mən özüm bir çətinliyə düşən kimi və yaxud bir məsləhətə ehtiyac duyan kimi birinci növbədə Yusif müəllimə müraciət edirdik. Çünki Yusif müəllimin məsləhəti obyektiv olurdu, vəziyyətdən çıxmağın yolunu düzgün təyin edirdi.

Fakültədə pedaqoji təcrübəyə Yusif müəllim rəhbərlik edirdi. Hətta müəllim işləyib təcrübəyə getmək istəməyən tələbələrə də elə məsləhətlər verirdi ki, onlar da təcrübəyə çox həvəslə gedirdilər. Yusif müəllim heç vaxt əsəbləşməzdi, qarşısındakına ağır söz deməzdi. Lakin o, sözü elə yatımıyla

deyərdi ki, qarşısındakı adam deməyə söz tapmazdı.

Son illərdə Yusif müəllim bir az xəstələnmişdi, gəlib getməkdə çətinlik çəkirdi. Ancaq o, yenə də işə əvvəlki həvəslə, rejimlə gəlib gedirdi.

Bir dəfə dilçi müəllimlərdən biri rəhmətə getmişdi, ancaq həmin professor ölməmişdən 2-3 il əvvəl işdən çıxmışdı. Mən həmin professorun yas mərasiminə getmişdim, qayıdıb gələndə Yusif müəllim məndən soruşdu ki, "Nizami, fakültədən adam çox idi?" Dedim, yox, Yusif müəllim, bir mən idim, bir də Aydın Rzayev. Yusif müəllim bir az fikrə getdi, sonra gülümsəyərək dedi: "Nizami, adamın işləyə-işləyə ölməsi daha yaxşıdı, işdən çıxıb öləndə adamlar yasa gəlmir". Yusif müəllim haqlı idi. Ancaq Yusif müəllim o insanlardan idi ki, onun yasına adamlar gedəcəkdi, lakin işlədiyi vaxtda olduğundan az olacaqdı.

Yusif müəllimin indi də yeri görünür, bir çətinə düşəndə deyirik: "Yusif müəllim sağ olsaydı..." Allah rəhmət eləsin!

***Nizami Xəlilov***
***BDU-nun Filologiya fakültəsinin***
***Magistratura və qiyabi şöbə üzrə dekan müavini,***
***filologiya üzrə elmlər doktoru, professor***

## Yusif müəllim əsil ziyali idi

Yusif müəllim ziyalı davranışı ilə təkcə özünə hörmət qazandırmırdı, həm də ziyalılığın etiketlərini bizə öyrədirdi. Problemimiz olanda onun yanına gedərdik, o da heç vaxt deməzdi ki, bu iş əlimdən gəlməz. Bütün varlığı ilə bizi ruhdan düşməyə, ümidsizliyə qapılmağa qoymurdu. Prinsipial məsələlərdə özünün ziyalı mövqeyini bildirirdi.

Baxmayaraq ki, o mənə dərs deməyib, ancaq mənə ziyalılıq elmini öyrədib. Biz ondan təmkinli olmağı, prinsipial mövqe tutmağı, riyakarlığa qarşı amansız olmağı öyrənirdik...

Yadıma gəlir, ilk dəfə məni ona Abbas Zamanov təqdim etdi. Dedi Yusif müəllim, bu cavan oğlan olmasaydı, mənim Türkiyəyə getmək arzum çin olmazdı. O da məni başdan ayağa süzüb "sağ olsun" – dedi. Bundan sonra onunla aramızda səmimi münasibət başladı. Mən onu görəndə həmişə salam verirdim, o da gülümsəyərək salamı alırdı. Ancaq onun da naxçıvanlı olmasını bilmirdim. Bir gün baxdım ki, rəhbərlik etdiyi kafedranın divarında İlan dağın şəklini asıb. Məlum oldu ki, uşaqlıq illərindən belə kəndimizin şərqinə baxanda gördüyüm İlan dağı, onun ən çox sevdiyi dağdır. Yeri gəlmişkən, qeyd edim ki, Ulu Öndərmizin də ən çox sevdiyi dağ idi.

Əvvəllər aradabir rastlaşdığımız halda, 1999-cu ildən mən BDU-nun xarici əlaqələr şöbəsindən Filologiya fakültəsinə keçəndə Yusif müəllimlə tez-tez rastlaşmağa başladım. Həmişə məni görəndə gülümsəyib salamımı ürəkdən alırdı. Onunla münasibətlərimiz elmi seminarda oldu. Müdafiə Şurasının nəzdindəki Elmi seminarın rəhbəri idi. İclaslarımızı o qədər obyektiv aparırdı ki, elmi mülahizələrdə adi bir yanlışlığı belə bağışlamırdı.

Həmişə onun asta yerişini, şirin söhbətlərini xatırlayanda

gözlərim qarşısına bəzi unudulmaz anlar gəlir... Mən ona Azərbaycan dilinin Rusiyada da tədris olunduğunu söylədim. Rusdilli tələbələr üçün belə bir vəsaitin yazılıb, yazılmadığını soruşdum. O dərhal şkafdan rus dilində yazılmış "Azərbaycan dili" kitabını göstərdi və kitabın məziyyətləri barədə geniş məlumat verdi. Mən onun rəhbərliyi ilə yazılmış bu kitabdan bir neçəsini alıb Moskvaya göndərdim. Moskvada Azərbaycan dilini tədris edən müəllimlərin də onun kafedrasının kitablarından istifadə etməsini biləndə çox sevindi. O qədər fərəhləndi ki, üç rəngli bayrağımıza baxıb.... "müstəqilliyimiz dilimizə də hörmət qazandırıb, artıq onu dünya öyrənir" – dedi. Mən onda Yusif müəllimin nə qədər vətənpərvər olduğunu gördüm. O öz elini, obasını dərin məhəbbətlə sevirdi və onların eşqinə yazıb yaradırdı. Dilçilik elmində elə prinsipial məsələlərə mövqe bildirirdi ki, biz onun dərin mühakimə qabiliyyətinə valeh olurduq.

O, sözün həqiqi mənasında, filologiyanın keçmişi ilə gələcəyi arasında bir körpü idi. Vaxtilə Azərbaycan filologiyasını yaradan alimlər barədə elə xatirələr danışırdı ki, bizi lap valeh edirdi. Onun Mir Cəlal müəllim, Nəsir müəllim, Muxtar müəllim, Fərhad müəllim və s. -lər barəsində olan xoş xatirələri əsil elmi mənbə idi. Biz onun danışıqlarından elmimizi yaradan böyük alimlərin, müəllimlərin həyatda necə olduqlarını öyrənirdik.

Yusif müəllim çox səbirli, təmkinli adam idi. Bilirdik ki, Respublika Dil Komissiyasının üzvüdür, ona görə də onunla söhbətlərimizdə dilçilik problemləri barədə danışırdıq. Yadıma gəlir, bir dəfə dedim ki, Yusif müəllim, hər yerdə yazırlar "Xoş gəl...mişsiniz", bəlkə "-mişsiniz" yox, elə "-misiniz" olsun. Axı danışıq dilində belə deyilir. O gülümsəyib, təmkinini pozmadan fikirləşdi... heç nə demədi. Sonra başqa bir fikir də dedim: "axı niyə dil komissiyası qərar qəbul edib, həftə günlərinin adında

düzəliş etmir? Axı ingilis də, rus da, fars da "birinci, ikinci, üçüncü, dördüncü, beşinci... deyir, biz də danışıq dilində belə deyirik. Ancaq ədəbi dildə birini farsdan, birini ərəbdən götürüb deyirik: çərşənbə axşamı, cümə axşamı... Çoxları heç bunların hansı günlərə aid olduğunu da bilmir". Bunu da dinləyəndən sonra yenə cavab vermədi. Mən bir qədər də qızışdım: axı niyə "şəxsiyyət vəsiqəsi" deyirik, olmaz ki, türklər kimi elə "kimlik" deyək. Axı "şəxsiyyət" də "vəsiqə" də türk sözü deyil. Belə sözləri dinləyəndə nədənsə dərhal münasibət bildirmirdi, sadəcə olaraq dinləyib fikrə gedirdi.

Yusif müəllimlə bağlı ən kövrək xatirələrim, doktorluq müdafiəmlə bağlıdır. Eşidəndə ki, Akademiyanın Ədəbiyyat İnstitutunda mənim işimi pozmaq istəyirlər, dərhal işlərini atıb gəldi. Lazımi adamlarla söhbət etdi, mənə hər vasitə ilə kömək etməyə çalışdı. Ancaq sözünün yerə düşdüyünü görəndə çox pərişan oldu!... Hiss etdim ki, o məndən də çox mənəvi sarsıntı keçirdi. Bunun halallığını almaq üçün sonra münasib vaxt arıyırdım, ancaq elə bir məqam olmurdu... Bir gün qəfildən eşitdim ki, o artıq bizi tərk edib. Dərsimi yarımçıq qoyub, son dəfə o məsum insanı son dəfə görüb, heç olmasa onun cansız bədənindən halallıq almağa tələsdim... İstəmədiyim yerdə onun solğun üzünü gördüm. Onun son dəfə üzünü görən bəlkə də mən oldum. Təzəpir məscidində onun üzünə ağ çəkib Haqq dünyasına səfərə göndərdilər...

Bu sözləri məhərrəm ayının onunda yazıram. Yusif müəllim seyid idi, dinimizin saflığı uğrunda şəhid olmuş müqəddəs imamların nəslindən idi. Cəddi kimi özü də saf, məsum, sözün həqiqi mənasında, BÖYÜK ZİYALI idi. Allah ona rəhmət eləsin.

***Sənan İbrahimov,***
***Azərbaycan ədəbiyyatı***
***tarixi kafedrasının professoru***

# Görkəmli dilçi, ustad müəllim

Bu günlərdə dostum Məmmədəli Qıpçaq  mənə dedi ki, professor Yusif Seyidovla bağlı “Xatirələr” kitabı hazırlanır, sən də bir yazı yaz. Assosiativ olaraq gözlərim önündə görkəmli türkoloqlar Mahmud Kaşğari, Mirzə Kazım bəy, Bəkir Çobanzadə, Əbdüləzəl Dəmirçizadə, Afad Qurbanov, Ağamusa Axundov...bir də Yusif Seyidov canlandı. Başqa cür ola da bilməzdi. Çünki Yusif Seyidov türkologiyamızda nüfuz sahibi olub, dilimizi sevə-sevə tədqiq, tədris və təbliğ edib, yaratdığı kafedra (BDU-dakı “Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası” kafedrası nəzərdə tutulur) və dilçilik  məktəbi bu gün  də fəaliyyətini davam etdirir.

Prof. Nizami Cəfərov Azərbaycan dilçilərinin ikinci nəslindən  bəhs edərkən 30-dan çox görkəmli dilçinin adını  çəkir və bu sırada akademik Ağamusa Axundovu lider hesab edir. Maraqlıdır ki, həmin cərgədə Yusif Seyidovun adı Hadi Mirzəzadədən sonra verilir, daha dəqiqi, ikinci nəsil Azərbaycan dilçiləri sırasında dördüncü dilçi kimi təqdim edilir (N.Cəfərov. Böyük alim, yaxud elmdə tarix yaradan şəxsiyyət. 525-ci qəzet, 2 dekabr 2013-cü il). Bu fakt da Yusif  Seyidovun nüfuzlu dilçilərimizdən olduğunu arqumentləşdirir.

38 yaşında (1967) professor elmi adını almış Y.Seyidov Türkologiyada sintaksis üzrə ən görkəmli mütəxəssislərdən hesab olunur. Heç şübhəsiz ki, onun bu nüfuzu 1966 və 1992-ci illərdə çap etdirdiyi “Azərbaycan dilində söz birləşmələri” monoqrafiyasına görədir. Amma bunu da qeyd edək ki, Y.Seyidovun çap etdirdiyi 30-dan çox kitab (monoqrafiya, dərslik və dərs vəsaitləri)  və 200-dən çox məqalə onun yaradıcılığındakı çoxşaxəliliyi müxtəlif bucaqlardan təsdiqləyir. “Azərbaycan

dilinin qrammatikası. Morfologiya" (2002, 2006), "Sözün şöhrəti" (1981), "Nəsiminin dili" (1996) və s. kimi kitablarında Yusif müəllimin iti qələmi, dəmir məntiqi, ən kiçik dil faktlarına belə zərgər dəqiqliyi ilə yanaşması qabarıq şəkildə görünür.

Xüsusi olaraq vurğulayaq ki, "Azərbaycan" şeirinə görə Səməd Vurğunu Azərbaycanda hamı tanıyır. Yusif Seyidovu da dərs dediyi tələbələrinə, ali məktəb dərslikləri və dərs vasitələrinə, xüsusən də orta məktəblər üçün yazdığı "Azərbaycan dili" dərsliklərinə görə tanımayan yoxdur, - desək, yanılmarıq.

Yusif Seyidov imzasına ilk dəfə rast gələndə 13 yaşım vardı. Onun həmmüəllifi olduğu "Azərbaycan dili" (VII sinif üçün) dərsliyini (o həm də VI, VIII və IX siniflər üzrə Azərbaycan dili dərsliklərinin həmmüəllifi olub) Borçalının ucqar bir dağ kəndində - Aşağı Qarabulaqda sevə-sevə oxuyurdum. Bu cür kitabların yad dil mühitində nə qədər doğma və şirin olduğunu sözlə ifadə etmək çox çətindir. Yusif müəllimin Azərbaycan dilinin qrammatikasına dair yazdığı kitabları APİ-nin (ADPU-nun) filologiya fakültəsində oxuyanda (1977-81-ci illərdə) daha dərindən öyrənməyə çalışırdım... Y.Seyidov elə bir intellekt sahibi, elə bir türkoloq olub ki, onun əsərləri həmişə oxunacaq, həmişə istinad mənbəyinə çevriləcəkdir. Burada bir faktdan yan keçmək olmur: 2010-cu ildə çap etdirdiyim "Azərbaycan dilinin tarixi qrammatikası" dərsliyində Y.Seyidovun yaradıcılığına bir neçə dəfə müraciət etmişəm, hətta feli birləşmələri məhz onun müəyyənləşdirdiyi modellərə uyğun şəkildə ("ad-fel" tipli birləşmələr, "fel-fel tipli birləşmələr, "zərf-fel" tipli birləşmələr, qoşmalı feli birləşmələr) təqdim etmişəm. Müşahidələrimiz onu deməyə əsas verir ki, tələbələr Y.Seyidovun müəyyənləşdirdiyi bu modellərin hər birini bütün parametrlərinə görə düzgün hesab edir, həmin mo-

dellərin (feli birləşmələrin) ümumi semantik yükünü daha dərindən başa düşdüklərini açıq-aydın şəkildə nümayiş etdirirlər.

Y.Seyidov Azərbaycan dilçilərinin, demək olar ki, hər birinin əsərlərini saf-çürük edən, təhlil süzgəcindən keçirən dilçilərimizdən idi. Yeri gəlmişkən, 1999-cu ildə çap etdirdiyim "Kitabi-Dədə Qorqud" da şəxs adları" monoqrafiyam barədə də maraqlı fikirlər söyləyib: "...Əzizxan Tanrıverdi bu problemi öyrənən onlarca alimə müraciət edir, onların fikirlərinə münasibət bildirir, dastandakı şəxs adlarının etimologiyasını öyrənir..."

XX əsrin 70−80-ci illərində sənətkar və dil problemlərini təhlil müstəvisinə gətirən, ədəbi-tənqidi yazılarla çıxış edən alimlərimizdən biri də Y.Seyidov idi. Onun 1981-ci ildə çap olunmuş "Sözün şöhrəti" kitabında S.Vurğun, S.Rüstəm, B.Vahabzadə kimi sairlərin əsərlərinə məhz daha çox şair və dil problemləri kontekstində münasibət bildirilir. Burada yalnız S.Vurğunla bağlı dediklərini xatırlatmaqla kifayətlənmək olar: "S.Vurğun ədəbi dildən danışanda da bir yazıçı kimi bədii dil məsələlərini ön plana çəkirdi. Lakin bu onun ədəbi dil haqqındakı fikirlərinin əhatəsini məhdudlaşdırmırdı. O, ədəbi dilin başqa üslublarında da bədii keyfiyyətlər axtarırdı..." (səh.21).

Yusif müəllimlə 1985-ci ildə − aspiranturaya (doktoranturaya) qəbul olunduğum ərəfədə tanış olmuşdum. Dünyasını dəyişənə qədər (2013-cü ilə kimi) ünsiyyətdə olmuş və dilçiliklə bağlı müxtəlif mövzularda fikir mübadiləsi aparmışdıq... Haqq dünyasına qovuşmuş Yusif müəllimlə − o nurlu sima ilə bağlı xatirələrim çoxdur. Onlardan bir neçəsini qısa şəkildə təqdim etməyi özümə mənəvi borc bilirəm.

− 2008-ci ilin may ayında anam Manilə Əhməd qızının cümə axşamında Yusif müəllimi görəndə gözlərimə inan-

madım. Türkologiyamızın ağsaqqalı dərdimə şərik olmağa gəlmişdi. O, bu hərəkəti ilə qəlbimdə bir daha ucaldı, bir daha böyük mədəniyyət sahibi olduğunu əyani olaraq göstərdi. Həmin məclisdə mənimlə bir az söhbət etdikdən sonra atam Vəli İmaməli oğlu ilə şirin-şirin danışmağa, dərdləşməyə başladı. Yola salma məqamı gəldikdə isə atamla Yusif müəllim bir-birinə yüz ilin tanışı kimi qucaqlayaraq ağlamağa başladılar. Bu səbəbsiz deyildi, hər ikisi ömür-gün yoldaşını itirmişdi: Haşiyə: ...bəlkə, bu da taleyin işidir, atam Vəli İmaməli oğlu, elmi rəhbərim Afad Qurbanov, bir də unudulmaz müəllimim Yusif Seyidov həmyaşıddırlar – hər üçü 1929-cu ildə anadan olub. Hər üçünün qəbri nurla dolsun!

− professor Qəzənfər Kazımov APİ-nin (ADPU-nun filologiya fakültəsinin dekanı olduğu dövrlərdə (1989-1997) Yusif Seyidovla tez-tez görüşlər təşkil edirdi.Bu görüşlərin hər birində təkcə tələbələr deyil, həm də müəllimlər ondan öyrənməyə, bilmədiklərini dəqiqləşdirməyə çalışırdılar. Qəzənfər müəllim bir dəfə də Yusif müəllimin ustad dərsini təşkil etmişdi. Mövzu belə idi: “Türk dillərində söz birləşmələri”. Yusif müəllim həmin dərsi o qədər ustalıqla apardı ki, tələbələr, hətta dəvət edilmiş müəllimlər belə heyran qalmışdı. Çünki Yusif müəllim söz birləşmələri ilə bağlı ən kiçik detallara da türkologiya, eyni zamanda ümumi dilçilik kontekstində aydınlıq gətirirdi. Ən maraqlısı isə bu idi ki, Yusif müəllimə fonetika, leksikologiya, morfologiya, hətta Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı çoxlu sayda suallar verildi. Yusif müəllim bu sualların hər birinə təmkinlə, həm də dəqiq və dolğun cavablar verirdi, əsl dilçi, ustad müəllim olduğunu təsdiqləyirdi. Haşiyə: Yusif müəllim bütün ruhu, varlığı ilə Azərbaycan dili və dilçiliyinə bağlı idi;

− Yusif müəllim uzun müddət “Tələbələrin Respublika fənn olimpiadası”nda Azərbaycan dili fənni üzrə komissiya sədri olub. Mən isə bir neçə dəfə həmin komissiyanın müavini olmuşam. Bir dəfə 1-ci yeri müəy-yənləşdirməkdə çətinliklə üzləşdik. Belə ki, 3 nəfər tələbə 100 bal toplamışdı, onlardan yalnız birinə I yer verilməli idi. Biz hər 3 tələbəyə esse yazdırdıq. I yerə iddialı olanlardan 2-si BDU-nun, 1-i isə ADPU-nun tələbəsi idi. Esseləri yoxladıqdan sonra Yusif müəllim dedi: “BDU-dan olan tələbələri yaxşı tanıyıram, amma I yeri ADPU-nun tələbəsinə − Sahibə Xələfovaya verməliyik. Çünki onun essesi daha əhatəli və məzmunludur (haşiyə: sonrakı illərdə Sahibə Xələfova magistraturanı BDU-da, doktoranturanı isə Türkiyədə qurtardı). Bu fakt da Yusif Seyidovun bir alim və müəllim kimi obyektivliyini sübut edir...

2013-cü ildə 84 yaşında dünyasını dəyişmiş Yusif müəllimin ölümündən cəmi üç il keçib. O qədər də böyük zaman kəsiyi deyil. Amma biz ondan uzaqlaşdıqca onun böyüklüyü daha aydın görünür. Ruhu şad olsun!

***Əzizxan Tanrıverdi,***
***ADPU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri,***
***filologiya üzrə elmlər doktoru, professor***

## Yusif Seyidovun bədii-fəlsəfi düşüncələri
(“Şairin dərdi” əsərinin təhlili üzrə)

*S.Vurğunun əsərləri bütünlükdə bir qəm dastanı kimi səslənir.*
*Pambıq tıxanmış qulaqlar bu dastanın pıçıltılarını çətin eşidə.*
***Yusif Seyidov***

XX əsrin görkəmli dilçi-alimlərinin cərgəsində duran, Bakı Dövlət Universitetinin filologiya fakültəsində dil və ədəbiyyatın tədrisi metodikası kafedrasını yaradan, Dövlət Mükafatı laureatı, professor Yusif Seyidovun elmi fəaliyyəti və dünyaya baxış diapazonu yalnız dilçilik elmi ilə hüdudlanmır. “Həqiqi poeziya və fəlsəfə insan xəyalının və insan təfəkkürünün şərikli məhsuludur”- deyən alim ədəbiyyatla və ədəbi proseslərlə ciddi maraqlanır, bu sahədə də tədqiqatlar aparmış, əsərlər yazmışdır. Onun insan, həyat haqqında maraqlı fikir dünyası var idi. “Şairin dərdi” adlı elmi-kütləvi monoqrafiyasında dilçi-alim insan, dünya və mənəviyyat aləmi kontekstində «dərd» fenomeninə nəzər salır. Kitab xalq şairimiz Səməd Vurğunun həyatı ilə, dünyanı, həyatı dərkində yaşadığı emosional-psixoloji hallar problemi ilə bağlıdır. Professor Y.Seyidovun özünün yazdığına əsaslanaraq deyə bilərik ki, monoqrafiyada qoyulan problem – insanın dərdi, kədəri məsələsi həm də özünün və ümumiyyətlə, insanların həyatı ilə bu və ya digər səviyyədə səsləşir. Çünki bu, ümumbəşəri problemdir.

Tarixin bütün dövrlərində dərin təfəkkürlü insanları insanın iztirabları, dərdləri problemi düşündürüb; bu problem fəlsəfi refleksiyanın əsas mövzusu olub. O, bədii söz sənətinin

də ünvanlandığı mövzudur. Dostoyevski demişdir ki, insan xoşbəxtliyə əzablardan keçərək gəlib çatmalıdır. Lakin bu, orijinal fikir deyil, o, qədim dövrlərin müdrikliyindən süzülüb gəlir. J.J.Russo insan həyatında əzabların rolunu belə dəyərləndirir – «Əzablar kamilləşmənin, daima sevinc kəşf etmənin sonsuz imkanlarını simvolizə edir; İztirab bütün bəşər tarixinin əsas məzmunudur»; Eynşteyn belə deyir – «Yüksəlişə bircə yolla çatmaq olar, o yol əzabdan keçir»; Tolstoy deyimində isə belədir – «Dünya əzabkeşlərin hesabına urəliləyir».

İlkin ellinizmdə yaranmış və antik dövrün sonlarına qədər təsirini saxlaya bilmiş yunan fəlsəfi məktəbi olan stoisizm həyatın bütün zərbələrinə cəsarətlə, əzmlə sinə gərməyi, dözümlü və səbirli olmağı təbliğ edirdi. Bu gün stoik obrazı həyatın bütün çətrinliklərindən ləyaqət və cəsarətlə keçən, möhkəm və əzmli insanı simvolizə edir. Xristian ənənələrində əzab, dərd insanın xilas olması yolunda vacib şərt kimi götürülür. İsa Peyğəmbərin keçdiyi həyat yolunun Qolqofda başa çatması insanlığa nümunədir – dərd və əzablardan qurtulmanın zirvə həddi nümunəsidir. Uzaq Şərq ənənələrində, o cümlədən, buddizmdə dərddən qurtulmanın bir yolu göstərilir – nirvana. İnsan həyatının ayrılmaz tərkib hissəsi olan əzab və dərddən xilasolma idrakın ən yüksək halında, «idraksızlıq»da – nirvanada əldə olunur. İnsan həyatının bütün karmik əlaqələrinin dağılıb yox olduğu nirvana halı ruhaniliyin və ümumiyyətlə, insaniliyin ən yüksək həddidir. Təsəvvüfdə buna bəqa fi-Llah deyilir. Demək olar ki, bütün ruhani, dini, fəlsəfi təlimlər və məktəblər, o cümlədən, psixoanalitik məktəblər insan həyatının keyfiyyətini yüksəltmək, insana «azadlıq bəxş etmək» üçün dərd və əzablardan qurtulmanın yollarını göstərməyə çalışıblar. Çox müxtəlif, rəngarənd və fərqli, həmçinin oxşar baxışlar,

yanaşmalar var; problemi fiziki və ruhi həyatın birliyi kontek-sində, yaxud da onları ayrı-ayrılıqda nəzərdə tutan baxışlar var. İnsanın dərdi fenomeni həm də müxtəlif sənət sahələrinin nümayəndələrini, o cümlədən, bədii söz sənətkarlarını çox dü-şündürüb və yaradıcılığa sövq edib. Dini, fəlsəfi və elmi-psixoloji yanaşmalardan fərqli olaraq, bədii söz ustaları hələ mifoloji düşüncədən və folklor nümunələrindən gələn bu qlobal problemin köklu surətdə həll edilməsinə çalışmamışlar, yalnız onu doğuran cəbəbləri və onun «fəaliyyətinin» nəticələrini təsvir və tərənnüm etmiş və çox vaxt lokal, bəzən isə qlobal mövqedən səbəblərini göstərmək istəmişlər. Deskriptiv səciyyə daşıyan belə sənət nümunələrində söz sənərkarları bəzən utopik ideyalar da irəli sürərək insanın azad olması arzularını ifadə etmişlər. Lakin bütövlükdə, bədii ədəbiyyatın işi bu problemi həll etmək olmayıb, onu təsvir və tərənnüm etmək olubdur. Xalq şairi Səməd Vurğun da belə şairlər sırasında durur. Professor Yusif Seyidov Səməd Vurğun fenomenini dərd, kədər kontekstində təhlil edir.

Y.Seyidov "Şairin dərdi" kitabında S.Vurğunun həyat və yaradıcılığında dərd fenomeninə tarixi-bioqrafik, sosial-psixo-loji və estetik yönlərdən baxır; böyük şairin mənəviyyat aləmini xarakterizə edən və «Vurğun və mühit» münasibətlərini tən-zimləyən «dərd» fenomenini «şairin dərdi» kontekstində araş-dırır. Y.Seyidovun bu problemə müraciət etməsi təsadüfi deyil. Özünün yazdığına görə, otuz il olardı ki, bu mövzu onun bey-nində dolaşırdı. O, Füzulinin, M.Hadinin kədəri kimi, S.Vur-ğunun da kədərinin həm şəxsi, həm də ictimai motivli oldu-ğunu, amma ağlamaq tərzində onlardan fərqləndiyini yazır. "Səməd Vurğunda hər ikisi var idi. Ancaq ağlamaq tərzi oxşamırdı. S.Vurğun açıq ağlaya bilmirdi, xısın-xısın ağlayırdı.

Çünki ağlamağa ixtiyarı yox idi, gülmək tələb olunurdu: toyda da gülmək, yasda da gülmək. S.Vurğun da gülürdü, gülə-gülə ağlayırdı. Gülürdü ki, ağlamağı bilinməsin" (s.4). Burada Y.Seyidov nikbinliklə bədbinliyi fəlsəfi kateqoriyalar kimi qlobal müstəvidə analiz edərək göstərir ki, nikbinlik gələcəyə, xeyirin şər üzərində, ədalətin əsarət üzərində qələbəsinə inam əhval-ruhiyyəsi, bədbinlik isə xeyirin, ədalətin qələbəsinə inamsızlıq psixologiyasıdır. O, yazır ki, müəyyən şəraitin, hadisələrin təsiri ilə yaranan, hətta sənətdə öz ifadəsini tapan dərd-kədər, sözün fəlsəfi mənasında, bədbinlik demək deyil (s.5). Y.Seyidov S.Vurğunu işıqlı gələcəyə inamı baxımından nikbin sənətkar adlandırır. Deyirlər, ən axırda ölən ümiddir, "şair öz xəyalında bütün bəşərin azad və xoşbəxt gələcəyini görürdü və məhz bu amalla yaşayıb yaradırdı, ... Şair daima gələcəyə baxırdı, xəyalən yeni bir dünya görürdü, təbiətlə insanın yeni bir ünsiyyətini görürdü, böyük istiqbala böyük inamı var idi" (s.5). Y.Seyidov Səməd Vurğunun ictimai kədərini ifadə etmə vasitəsini çox gözəl tapmışdır. S.Vurğun çox böyük bir incəliklə yaşadığı dovrü pisləmir, yaşamayacağı gələcəyi (utopik ideyanı) işıqlı görür; təbiət lövhələrinin təsviri yolu ilə insanların həyatlarının dəyişəcəyi ideyasını tərənnüm edir.

*Dünya dəyişəcək atlas donunu,*
*İnsanlar gələcək, gedəcək bir-bir,*
*Sular məcrasını dəyişəcəkdir;*
*Özgə rəng alacaq çiçəklər, otlar.*

Mizraların alt mənasındakı siyasi motivi görən Y.Seyidov yazır ki, S.Vurğun öz sənətkar taleyinin indisindənsə daha çox gələcəyinə inanırdı. Sosializmin parlaq gələcəyi kimi görünən kommunizm cəmiyyəti şair üçün ideal cəmiyyət obrazı idi.

Deməli, S.Vurğun öz dövründən və sənətkarlara olan qeyri-stabil münasibətdən nigaran idi, onun ümidi daha mükəmməl quruluş ola biləcək kommunizm cəmiyyətinə bağlı idi. Y.Seyidov istedadlı şairin öz potensialından tam istifadə edə bilməməsindən heyfsilənərək yazır: "S.Vurğun heç də hər yaradıcıya qismət olmayan böyük istedad sahibi idi. Zaman ona bu istedadından tam mənasında istifadə etməyə imkan vermədi. Ona görə yox ki, yaradıcılığının çox coşğun çağlarında, yeni istiqamətli çağlarında dünyadan getdi. Ona görə ki, Sovet quruluşuna qəlbən inam, sadiqlik, ona fasiləsiz qulluq imkan vermədi ki, şair dizini qatlayıb illərlə monumental əsərlər üzərində işləsin" (s.12). Y.Seyidov qeyd edir ki, «əsərləri sosializm-kommunizm ideyaları ilə» yüklənən şair nədən yazmasından asılı olmayaraq, «hər təsadüfdə onun istedadı özünü göstərir, vurduğu poetik xallar onun böyük sənət dünyasından xəbər verir». «Qələmi heç büdrəməyən» şair «nə özünü aldatmış, nə də oxucusunu»; «bu şair heç vaxt boğazdan yuxarı söz deməmişdir, nə demişsə, biz qəbul etsək də, etməsək də, səmimi demişdir» (s.12).

Bütün istedadlı insanlar kimi, S.Vurğun həyatı boyu öz ideallarına sadiq olduğu kimi, Y.Seyidov da öz idealına sadiq idi. Onun S.Vurğuna olan məhəbbəti illərin keşməkeşindən keçərək avazımamışdı, əksinə, o, nostalji hissi ilə bu böyük şairi daim yad edirdi, şeirlərinin qüdrətindən, yüksək sənətkarlıq xüsusiyyətlərindən danışırdı. Yüksək olana ancaq o səviyyəni görə bilən dəyər verə bilər. Monoqrafiyada Y.Seyidov son vaxtlar tez-tez eşitdiyi suallara da cavab verir, sanki anlama bacarığı daha zəif olan, fenomen hadisələri analiz edə bilməyən insanlara çox sadə dillə izahlar verir. Sovet ideologiyasını qəbul etməyən Hüseyn Cavidi Səməd Vurğuna örnək çəkənlərə belə deyir:"Əlbət ki, indiki baxımdan təəssüflənirsən ki,

S.Vurğun nə üçün vaxtını və ilhamını belə mövzulara həsr etmişdir. Bəzən bu mənada Hüseyn Cavidi nümunə gətirirlər. Qeyd edək ki, uğurlu müqayisə deyil. H.Cavid bu quruluşa kamil bir sənətkar kimi gəlmişdi. O, Sovet hakimiyyətinə nifrət etməsə də, rəğbət də bəsləmirdi. O başqa bir dünyanın adamı idi, S.Vurğun isə, dediyimiz kimi, bu quruluşun içində yaradıcılığa başlamış, ona inanmışdır. Ona görə də S.Vurğuna mövzu iradı tutmaq doğru deyil, belə məsələlərdə tarixi gerçəkliyi yaddan çıxarmaq olmaz" (s.14). Y.Seyidov müdrikliyi S.Vurğun həqiqətinə açıqlama verir.

Monoqrafiyanın müəllifi bu mövzunu bir-neçə səbəbdən qələmə aldığını deyir. Birinci olaraq S.Vurğunun 40, 50, 60-cı illər gəncliyinin «poeziya məbədi» olması səbəbini göstərir: "Biz onun əsərlərini başdan-başa əzbərdən bilirdik. Və mən bu adlı-sanlı, zahirən çox xoşbəxt şairin əsərlərinin çoxunda bir sızıltı duyurdum. Səbəblərini bilmirdim, tapmaq istəyirdim" (s.6). İkinci səbəb kimi o, «keşməkeşlərlə dolu» həyatı ilə bağlayır. "Ən ağır sarsıntılar içində də üzümdə təbəssüm gəzdirmişəm ki, başqalarına xoş əhval-ruhiyyə bağışlayım, ürəyimdən isə daim bir daş asılıbdır" (s.8); "Görünür, bu ruhi, psixoloji səbəblər S.Vurğun şerinin həmin cəhətlərini daha yaxından duymağa, şairin kədərini özümünkü kimi qəbul etməyə məni təhrik edən olubdur. Elə bil, şüurla yox, hisslə belə qəbul etmişəm ki, o böyük sənətkarın böyük kədəri ilə adi bir insan olan mənim həyatım arasında nə isə bir səsləşmə var"(s.9). Böyük şairimizn həyatını xroniki ardıcıllıqla nəzərdən keçirib onun həyat problemlərinin səbəblərini görməyə çalışan Y.Seyidov, yeri gəldikcə, maraqlı fikir sərbəstlikləri, ümumiləşmələr edir. "Gənc Səməd 1927-ci ildə yazdığı «Bizim dağların» şeirində onun – şeirin sənətkarlıq baxımından zəif olduğunu

etiraf edir, lakin "həmin il şair «Yazacaq "Hamlet"i coşğun qələmim», -deyə artıq qətiyyətlə öz sənət zirvəsini görürdü. Bir qədər sonra (1936-cı ildə) o, Bayronu yarışa çağırır"(s.11). A.Puşkinin «Yevgeni Onegin» poemasını tərcümə edən və "bu münasibətlə 1936-cı ildə «Böyük şairin şərəfinə» şeirini yazan" S.Vurğunun istedadı artıq parlayırdı. Amma bu şeirində o, özü haqqında "Neyləyim, qüdrətim zəifdir hələ"(s.11) deyir, bir növ, "şairi lovğalıqda günahlandıranların, hətta özünü Puşkinin tələbəsi adlandırmağı da ona çox görənlərin iradlarını sındırmaq üçün belə deyirdi" (s. 12). Y.Seyidov belə etirafı təvazökarlıq yox, "şairin Puşkin ecazı qarşısında heyrəti ilə" əlaqələndirir. Sonra isə istedadlı insanın özünə baxışı müstəvisində psixoloji analizini apararaq yazır:"Bunları ona görə qeydə alırıq ki, bir daha deyək ki, istedadlar özləri özlərini görməyi bacarırlar, özlərinin zəif və qüvvətli anlarını hiss edirlər; təkcə görmək və hiss etmək deyil, həm də etiraf edə bilirlər. Haray o adamlardan ki, öz bilmədiklərini bilmirlər; öz istedadsızlıqlarını, savadsızlıqlarını bilmirlər. Öz səviyyəsizliyini bilməyən adamlar həyatda ən dəhşətli adamlardır" (s.12).

Y.Seyidov kövrək və həssas qəlbli insan, çox zərif nyüansları görə bilən tədqiqatçı alim idi. Sergey Yesenin özünün qəlb ağrılarını ifadə edən bir şeirində belə deyir – «*Qabalara şadlıq verilir, zəriflərə isə kədər*». Bu misra Yusif müəllimə də şamil edilə bilər. İyirmi yaşlı Səmədin H.Cavidə müraciətlə yazdığı «Sızıltılarım» şeirini Y.Seyidov «bir cavanın qəmlər dəryasında çabalaması» adlandırır. Və burada S.Vurğunun sızıltıları ilə bərabər Y.Seyidovun da sızıltılarını duymaq olar. Y.Seyidov sevimli şairinin kədərinin mənbəyini axtarır və özünə belə suallar verir:"...bu küskünlüyün mənbələrini nədə axtarmaq lazımdır? bu kədər şəxsidirmi, yoxsa ictimai? Ob-

yektiv səbəbləri varmı, yoxsa subyektiv əsaslıdır? Bu kədər əqlidir, yoxsa hissi; keçicidir, yoxsa davamlı?...”(s.18).

Bu suallara cavab tapmaq üçün tədqiqatçı alim şairin həyat yolunu lap kiçik yaşlarından izləməyə başlayır – kənd həyatından. Salahlı kəndində yoxsul insanların, ac-yalavac kəndlilərin həyatı, zalımların zülmü həssas uşağın ürəyinə, beyninə həkk olub, «şair elə uşaqlıq ilərindən dünyanın o üzünü də, bu üzünü də görmüşdür», ona görə də həyata, yaşamağa olan sevgidən yazmağın əsil vaxtında – gənclik çağında o, dünyagörmüş yaşlı insan kimi dərddən yazırdı – Y.Seyidovun gəldiyi nəticə belə idi. Uşaqlıq illərinin ilkin kədəri kiçik Səmədin altı yaşında ikən anasını itirməsi ilə bağlı idi. Y.Seyidovun da uşaqlıq illəri acı xatirələrlə dolu idi. Şairin dərdi ilə səsləşən alimin dərdi onu bütün həyatı boyu müşayiət edib. O belə yazır: “Mənim həyatım keşməkeşlərlə dolu olubdur. Uşaqlığım, ilk gəncliyim iqtisadi çətinliklər içərisində keçibdir. 30-cu illərin yoxsulluğu, dumanlı da olsa, yadıma gəlir, 40-cı illərin əzabları yadımdan çıxmır. Atam cəbhəyə getmişdi, 1946-cı ildə qayıtdı, 1953-cü ildə 53 yaşında dünyanı tərk etdi. 30-cu illərin axırlarında, 40-cı illərin əvvəllərində kiçik-kiçik üç qardaşım, bir bacım həyatdan getdilər. Yadımdadır, atam darvazadan içəri girib qardaşımın öldüyünü biləndə onu titrəmə tutdu, yeriyə bilməyib qapının ağzında yerə çökdü” (s.7). S.Vurğun «Mənim də ən dərdli bir keçmişim var» – deyir, Y.Seyidov «Mənim həyatım keşməkeşlərlə dolu olubdur» – deyir; S.Vurğun «İndi də titrəyir qələm əlimdə», Y.Seyidov «Zaman keçir, bu duyğular şerə düşür, ürək isə boşalmır» – deyirlər.

Y.Seyidov şəhər mühitinə düşən S.Vurğunun kədərinin bir səbəbi kimi də doğma el-obasından, ana təbiətdən ayrıldığı üçün nostalji əhvalda yaşamasını göstərir. Y.Seyidov özü də

həmin emosional-psixoloji durumda yaşayırdı, yaşlandıqca da belə halın qatılaşması prosesi gedirdi, ona görə də imkan düşən kimi, doğulduğu yerə – Naxçıvana getmək, uşaqlıq, gənclik illərinin yadigarları olan insanlarla ünsiyyət qurmaq, doğma yerlərdə olmaq, addım-addım, qarış-qarış oraları gəzib köhnə xatirələrə dalmaq şansını əldən vermirdi.

Monoqrafiyada Y.Seyidov S.Vurğun dərdinin bir səbəbini də baş tutmayan ilk sevgisinin acı xatirələri olduğunu göstərir. “S.Vurğunun ilk məhəbbəti daşa dəymişdir. O, Dürrə adlı bir qızı sevmiş, Dürrə isə bu adi, kasıb kənd cavanına məhəl qoymayaraq, rayon partiya komitəsinin katibini üstün tutaraq ona ərə getmişdir. Bu hadisə şair qəlbinin ilk məhəbbət havasını zəhərləmiş, şairə ağır təsir etmişdir”(s.35). Burada S.Vurğunun Dürrəyə həsr etdiyi bir şeirini verir, şeirin üslub xüsusiyyətlərini, dilini araşdırır və gəldiyi nəticə belə olur ki, «poetik qeyri-kamilliyi və məzmunu göstərir ki, şer şairin ilk qələm təcrübələrindəndir. …şerdə məhəbbətə çatmaq ümidsizliyinin ifadəsi var» (s.36). Uzun illər ilk məhəbbətinin təsirindən, ağrısından qurtula bilməyən şair haqqında danışarkən «hiss edirsən ki, şair çırpınır, bu məngənədən çıxmağa çalışır. Lakin ürək dönmür, ürək təslim olmur və şair bütünlüklə ürəyinin, qəlbinin hökmü ilə hərəkət edir» (s.40). Burada Y.Seyidov növbəti haşiyə çıxaraq «ürək» faktoruna diqqət yönəldir, onun bioloji, fizioloji, hissi-emosional funksiyalarından danışır və göstərir ki, insanın bütün daxili orqanları «insanı yaşadır, lakin bunların heç biri, hətta materiyanın ən kamil və yüksək məhsulu olan beynin özü də bədii təfəkkürün obyektinə çevrilməmişdir» (s.40). Böyük söz ustadlarının, xüsusilə də, Füzulinin ürəyə tez-tez müraciət etməsi faktına diqqət çəkən müəllif dahi klassikin “Səhhət və Mərəz” əsərində Ruhun Ürək şəhərini

seçməsi məsələsini yada salır. "Ürək" şeirindən gətirdiyi parçada ürəyi ayrıca varlıq kimi tərif edən S.Vurğunun mövqeyini qəbul edir Y.Seyidov, həm də bu şeirdə ürəyin dolğun poetik-fəlsəfi tərifini görür. Burada qoyduğu fəlsəfi suallar hər bir düşüncəli insan üçün maraq kəsb edir. O yazır: "S.Vurğunun adını çəkdiyimiz ("Ürək"- M.A.) şerində ürəyə müraciətlə dediyi bu sözlərə diqqət edin: «Gözlə görünməyən bir aləmin var!» Nədir bu aləm? Yoxsa, ürək can içində bir candır? Bəlkə, onun özünün də qeyri-əşyavi bir beyni bar? S.Vurğun da Füzuli kimi ürəyi bir canlı aləm, bir insan kimi tərənnüm edir" (s.42). Belə düşüncələrin ardınca Y.Seyidov xoşbəxtlik, ilk məhəbbət kimi həmişə aktual olan problemlərə münasibət bildirib özünün maraqlı fəlsəfi yozumunu verir, onların hissi-emosional və sosial-psixoloji portretini çəkir (bax: s.57-59). Y.Seyidov məhəbbət mövzusunu inkişaf etdirib onu ailə müstəvisinə aparır və qadın, həyat yoldaşı problemində iki qola ayırır. Birinciyə Karl Marks və həyat yoldaşı Jenni fon Vestfalen məhəbbəti kimi əqidə, məsləkdaş səviyyəsinə ucalan məhəbbəti aid edir, ikinciyə isə S.Vurğunun «Vaqif» dramında Xuraman obrazını. Xuraman obrazının spesifikasını və səciyyəviliyini göstərmək üçün Şekspirin «Hamlet» faciəsində Hamletin anası Gertrudanı, Viktor Hüqonun «Lukresiya Bordjia» faciəsində Dona Lukresiya obrazlarının psixoloji analizini verir. Y.Seyidov bu obrazların həm psixoloji, həm mənəvi-etik portretlərini yaradaraq davranışlarının bu və ya digər istiqamətli olmalarını əsaslandırmağa çalışır və buna nail olur. Burada da Y.Seyidov bir haşiyə çıxır – Sovet cəmiyyətində qadınlarla kişilərin bərabərliyi məsələsinə münasibətini bildirir. «Heç bir tarixi hadisə ilə müqayisəyə gəlməyən mənəvi uçurum adlandırdığı» bu bərabərlikdə «qadınlar evdən kənar əməyi, hətta ağır əməyi ev

işindən üstün tutdular, birinciyə daha çox həvəs göstərdilər. Kişilərlə bərabər gecə-gündüz zavod və fabriklərdə, kolxoz və sovxozlarda çox ağır peşələrdə çalışan qadınların çoxu yəqin ki, mətbəx poeziyasının həsrətini çəkirlər» (s.84). Sonra müəllif Mir Cəlalın «Kəmtərovlar ailəsi» hekayəsindən bir epizodu verir. Həmin hekayədə bir səmimi ailədə ərlə arvadın səhərdən axşamacan işdə olduqlarına görə günlərlə bir-birini görməməsindən, bir-biri ilə məktublaşmasından yumoristik tərzdə danışılır. Müəllifin gəldiyi nəticə odur ki, «qadınlarla kişilərin bərabərliyi ideyası siyasi məramlı idi. Xüsusən, Şərq psixologiyasına, müsəlman ailə ənənələrinə zərbə vurmaq üçün idi. Bu zərbə vuruldu» (s.85). Y.Seyidovun qadınlarla kişilərin bərabərliyinin əleyhinə çıxması heç də kişilərin üstünlüyü ideyasını irəli sürmür, burada söhbət hər kəsin öz funksiyasından, öz təbiətindən, ilahidən hər kəsdə olan spesifikadan gedir; biri üçün prioritet olan digəri üçün ikinci dərəcəli, yaxud tamamilə yaddır. Burada söhbət bioloji, psixoloji, fizioloji fərqlərdən və onlara aid keyfiyyətlərdən və funksiyalardan gedir. Qadınla kişinin bərabərliyindən yox, ahəngdarlığından danışmaq lazımdır. Qadınla kişi bərabər ola bilməz, necə ki sağla sol bərabər deyil, lakin bir-birini tamamlayır.

Y.Seyidov S.Vurğun dünyasını gəzərkən onun dərdinin bir səbəbini də həddindən artıq olan həssaslığında tapır. «Düşüncələr» şeirinin fəlsəfi təhlilini aparan Y.Seyidov onu «həssas insan qəlbinin arzu və diləklərinin “proqramı” » kimi dəyərləndirir. Burada şairin arzuları təbiəti, onun bütün ünsürlərini və bütövlükdə kainatı fəlakətlərdən qorumaqdır. Rəngkarlıqda «detallaşdırma» texnikası var, yəni şəklin bütövlükdə ifadəli görünməsi üçün elementlərin, hissələrin düzgün rənglənməsi, ştrixlərlə fərqləndirilməsidir və detallaşdırmanın düzgünlüyü

rəssamın istedadına və professional mədəniyyətinə dəlalət edir. Poeziyada da detallaşdırma var. Y.Seyidov Vurğun poeziyasında məhz ayrı-ayrı detalların faciəviliyini taparaq şairin böyük dərdini aça bilir. “S.Vurğun lap gənc yaşlarında yazırdı: «Mən də bir insanam, mən də canlıyam, Mənim də qəlbimin arzuları var». Bu bəzi oxuculara, şairi bir insan kimi anlamayanlara örtülü cavab idi. Xeyli sonralar o, ümumiləşmiş şəkildə belə bir həqiqəti deməyi lazım bilir: «Nemətsə də gözəl şer, Şair olan qəm də yeyir». S.Vurğun bu və ya digər şərait üçün, bu və ya digər hadisə ilə əlaqədar olaraq baş verən kədər hissini nəzərdə tutmur. O , ümumən, belə hesab edir ki, şair duyğusu qəm-kədər də gətirir, bu, əsl şairə və şairliyə məxsus bir haldır, hətta demək olar ki, bir keyfiyyətdir ki, bütün həyatı və yaradıcılığı boyu Vurğunu izləmişdir. O, «Körpünün həsrəti» şeirində bu boyanı daha da tündləşdirir və belə bir qəti hökm verir: «Böyük bir dərd imiş şair yaranmaq»” (s.90). Y.Seyidov şairin yaratdığı obrazların həyatını yaşamasını, onlarla birlikdə keçirdikləri halları duymasını, öldükdə isə onun da ölməsini şairin dərd yükünə dərd saldığını deyir.

Y.Seyidov S.Vurğun dərdinin bir səbəbini də, bəlkə də ən qüvvətli səbəbini vətən dərdi adlandırır. “Çoxları vətəndən ayrı düşəndə vətən həsrəti ilə yanıb-yaxılır. Bir çoxları da elə vətəndə ola-ola, vətənin ağır dərdini çəkməli olur. Həm də insan mənən böyük olduqca onun vətən dərdi də böyük olur” (s.120). Monoqrafiyada S.Vurğunun «Vətən eşqi» və «Vətən eşqi, sənət eşqi» adlı məqalələrindən parçalar verilir. Bu hissədə «Dilcan dərəsi» şeiri ilə bağlı Y.Seyidov maraqlı açıqlama verir, şeiri sadəcə oxuyub keçməməyi, hər misrasını dərin düşünməyi məsləhət görür:” «Yenə gördüm səni, Dilcan dərəsi, Yadıma çox köhnə zamanlar gəlir». Görəsən, bu hansı zamanlardır? Bu

o zamanlar idi ki, bu yerin adı kimi, özü də bizimki idi” (s.129). Bu minvalla Y.Seyidov S.Vurğun şeirlərində itirilmiş vətən torpağının həsrəti («Dilcan dərəsi»), Türk düyasının parçalanması (adı olmayan üç bəndli şeir), Cənubi Azərbaycan problemi (“Yandırılan kitablar”, “20 bahar”, “Təbriz gözəlinə”, “Körpünün həsrəti”), Şərq təəssübkeşliyi (“Qızıl Şərq”), Yerə sevgi (“Yer həsrəti”) motivlərini təhlil edir. “Komsomol poeması”nda vətənpərvərliklə bağlı maraqlı bir tapıntı edir Y.Seyidov. O yazır:” «Komsomol poemasında » şeyxin dili ilə deyilən və pişxəndlə təqdim edilən bir poetik xal çox ibrətamizdir. Biz onu şairin öz sözü kimi qəbul edirik və mətndən çıxarırıq:

*Vətənin uğrunda tökülən qanı*
*Mələklər öz yaşıl qanadlarında*
*Qaldıracaq göyə tanrı yanına.*

Vətən yolunda şəhid olanlar haqqında bundan qüvvətli demək çox çətindir” (s.137). Y.Seyidov heyfslənir ki, S.Vurğunun vətən və vətəndaşlıq birliyinin bu qədər yaxın təmasda, bu qədər sənətkarlıqla tərənnümü böyük tədqiqata cəlb olunmayıb. Və ümid edir ki, ədəbiyyatşünaslar əqli, hissi, psixoloji təhlil tələb edən bu təmasın elmi-ədəbi mənasını nə vaxtsa açacaqlar.

“Şairin kədərinin bir mənbəyi də sənətkarların taleyi ilə bağlıdır” (s.99). Y.Seyidovun bu monoqrafiyası Vurğun dünyasının gizli tərəflərinə işıq salır, bu zaman onun qəlbinin heç ağla gəlməyən dərəcədə həzinliyi və həssaslığı oxucu üçün aşkar olur. Burada S.Vurğunun neçə əsr əvvəl yaşamış sənət adamlarını sevgi ilə və yoxluqlarını qəmginliklə yada salmasını, müasiri olan qələm yoldaşlarının ölümündən düşdüyü dərin kədərə Y.Seyidov özünün də şəxsi kədər hisslərini qatıb oxuculara çatdırır.

S.Vurğunun qısa ömrünün sıxıntılarını addım-addım izləyən Y.Seyidov onun tez qocalmasının səbəbini dərdinin, kədərinin dərinliyində görürdü. Bəlkə də heç kəsin görmədiyi ağrıları, duymadığı duyğuları tapırdı onun misralarında. Belə misralarda insan, həyat, dünya və «mahiyyəti idraka sığmayan» ölümlə bağlı düşüncələr oynayır. "«Mən tələsmirəm…», «Yada sal məni» şeirlərinin mayasında da «dünya və insan» motivləri var. Bu şeirlərdə də dünya həsrəti çalarları var. Elə bil, şair həyatının sona yaxınlaşdığını hiss edir. ... «Mən tələsmirəm...» şairin yaradıcılığında fəlsəfi-psixoloji şerə dönüş deməkdir" (s.103). S.Vurğunun yaradıcılığında fəlsəfi dərinlikləri görən Y.Seyidov yazır: "İnsan haqqında, insan və həyat haqqında, həyat və ölüm haqqında bu fəlsəfi düşüncələr S.Vurğunun dünyagörüşünün formalaşması və inkişafı, onun bir filosof şair kimi yetkinləşməsi haqqında çox şey deyir" (s.152). Şairlər filosofluğa iztirab yollarından keçərək yüksəlirlər. 1944-cü ildə, otuz səkkiz yaşında ikən yazdığı «Şair, nə tez qocaldın sən?!» şeirini Y.Seyidov ilhamın yox, daxili iztirabın poetik ifadəsi adlandırır. Kitabda Y.Seyidov ölüm haqqında öz düşüncələrini S.Vurğun düşüncələrinə qataraq verir. "S.Vurğun sonralar həyatın və ölümün fəlsəfi mənasına nüfuz edir, onun əsərlərində bu problemin şəxsi pessimizm əlamətləri yoxalır və şair ölümə həyatın qanunauyğun yekunu kimi baxır....Bu yekun insana çox şey deyir" (s.150).

Monoqrafiyada S.Vurğunun M.F.Axundovun fəlsəfəsinə – materialist fəlsəfəyə münasibəti məsələsinə də toxunulur. Müəllif S.Vurğunun M.F.Axundov haqqında dediyi « … böyük materialist filosof olmuşdur. O, obyektiv varlığın insan şüurundan asılı olmayaraq, yaşamasını elmi dəlillərlə sübut edir. O, materiyanın varlığını, onun daxili hərəkət və inkişafını sübut

edir. O, materiyanın xaricində, zaman və məkan xaricində heç bir qüvvənin yaşamadığını sübut edir"»- fikrini korrektə edərək belə deyir: «Yaxşı olardı ki, bu cümlələrdə "sübut edir" sözləri, ifadəni düzəltməklə, başqa sözlərlə, məsələn, "qəbul edir", "müdafiə edir", "mövqeyində dayanır" ilə əvəz edilə idi» (s.153). Burada S.Vurğunun dialektik materialist mövqeyi ilə razılaşmayan Y.Seyidov həyatı və insanı materializm çərçivəsindən yüksəkdə – subyektiv idealizm müstəvisində gördüyünün şahidi oluruq. "...Təsəvvürümüzdə heç bir dinə, irqə, silkə mənsub olmayan insan var. Adəm övladı olan adam – insan. Şüuru və dili ilə bütün canlı aləmdən ayrılan, özü var olub, varlığı təsdiq edən insan, şairin ifadəsi ilə «fələkdən doğulmuş insan». O xilqət ki, həyatın nəşəsi də, kədəri də onunla ölçülür; həyat və ölüm anlayışları da onun varlığı ilə müəyyənləşir. Bu insan Nəsimi şeirində «ən`əlhəqq» (mən haqqam) deyib özünü təsdiq edir və həm də özünü yaranışın mərkəzinə qoyur. Burada «mən (yəni insan) varamsa, hər şey var, mən yoxamsa, heç nə yoxdur» fəlsəfi düşüncəsinin iyi gəlir. Subyektiv idealizm adlanan və materialistlər tərəfindən ciddi tənqidə məruz qalan bu ideya, heç də varlığı inkar etmək mənasında deyildir. Bu, insanı uca tutmaq düşüncəsindən irəli gəlirdi" (s.146). Müəllif Nəsiminin XVI-XIX əsr Avropa filosoflarını qabaqladığı faktını vurğulayır.

S.Vurğunu filosof – şair adlandıran Y.Seyidon onun yaradıcılığının fəlsəfi yönünün çox müxtəlif çalarlarda olduğunu qeyd edir. "S.Vurğun, şair kimi çərçivə tanımırdı və onda vahid bir nəzəri sistem axtarmaq mümkün deyil. Lakin onun şeri fəlsəfi çalarlarla müşayiət olunur. S.Vurğun şeri hikmətlə doludur, fikir və təfəkkür şeridir" (s.155). Y.Seyidov S.Vurğunun fəlsəfi görüşləri məsələsindən danışarkən "Komsomol" poemasındakı

«poetik vüsəti, lirizmi və fəlsəfi mənası ilə» diqqəti cəlb edən "Dünya" ricətinə müraciət etməyə bilməzdi. O yazır:"İlk baxışda bu şerin izaha ehtiyacı qalmır. Dil sadə, fikir aydın. Lakin bu zahiri aydınlıq arxasında dərin mənalar var. Bu mənaları açmaq üçün yaradıcı filosof qələmi lazımdır. Biz öz anlağımız dairəsində bəzi cəhətlərə diqqət yetirmək istəyirik. Fikrimizcə, burada həyatın, varlığın daimiliyi, maddənin itməməzliyi ideyası var, burada predmetin dərk olunmazlığı, «şey özündə» ideyası var, burada hər şeyin hərəkətdə olması – dinamizm ideyası var. Terminsiz, adi publisistik ifadələrlə dediyimiz bu ideyalar fəlsəfi kateqoriyalardır" (s.172). Müəllifin burada materiyanın əbədi olması, heç vaxt yaradılmaması və yox olmaması ideyasına dayaqlanan materializm, dünyanın dərkolunmazlığını iddia edən aqnostisizm, Kantın qnoseologiyası, materiyanı hərəkətdə olan qüvvələrin təzahür forması kimi qəbul edən fəlsəfi təlim – dinamizm haqqında yürütdüyü mülahizələr onun fəlsəfi intellekt və düşüncəsinin dərinliyini göstərir.

Y.Seyidovu S.Vurğun fəlsəfəsində cəlb edən cəhət onun insan faktoruna və insanın idrakına yüksək önəm verməsidir. Bütün zamanlarda insanın mahiyyəti, insanın idrakı və bütövlükdə, insan varlığı fəlsəfi problem kimi aktual olub. İnsanın dəyəri, cəmiyyətə, ətraf aləmə faydalılığı idrak kontekstində araşdırılıb. «İnsan» pyesində filosof Şahbazın səsləndirdiyi «Qalib gələcəkmi cahanda kamal?» sualının, əslində, şairin özünə aid olduğunu qeyd edən Y.Seyidov 1980-ci ildə bu sualın cəmiyyətdə aktivləşdiyini deyir: «Partiya qəzeti «Pravda» bir sıra yazılarını «Qalib gələcəkmi cahanda kamal?» rubrikasında verirdi. Bəli, düşünən başlar, yaradıcı insan kamalın gücünə inanır, bəşərin nicatını bunda görür. Bu sual göydən gəlmir, həyatdan doğur. O zaman ki, ordular üz-üzə gəlir,

havadan qan qoxusu duyulur, o vaxt idraka ümid bəslənilir. Elə bilirik ki, S.Vurğunun fəlsəfi yönümünü bunda axtarmaq lazımdır” (s.166).

Bir şairin poeziyasının fəlsəfi yükünü müəyyənləşdirmək üçün tədqiqatçının yüksək bədii zövqü və həyata, dünyaya fəlsəfi baxışları olmalıdır. Professor Yusif Seyidovun bədii-fəlsəfi görüşlərinin məhz dərinliyi və çoxçalarlığı ona imkan verib ki, böyük şairimiz Səməd Vurğunun yaradıcılığını ədəbiyyat tariximizdə yeni müstəvidə – şairin dərdi kontekstində təhlil etsin. Yusif Seyidovun Səməd Vurğun haqqında dediyi «Səməd Vurğun şerini də onun insan, həyat, dünya haqqındakı fəlsəfi çalarları, orijinal poetik xalları yaşadacaqdır»- fikrini professorun öz yaradıcılığına transformasiya etsək, belə deyə bilərik – Yusif Seyidovun xatirəsini onun elmi, publisistik əsərləri ilə bərabər, bədii-fəlsəfi baxışlarının, zəngin dünyagörüşünün və çox həssas qəlb çırpıntılarının ifadə olunduğu «Şairin dərdi» elmi-kütləvi monoqrafiyası yaşadacaqdır.

***Mətanət Abdullayeva,***
***BDU-nun Azərbaycan dili və ədəbiyyatının***
***tədrisi metodikası kafedrasının dosenti,***
***fəlsəfə üzrə elmlər doktoru***

## Universitet onun məbədgahı idi

Ulu tanrı yaratdığı bəndələrinə müəyyən ömür payı bəxş edir. Ömür payını mənalı yaşayan, şərəflə, şöhrətlə başa vuranlar əsil xoşbəxt insanlardır. Belə insanlar cismən ölsələr də, mənən ölmür, onu sevənlərin qəlbində, xalqın xatirəsində yaşayaraq ikinci - əbədi həyat qazanırlar. Azərbaycan dilçilik elminin korifeyi, görkəmli pedaqoq, filosof, professor Yusif Seyidov əbədiyaşar şəxsiyyətlərdən biridir. Y.Seyidovun Azərbaycan dilçiliyində, ümumən, türkologiyada böyük xidmətləri olmuşdur. Hələ tələbəlik illərindən biz tələbələr onun elmi sahədəki cəfakeşliyinə, əsil ziyalılığına, müəllim və tələbələrlə səmimi rəftarına, yüksək mədəniyyətinə böyük rəğbət bəsləyirdik. Tələbəlik illərindən sonra tale elə gətirdi ki, mən Yusif müəllimlə bir kollektivdə əmək fəaliyyətinə başladım. Yusif Seyidovun həyatı ilk gənclik illərindən Bakı Dövlət Universiteti ilə bağlanmışdı. Belə ki, 1947-ci ildən (o vaxt BDU deyil, Azərbaycan Dövlət Universiteti adlanırdı) universitetin filologiya fakültəsinə daxil olan Yusif Seyidov təhsil illərini başa vurduqdan sonra universitetdə müəllim kimi saxlanılmış və burada namizədlik və doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə edərək elmi və pedaqoji fəaliyyətini elə bu müəssisədə ömrünün sonunadək uğurla davam etdirmişdi. Yusif müəllim elmi fəaliyyətinə hələ tələbə ikən başlamışdı. Tələbə ikən onun iki kitabı və bir çox məqaləsi çap olunmuşdu. 1965-ci ildə Yusif Seyidovun təşəbbüsü ilə ADU-nun filologiya fakültəsində “Azərbaycan dili və onun tədrisi metodikası” kafedrası yaradıldı. Elə həmin ildən Yusif müəllim ömrünün sonunadək bu kafedraya rəhbərlik etdi. O, kafedrada gözəl elmi mühit yaratmağa nail oldu. Prof. M.Adilov, prof. Ə.Səfərli, prof. K.Mikayılov, prof. M.Həsənov və digər görkəmli alimlər

kafedranın əməkdaşları idi. Görkəmli dilçi alim Y.Seyidov bir çox elmlər doktoru və elmlər namizədi yetişdirmiş, keçmiş sovetlər ölkəsinin bir çox respublikalarından gələn aspirant və dissertantların elmi rəhbəri olmuşdu. Y.Seyidov çox zəhmətkeş, cəfakeş alim və kafedra müdiri idi. O, özünün əməksevərliyi, məsumiyyəti ilə öz işçilərinə daim nümunə oldu. Bir dəqiqə belə işə gecikməz və gecikənlərə qarşı amansız olardı. Biz onun omrü boyu masa arxasında, əlində qələm yüksək şövqlə, yorulmadan, əzmlə işlədiyinin şahidi olduq. O, daim elmi yaradıcılıqla məşğul olur, eyni zamanda kafedrada təşkilatçılıq işini də ardıcıl yerinə yetirirdi. Onun elmə sonsuz məhəbbəti, işinə olan məsuliyyəti bizə – kafedra əməkdaşlarına da sirayət etmişdi. O sanki öz fəaliyyəti ilə bizə şəxsi nümunə idi. Çox səmimiyyətlə deyərdim ki, elmə həvəsi, işə can yandırmağı, yüksək müəllimlik etikasını biz Yusif Seyidovdan öyrənirdik. Y.Seyidovun elmi yaradıcılığı o qədər geniş və çoxşaxəlidir ki, bu haqda bir məqalədə söhbət açmaq, əlbəttə, mümkün deyil. Bir kəlmə ilə demək istəyirəm ki, o, yüksək təfəkkürünün məhsulu olan əsərlərinin böyük bir hissəsini 11 cilddə çap etdirməyə qadir oldu. Yusif müəllim görkəmli alim olmaqla bərabər, həm də gözəl müəllim idi. Onun elmi və pedaqoji fəaliyyəti vəhdət təşkil edirdi və onun həyatında bu iki sahə biri-birini tamamlayırdı. O, hər iki sahəyə qəlbən, ruhən bağlı idi. O, bu haqda öz söhbətlərində həmişə belə deyirdi: “Adətən, hər hansı bir peşə sahibinə belə sual verirlər ki, yenidən dünyaya gəlsən, hansı sənəti, hansı peşəni seçərdin? Mən bu suala səmimi qəlbdən cavab verərdim ki, müəllimliyi. Hər oxuyan “Molla Pənah” ola bilmədiyi kimi, hər ali təhsil alıb, müəllimlik ixtisası qazanan da müəllim ola bilməz. Müəllim öz intellekti, ağlı, tərbiyəsi, gözəl danışığı, mülayim rəftarı ilə seçilməlidir.” O, doğurdan da, əsil müəllim idi: həm

tələbkar, həm qayğıkeş. Tələbələri öz övladı kimi sevər, ehtiyacı olanlara maddi və mənəvi dayaq olardı. Imkansız tələbələrdən söz düşəndə gözləri dolardı. Bizə dönə-dönə tövsiyə edərdi ki, tələbələrə təkcə bilik verməklə, elm öyrətməklə kifayətlənməyin, onlara yüksək mənəviyyat, mədəniyyət, insani keyfiyyətlər aşılayın. Yusif müəllim ömrünün ən axrıncı günlərinə qədər bir dəfə də olsun belə universitet auditoriyalarında onun yolunu səbirsizliklə gözləyən sevimli tələbələrindən ayrılmadı. Həmişə pillələri cəsarətlə qalxaraq mühazirələrə tələsərdi, lakin ölümündən bir həftə əvvəl məhəccərlərdən tutaraq, bəzən də tələbələrin köməyi ilə qalxır, tələbələrini intizarda qoymur, maraqlı mühazirələri ilə onları sevindirirdi.

Yusif müəllim ömrünü, həyatını universitetə bağlamışdı, o, universiteti o dərəcədə sevirdi ki, bir gün belə işdən qalmaz, hətta xəstələnəndə də işə gəlirdi. Biz qınayırdıq ki, bu gün dərsiniz yoxdur, nə üçün işə gəlirsiz? O cavabında deyirdi: "Bir gün universitetə gəlməsəm, ürəyim partlayar." Hərdən bizə elə gəlirdi ki, universitet ona öz doğma evindən də əzizdir. Universitetin 90 illik yubileyi ərəfəsində kafedra iclaslarının birində Yusif müəllimin çıxışı bizi çox təsirləndirdi. O dedi ki, mən səhərlər işə gələndə çox vaxt əllərimi müqəddəs ocaq kimi sevdiyim universitet divarlarının daşlarına sürtürəm, bura mənim səcdəgahım, məbədimdir. Bütün xoşbəxt günlərimi bu məbədin divarları arasında keçirmişəm. Bəli, Bakı Dövlət Universiteti görkəmli dilçi, ədəbiyyatşünas, filosof, pedaqoq, professor Yusif Seyidovun əsil məbədgahı idi.

Xalqımızın görkəmli yazıçısı Mirzə Şəfi Vazeh deyirdi ki, elmli adamlar həm xoşbəxt, həm də hər şeyi dərk etdikləri üçün bədbəxtdirlər. Elmsizlər daha çox xoşbəxtdirlər, ona görə ki, dünyanı bütünlüklə dərk edə bilmirlər. Müəllif daha sonra qeyd edir ki, yox onlar da bədbəxtdirlər ki, çox mətləblərdən

baş aça bilmirlər. Amma Yusif müəllim elmsiz adamları bədbəxt hesab edir, beləlіrini heç sevməzdi. O deyirdi ki, elm insanın qabiliyyətli olmasında böyük rol oynayır, həqiqi elmə sahib olanlar sakit, xeyirxah, ədəbli olurlar. O, bir ədəbiyyatşünas kimi Azərbaycan klassik və müasir ədəbiyyatını tədqiq edir, ədəbiyyatımızın görkəmli sənətkarlarını çox sevir, onların yaradıcılığını yüksək qiymətləndirirdi. Buna misal olaraq "Sözün qüdrəti", "Sözün şöhrəti", "Sözün hikməti" kitablarını göstərmək kifayətdir. Yusof müəllim xalq şairi Səməd Vurğunu çox sevirdi, demək olar ki, şairin əsərlərinin böyük əksəriyyətini əzbər bilirdi. Bu sevgi onun S.Vurğunun həyat və yaradıcılığından bəhs edən "Şairin dərdi" kitabında daha təsirli şəkildə öz əksini tapmışdır. Bu iki şəxsiyyətin həyatları, taleləri arasında sanki bir bağlılıq var idi. Səməd Vurğun vətəninin, onun təbiətinin, tarixinin, tarixi şəxsiyyətlərinin vurğunu idi. Y. Seyidov elmin, Azərbaycan dilinin, ədəbiyyatşünaslığın, maarifçiliyin, müəllimlik sənətinin, nəhayət, tələbələrinin vurğunu idi. Yusif müəllim çox duyğusal, kövrək insan idi, şeiri çox sevər, bütün məclislərdə Nizami, Nəsimi, Füzuli, Vaqif, S.Vurğundan maraqlı şeirlər söyləyər və kafedra üzvlərindən, tələbələrdən şeir öyrənməyi tələb edər, onları şeir deməyə təhrik edərdi. Hər söylənilən şeirdə sənətkarın qüdrətindən, fəlsəfi düşüncələrdən söhbət açar, hər şeirdən bir məna, insanlıq dərsi öyrənməyi tövsiyyə edərdi.

Profş Yusif Seyidov çox sayda elmi, fəlsəfi,ədəbi əsərlərin müəllifidir. Onun dili o qədər sadə, aydın, anlaşıqlı, üslubu o qədər cəzbedicidir ki, əsərlərini oxuyan hər bir şəxs bu əsərlərin mükəmməl qələm sahibi olduğunu dərk edir. Y.Seyidov görkəmli qrammatik kimi məşhurlaşdı, bu sahədə məktəb yaratdı. Hər hansı bir elm sahəsində məktəb yaratmaq hər bir alimə qismət olmur. Y.Seyidov Azərbaycan dilçiliyində məktəb

yaratdı və bu məktəbin minlərlə yetirmələri indi onun işini davam etdirir. Onun ruhu rahatdır ki, yaratdığı məktəbin davamçıları vardır. Dilçilik və ədəbiyyatşünaslıq elmləri sahəsində bir çox problemləri həll etmək, müxtəlif elmi məsələləri, həqiqətləri müasir filoloji elmi baxımdan tədqiq etmək, onların geniş təhlilini vermək ("Azərbaycan dilinin qrammatikası (Morfologiya)", "Müasir Azərbaycan dilində qrammatika problemləri" və s.) Y.Seyidova məxsusdur. Onun çoxsahəli elmi və pedaqoji fəaliyyəti, dərs vəsaitləri, dərslikləri, dilçilik, ədəbiyyatşünaslıq elmlərinə verdiyi töhvələri çox qiymətlidir.

Y.Seyidov, sözün əsil mənasında böyük şəxsiyyət idi. Şəxsiyyət kimdir? Görkəmli ədəbiyyatşünas alim, prof. Abdulla Abbasov "Əbədi yadigarlar" (Bakı-2013) kitabında "şəxsiyyət" sözünü, onun mahiyyətini böyük ustalıqla şərh etmişdir: "Şəxsiyyət formaca hamı kimi adi bir insandır, məzmunu etibarilə bütövlükdür. Bütövlük isə yaxşı insanlıq anlamında hər cəhətdən fəqlənməkdir. Şəxsiyyət bənzərsizlikdir. Şəxsiyyət vətənin qürur hissi, millətin inam, güvənc mənbəyidir. Şəxsiyyət ağıl, şüur, idrakla yanaşı, milli-ictimai-fərdi hisslərin gücü – dərinliyidir. Şəxsiyyətin təbiətində güclü bir sakitlik, təmkinlik yaşayır. Sakitliyi bürüyən, ürəyə yatımlığı, qəlb rahatlığını əhatə edən, hamıya aydın görünən mənəvi gözəllik şəxsiyyətin şəxsiyyət olmaq haqda imza atan bir qüdrətdir."

Azərbaycan dilçilik elminin mogikanı Yusif Seyidov daim xalqının tarixində, insanların qəlbində yaşayacaq belə şəxsiyyətdir. Onun həyat sevərliyi, elmə vurğunluğu gələcək nəsillərə gözəl nümunədir.

***Rəhilə Quliyeva***
***BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti***

## Elm, bilik, mənəviyyat müəllimimiz və fədakar tədqiqatçı

Xalqımızın milli sərvəti olan Bakı Dövlət Universiteti bir çox dəyərli şəxsiyyətlər, elm xadimləri, dünyaşöhrətli alimlər yetişdirmişdir. Əsil həyat məktəbi keçmiş istedadlı alim, Azərbaycan dilçiliyinin ən parlaq nümayəndələrindən biri də professor Yusif Seyidov idi. Ömrünü xalqının elminə, təhsilinə, maarifinə həsr etmiş Yusif Seyidovun yazıb-yaratmaq eşqi, zəhmətkeşliyi bütün müəllimlər, həmçinin gənc nəsil üçün nümunə göstərilən örnək, əsil həyat məktəbi idi. O, tələbə həyatını başa vurub qurtardığı ildən elə Bakı Dövlət Universitetində müəllim kimi əmək fəaliyyətinə başlamışdı. Mən bu zəka sahibini ən gənc yaşlarımdan məndən qəbul imtahanı götürdüyü gündən tanıyırdım. O, dərin biliyə, geniş dünyagörüşünə, natiqlik məharətinə, yüksək müəllimlik bacarığına malik olan bir ziyalı idi. Onun ən üstün xüsusiyyətlərindən biri o idi ki, çox çətin elmi mövzuları sadə və aydın bir dillə ifadə edə bilirdi. Mən həm tələbə kimi, həm də onun rəhbərlik etdiyi kafedrada əmək fəaliyyətinə başladığım gündən, onunla birgə işləyərkən həmişə bunun canlı şahidi olmuşam. Onun mühazirələrində, elmi konfranslarda, kafedra iclaslarında, universitet tədbirlərindəki çıxışlarını dinləyərkən görmüşəm. Prof. Y.Seyidovun elmi fəaliyyəti çoxşaxəli və çox genişdir. O, Azərbaycan dilçiliyinin bütün nəzəri sahələri üzrə yorulmadan tədqiqat aparır, dilimizin qrammatikasını - qrammatik quruluşunu ciddi şəkildə araşdırır, müasir linqvistikanın inkişaf etdirilməsinə çalışırdı. Y.Seyidov ömrünü Azərbaycan dilçilik elminin inkişafına, onun çiçəklənməsinə həsr etdi, elmi tədqiqatçılıq qabiliyyəti sayəsində dilçilik elminə yeni-yeni tövhələr verdi:

“Azərbaycan dilində söz birləşmələri”, “Azərbaycan dilinin qrammatikası” (Morfologiya), “Azərbaycan dilində qrammatika problemləri”, “Nəsiminin dili” və s. kimi monumental əsərləri buna parlaq misaldır. Onun nəinki dilçilik, həm də ədəbiyyatşünaslığa, maarifçiliyə aid əsərləri, məqalələri həmişə gələcək nəsillər üçün elmi mənbələr olacaq, elmi fikirləri aktual olaraq qalacaqdır. Yusif müəllim zəhmətkeş insan idi. O, “Azərbaycan dilinin tədrisi metodikası” kafedrasını yaratdığı ilk gündən ömrünün sonunadək oranı ikinci evi hesab etmişdi. Elmi sahədə tədqiqatları ilə yanaşı, yüksək təşkilatçılıq qabiliyyəti ilə də kafedranı idarə edirdi. O, bir çox alimlər, dilçilər nəslinin yaranması üçün əlindən gələn köməyi əsirgəmirdi. Yusif müəllim bir kafedra müdiri, həmçinin sanballı pedaqoq kimi öz işçilərinə nümunə idi. Vaxtaşırı kafedra iclasları aparır, kafedrada elmi müzakirələr, yüksək səviyyədə elmi seminarlar təşkil edir və əksəriyyət seminarlarda özü aktual mövzularda çıxışlar edir, kafedra üzvlərini də daim elmi səviyyələrini artırmağa sövq edirdi. Yusif müəllim həm də səmimi insan idi. O, kafedranın elmi potensialını artırmaqla yanaşı, kafedra üzvləri arasında səmimi münasibətləri qoruyub saxlamağa çalışırdı. Bəzən xırda bir səhv, yaxud çatışmazlıq olanda iş xatirinə prinsipiallıq göstərsə də, tezliklə unudar, peşmançılığını təbəssümü ilə bildirərdi, bütün işçilərə mənəvi ata qayğısı göstərərdi. O, bütün yorğunluğunu, narahatlığını işləməklə, yaradıcılıqla məşğul olmaqla aradan qaldırmağa çalışırdı. Ömrünün sonunadək fədakarlıqla işlədi, tədqiqatlarını davam etdirdi, müəllimlik fəaliyyətindən əl çəkmədi. O, işlədiyi elm ocağını - universiteti, yaratdığı kafedranı, öz fəxr etdiyi müəllimlik peşəsini çox sevirdi. Həyatı çox keşməkeşli olsa da, həyatsevər idi. Lakin son vaxtlar tez-tez kövrələrdi. Hafizəsi güclü idi, ifadə-

ləri dəqiq, özü təmkinli idi. O, vətəninə, elinə bağlı insan idi. Son vaxtlar doğulub boya-başa çatdığı Naxçıvandan, öz kəndlərinin əzəmətli dağlarından, gözəl təbiətindən, saf sularından, yazda kəndə gəlib, payızda bir səf qurub kənddən köçüb gedən quşlardan, həyətlərindəki yaşıllıqdan, ağaclardan, uşaqlıq, gənclik həyatından söz salardı. Doğma yurdu, ocağı üçün çox darıxardı. Amma onun darıxmaları, həsrəti nə yaxşı ki, ürəyində qalmadı. Son vaxtlar Naxçıvan Dövlət Universitetində Müdafiə Şurasının üzvü olduğu üçün dissertasiya müdafiələrində iştirak etmək üçün bir neçə dəfə öz doğma yurduna getmək ona nəsib oldu. Yusif Seyidov böyük alim, böyük insan idi. Onun əziz xatirəsi kafedra üzvlərinin, həmkarlarının, tələbələrinin yaddaşında daim yaşayacaqdır, elm, təhsil sahəsindəki fədakarlığı həmişə anılacaq, qoyub getdiyi elmi irsi gələcək nəsillərə ərməğan olacaqdır.

***Xanım Məmmədova***
***BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti***

# Mürşidimiz Yusif müəllim

Heç cür təsəvvür edə bilmirəm ki, Yusif müəllim haqqında keçmiş zamanda danışıla. Çünki hər dəfə ondan söz düşəndə söhbəti "Yusif müəllim deyərdi...", "Yusif müəllim danışardı ki..." cümlələri ilə başlayarkən daxilən kədərlənməmək mümkün deyil. Bu da bu böyük şəxsiyyətin, mehriban və səmimi insanın uzun illər bizimlə bərabər yaşaması, həyatımızın hər anında yanımızda olması ilə bağlıdır. Mənalı ömür yaşayan Yusif müəllim hər birimizin qəlbində öz humanist keyfiyyətləri ilə möhtəşəm zirvəyə yüksəlmişdir.

Yusif müəllimin görkəmli dilçi, eyni zamanda tanınmış ədəbiyyatşünas alim kimi fəaliyyətindən, gördüyü işlərdən, sanballı əsərlərindən, özünəməxsus dəyərli elmi fikir və mülahizələrindən söhbət açmaq niyyətində deyiləm. Çünki onun barəsində nə qədər yazılsa və nə qədər deyilsə belə, bu əvəzolunmaz alimin yaradıcılığının zənginliklərini tam mənası ilə ifadə etmək və onun sirlərini açmaq mümkün deyil. Sözün həqiqi mənasında Yusif müəllim filologiya elminin inkişafında fenomen şəxsiyyətlərdəndir. Universiteti özünün ikinci evi sayan bu görkəmli alimin zəngin elmi irsi, ictimai fəaliyyəti, bir sözlə, "Yusif müəllim dəyərləri"bu gün də öz əhəmiyyətini qoruyub saxlamaqdadır.

Bu dəyərli insanı tələbəlik illərindən tanıyırdım. Onun övladlarının Şərqşünaslıq fakültəsində təhsil aldıqlarını bilirdim. Qızı Vəfa fars filologiyasında, oğlu Əhməd isə (Allah rəhmət eləsin) ərəb filologiyasında oxuyurdu.

Yusif müəllimlə münasibətim və ünsiyyətim isə aspirantlıq dövründən başlamışdı. Tez-tez onunla görüşər, maraqlı söhbətlərini, məsləhətlərini dinləyər, tövsiyələrinə əməl edər-

dim. Bir-birimizə elə öyrəşmişdik ki, görüşməyəndə içimizdə bir boşluq olduğunu hiss edirdik. Yaxşı yadımdadır ki, aspirant olanda tez-tez soruşardı ki, "dissertasiya işin nə vəziyyətdədir, niyə qurtarmırsan, tez müdafiə elə". Mən də məcburən "yazıram, narahat olmayın" cavabını verərdim.Bir gün məni yanına çağırıb dedi ki, bəs sənə dərs yükü ayırmışam. Hüquq və Sosiologiya fakültələrində saathesabı dərs deyərsən, həm də məqalələrinin, dissertasiya işinin xərclərini rahat ödəyərsən. Düzü, o an necə sevinmişdimsə, Yusif müəllimə təşəkkür etməyi də unutmuşdum. Bu hadisə mənə çox böyük təsir etmişdi. Çünki hamımız yaxşı bilirik ki, həyatda o cür düşünən, yardımsevər və çətin anda əldən tutmağı bacaran insanlar çox azdır və belə şəxsiyyətlərlə qarşılaşmaq insana ümid və yaşamaq həvəsi verir.

İllər keçdikcə Yusif müəllimi daha yaxından tanıdım, doğmalaşdım ona. Fakültədə müxtəlif vəzifələrdə işləyəndə də onunla məsləhətləşməyi özümə mənəvi borc bilirdim. Çünki Yusif müəllim sözün həqiqi mənasında çoxlarının, həmçinin mənim **piri-muğanım - mürşidim** idi. Onun nurani simasını, mehriban baxışlarını, gülər gözlərini unutmaq, doğurdan da mümkün deyil. Həyat yoluma işıq salmağı bacaran və bunu böyük məmnuniyyətlə edən bu İNSAN mənim üçün mənəvi ata idi.

Bəzən Yusif müəllim ya yorğun, ya əsəbi, ya da xəstə olardı. Ancaq ondan nə isə xahiş etmək üçün, məsləhət almaq üçün mən ərklə ona yaxınlaşıb müraciət etməkdən çəkinməzdim. Qəribəsi o idi ki, Yusif müəllim heç vaxt deməzdi ki, yorğunam, xəstəyəm və s. İçində min bir problemi olsa da, üzündə təbəssümlə məni dinləyər, fikirlərini və məsləhətlərini bildirərdi. Çünki o, Yusif müəllim idi - **MÜRŞİD** idi.

Yusif müəllimin fərdi keyfiyyətləri çox idi. Amma iki məsələdə ona bənzəməyi həmişə tövsiyə edərdi. Birincisi, Yusif müəllim dost dediyi insana mənfi münasibət bəsləməyi qəbul edə bilmirdi və deyirdi ki, o, mənim qəlbimin içinə girib, onun səhvlərini də bağışlamağı bacarmalıyam. Bəli, Yusif müəllim dostlarını günahları olsa belə,onları müdafiə edirdi və bilirdi ki, bununla həyatda müəyyən mövqelərini itirə bilərlər. Amma buna rəğmən öz hisslərindən vaz keçməyi ağlından belə keçirmirdi. Hətta bir dəfə ona dedim ki, "Yusif müəllim, bilirsiz ki, onların səhvləri, qəbahətləri böyük, davranışları qəbul edilməzdir və Sizə qarşı o cür münasibət bəsləməzlər. Axı niyə belə humanist hərəkət edirsiniz?". Cavabında isə Yusif müəllim dedi ki, dostlarımı müdafiə etmək mənim borcumdur, artıq o anda heç nə düşünə bilmirəm.

Yusif müəllimi narahat edən, hətta deyim ki, əsəbiləşdirib özündən çıxaran bir məsələ də savadsız insanlar və onların öz çəkilərindən artıq iddialara qapılması idi. O deyərdi ki, bu tip insanlardan uzaq durun, onların elmə gəlməyinə mane olun və mübarizə aparın.Hətta bu barədə danışanda onun üz cizgiləri də, mimikası da tamam dəyişərdi. Yusif müəllim qəzəblə deyərdi ki, ən dəhşət odur ki, o cür insanlar savadsız olduqlarını dərk etmirlər. Bu, gələcəyimiz üçün böyük fəlakətdir.

Yusif müəllimin böyük həyat təcrübəsi var idi. O, müxtəlif məsələlərin mahiyyətini anlayan, çıxış yollarını bilən və imkan daxilində köməklik etməyi sevən müdrik bir insan idi. Bu mənada Yusif müəllim istedadlı tələbələrə hərtərəfli qayğı göstərərdi. Onların elmi məqalələrinin çap olunmasına və ictimaiyyət arasında tanınmasına şərait yaratmağa çalışardı. Bədii yaradıcılıqla məşğul olan tələbələrin kitablarının bütün

xərclərini özü ödəyərdi. Hətta müəllifi olduğu kitabları heç bir təmənna olmadan tələbələrinə hədiyyə edərdi. Kasıb, imkansız tələbələrə maddi yardım da göstərərdi. Hətta bu köməkliyi Yusif müəllim birbaşa tələbənin özünə etmirdi. O, məni yanına çağırıb deyərdi ki, gəl elə edək ki, tələbə həm sıxılmasın, həm də bilməsin ki, onu mən edirəm.

Yusif müəllimlə bağlı bir hadisəni də xatırlamağı özümə mənəvi borc hesab edirəm. Dekan müavini işləyirdim, yay ayları idi. Həm işlərin çoxluğu, həm də övladımın ali məktəbə qəbul imtahanı verib az bal toplaması məni günlərlə narahat edirdi. Bir gün Yusif müəllim mənim gərginliyimin səbəbini soruşdu. Oturub onunla dərdləşdim, olanları dedim: "Qızım 300 bal toplayıb, keçid balı da 300-dür. Narahatam ki, necə olacaq". Həmin söhbətdən bir gün sonra Yusif müəllim məni dəhlizə çağırdı və həmişəki sakit tərzdə dedi: "Qulaq as mənə, qızın universitetə qəbul olacaq və o daxil olanda mənə mütləq xəbər ver". Aradan bir müddət keçdi, mən bu söhbəti unutmuşdum. Yeni dərs ili başladı, qızım ali məktəbə daxil oldu (həmin il keçid balı ilk dəfə olaraq 250 bala endirildi). Bir gün Yusif müəllim yanıma gəldi və qızımın imtahan nəticəsini soruşdu. Olanları ona danışdım. Yusif müəllim əlini cibinə saldı və dedi ki, qızının təhsil haqqını mən ödəyəcəm.

Hiss etdim ki, bu xəbər Yusif müəllimi daha çox sevindirib, məni qucaqladı, təbrik etdi və dedi: "Heç nəyi geri qaytarma, bilirdim ki, qəbul olacaq". Mən ona izah etməyə çalışdım ki, artıq o dərsə gedir, təhsil haqqını da çoxdan ödəmişəm. Yusif müəllim bir də təkid edərək dedi ki, əlimi geri qaytarma,ziyan çəkərsən, "seyidəm axı". Düzü, çox tutuldum və onun təqdim etdiyi məbləğdən bir qədərini götürdüm ki, xətrinə dəyməsin.

Bax belə idi bizim, sizin, hamının YUSİF MÜƏLLİMİ!

Yusif müəllim vaxtilə birlikdə çalışdığı, həmçinin dostluq etdiyi Azərbaycanın çox görkəmli alimləri haqqında söz açmağı, onları xatırlamağı özünə mənəvi borc bilirdi. Hər hansı bir məsələdən söhbət düşəndə onların həyatından və fəaliyyətindən nümunə gətirər, maraqlı xatirələr danışardı.

Yusif müəllim övladlarını, xüsusilə nəvələrini çox sevər, onlardan danışmağı xoşlayardı, onlarla nəfəs alardı. Allah onun yadigarlarını qorusun.

Allah Yusif müəllimə rəhmət eləsin, məkanı cənnət olsun.

***Məhərrəm Vəliyev,***
***BDU-nun Azərbaycan ədəbiyyatı***
***tarixi kafedrasının dosenti***

# Yusif Seyidov nuru

Heç vaxt olmayıb ki, hər hansı yazını yazmaqda çətinlik çəkim. Amma Yusif müəllim haqqında üç ildir ki, yaza bilmirəm. Hər dəfə yazmaq istəyəndə haradan başlayacağımı unuduram. Fikirlərim dolaşır, xatirələrin arasında çaşıb qalıram. Yazmaq istədiklərimi yaxşı yaza bilməyəcəyimdən qorxuram. "Yusif müəllim haqqında yaxşı yaza bilməyəcəyəmsə, yazmasam, yaxşıdır," – deyib qələmi yerə qoyuram.

Görünür, yadlar haqqında yazmaq, doğmalar haqqında yazmaqdan daha asanmış. Bilirəm, Yusif müəllim haqqında çoxları yazacaq, onun bir dilçi alim kimi Azərbaycan dilçiliyinə verdiyi töfhələri şərh edəcəklər. Bu təbiidir, çünki Yusif Seyidov dərin analitik təfəkkürü ilə dil sisteminin mürəkkəb strukturunu idrak süzgəcindən keçirərək, heç vaxt dəyərəni itirməyəcək elmi əsərlər yazmış, onlarla dilçi alim yetişdirmişdir. Lakin mən bu fenomenal şəxsiyyətdən yalnız bir alim kimi bəhs etmək istəmirəm.

Yusif müəllim mənim nəzərimdə, hər şeydən əvvəl, mükəmməl bir insan idi; həssas, kövrək, uşaqlığından bəri həyatındakı çətinliklərə, ağrılara, acılara baxmayaraq, həyat eşqi azalmayan əsl insan. Yaşadığı hər anın qədrini bilən, yazıb yaratmaqdan usanmayan, əsərlərini övladları kimi sevən Yusif müəllimin həyatda olmadığına inanmaq olmur. Qəribə də olsa, hər gün onunla məsləhətləşirəm. Onun hansı məsələyə necə münasibət bəsləyəcəyini elə bil dəqiq bilirəm. Sanki Yusif müəllimin ruhunu hiss edirəm.Tez-tez qəbrini ziyarət etsəm də, onun yoxluğuna inanmıram. Onun bizi gördüyünə, hər bir uğurumuza əvvəlki kimi sevindiyinə, dərdimizə bizimlə birgə kədərləndiyinə əminəm.

Adətən, insan doğma valideynlərini itirəndə yetimləşir. Mənə elə gəlir ki, biz – onun yaratdığı kafedranın əməkdaşları Yusif müəllimi itirəndən sonra ikinci dəfə yetimləşdik. Düşüncələrimiz, həyata baxışımız alt-üst oldu. Daxilən xırdalandıq, qəlpə-qəlpə olduq. Amma bu qəlpələrin hər birində az və ya çox dərəcədə Yusif Seyidov nuru yaşayır və yaşayacaq.

Yusif Seyidov əsl alim idi. Bunu hamı qəbul edir. Məncə, Yusif Seyidov həm də həssas bir şair idi. Bəlkə də, Yusif müəllim heç vaxt şeir yazmamışdı. Amma şeir yazanlardan daha çox şair idi. Onun qəlb dünyasına az-çox bələd olan hər kəs bunu bilir.

Həyatının son illərində onu ən çox düşündürən ölümün mahiyyəti idi. Əbədi sonsuzluğa heç cür inana bilmirdi. Sanki bu dünyada unudulmaqdan qorxurdu. Amma Yusif müəllim heç vaxt unudula bilməz. Axı o bu dünyaya "qəmin hərifi" olmağa gəlmişdi. Başqasının dərdlərində öz dərdini görmüşdü. Çoxlarının əhəmiyyət vermədiyi şeylər onu kövrəltmişdi.

Yusif müəllim dərin dünyagörüşlə bərabər həssas dünyaduyumuna malik olan əsl Tanrı möcüzəsi idi. Şübhə etmirəm ki, bu möcüzənin – Yusif müəllimin cismi qaranlıq dünyada ərisə də, ruhu bu dünyanın nuruna nur qatacaq, hələ çoxlarının yoluna işıq salacaq, həyatını nurlandıracaq.


***Elçin Məmmədov,***
***BDU-nun Filologiya fakültəsinin dekanı,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Tikdim ki, izim qala

Professor Yusif Seyidovla ilk tanışlığım aspiranturaya qəbul imtahanı zamanı oldu. Mən təsəvvür edə bilməzdim ki, adını əvvəllər çox eşitdiyim dahi insanla rastlaşa bilərəm. Yusif müəllimin necə sadə, qayğıkeş, mehriban insan olduğunu kəşf etdim. Sonralar elmi seminar, müdafiə və müzakirələrdə Yusif müəllimin dilçi-alim kimi nə qədər dərin biliyə, dil duyumuna malik olduğunun şahidi oldum.

Məlumdur ki, Yusif müəllim söz birləşməsi sahəsində türkologiyada öz sözünü demiş alimlərdəndir. Bu sahəyə aid elə məsələ yoxdur ki, Yusif müəllim ona münasibət bildirməsin. Dilçilikdə tabesiz söz birləşmələri məsələsinin həlli açıq qalırdı. Bunu Yusif müəllim özü də qeyd etmişdi. Mən bu mövzu üzrə namizədlik dissertasiyası yazdım. Yusif müəllim öz qiymətli məsləhətləri ilə mənə - gənc alimə həmişə kömək etməyə çalışırdı. Heç təsadüfi deyil ki, onun rəhbərliyi altında 20 fəlsəfə doktoru və 3 elmlər doktoru dissertasiyası müdafiə edilmişdi.

Yusif müəllimi iş kabinetində işsiz görmək mümkün deyildi. Nə vaxt kabinetinə gedirdin, onun yazı-pozu işləri ilə məşğul olduğunun şahidi olurdun. Mənə də deyirdi ki, mütləq işləmək lazımdır. Onun məsləhəti və köməyi ilə mənim də həmmüəllif olduğum "Azərbaycan və rus dillərinin müqayisəli qrammatikası" kitabı işıq üzü gördü.

Yusif müəllim çox ciddi və tələbkar insan idi. O, uzun müddət BDU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya şurasının elmi seminarına rəhbərlik etmişdi. Mən də bu seminarın üzvü idim. Dissertasiyaların müzakirəsi zamanı Yusif müəllim həmişə prinsipial mövqe nümayiş etdirir, zəif

işləri müdafiəyə buraxmırdı.

Yusif müəllimin keçdiyi böyük, şərəfli həyat yolunu, Azərbaycan dilçiliyi tarixində yazıb-yaratdığı sanballı əsərlərini, yetişdirdiyi alimləri, dərs dediyi tələbələri göz önünə gətirdikcə, akademik Xudu Məmmədovun məşhur bayatısı yada düşür:

*Bu qala bizim qala,*
*Həmişə bizim qala,*
*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala.*

Azərbaycan dili, millətimiz durduqca professor Yusif Seyidovun elmi yaradıcılığı, onun Azərbaycan elminə verdiyi töhfələr unudulmayacaq, onun xatirəsi əbədi yaşayacaqdır.

***Cavanşir Muradov,***
***BDU-nun Ümumi dilçilik kafedrasının dosenti***

## Bizim Yusif müəllim...

Xatirini əziz tutduğum insan haqqında bəzən elə olur ki, söz demək çətin olur. Bir sıra hallarda isə onun barəsində yazmaq və ya danışmaq asan və maraqlı olur. Ona görə çətin olur ki, belə nəhəng bir alimə layiq sözləri xalqa çatdırmaq, xalqın qəlbində sözdən onun abidəsini ucaltmalısan. Ona görə asan olur ki, illər uzunu bir yerdə çalışdığın, ünsiyyətdə olduğun adam haqqında təəssüratlar çoxdur, ancaq hansını deyəsən, hansını danışasan, bilmirsən.

Insanlar dünyasını dəyişərkən iki cəhətinə görə xatırlanır: ya xeyirxahlığına, ya da bədxahlığına görə. Yusif müəllim insanların xatirində təmənnasız, yaxşı əməlləri ilə yad edilir.

Yusif Seyidovu mən 1960-cı ildən tanıyıram. 1960-cı ilin aprel ayında biz keçmiş Nərimanov – indiki H.Cavid prospektindəki 546-cı məhəllədəki yeni mənzilə köçdük. Bu bina universitet müəllimləri üçün tikilmişdi. Hamı burada bir-birini tanıyırdı, sanki bir kəndin adamları idik. Biz 9-cu blokda, Yusif müəllimgil 8-ci blokda, balkondan bir-birimizlə qonşuluq edər, uşaqlar danışar, eyni məktəbə gedərdik. Mən onlardan böyük idim, ancaq Pərviz Əhmədlə çox yaxın idi. Əhməd tez-tez bizə gələrdi. Bizim evdə 2 nəfər – Ramiz qardaşım və xalam qızı Tamilla ərəb dili şöbəsində oxumuşdular. Tamilla Əhmədə ərəb dilindən kömək edirdi. Əhməd olduqca utancaq, ağıllı və savadlı uşaq idi. Vəfa indi də Pərvizi görəndə qardaşı kimi onunla görüşür.

Sonra tale elə gətirdi ki, Yusif müəllim və Vəzifə xanım mənim elçiliyimi elədilər. Rəhmətlik Vəzifə xala qaynatamla əmiuşağı idilər. Səməd ona Vəzifə bibi, böyük bacısına isə "çiçi mama" deyirdi. Bu təfərrüatları ona görə yazıram ki,

ailələrimizin necə yaxın olduğunu biləsiniz. Ancaq nə mən, nə də Yusif müəllim bunu işdə hiss etdirmirdik.

Yusif müəllim elmdə, təhsil məsələlərində olduqca tələbkar və ciddi idi. O əgər istəsəydi uşaqlarının üçünü də alim edərdi. Ancaq o belə etmədi. Halbuki başqaları savadı oldu olmadı uşaqlarını öz yerlərinə hazırlayırlar. Təkcə Məhbubə müdafiə etdi, dosent f.e.n. adını aldı. Hazırda İngiltərədə ingilis dilindən dərs verir.

Yusif müəllimi yaddaşlarda yaşadan çox xüsusiyyətlər vardır. Saf, təvazökar, xeyirxah, dostluqda səmimi, haqqın-ədalətin tərəfdarı və qoruyucusu olan bu müdrik insan həm də böyük vətəndaş, xalqını, millətini, doğma dilini – Azərbaycan dilini sevən, sevə-sevə araşdırıb tədqiq edən, bir ziyalı idi. Onun Azərbaycan dilinin tədrisinin təkmilləşdirilməsi ilə bağlı qiymətli əsərləri və təklifləri bir çox məqamlarda müdrik və ağıllı qərarları onu universitet və filologiya fakültəsi kollektivinin sevimlisi etmişdi.

O, Bakı Dövlət Universitetinin professoru və kafedra müdiri olması ilə fəxr edir, həyatının mənasını, bəlkə də, elə bunda görürdü. Mənə bəzən elə gəlir ki, o öz həyatını kafedrasız təsəvvür etmirdi. Çünki, bu kafedranı özü yaratmış və ömrünün sonuna kimi ona rəhbərlik etmişdi. Rəhbərlik etdiyi kafedranın hər bir üzvünün – müəllimlərin, laborantların, aspirant və dissertantların, hətta magistraturada oxuyan ən savadlısının belə təəssübkeşliyini çəkər, onların inkişaf etməsində, problemlərinin çözülməsində, bəzilərinin işlə təmin olunmasında bacardığını edərdi, özü də heç bir təmənna güdmədən.

Yusif müəllim qayğıkeş və təəssübkeş olduğu qədər də tələbkar, işə ciddi yanaşan bir insan idi. Bir müəllimdən nalayiq hərəkət və ya natəmiz, kafedraya yaraşmayan bir şey hiss etsəydi, vay o adamın halına... Beləsini kafedradan mütləq

uzaqlaşdırmalıydı.

Son illərdə kafedramızın elmi potensialı xeyli güclənmiş, həm tədrisdə, həm də elmi işlərdə, hətta beynəlxalq simpoziumlarda iştiraklarına görə kafedramızın adı müsbət mənada rəhbərlik tərəfindən qeyd edilir. Yusif müəllim kafedranın təmiz adı, necə deyərlər, imici üstündə, sözün həqiqi mənasında əsirdi.

Yusif müəllim kafedrada yeri düşdükcə, bizə öz keçmiş istəkli müəllimlərindən – Məmməd Cəfər, Abbas Zamanov, Mir Cəlal Paşayev, Muxtar Hüseynzadə, Hadı Mirzəzadə, Əli Sultanlıdan maraqlı söhbətlər edərdi. Öz müəllimlərini dünyagörmüş, geniş təfəkkürə malik, savadlı, xeyirxah insanlar kimi yad edər, onlardan böyük ürəklə xatirələr söylər, sevinər, bəzən də kövrələrdi. Onların bəziləri haqqında monoqrafiya yazmışdır.

İndi biz istər kafedrada, istərsə də kafedradan kənar hər hansı bir münasibətlə yığışanda Yusif müəllimi yad edir, onunla bağlı duzlu, məzəli söhbətlər xatırlayır və biz də kövrəlir, onu da dünyadan köçmüş o gözəl insanlar cərgəsində anırıq.

Yusif müəllim hərtərəfli – universal biliyə malik alimlərdən idi. Böyük alim, güclü tədqiqatçı, dilçi-nəzəriyyəçi, həqiqi mənada kamil filoloq idi. Onun qələmindən çıxan əsərlər əsil filoloji cəhətdən təhlil olunurdu.

Adətən, ədəbiyyatçı alimlər əsasən ədəbiyyat sahəsində tənqidçi kimi, ya nəzəriyyəçi kimi tədqiqatlar aparırlar. Yusif Seyidov isə son 15-20 il ərzində həm ədəbi tənqidi, həm də nəzəriyyəçi-dilçi kimi onlarla monoqrafiyalar, dərslik və dərs vəsaitləri yazmışdır. Onun ədəbi tənqidi əsərləri içərisində həm klassik Azərbaycan şairləri, həm də müasir yazarlarımız istər dil, üslub, poetik, istərsə də tənqid baxımından təhlil olunmuşdur.

Ə.Abdullayev, Y.Seyidov və A.Həsənovun birlikdə yazdıqları "Müasir Azərbaycan dili", "Sintaksis" dərsliyi hökumətimiz tərəfindən Dövlət Mükafatına layiq görülmüşdür.

Ali məktəblərin rus bölmələri üçün yazdığı "Azərbaycan dili" dərsliyi 1978-ci ildən 2014-cü islədək hər il nəşr olunmuş və təkcə BDU-da deyil, respublikamızın bir sıra ali məktəblərində tələbələrin və müəllimlərin istifadəsinə verilmişdir.

Bu yazımızda Y.Seyidovun əsərlərini sadalamağa məncə ehtiyac yoxdur. Lakin nəzərə çarpdırmaq istəyirəm ki, mərhum professorun həm orta məktəblər, həm də ali məktəblər üçün yazdığı dərslik, proqram, dərs vəsaitləri və monoqrafiyalarının sayı 60-dan çoxdur.

Çox sevinirəm ki, Yusif müəllim "Klassik Azərbaycan şairləri söz haqqında" (1977), "Yazıçı və dil (XIX və XX əsrlər)" (1979) kitablarının materiallarını hazırlayanda mənim də ona cüzi köməyim olubdur. Əski əlifbanı bildiyim üçün vaxtaşırı mənə ədəbiyyatları verib oradan "dil, əlifba, ana dili, söz" haqqında deyilənləri kiril əlifbasına transliterasiya etməyi xahiş etmişdi. Mən də təbii ki, bu işi böyük həvəslə və canla-başla edirdim.

Yusif müəllimin "Şairin dərdi" adlı elmi-kütləvi monoqrafiyası (1966) mənim üçün ən dəyərli və maraqlı kitablarından biridir. Mən həmin kitabı oxuduqdan sonra fikrimi ona bildirdim və həmin kitabı bir rəfiqəmə verdiyimi söyləyəndə, o, 5-6 nüsxə həmin kitabdan mənə verdi və dedi ki, kimə istəyirsən, bağışla. Mən də həmin kitablardan birini kitab sərrafı, eyni zamanda ədəbiyyata böyük marağı olan Səmayə xanım Bəktaşiyə və digər tanışlarıma – kitab həvəskarlarına bağışladım. O, bu kitabın belə uğur qazanaraq sevilə-sevilə oxunmasını biləndə uşaq kimi sevinmiş və kövrəlmişdi.

Həddindən artıq zəhmətkeş (300-dən çox məqaləsi vardır), bütün ömrünü Azərbaycan dili və ədbiyyatının tədrisinə, tədqiqinə sərf edən dərin zəkalı, humanist, xeyirxah, təvazökar və sadə, hər cürə təmtəraqdan uzaq olan Yusif Seyidov XX əsr filologiyada özünəməxsus yeri olan yaradıcı ziyalılardan idi.

Elmin, tədrisin yaradıcı zirvəsində duran bu insan Dövlət Mukafatı laureatı, Əməkdar Elm Xadimi, filologiya elmləri doktoru, professor, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, universitetin baş metodisti olmasına baxmayaraq olduqca sadə, gənc tədqiqatçıların əlindən tutan, onlara köməklik edən işıqlı bir vətəndaş idi.

Yusif müəllim həddindən artıq diqqətli idi. Nəinki bizimlə, hətta bizim balalarımızla da maraqlanırdı. Istəyirdi ki, gənc nəsil savadlı olsun, sağlam böyüsün, zəkalı övladlardan ağız dolusu danışardı. Xatirimdədir, bir dəfə Böyük Elmi Şuradan gəlirdi. Kafedraya daxil olanda sevincək, ay Sultan, oğlunun adını çəkdilər. Yusif müəllim Təhsil Nazirliyinin iclaslarında tez-tez olurdu. Bir dəfə də oradan gələndə dedi ki, bu gün nazirlikdə Seyidli Elnur haqqında geniş danışdılar. Onun zəkalı bir tələbə olduğunu vurğuladılar. Misir Mərdanov Elnurun üç dəfə Dünya Olimpiadasından medal gətirdiyini qeyd edəndə elə sevinirdi ki! Yusif müəllim də bunları danışdıqca eləcə sevinirdi, sanki bu tələbə öz övladıdır.

1999-cu ildə BDU-da təntənəli bir tədbir – məzun günü keçirildi. Akt zalına yalnız buraxılış vərəqi ilə keçmək olardı. Yusif müəllim 5 dənə buraxılış vərəqi tapıb müəllimlərimizə verdi. Tədbir başlandı.

Riyaziyyat ixtisası üzrə məzunları Misir Mərdanov təbrik edəndə hörmətli Abel müəllim mikrofona yaxınlaşıb: “Bu gündən Elnur Seyidlini, Qoşqar Əhmədlini imtahansız magistr elan edirəm” – dedi. Aydın oldu ki, onlar ingilis bölməsinin tələbələri olduğu üçün diplom işlərini də ingilis dilində yazıblar. Hörmətli rektorumuz bu məzunların diplom müdafiəsində iştirak etmişdi.

Bir şey də yaxşı yadımdadır. AMEA-nın müxbir üzvü, professor Rasim Əliquliyevin redaktorluğu ilə “Beynəlxalq

İnformatika Olimpiadaları (1989-2011)" adlı bir kitab çıxmışdı. Bu kitab Azərbaycanda informatika üzrə olimpiadaların əsasını qoyan Ramin Mahmudzadənin 75 illiyinə ərməğan edilmişdi. Həmin kitab bir həftə Yusif müəllimin stolunun üstündə qaldı. Kafedraya kim gəlirdisə, ona göstərirdi ki, baxın, bu kitabda mənim kafedramın müəlliminin oğlu haqqında nələr yazılıb. Hətta kitabın hansı səhifəsində Elnurun şəkli var idisə, o səhifənin arasına vərəq də qoymuşdu.

Bax, Yusif müəllim belə insan idi. Sevincimizlə sevinirdi, kədərimizlə kədərlənirdi.

Beləcə yaddaşlarda, xatirələrdə həkk olunub bizim unudulmaz, sevimli Yusif müəllimimiz...

Zaman öz hökmünü verir, biz də yaşa doluruq, qocalırıq. Müəllimlərimiz bizləri tərk edib bizdən uzaqlaşdıqca, biz onlara yaxınlaşırıq. Lakin biz nə qədər yaşa dolsaq da, keçən günlər, xatirələr yaddaşımızda qalır.

Ey əziz və unudulmaz müəllimlərimiz! Siz tələbələrinizin qəlbində və yaddaşında özünə daimi yer salmış parlaq şəfəq kimi – günəş kimi işıq saçaraq bizləri düzgün yaşamağa, müəllim adını ləyaqətlə daşımağa səsləyibsiniz.

Yusif müəllim, biz – Sizin yetirmələriniz, Sizin kimi insanlardan, Sizin kimi alimlərdən ibrət götürməyə çalışır və çalışacağıq.

Allah Sizə rəhmət eləsin, məzarınız nurlu olsun, Yusif müəllim!

***Məhbubə Qurbanova ,***
***BDU-nun Azərbaycan dili və ədəbiyyatının***
***tədrisi metodikası kafedrasının dosenti***

# Yusif müəllimin "5"i

Bu qeydlər xatiri mənə dünyalar qədər əziz olan professor Yusif Seyidov haqqında xatirədən daha çox, mənim özümün kiçik bir ömür hekayəm, tale nağılımdır...

1975-ci ildə Bakı Dövlət Universitetinin (o vaxt Azərbaycan Dövlət Universitetinin) filologiya fakültəsinə sənədlərimi Allaha sığınıb vermişdim. Gizlətməyin yeri yoxdur ki, o vaxt güclü və nüfuzlu tanışlıq olmadan, rüşvət vermədən universitetə daxil olmaq möcüzə kimi əlçatmaz, ünyetməz bir şey idi...

1975-ci ilin yayında (sonradan məlum oldu ki, XX əsrin ən isti yayı olub) universitetin filologiya fakültəsinə sənəd verənlərin sayı 1000-dən çox olmuşdu. Başqa sözlə desək, bir yerə 20-dən artıq iddiaçı abituriyent qeydə alınmışdı. Mənim sənəd (və sıra nömrəm) isə 929-cu idi: 31-ci qrupda 29-cu adam...

Birinci imtahandan (Azərbaycan dili və ədəbiyyatdan yazılı) "4" almışdım. İkinci imtahandan da "4" alsaydım, məntiqə və təcrübəyə əsasən, müsabiqədən keçə bilməyəcək, doğma kəndə böyük təsəlli ilə qayıdacaqdım.

İkinci imtahanı (Azərbaycan dili və ədəbiyyatdan şifahi) BDU-nun indiki əsas korpusunun dördüncü mərtəbəsində verirdik. Bizi günorta saat 2-də imtahan otağına dəvət etsələr də, məlum oldu ki, imtahan verən tələbələrin sayı çox olduğuna görə bizdən nə vaxt imtahan götürüləcəyi hələ məlum deyil.

Həmin gün mən gecə saat 10-dan sonra bilet çəkdim. İmtahan götürən müəllimləri – professor Şamil Qurbanovu və professor Elbrus Əzizovu sonradan daha yaxından tanıya-

caqdım, hər ikisi universitetdə müəllimim olacaqdı. O imtahan günü isə mənim aləmimdə taleyimin qələmi tanımadığım bu iki insanın əlində idi. Onlar nə yazsalar, mənim taleyim də elə müəyyənləşəcək, o cür yön alacaqdı.

Suallara verdiyim cavablar müəllimlərin hər ikisinin xoşuna gəldi. Məni xeyli tərifləyəndən sonra təəssüflə bildirdilər ki, rektorun yaratdığı xüsusi komissiyanın rəyi və razılığı olmadan mənə "5" yazmağa ixtiyarları yoxdur. Onu da açıq-aydın hiss edirdim ki, müəllimlərin mənə aşağı qiymət yazmağa əlləri gəlmir, əlavə suallar verir, hər cavabdan sonra bir daha təəssüflərini bildirirdilər ki, komissiya artıq gedib...

Artıq gecə saat 11-ə qalırdı, o vaxta yəqin ki komissiya qalmazdı. Uzun çək-çevirdən sonra "taleyin hökmünü" qəbul etmək məcburiyyətində idim. Birdən qapı açıldı. Saçlarına dən düşmüş orta yaşlı, xoş simalı bir insan sinfə daxil oldu. İmtahan götürən müəllimlərdən nə vaxt qurtaracaqlarını soruşdu. Onlar da məndən "şikayət elədilər" ki, savadlı oğlandır, ancaq qiyməti ilə razılaşmaq istəmir və bizi də işləməyə qoymur...

Sinfə təzə gələn xoşsima müəllim yazılı cavablarıma göz gəzdirdi. Suallar verməyə başladı. Dərhal ünsiyyətimiz tutdu. "Qoy müəllimlər imtahanlarını götürsünlər, sən bu partaya keç", – deyib, yandakı partanı göstərdi. Dediyi yerə keçdim. "Nə yaman ləhcə ilə danışırsan, – deyib gülümsündü. – Qazaxlısan?". Tez sualı həm təsdiqlədim, həm də tamamladım: "Qazax rayonunun Sadıqlı kəndindənəm", – dedim. Yenə gülümsünə-gülümsünə: "Oranı tanımıram", – dedi.

Yazdığım cavabları bir-bir yoxladı. Yiyəlik halın və təsirlik halın xüsusiyyətlərinə dair misallar soruşdu. Biletdəki sonuncu sual cümlənin sintaktik təhlilinə aid tapşırıq idi. Həmin cümlə indiyə qədər yadımdadır: "Sən istəsən də,

istəməsən də, lazım olan mətləbi elmin ecazkar qüdrəti ilə fəhmimlə vaxtında dərk etdim"...

Gümüşü saçlı müəllim mənim təhlil versiyamla diqqətlə tanış oldu. Birdən gözlərini cavab vərəqindən ayırıb, gözlərimin içinə baxdı: "Sənə bir sual verəcəm, cavabın düz olsa, sənə özüm "5" yazacam, -dedi və yenə gülümsündü. – Yazdıqların hamısı düzdür. Tabeli mürəkkəb cümlədə budaq cümlənin qarşılıq-güzəşt budaq cümləsi olduğunu qeyd etmisən, bununla da razıyam. Ancaq konkret deyə bilərsənmi buradakı budaq cümlə qarşılıq budaq cümləsidir, yoxsa güzəşt?"

Fikirləşmədən: "Hər ikisi!" – dedim.

Onun üzünə sərt bir ciddiyyət çökdü. Qiymət vərəqini götürüb, mənə öz əli ilə "5" yazdı və imtahan götürən müəllimlərdən xahiş etdi ki, vərəqə qol çəksinlər. "Məsuliyyəti mən üzərimə götürürəm, – deyib sərt əda ilə əlavə etdi. – Bizə tələbə də lazım olacaq!"

Şamil müəllimlə Elbrus müəllim tərəddüd etmədən imtahan sənədimə imza qoydular. Şamil müəllim: "Professor Yusif Seyidov fakültəmizin partkomudur, – dedi. – Ona təşəkkür edərsən".

Müəllimlərə necə təşəkkür etdiyim, universitetin dəhlizindən necə keçdiyim, dördüncü mərtəbədən üzü aşağı pilləkənləri necə endiyim dəqiq yadımda deyil. Gün boyu qələbəlik olan universitetin qarşısında adamlar lap seyrəlmişdi. Səbirsizlikdə tayı-bərabəri olmayan atam həyəcanla yolumu gözləyirdi. Üstünə yüyürüb boynuna sarıldım. Var səsimlə: "5" almışam!" – dedim.

Ata-bala xeyli müddət Milli Elmlər Akademiyasının parkında gəzindik. Nə baş verdiyini bir-bir gözümün qarşısına gətirib, bütün təfərrüatları ilə atama danışdım. Gecə yarıdan

keçmişdi. Həyəcanım səngimişdi. Getmək lazım idi. O boyda Bakı şəhərində ürəyimizə sığmayan sevincimizi bölüşmək üçün üz tutub gedəcəyimiz ünvan isə yox idi...

Yusif müəllimin verdiyi "5" sonrakı imtahanlarda mənim qoruyucu mələyimə çevrildi. Xarici dildən və tarixdən imtahan verərkən qiymətimin birinin ən yüksək olması müəllimləri mənə qarşı həssas davranmağa məcbur edirdi. Çox sorğu-suala tutmadan "Onsuz da keçəcəksən", – deyib mənə hər iki imtahandan "4" yazdılar və mən həmin yay kəndimizə universitet tələbəsi kimi qayıtdım.

Birinci kursda Yusif müəllimin bizə dərsi olmadı. Hər dəfə dəhlizdə onu görəndə ehtiramla salam verirdim və gözləyirdim ki, Yusif müəllim qəbul imtahanını xatırlayacaq, məndən nəsə soruşacaq. Ancaq heç bir səs-səda çıxmırdı. Bir dəfə cəsarətimi toplayıb özüm ona yaxınlaşdım. "Mənə imtahandan siz "5" yazmışdınız", – dedim. Təəccüblə üzümə baxıb: "Hansı imtahandan?" -soruşdu. "Qəbul imtahanından"- dedim. "Ola bilər. Təbrik edirəm. Dərslərini yaxşı oxu", – deyib gülümsündü. Gümüşü saçlarının işığı sifətindəki təbəssümə yayıldı və mən hər dəfə onu bu işıqlı təbəssümü ilə xatırlayıram...

Sonradan mən universitetə müəllim gəldim. Yusif müəllimlə dost olduq, dərs yükümün yarısı onun kafedrasından olurdu. Fürsət düşəndə bir neçə dəfə 1975-ci ilin qaynar avqust gecəsində baş vermiş tale hekayəmi xatırlatmışdım. Hər dəfə də sözün üstündən gülümsünərək keçmişdi...


***Məti Osmanoğlu,***
***BDU-nun Azərbaycan ədəbiyyatı***
***kafedrasını dosenti***

## Yusif Seyidov məktəbi

Azərbaycan dilçiliyinin XX əsrin 50-ci illərindən sonrakı inkişafında böyük rolu olan görkəmli alimlərdən biri Dövlət Mükafatı laureatı, filologiya elmləri doktoru, professor Yusif Seyidovdur. Yusif müəllim elm fədaisi – böyük alim, filosof, görkəmli dilçi və ədəbiyyatşünas, tənqidçi-publisist və sözün əsil mənasında böyük pedaqoq idi (R.İ.Quliyeva).

Hamımıza məlumdur ki, Yusif Seyidov görkəmli dilçi olmaqla yanaşı tənqidçi, ədəbiyyatçı, siyasətçi kimi də fəaliyyət göstərmişdir. Azərbaycan dilçiliyi üçün nələr etdiyi göz qabağındadır. Onun yaradıcılığının zirvəsini söz birləşmələrinə aid tədqiqatları təşkil edir. Akademik Kononov hələ 1977-ci ildə bu əsəri yüksək qiymətləndirmiş, onun müəllifinin – Y.Seyidovun adını türk dilləri sintaksisinin əsas problemlərinin həllində böyük xidmətləri olan sovet alimlərinin sırasında çəkmişdir. Ona görə də, Yusif Seyidov haqqında xatirələr danışmaqla kifayətlənəcəyəm.

1967-ci ilin yayı idi. ADU-ya qəbul imtahanları verirdik. Birinci tanıdığım Yusif müəllim oldu. Birinci imtahanı da o götürdü. İmtahanları verib universitetə qəbul olundum. Mən oxuduğum illərdə Yusif müəllim Azərbaycan dili kafedrasına rəhbərlik etməklə yanaşı, fakültənin partiya komitəsinin katibi işləyirdi. Demək olar ki, hər gün onu işdə görürdük. Elə oldu ki, V kursda da bizdən Dövlət imtahanı götürdü: «Bax, belə müəllimlər hazırlayıb rayonlara göndərməliyik ki, onlar da bizə savadlı şagirdlər hazırlasınlar» – deyərək imtahanı yekunlaşdırdı.

Həmin il filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirdim, ancaq bir il işləmədim. Yusif müəllim iki dəfə mənə

xəbər göndərdi ki, işə çıxsın. Axırda qəti qərarını verdi: «Sultan evdə oturmamalıdır».

… Nəhayət, filologiya fakültəsində işə başladım. Namizədlik mövzusu götürdüm. Tezliklə müdafiə etdim. Sonra da doktorluq mövzusu verdi. Mən nəyə nail olmuşamsa, Yusif müəllimə borcluyam. Bütün müəllimlərimizin haqqı boynumuzdadır. Həm orta məktəbdə, həm də ali məktəbdə mənim qismətimə çox qüdrətli müəllimlər düşmüşdür. Əliyar Qarabağlı, Mir Cəlal Paşayev, Mehdi Məmmədov, Bəxtiyar Vahabzadə, Əlövsət Abdullayev, Həsən Şirəliyev, Muxtar Hüsyenzadə və s. Biz keçmişimizi unutsaq, gələcək nəsillərə də nümunə ola bilmərik. Yusif müəllim öz əsərləri, öz əməlləri, öz xeyirxahlığı ilə qəlbimizdə portretini yaratdı. Bizim əksəriyyətimiz onun yaratdığı məktəbin yetirmələriyik. Unudulmaz müəllimimiz Mir Cəlal Paşayev «Biz hamımız Mirzə Cəlilin «Poçt qutusu»ndan çıxmışıq» deyərdi. İndi isə hamımız iftixarla deyirik: «Biz Yusif müəllimin məktəbini keçmişik, hamımız onun rəhbərlik etdiyi kafedradan pərvazlanmışıq». Bu sətirləri yazarkən istər-istəməz kövrəldim. Fəqət nə etmək? Bu kiçik xatirə yazımı da Yusif müəllimə həsr etdim.

Hamımız yol gedirik, sonu bilinməyən bir ömür yolu. Hər bir kamil insan gərək bu ömür yolunu elə getsin, elə yaşasın ki, ötüb keçən əlçatmaz illərə həsrətlə boylananda hədər gedən anlar üçün təəssüflənməsin. Yusif müəllimin ömrünün, özü də şərəfli müəllim ömrünün səhifələrini vərəqlədikcə görərik ki, onun nəinki bir ili, nəinki bir günü, heç bir dəqiqəsi də hədər getməyib. Onu daim işləyən gördük. O, 50 ildən artıq rəhbərlik etdiyi kafedraya hamıdan tez gələr, hamıdan gec gedərdi. Bu onda bir vərdiş halını almışdı. Bir dəfə səhər işə gələndə görür ki, universitetin qapısı bağlıdır. Qapıçı istirahət günü olduğunu

söyləyəndə Yusif müəllim ayılır ki, həmin gün iş günü deyil. O, universiteti bir məbədgah, müəllimliyi isə şərəfli bir vəzifə bilirdi. Müəllimlik sənətilə yaşayırdı. Ona dəfələrlə müxtəlif vəzifələr təklif edilməsinə baxmayaraq müəllimliyi heç nəyə dəyişməmiş, universitetdən heç bir zaman ayrılmamışdır. «Universitetdə, tələbələrin içində özümü yaxşı hiss edirəm» – deyrdi. Yusif müəllim yaxşı bilirdi ki, müəllimlik elə bir peşədir ki, o hər bir insanı, həm də bu peşəyə vurğun olan, ona qəlbən bağlı ömür yaşayanların özlərini də kamilləşdirir, formalaşdırır. Müəllimlər insan zəkasını nurlandıran sönməz işıq mənbəyi olmaqla bərabər, bəşəriyyətin mənəvi yükünü çiyinlərində daşıyan həyat anteyləridir. Ömrünün ən enerjili illərini, mayakovskisayağı şumal saçlarını müəllimlik sənətində ağartdı Yusif müəllim. Bircə şeylə təsəlli tapırıq. Müəllimlərimiz bizdən uzaqlaşdıqca biz onalara yaxınlaşırıq.

Yusif müəllim mədəni insan idi. Heç zaman səsini ucaltmazdı. Qarşısındakını axıra qədər dinləmək bacarığına malik idi. O, öz xasiyyəti ilə ətrafdakılara sirayət edən, onları öz xarakterinə uyğunlaşdıran koloritli bir şəxsiyyət idi. Onun xislətində insanı tərbiyə etmək bacarığı vardı. «Qabusnamə»də deyilir ki, «İnsan əbədilik sarayının bünövrəsini bu dünyada qoyur». Yusif müəllim də öz abidəsini bizim ürəyimizdə çoxdan yaratmışdır.

Bu korifey dilçi haqqında danışanda iki kəlməni işlətmək yerinə düşər – istedad və zəhmət. İstedad tanrının lütfüdür. Zəhmətsiz iş heç nədir. İnsanın zəhmət çəkməyib istedadını puç etməsi sulanmayan ağacın çürüməsinə bənzəyir. Yusif müəllim isə dilçilikdə ən çətin, həm də mübahisəli sahələrdən birini seçdi. O, bizə də məsləhət görürdü ki, işləyin, zəhmət çəkin, zəhmətsiz heç nə əldə etmək olmaz.

Biz müəllimlərdən gündəlik hesabat alırdı. Yusif müəllimin insani keyfiyyətlərindən biri də dostluqda möhkəm olması idi. Üləmalar buyurub ki, belə insanlar böyük ürək sahibidirlər. H.Şirəliyev, A.Zamanov, F.Zeynalov, Ə.Bağırov, C.Əhmədov və s. insanlarla dostluğu ömrünün axırına qədər davam etdi. A.Zamanov deyirdi ki, Yusif müəllimlə dostluğumuzun qayəsi dözümümüz, dönməzliyimiz, həyat eşqimiz, ruhdan düşməməyimiz, əməksevərliyimiz, uğura inamımızdır.

Nisbətən yaşlı olsa da, qəlbən cavan idi Yusif müəllim. Onun qəlbi yazıb-yaratmaq eşqi ilə çırpınırdı. Yaşı 80-ni keçmişdi, amma yorulduğunu eşitməmişdik, görməmişdik. Allahın ona bəxş etdiyi ömrü elə-belə başa vurmadı. O, ömrünün sonuna yaxın daha çox işləyirdi, bircə arzusu var idi: 15 cildlik əsərlərini tamamlamaq. Ona da nəsib oldu.

Yusif müəllim xeyirxah insan idi. Mən kafedraya gələndə yaşlı nəslin nümayəndələri hələ də işləyirdi. Yaxşı yadımdadır, Əkbər Məftun (Əkbərov) infarkt olmuşdu. Onun 800 saatlıq dərs yükünü bizə tapşırdı. Yusif müəllim deyirdi ki, biz də qocalacağıq, böyüklərə hörmət etmək, onların qayğısını çəkmək lazımdır. Biz bunu etməsək, gələcək nəsillərə də örnək ola bilmərik. O, sanki biz müəllimlərə dərs verirdi. Ancaq özü bir gün də dərsdən qalmadı, əbədi dünyasına köçənə kimi işlədi.

Yusif müəllim sözə ehtiyatla yanaşırdı. Sözün qədrini bilirdi. Hər sözünün üstündə yarpaq kimi əsir, əsil alim bircə kəlməsini də başqasına verməməlidir – deyirdi. Bəlkə də onu bu məslək apardı, neçə əsr keçmişə, sözün mənasına, sözün şöhrətinə, sözün qüdrətinə, sözün gücünə, sözün hikmətinə böyük önəm verirdi. Onun mülahizələri bəzən dilin müasir sərhədləri ilə məhdudlaşar, bəzən on min il keçmişə yol açardı.

Bu görkəmli dilçinin elmi maraq dairəsi təkcə dil mə-

sələləri ilə məhdudlaşmırdı, onun elmi maraq dairəsi ədəbiyyatşünaslıq məsələlərinin tədqiqini də əhatə edirdi. Özü də ədəbiyyatşünaslıq məsələləri estetika ilə əlaqəli tədqiq olunurdu. Çünki o, hər şeyin gözəlini seçirdi, sevirdi.

Bizim kafedramızın yubileyləri qeyd etmək ənənəsi var. Həmin tədbirlərdə hərə bir şeir deyərdi. Bununla Yusif müəllim hansımız gözəl şeir söyləyiriksə, onu müəyyənləşdirirdi, həm də bu, özünə xoş gəlirdi. O, poeziya vurğunu idi. S.Vurğunun, C.Novruzun şeirlərini çox sevərdi. Yusif müəllimin 80 illik yubileyində C.Novruzdan bir parça şeir dedim:

*Ömrün günlərini saymaq nahaqdır,*
*Günlər gəlib-gedir sanki qonaqdır.*
*Gördüyün işə bax, qibtə eyləmə*
*Dünyada nə gördün o qalacaqdır.*
*Deyirlər ömür də insana yükdür,*
*Onun mənasını duyana yükdür.*
*Doğuldun, o yükü aldın çiyninə,*
*Öldün, o yükü qoydun yerə.*

Yusif müəllim duyğulu insan idi, kövrəldi, gözləri doldu. Dedi ki, ay Sultan, o mənəm!

Hörmətli Yusif müəllim! Həmin gün öz-özünüzə hesabat verərkən tam arxayın ola bilərdiniz ki, ömrünüzün payına düşən yükü şərəflə yerinə yetirmisiniz. O yükün mənasını duya-duya yaşamısınız, duya-duya çiyinlərinizdə gəzdirmisiniz. Saymamısınız ki, günüm gəlsin, ayım getsin.

Yusif müəllim sadə bir insanıydı. Həmişə işə tezdən gələrdi. Bir gün gec gəldi. Təəccübləndik. Məlum oldu ki, müəllimlərimizin biri gəlmədiyi üçün onun əvəzinə dərsə gedibmiş. Onun rəhbərlik etdiyi kafedranın 30 müəllimi var idi.

Onlardan birini göndərə də bilərdi. Mən özüm sadə bir müəllimәyəm, ancaq Yusif müəllimin yanında sadədən sadə oldum. 40 ildə ondan çox şey öyrəndim.

Ayda bir dəfə kafedramızda elmi seminar olurdu. Birinci özü çıxış edirdi. Onun hər bir çıxışı bir əsər idi. O çıxışlar, o mülahizələr bizə çox şey öyrətdi. Açıq dərsi birinci özü keçərdi. Həmişə bizi öyrətməyə çalışardı. O, sadə olmasına baxmayaraq, işində çox ciddi idi. Rəhbərlik etdiyi kafedranın bir müəllimi də onun qoyduğu qayda-qanunlardan kənara çıxa bilməzdi. Müəllimin biri iclasa gəlməyəndə, o saat təqdimat yazırdı. Elmi-işimizi bir az gecikdirəndə bizi töhmətləndirirdi.

Yusif müəllim düzgün və təmiz insanıydı. Sözünü çəkinmədən üzə deməyi bacarırdı. Qəlbi necə idisə, dili də eləydi. Sözünə bütöv idi. Ömrünün axırına kimi öz ləyaqətini qoruyub saxlaya bildi. Onun şumal, qapqara saçları bizim gözlərimiz önündə beləcə ağardı.

Yusif müəllim təmkinli insan idi. Özü danışırdı ki, bir dəfə qəbul imtahanından çıxıb gecə 12-də maşınla bağa gedirdim. Çox yorulmuşdum, avqustun istisi də məni taqətdən salmışdı. Yolda qaydanı pozdum. O saat polis saxladı. Dedi ki, sür maşını, aparıram səni cərimə meydançasına. Mən maşından düşəndə polis təəccüblə: nə üçün düşürsən, sənə sür deyirəm!

- Yorğunam, mən gedirəm bağa, sən özün hara istəyirsən, sür apar.

- Onda maşınını da apar.

Yusif müəllimdə ətrafındakılara sirayət etmək, onları öz xarakterinə uyğunlaşdırmaq qabiliyyəti çox güclü idi. O, uşaqla uşaq, böyüklə böyük idi. Özü də onun dostluğunda yaş kriteriyası yox idi, kafedra üzvlərinin hər birinə qarşı diqqətli idi. Hər birimizin sevincinə sevinər, kədərinə kədərlənərdi,

həyatın çətin anlarında ən əziz insan kimi həmişə bizə mənəvi dayaq olub. Təkcə kafedra müdiri kimi yox, eyni zamanda bir ailə başçısı kimi bizə məsləhət verib.

Bir dəfə bizim ailədə məclis keçirilirdi. O da baş sağlığına gəlmək istəyir. Evə yaxınlaşanda yolu itirir. Zəng etdi ki, bir saatdır gəzirəm, evinizi tapa bilmirəm, çaşmışam. Həyat yoldaşım nə qədər təkid etdi ki, zəhmət çəkməyin, gəlmişkən varsınız, özünüz də xəstəxanadan təzəcə çıxmısınız. Mümkün olmadı. Mən isə yoldaşıma yaxşısı budur ki, oğlunu göndər, getsin, gətirsin. O, gəlməsə dincəlməyəcək – dedim. Belə də etdik. Bax, Yusif müəllimin narahat qəlbi, duyğulu ürəyi axıra kimi beləcə göyündü. O, şəxsi ləyaqətini, əqidə bütövlüyünü daim qoruyub saxladı.

Yusif müəllim əbədi dünyasına qovuşandan sonra onun bir anım günündə mərasim düzəltmişdim. Övladlarının hamısını dəvət etmişdim. Bizim kafedradan da iştirak edənlər vardı. Yusif müəllimin qızı axırda məni və Məhbubəni qucaqlayıb, sevincdən ağladı: «Mən indi bildim ki, atam ölməyib, o, yaşayır».

Bəli, Yusif müəllim şərəf və ləyaqəti ilə nəcib və müdrik bir ziyalı kimi onu tanıyanların qəlbində həmişə yaşayacaq.

***Sultan Seyidova,***
***BDU-nun Azərbaycan dili kafedrasının dosenti***

## Mənim sevimli ustadım

Görkəmli Azərbaycan yazıçısı Anar demişdir: «Üç obrazı əsas götürmüşdülər – pəncərə, qapı, gücgü... bəzi adamlar otaqlarında pəncərələri, qapıları güzgülərlə əvəz eləyir, yəni hara baxır, özünü görür. Belə adamçün yalnız tək bir özü mövcuddur. Onun üçün nə pəncərədən görünən mənzərə var, nə də ki, qapının dalındakı həyat. Ancaq güzgü. Ancaq özü. İkinci qisim adamlar pəncərədən baxır. Pəncərədən həyatı seyr edirlər, seyrçidirlər...Və nəhayət, üçüncü qisim adamlar, onlar qapını açıb həyata, insanların yanına çıxanlardır». Bax, Yusif Seyidov da üçüncü qisim adamlardan idi, həyata, insanlara açıq idi. O, cəmiyyətlə, insanlarla, onların problemləri ilə yaşayırdı. Həyat dolu, həyat eşqli, pozitiv ruhlu birisi idi. Baxmayaraq ki, tale ona çox keşməkeşli, əzablı, dərdyüklü, qüssəli anlar, illər yaşatmışdı, bu böyük insandakı nikbin ruhu söndürə bilməmişdi. İçində dərd olsa da, başqalarına yükləməmişdi, əksinə qarşısındakına hər zaman müsbət enerji vermişdi. Özü dediyi kimi: «Ən ağır sarsıntılar içində də üzümdə təbəssüm gəzdirmişəm ki, başqalarına xoş əhval-ruhiyyə bağışlayım, ürəyimdən isə daim bir daş asılıbdır (Taleyin bəstələdiyi musiqini hələ notlara salan olmayıb). Yaxşılıq etdiyim adamlardan pislik görməyəndə sevinmişəm».

L.Araqon demişdir: «Nikbinlik böyük insanların sərvətidir».

Y.Seyidov S.Vurğuna həsr etdiyi «Şairin dərdi» kitabında daha sonra yazırdı: «Mənim həyatım keşməkeşlərlə dolu olubdur. Uşaqlığım, ilk gəncliyim iqtisadi çətinliklər içərisində keçibdir. 30-cu illər yoxsulluğu, dumanlı olsa da, yadıma gəlir, 40-cı illərin əzabları yadımdan çıxmır. Atam cəbhəyə getmişdi,

1946-cı ildə qayıtdı, 1953-cü ildə 53 yaşında dünyanı tərk etdi. 30-cu illərin axırlarında, 40-cı illərin əvvəllərində kiçik-kiçik üç qardaşım, bir bacım həyatdan getdilər. Yadımdadır, atam darvazadan içəri girib qardaşımın öldüyünü biləndə onu titrətmə tutdu, yeriyə bilməyib qapının ağzında yerə çökdü.

Bunlar, çoxlu başqa əhvalatlar məni sıxıb, əzib, ürəyimdə düyün bağlayıb, lakin təbiətimdəki indi artıq tükənməkdə olan şənlik ruhunu tam yox edə bilməyib, indi artıq sönməkdə olan həyat eşqimi öldürə bilməyib. Mən yaşamışam». Əlbəttə ki, bu etiraf özünə həyatda mühüm bir mövqe, ictimai sferada nizamlı və yüksək zirvə fəth etmiş bir insanın fikirləridir. Həyatını nizamlamağı bacarmayan insan bədbinliyinə qapılar. Nikbinlik – iradədir, mətanətdir, dözümdür. Bu böyük alimi həyatda sıx bağlayan şey – onun işinə, zəhmətə dərin məhəbbəti, cəmiyyətə, insanlara xeyir vermək arzusu və sevməyi bacaran ürəyi idi. Həyatı olduğu kimi qəbul edib, çətinliklərə, acıya sinə gərə bilən bir ürək. S.Şamfor belə söyləmişdir: «Kamil insan bu dəyişkən dünyaya nikbin nəzərlərlə baxır və onu olduğu kimi qəbul edir. Hətta köhnə adət və ənənələrin müasirliyə uyğun gəlmədiyini görsə belə, onlara hörmətlə yanaşır».

Bu böyük alimlə bağlı mənim o qədər xatirələrim var ki...

Əvvəla, yaxından tanışlığımızı xatırlamaq istərdim.

O vaxtlar filologiya fakültəsinin I kursundan tələbələr ixtisaslar üzrə bölünürdülər. Bu seçkidə tələbə müstəqil idi. Həmin ixtisas üzrə dərslər xüsusi keçilirdi və bu müddətdə qruplar bir-birindən ayrılırdı. Mən «Ədəbi tənqid» qrupunda idim. İnstitutu bitirərkən ədəbiyyatçılar dildən, dilçilər ədəbiyyatdan imtahan verməli idilər. Qismət məni böyük alimlə dil imtahanında qarşılaşdırdı. O vaxt açıq imtahan idi. Cavablarım Y.Seyidovun çox xoşuna gəlmişdi. Hətta imtahandan sonra

məni atama tərifləmişdi də. Beləliklə, ilk yaxınlıqdan görkəmli dilçidə xoş təəssüratlar oyatmaq şərəfinə nail olmuşdum.

İnstitutu bitirdikdən sonra Yazıçılar Birliyinin «Dədə Qorqud ensiklopediyası» şöbəsində redaktor vəzifəsində bir il işlədim. Amma sevimli və mənə çox doğma olan BDU– bu müqəddəs ocaq üçün darıxırdım.

Nəhayət, gözlədiyim an gəlib çatdı. Atam Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasında məni işə düzəltmək imkanı olduğunu eşidib Y.Seyidovun yanına getdi. Kafedrada baş laborant vəzifəsi üçün Y.Seyidovun icazəsini və xeyir-duasını almağı özünə borc bilib dostuna müraciət etdi. Təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, atam – Cəlal Abdullayev təkcə filologiya fakültəsinin yox, bütün BDU-nun ən hörmətli, sözükeçən və sayılıb-seçilən professorlarından idi. Hansı rektor gəlirsə gəlsin, şəxsən özü atamın istəkləri və arzuları ilə maraqlanırdı. Heç biri onun xahişini və sözünü yerə salmaz, bir kəlməsi ilə istəyini yerinə yetirərdi. Bu üzdən atam rahat idi, sadəcə Y.Seyidovun xeyir-duası qalırdı. Atamın məqsədini dinləyən Yusif müəllim çox sevinir və bu işə ikiəlli səs verdiyini deyir. Amma onu da qeyd edir ki, hələlik analıq məzuniyyətinə çıxmış laborantın yeri boşdur, lakin sonra ştatı sən alacaqsan rektordan, Cəlal (Sonralar yarım ştat və tam ştat müəllim yerini atam rektordan özü xahiş edib aldı). Atam isə: «Yusif, o mənlikdir, yetər ki, sən razılıq ver». Beləliklə, mən bu gözəl kafedraya baş laborant vəzifəsinə düzəldim.

İşə getməmişdən əvvəl atam mənə dedi ki, bax, Yusif müəllim səni çox işlədəcək. İndidən bunları bilməlisən. Çalış makinada yazıları boynuna götürmə, yoxsa səni birtəhər edəcək. Bütün günü yazır, hamısını makinada çap eləməlisən.

İş həyatımın birinci günü başlandı.

Elə ilk gündən Yusif müəllim mənə dedi:

– Makinada yaza bilirsən?

– Heç vaxt yazmamışam.

– Niyə? Bəs evdə atanın yazı makinası yoxdur?

– Var, Yusif müəllim. Amma necə makinanın düymələri rus dilindədirsə, eləcə qalıb. Atam dəyişdirtməli idi, ancaq elə alındığı kimi durur.

– Eybi yox, bundan sonra yazacaqsan.

Elə birinci gündən yazılarını yazmağa verdi.

Evə elə yorğun gedirdim ki, anam deyirdi: «Vay, yazıq balam». Məni və atamı gülmək tuturdu. Atam deyirdi: «Bə Yusifi nə bilmişdin?».

Onu da deyim ki, o vaxt müəllim dərsə gəlməyəndə əvəzə mütləq laborant getməli idi. Nə olursa-olsun, kafedrada nə qədər görməli işimiz olsa da, dərslər boş keçməməli id. Ona görə laborantın işi daha ağır idi.

İş həyatımın ilk günlərindən Yusif müəllim mənə dedi:

- Bax, sən yeni gəlmisən işə, bilmirsən. Əgər tələbələrdən kimsə gəlib müəllimini soruşsa və ya cədvəllə maraqlansa, gətir onu cədvəlin qarşısına, bir-bir izah et. Telefonla danışmaq istəyirsə, o saat icazə ver. Çalış tələbə narazı qalmasın. Bizim kafedranın adət-ənənələrindən biri də budur.

Doğrudan da, bir müəllim kimi tələbələrlə o qədər sadə, mehriban və səmimi idi ki, istəyirdi işçilər də eyni tərzdə rəftar eləsinlər. Bu bizə sevimli müdirimizdən bir örnək və vərdiş kimi qalmışdır.

Yusif Seyidov işləməyi özü üçün əyləncə sayanlardan idi. O, zəhmət və yaradıcılığı ilə təkmilləşir, yüksək dərəcədə çalışmaq qabiliyyəti ilə hamıdan seçilirdi. Həyatın mənasını və mahiyyətini zəhmətdə tapan bu alim ömrünün son illərində

dəfələrlə ağır xəstələnib yatağa düşsə də, xəstəliyə və yatağa boyun əymədi. Özündə azacıq qüvvə tapan kimi işinə qayıdırdı. Hətta elə günləri olmuşdu ki, həmkarları, tələbələri onu köməkləşib kafedraya qaldırmışdılar. Amma o yenə də inadından dönmür, işdə, yazılarında özünü tapır, yenidən həyata daha möhkəm bağlarla bağlanırdı. Bizə hər zaman tövsiyəsi bu idi ki, boş oturmayın, daima işləyin. Tez-tez bizdən sonuncu dəfə hansı kitabı oxuduğumuzu soruşurdu. O, «yeyəndə də işləyirəm, yazıram» deyirdi. Bu, həqiqətən belə idi, mübaliğəsiz şəkildə onun ruhu yazılarında idi. Nəinki dilçilik problemləri ilə əlaqəli yazılar yazıb çap etdirir, həyatın hər bir sahəsi ilə maraqlanır, aktual məsələləri saf-çürük edir, gündəmlə ayaqlaşmağa çalışırdı. Y.Seyidov bəyəndiyi və ya bəyənmədiyi bir incəsənət işçisindən – istər müğənni, ya bəstəkar, istər rəssam, kinossenarist və ya rejissor olsun, yazırdı; ya tərifləyir, ya da tənqid edirdi.

Günlərin bir günü işə gələndə bir yazı gətirdi əlində və mənə verdi yazmağa. Yazıya baxdım, Polad Bülbüloğlunun yubileyi ilə əlaqədar bir məqalə idi. Məqalə təbrik məktubu xarakteri daşıyırdı. Birdən qeyri-adi, özümdən asılı olmadan soruşdum: «Yusif müəllim, siz bunu Polad Bülbüloğluna müraciətlə yazmısınız. O sizi tanıyır?». Bir an çaşdı qaldı və birdən ərkyana bir səslə: «Sənə dedim yaz, yaz, sual vermə» deyib gülməyə başladı.

Ümumiyyətlə, kafedraya müəllimlər gəlib aralarında söhbət eləyəndə məni söhbətə qoşulmağa qoymurdu: «Sən uşaqsan, başını aşağı sal, yazını yaz», – deyərdi.

Yusif Seyidova mən elmi və pedaqoji sahədə qazandığım uğurlarım üçün çox borcluyam. O məndə özümə – biliyimə, savadıma qarşı inam yaratdı. T.Karleyl deyib: «Hər böyük iş

yalnız əvvəlində çətin görünür». Amma çətin görünən bir işi sənə inanaraq həvalə edirlərsə, sənə etibar edib güvənirlərsə və sənin bacarığına əminliklə səni də inandırırlarsa, o zaman çətin iş insana çox adi, asan bir şey kimi görünür. Və sən onun fövqündə özünü daha yüksək, daha ağıllı və daha güclü hesab edirsən. Ustadım mənə çox inanırdı. Təsadüfi deyil ki, öz kitablarının redaktəsini mənə həvalə edirdi və mən bundan çox böyük qürur duyurdum.

Dissertasiyamın mövzusunu seçməkdə mənə Yusif Seyidov istiqamət vermişdi. İnstitutu bitirərkən Y.V.Çəmənzəminlinin hekayələri haqqında diplom işi yazdığımı bilirdi. Elə bu istiqamətdə də mənə dilçiliklə əlaqəli bir mövzu verdi: «Y.V.Çəmənzəminlinin dilçilik görüşləri». Çəmənzəminli yazıçı olmaqla yanaşı, siyasətçi, tarixçi, dilçi, folklorşünas, coğrafiyaşünas, bioloq idi. Onun adı sadalanan bu elm sahələrinin hər birinə aid çap olunan və olunmayan əsərləri var idi. Dilçiliyə aid isə tədqiqatları, ikidilli lüğətləri Azərbaycan Respublikası Əlyazmalar Fondunda saxlanılırdı. Bu yazılar əski əlifbada, yəni ərəb əlifbasında idi. Yusif müəllim mənim əski əlifbada oxuyub yazmağımı bildiyinə görə, bu mövzunu mənə vermişdi. Tam səmimiyyətlə deyim ki, əvvəl gözüm çox qorxdu, bu iş mənə həddindən artıq ağır göründü. Lakin doğrudan da, «bacarmıram» demək işə girişmək istəməyənlərin bəhanəsidir, əslində «istəmirəm» desələr, daha dəqiq olar. Hz.Məhəmməd buyurmuşdur: «Bütün işlər nəticəsi ilə qiymətlidir». Ancaq işin içinə girdikdən sonra çəkdiyim zəhmət mənə daha maraqlı və qiymətli gəlirdi. Topladığım materialları incələdikcə, tədqiq etdikcə mövzuma sevgi və məhəbbətim birə-beş artırdı. Düz deyiblər ki, əmək mübarizə, mübarizə isə həzzdir. Tanrıma bugünkü gündə də çox şükür edirəm ki, ustadımın mənə olan

inamını doğrulda bildim və onu öz seçimində və qərarında peşiman etmədim. Bir daha ustadımın ruhu qarşısında baş əyirəm!..

Deyilənə görə, Yaponiyada tədris edilən dini təhsilə cəsarət, dözüm, təmizlik, nəfsə hakim olma kimi mövzular daxildir. Bu təhsil yapon xalqına verildiyinə görə, bu xalq sadalanan həmin keyfiyyətləri ilə bütün dünyada tanınır və məşhurdur. Yapon xalqına xas olan bu keyfiyyətin dördü də Y.Seyidovun xarakterində ehtiva etmişdir:

***I. Yusif müəllim cəsarətli idi...***

O, hər hansı bir insanı sıfırdan qaldırmaq, irəli çəkmək cəsarətinə malik idi, yetər ki, o adam savadı ilə fərqlənsin. Yusif müəllim, həqiqətən əsl ziyalı idi. O, savadlı tələbədən ötrü mübarizə aparır, onun arxasında durardı. Hətta, Y.Seyidova yaxın olan insanların dəfələrlə dilindən eşitmişəm ki, o, kasıb tələbələrə öz cibindən hər ay pul ayırar, amma bunu elə edərmiş ki, heç kəs bilməzmiş. Hətta tələbə özü də bilmirmiş ki, bu pulu ona Yusif müəllim verib. Dekanlıqda «yaxşı oxuyub seçilən tələbələrə mükafat verilməlidir» təşəbbüsü irəli sürən Yusif Seyidov, heç bir təşkilatdan, Həmkarlar İttifaqından və ya müəllimlərdən bunu tələb etməzmiş. Birbaşa, sakitcə pulunu qoyar, dekanlığın bir işçisindən xahiş edərmiş ki, tələbəni bunun məhz fakültə dekanlığı tərəfindən hər yaxşı oxuyan tələbəyə bir mükafat kimi təqdim edildiyinə inandırsın.

***II. Yusif müəllim dözümlü idi...***

Hər bir şəraitə, hər bir mühitə, hər bir çətinliyə dözümlə sinə gərən bu insan, bünyəsini, iradəsini, şüurunu, duyğularını istədiyi kimi kökləməyi bacaran bir şəxsiyyət idi. Maddi durumunun onun üçün heç bir əhəmiyyəti yox idi, Y.Seyidov ancaq yaşamaq, ayaq üstdə durmaq kimi ehtiyaclarını ödəyən bir

maddiyyat çərçivəsi ilə kifayətlənə bilən insan idi. Səhər tezdən birbaşa evdən işə yollanan bu şəxs, yorulmaq bilmədən, aclığı, susuzluğu belə hiss etmədən saatlarla başını yazı masasından qaldırmaz, daima işləyərdi. Heç təsadüfi deyil ki, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikasının banisi və ilk müdiri olmuşdur. Metodikanın sirlərini, dilçiliyin ən dərin qatlarını həvəslə, inadkarlıqla kafedranın müəllimlərinə, tələbələrinə sevdirən bu böyük alim, sevə-sevə yaratdığı «bu kiçik cəmiyyətin», nə az-nə çox, düz 50 ilə yaxın sevə-sevə müdiri oldu. Bu mehriban kollektivin hər bir üzvü onu hər zaman özünə örnək, əziz müdir, «ailə başçısı» kimi gördü. Bəli, o həqiqətən bu kafedranın, «bu kiçik cəmiyyətin», mehriban kollektivin, «böyük ailənin» başçısına, mənəvi atasına çevrildi və dünyasını dəyişənə kimi də öz «vəzifəsində», «mövqeyində» durdu. Heç təsadüfi deyil ki, bugünkü gündə kafedra iki hissəyə bölündüyünə baxmayaraq, hər ikisinin üzvləri Y.Seyidovun kafedrasını «ata evi» adlandırır. Digər kafedranın müəllimləri buraya gələrkən «atam evinə» gedirəm deyir. Hələ elə bir iclasımız, elə bir məclisimiz olmayıb ki, orda Yusif Seyidovu xatırlamayaq, onun sözlərini, öyüdlərini, məsləhətlərini yada salmayaq. Bunun üçün, hər şeydən əvvəl, kafedra müdirimiz Hüseyn Əsgərova şəxsən mən çox minnətdaram. Yusif müəllimin mənəvi oğlu hesab etdiyimiz bu şəxs, hər sözünün başında və sonunda onu xatırlayır, bütün səliqə- səhmanında – iclasların və seminarların keçirilməsində, tələbə və magistrlərə diplom işi mövzularının seçilməsində və müdafiələrində, kafedraya rəy üçün göndərilən elmi əsərlərin, müəllimlərin elmi işlərinin müzakirəsində, bir sözlə, hər addımında, kafedranın hər bir işində Yusif Seyidovun dəst-xəttini olduğu kimi saxlayır və bununla həm böyük alimə öz sədaqətini sübut edir, həm də

hər birimizin ürəyində öz vəfası ilə sevgi qazanır. Hətta hər bayramda təşkil edir, kafedra üzvlərini Y.Seyidovu ziyarətə qəbiristanlığa belə aparır. Bir daha bu xüsusi diqqətə, vəfa və sədaqətə görə ona çox təşəkkür edirəm. Çünki Y.Seyidov mənim üçün çox əziz bir insan idi.

***III. Yusif müəllim təmiz insan idi...***

Öz obyektivliyini hər bir zaman çərçivəsində qoruyub saxlaya bildi Yusif Seyidov. İstər sovet dönəmində, istər ölkəmiz müstəqillik qazanandan sonra, hər iki zaman müstəvisində tələbələrə qarşı, elm və təhsilimizə qarşı, kadrlara qarşı obyektiv oldu və hər kəsin yaddaşında «təmiz insan» xatirəsinin kök salıb rişələnməsinə bais oldu. Sovet dövrü vaxtında qəbul imtahanlarında, dövlət imtahanlarında neçə-neçə tələbənin ümid yeri, alqış hədəfi oldu. Yıxılanlara dayaq, büdrəyənlərə söykənəcək, yolunu itirənlərə mayak oldu.

***IV. Yusif müəllim nəfsinə hakim insan idi...***

Bəli, bu həqiqətən belə idi, mübaliğəsiz, bəzək-düzəksiz əsil həqiqət idi. Bunu onu yaxından tanıyan hər bir kəs təsdiqləyə bilər. Xarici görünüşü sadə olduğu qədər, daxili aləmi də zəngin, amma olduqca sadə idi. Ən bahalı kostyumu, geyimi geyə biləcəyi halda, daima yaz-qış eyni görünüşdə olardı. Əsla bahalı üst-başa, dəyişik libaslara meyl etməzdi. Yeyərkən belə, nəfsinə hakim ola bilirdi. Şəkəri olduğuna görə hər zaman kiçik armudu stəkanda çay içərdi və bununla kifayətlənərdi. Əlində çox qazana biləcəyi imkanlar olsa da, kiçik həyat ehtiyaclarını ödəyə bilən gəlirlə yaşamağı daha üstün tutardı. A.Linkolnun belə bir kəlamı var: «İnsanların şəxsiyyəti güc və vəzifənin tətbiqi zamanı bəlli olur». Y.Seyidov vəzifəsindən əsla istifadə etmədi və ölənə qədər təvazökarlığını, sadəliyini, insanlığını itirmədi.

M.Anderson-Nökse söyləmişdir: «Həyatda ən dəhşətli şey diri ikən ölməkdir». Yusif Seyidov isə ölü ikən diridir. O bizim üçün hələ də sağdır. Ustadımız bizim xatirələrimizdə, ürəyimizdə yaşayır. Tanrının öz qullarına bəxş etdiyi sınaq müddətindən üzüağ çıxdı Yusif müəllim. Ləyaqətlə, iradə və dözümlə yaşadığı ömrü, əməlləri ilə ölçüdə az belə görsənir. O dəbdəbəli həyat yaşamadı, amma «mənəvi ailəsində» sevə-sevə və sevilə-sevilə yaşadı. Həyatdan çox şey ummadı, çox şey istəmədi, taleyinə, qismətinə düşənlərlə kifayətləndi və əldə etdiklərini qoruyub saxlamağı bacardı. Başqaları üçün yaşamağı bacardı, böyük işlər görmək üçün yaşadı. «İnsanlar arasında bölüşdürülən yeganə şey- ölüm» (Ş.Filipp) görkəmli alimi yaşının ahıl vaxtında yaxaladı. Mən inanıram ki, ruhu bədənindən çıxanacan həyat eşqi, yaşamaq həvəsi onu tərk etməmişdir. Nə etmək olar, həyatın qaçılmaz qanunudur. Şərəfli həyat və şərəfli ölüm isə Tanrının sevdiyi insanlara bir lütfüdür.

Yazımın əvvəlini başladığım kimi, sonunu da Anarın sözləri ilə bitirmək istəyirəm:

«İnsanlar ölərkən birdəfəlik ölmürlər, tamam yox olmurlar, nə qədər ki, onları xatırlayan, onların səslərini, sifətlərini yaddaşında saxlayan adamlar durur, bu ölənlər də hələ yaşayırlar – fikirlərdə, xəyallarda, təsəvvürlərdə yaşayırlar».

***Şəlalə Cəlal qızı***
***BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti***

# Böyük və sadə Yusif Seyidov

Professor Əziz Şərif Yaxın və Orta Şərqin mədəniyyət beşiklərindən olan Naxçıvan haqqında «Naxçıvan ərazi etibarı ilə kiçik, mənəviyyatca böyük ölkədir» dedikdə sözsüz ki, bu qədim diyarın - cənnətməkan Naxçıvanın uzun əsrlər ərzində dünya elm, ədəbiyyat və incəsənətinə bəxş etdiyi cahanşümul mənəvi töhfələri – memarlıq abidələrini, ədəbi-fəlsəfi, elmi-pedaqoji və siyasi əsərləri nəzərdə tutaraq söyləmişdir. Həqiqətən də bu qədim diyar bəşər tarixinə minlərlə elm, sənət xadimi bəxş etmişdir. «Naxçıvan diyarının adlı-sanlı yetirmələrinin siyahısını tərtib etməli olsaq, əlifbamızdakı bütün hərflərdən istifadə etmək lazım gələr." Naxçıvan torpağının Azərbaycana bəxş etdiyi şəxsiyyətlərdən biri də böyük dilçi alim Yusif Mirəhməd oğlu Seyidovdur.

Yusif Seyidov 1929-cu ildə mayın 2-də Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində dünyaya göz açıb, burada böyüyüb, ilk təhsilini burada alıb. Ali təhsilini Naxçıvan Müəllimlər İnstitutunda, sonra isə Azərbaycan Dövlət Universitetində davam etdirib. Universiteti bitirən Yusif Seyidov dilçilik ixtisası üzrə aspiranturada saxlanıb, «Müasir Azərbaycan dilində feli bağlama tərkibləri» mövzusunda namizədlik dissertasiyası müdaflə edib. Universitetdə Ümumi dilçilik kafedrasında müəllim, baş müəllim, dosent, professor işləyib. 1965-ci ildə «Müasir Azərbaycan dilində söz birləşmələri» mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Bakı Dövlət Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasına əsası qoyulduğu ilk gündən rəhbərlik edib. Elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, tənqidçi və ədəbiyyatşünas kimi də fəaliyyət göstərib. O, «Klassik Azərbaycan şairləri söz

haqqmda», «Yazıçı və dil», «Sözün şöhrəti», «Sözün qüdrəti», «Sözün hikməti» və s. kimi sanballı monoqrafiyalarında XI əsrdən başlayaraq müstəqillik dövrünə qədərki Azərbaycan yazıçılarının söz və sənət haqqında, dil və onun insan həyatında, cəmiyyətdə rolu, əhəmiyyəti barədə fikirlərini toplayıb sistemə salıb, ədəbi-tarixi ardıcıllıqla təsvir və təhlil edib, xalqın dilçilik, qismən də ədəbiyyatşünaslıq və estetik görüşlərinin yığcam salnaməsini yaradıb.

Elmi məzmununa, metodiki mükəmməlliyinə görə qiymətli dərs vəsaitləri və dərsliklərin müəllifi olan Yusif Seyidov eyni zamanda Azərbaycan dili tarixinə dair səmərəli tədqiqatlar aparmış: «Nəsiminin əsərləri Azərbaycan ədəbi dilinin tarixi abidəsi kimi», «Dastani-Əhməd Hərami» haqqında bəzi qeydlər», «Kitabi-Dədə Qorqud»un dilində sadə cümlə (inkişaf səviyyəsi)», «Kitabi-Dədə Qorqud» dastanlarının dilində tərkib və budaq cümlə paralelizmi», «Dövrün (XII- XIX əsrlər) şeir dilinə ümumi bir nəzər», «Ədəbi şəxsiyyət və dil» və s. məqalələri və «Nəsiminin dili» monoqrafiyası ciddi müşahidə və axtarışların məhsuludur. Bir sözlə, böyük dilçi alim dilçiliyin nəzəri və tətbiqi problemlərinə həsr edilmiş 200-dən çox elmi əsərin, 30-dan çox kitabın; «Azərbaycan ədəbi dilində söz birləşmələri» (1966), «Müasir Azərbaycan dili». Sintaksis (1972), «Klassik Azərbaycan şairləri söz haqqında (XI-XVIII əsrlər)» (1977), «Azərbaycan dili (1978), «Yazıçı və dil (XIX-XX əsrlər) (1979), «Sözün şöhrəti» (1983), «Şairin fıkir dünyası» (1985), «Müasir Azərbaycan dili (1985), «Ədəbi tənqid və bədii dil» (1986), «Azərbaycan dili» (1987), «Sözün hikməti» (1989), «Azərbaycan dilinin qrammatikası» (2002) - monoqrafıya, dərslik və dərs vəsaitlərinin müəllifidir. Yəni Yusif Seyidov böyük alimdir. Bu bizim Yusif Seyidov kimi

tanıdığımız dilçi alimimizin elmi fəaliyyətinə ötəri bir nəzərdir. Bir də mənim tanıdığım, sevdiyim, qarşısında ehtiramla baş əydiyim Yusif Seyidov vardı... El arasında tez-tez işlənən bir söz var: «Alim olmaq asandır, insan olmaq çətin.» Dilçilik elminin zirvəsini fəth etmiş görkəmli alim Yusif Seyidov gözəl alim olduğu kimi, həm də böyük insan idi. Bu böyük insan, Yusif müəllim nə mənə dərs deməyib, nə də elmi rəhbərim olmayıb. Lakin onunla tanış olmaq, ünsiyyətdə olmaq, söhbət etmək xoşbəxtliyi mənə nəsib olub.

Naxçıvan Dövlət Universitetinin Müdafiə Şurasının üzvü olduğundan Yusif müəllim tez-tez Naxçıvana gəlib gedirdi, yəni bir ayağı Naxçıvanda idi. Mən də Yusif müəllimlə Naxçıvan Dövlət Universitetinin Müdafiə Şurasının üzvü kimi tez-tez gəlib-getdiyi Naxçıvan Dövlət Universitetində tanış oldum.

2005-ci ildə Naxçıvan Dövlət Universitetində «Hüseyn Cavid və Şərq» mövzusu üzrə namizədlik müdafiə edirdim. Yusif Seyidov da Dissertasiya Şurasının üzvü kimi müdafiədə iştirak edirdi. Müdafiəm uğurla keçdi. Yusif müəllim müdafiənin sonunda məni təbrik etdi, xoş sözlər söylədi. Birlikdə şəkillər çəkdirdik. Bütün günü birlikdə olduq. Bu mənim üçün böyük şərəf idi. Söhbətimiz süfrə arxasında davam etdi. O, çox az danışırdı, həm də çox astadan. Böyük dilçi alim süfrə arxasında da sadə və səmimi idi.

Ondan sonra dəfələrlə Yusif müəllimlə Naxçıvan Dövlət Universitetində görüşdük. Onu hər gördüyümdə əzizini görmüş uşaq kimi sevinirdim. Hətta bir dəfə Bakıdan Naxçıvana təyyarə ilə birlikdə uçduq. Hava limanında təsadüfən rastlaşmışdıq. O, məni görmürdü. Mən özüm ona yaxınlaşdım, görüşdüm, «Necəsiniz, Yusif müəllim? Yenəmi Naxçıvana» - de-

dim. O da «yaxşıyam» dedi - «yenə Naxçıvana.» «Nə böyük xoşbəxtlikdir, sizinlə yol yoldaşı olmaq» - dedim. Heç nə demədi, yalnız gülümsədi. Naxçıvanda hava limanında ayrılanda «Yusif müəllim, gedək, qonağımız olun» - dedim. «Sağ ol, qızım» dedi.

Beləcə sadə, səmimi insan olan Yusif müəllim öz səmimiliyi, sadəliyi ilə adını ömürlük yaddaşıma həkk etdi. Bu gün Yusif müəllim bizləri tərk edib haqq dünyasına qovuşsa da, xoş xatirəsi daima bizimlədir.

Ədəbiyyatşünaslar Füzulidən bəhs edən yazılarında tez-tez belə bir deyim işlədirlər: «Füzuli böyükdür, ona görə ki, sadədir. Füzuli sadədir, ona görə ki, böyükdür.

Bu sözlər bu gün mənə Yusif Seyidovu andırır. Çünki Yusif müəllim də böyük alim olduğu kimi, həm də böyük, sadə insan idi. Onun böyüklüyündə sadəlik, sadəliyində isə böyüklük vardı.

***Lütviyyə Əsgərzadə,***
***Nizami adına Ədəbiyyat İnstitutunun***
***Yeni Dövr Azərbaycan ədəbiyyatı şöbəsinin***
***aparıcı elmi işçisi,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Söz mülkünün şahı

Hər dəfə Yusif müəllim haqqında düşünərkən yadıma böyük mütəffəkirimiz M.F.Axundzadənin "Aldanmış kəvakib" əsərindən Qəzvin şairlərinin Yusif şahın taxta çıxmasını göstərən misraları yadıma düşür:

**Şahi-xuban nəbud Yusifi-ma,**

**Leyk şahi-mülki-İran şod** ( "Bizim Yusif gözəllərin şahı deyildi, lakin o, İran mülkünün şahı oldu")

Bizim Yusif müəllim isə Azərbaycan dilçiliyinin, Azərbaycan elminin şahı idi, filologiyamızın elə bir sahəsi yox idi ki, ora əli çatmasın. O, morfologiyadan, sintaksisdən söhbət düşəndə elə həvəslə, elə vəcdlə danışırdı ki, adam heyran qalırdı. Elmi mübahisələr zamanı öz fikirlərini təmkinlə söyləyər, başqalarına qulaq asmağı xoşlayardı. O, daim fəaliyyətdə olurdu, həmişə yazıb-yaradırdı. Adam heyran qalırdı ki, Yusif müəllim bu qədər işi – kafedraya rəhbərlik, elmi iş, müəllimlik fəaliyyəti, ailə qayğılarını necə çatdırır, hətta zarafat eləməyə də vaxt tapır.

Universiteti bitirdikdən sonra Yusif müəllimlə iki dəfə üz-üzə gəlmişəm: birinci dəfə aspiranturaya qəbul imtahanı verən vaxtı, ikinci dəfə namizədlik dissertasiyası müdafiə edən zaman. Mən dörd il kənd məktəbində işlədikdən sonra universitetə qayıtdım. Əyani aspiranturaya sənəd verdim, ixtisasdan qəbul imtahanı zamanı (İmtahan indiki Tükologiya kafedrasında keçirilirdi) Yusif müəllim məni –öz keçmiş tələbəsini xatırladı və dedi: "Bu Əhəd tələbə vaxtı yaxşı oxuyubdur, ancaq çox utancaq adamdır". Və gülümsədi. Sonra o biri müəllimlər də ona qoşuldular, tələbəlik illərini xatırladılar, hətta mənim böyük ölçülü ayaqqabı geyməyimi də yada saldılar.

İmtahandan “əla” qiymət alıb çıxanda hara gedəcəyimi bilmirdim, bir azdan uşaqlara qoşulub yataqxanaya yollandım.

Yusif müəllimlə ikinci qarşılaşmamız 1988-ci ilin 27 aprelində oldu. Bu həmin gün idi ki, mən universitetdə namizədlik dissertasiyası müdafiə edirdim. Həyat yoldaşım Fəridə xanım iki körpə uşağı ilə kənddə yaşayırdı və dediyinə görə, o gün təndir qalayıb çörək bişirirmiş. Qohum-qonşu da təndirin başına toplaşıb, Bakıdan xəbər gözləyirmiş. Anam- rəhmətlik Bilqeyis isə sevindiyindən ağlayırmış.

Elmi Şuranın iclası çox qızğın müzakirə şəraitində keçirdi, hətta mübahisələr də olurdu. Adlı-sanlı alimlər çıxış edib, dissertasiya barədə öz fikirlərini söyləyirdilər. Nəhayət, söz professor Y. Seyidova verildi. Oxucular məni qeyri-təvözakarlıqda qınamasınlar, Elmi Şuranın stenoqrafik hesabatından götürdüyüm və bizim Yusif müəllimin ağzından çıxan bu “qızıl sözlər”i eynilə sizə çatdırıram: “Mən Azərbaycan dilinin qrammatikası ilə bağlı adamam. Bunu yoldaşlar da bilirlər. Amma bəzi şeylər var idi ki, onların şərhi mənim üçün tam aydın deyildi. Əhədin əsərini oxuyandan sonra bunlar mənə tamamilə aydınlaşdı. Əhəd, doğrudan da, gözəl bir əsər yazmışdır. Bu iş çox çətin və mürəkkəb bir problemin həllinə həsr edilib. Mən Əhədə müvəffəqiyyətlər arzu edirəm. Gələcəkdə o , bu problem ətrafında öz tədqiqatını davam etdirə bilər”. Doğrudan da, şagird üçün ustadın söylədiyi bu kəlamlardan qiymətli nə ola bilər?!...

Yusif müəllimin mənim müəllimlik fəaliyyətimdə də rolu danılmazdır. Yaxşı yadımdadır, elmlər namizədi adını aldıqdan sonra bir müddət işlə təmin olunmadım. Mənə hətta nəşriyyatda işləmək təklif olundu. Bu zaman yenə də “Yusif fenomeni” dilə gəldi, bircə kəlmə sözlə gənc mütəxxəsisin

həyatını xilas etdi, ona gələcəyin yollarını açdı: “Mən Əhədi kafedraya götürürəm. “Bilməyəni bitməz” deyiblər, əziz oxucular. Bu bir cümlədən sonra mənim necə həyəcanlamağım, göz yaşlarını saxlaya bilməməyim indi də yaşıdlarımın yadındadır. O böyük İnsanın əlini öpməyi necə də istədim, ancaq cəsarət etmədim

(Belə şeylərdən xoşu gəlməzdi, sadəliyin dahiliyində idi).

Bəli, əziz oxucu, o böyük insanın dəstəyi sayəsində kafedranın baş laborantı vəzifəsindən dosent vəzifəsinə qədər uzun yol keçdim, neçə-neçə elmi iş yazdım, auditoriyalarda mühazirə dedim, seminarlar apardım. Amma hamısının memarı O idi, o böyük İnsan- Yusif Seyidov, sadəcə olaraq Seyid. Universitetdə kimdən soruşurdularsa, deyirdi: Yusif müəllim yaxşı adamdır. Görəsən, bu yaxşılığı qazanmaq hamıya nəsib olubmu, ya olacaqmı? Şair Ə.Kərim yazır:

*Yaxşıya pis, pisə yaxşı desələr,*
*Bunu görüb yaxşılar da pis olmaq istəsələr,*
*Vay o günə, vay o günə...*

Yusif müəllim bizdən uzaqlaşdıqca daha da böyüyür və ucalır, əlçatmaz olur. Kafedra əməkdaşlarından kimsə sakitcə “Kaş...” deyə sızıldayır, kimsə vaxtilə söylədiyi səhv sözə görə xəcalət çəkir.

Yusif müəllim adamla yaxşı yoldaşlıq edirdi. Kafedra müdiri, hamımızın müəllimi olmaqla yanaşı, bizimlə həm də dost idi. Hamının xasiyyətini gözəl bildiyi üçün, hər kəslə rəftarı bacarırdı.Yaxşı yadımdadır, bir dəfə mənə dedi ki, Əhəd məni öz maşınınla nəşriyyata apar. Mən də, təbii ki, “baş üstə “ dedim. Köhnə bir “31-10”um vardı. Yolda maşının mühərriki dörd dəfə söndü. Nə isə, birtəhər nəşriyyata çatdıq. Yusif müəllimə dedim ki, sizi gözləyim. Xəffifcə gülümsündü, dedi:

“Əhəd, yolu özüm taparam, bu maşını da tez sat”. Heç vaxt da bu “maşın məsələsi”ni açıb-ağartmadı.

Bir şeylə təsəlli tapıram. Son günlərdə Yusif müəllimi evlərinə aparırdım, o, maşından düşən kimi kimsə gəlib qoluna girirdi, evə aparırdı. Binadakılar hamısı ona hörmət edirdi, qulluğunda durmağa çalışırdı.

Heç vaxt ağlımıza gətirməzdik ki, Yusif müəllim bizi tərk edər, bizdən uzaqlaşar. Hər dəfə kafedraya girəndə onu axtarırıq, Yusif müəllimin böyük portreti ilə salamlaşırıq. Elə bilirəm ki, oturub çay içir, nəsə də yazır. Mən də nədənsə həyəcanlanmışam, stres içindəyəm. Oturub ərköyünlüklə, bir az da əsəbi danışıram: “Ay Yusif müəllim, filan şey belə oldu, bəhmənkəs belə dedi...”. Xəffifcə gülümsünəcək və deyəcək:” Əhəd, çay içirsən?”. Mən də elə bil yenidən dünyaya gələ-cəyəm.

Allah sənə rəhmət eləsin, ay Yusif müəllim! Qəbrinin torpağına baş əyməkdən qürur duyuram. Stolun üstündə bir kağız saxlayırdın, orada yazılmışdı:

*Cahanda çox yaşadıq, bilmədik cahanda nə var,*
*Ölüm gələydi, öləydik, görəydik o yanda nə var...*

Görəsən, o yanda nə var, ay Yusif müəllim!

***Əhəd Cavadov,***
***BDU-nun Azərbaycan dili və ədəbiyyatının***
***tədrisi metodikası kiafedrasının dosenti,***
***filologiya üzrə fəlsəfə doktoru***

# Böyük alim, böyük müəllim, böyük insan

Azərbaycan dilçiliyi qədim tarixə malik olsa da, Azərbaycanda elmi dilçiliyin formalaşması və inkişafı 20-ci yüzilliyə təsadüf edir. Bu dövrdə Azərbaycan dilçiliyi müxtəlif sahələr üzrə inkişaf etmiş, həm də böyük bir dilçi ordusu yetirmişdir. Lakin bu dilçilər içərisində Azərbaycan dilçiliyinin yaradıcısı adını daşıyıyan çox az sayda tədqiqatçı var. Prof. Yusif Mirəhməd oğlu Seyidov Azərbaycan dilçiliyinin yaradıcılarındandır. Yusif müəllim çox geniş diapozonlu tədqiqatçılardandır. Onun elmi fəaliyyət dairəsinə fonetika, leksika, morfologiya, sintaksis, dil tarixi, üslubiyyat, nitq mədəniyyəti, dilin tədris metodikası kimi müxtəlif məsələlər daxildir. Yusif müəllim seçilmiş əsərlərinin on beş cildliyini çap etdirmək istəyirdi. O, sağlığında bu əsərlərin hər biri altı yüz səhifədən artıq olan on iki cildini çap etdirə bildi. Bunun özü də Yusif müəllimin nə qədər məhsuldar bir yaradıcılıq yolu keçdiyini göstərir. O təkcə bir dilçi alim deyildi, sözün həqiqi mənasında böyük filoloq, böyük ziyalı idi. Ədəbiyyatı dərindən bilirdi, söz sənəti, yazıçı dili haqqında dəyərli yazılar yazar, kitablar çap etdirərdi.

Prof. Y.Seyidov Azərbaycan dili qrammatikasının yaradıcılarındandır. Onun «Azərbaycan dilində söz birləşmələri» adlı monoqrafiyası nəinki Azərbaycan dilçiliyi üçün, türkoloji dilçilik üçün, hətta mən deyərdim ki, nəzəri dilçilik üçün əhəmiyyətli olan fundamental araşdırmadır. Azərbaycan dilçiliyində öz müəllimi prof. M.Hüseynzadə tərəfindən morfologiya sahəsində görülən işləri yüksək qiymətləndirərdi. Bununla yanaşı, Yusif müəllim Azərbaycan dilinin morfologiyası haqqında ayrıca əsər yazdı, morfologiyanın bir sıra problem xarakterli

məsələlərini qaldırdı və bunların bir çoxunu həll etdi.

Prof. Y.Seyidov həm də böyük müəllim idi. Demək olar ki, tələbəlik illərindən bütün ömrü indiki Bakı Dövlət Universitetində keçmişdi. Universitetlə fəxr edərdi və bütün varlığı ilə universitetlə bağlı idi. Hər gün səhər tezdən universitetə gələr, bir də axşam üstü gedərdi. Yusif müəllim tələbələrini sevər, tələbələri tərəfindən sevilərdi. Universitetdə çoxsaylı Azərbaycan dili və ədəbiyyat müəlliminin yetişməsində Yusif müəllimin də böyük xidmətləri olub. Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasına rəhbərlik etdiyi üçün bu məsələlərlə daha yaxından bağlı idi. İstedadlı, savadlı tələbələri qiymətləndirər, onlara qayğı ilə yanaşardı. Nə qədər xeyirxah olsa da, həm də çox tələbkar idi. Proqramı bu və ya digər dərəcədə mənimsəyib ondan qiymət almaq mümkün deyildi.

Yusif müəllim böyük insan idi. Təmizliyi, səmimiliyi, düzlüyü sevərdi, insanlarda elmi səviyyəni və ondan daha artıq dərəcədə mənəvi zənginliyi, bütövlüyü qiymətləndirərdi. Yusif müəllim böyük idrak, dərrakə sahibi olmaqla yanaşı, daxilən də çox zəngin, çox hissiyyatlı adam idi. Ancaq hisslərini biruzə verməzdi. Adamları çox yaxşı tanıyardı, ancaq heç kim Yusif müəllimin içində onu qəbul etmədiyini hiss etməzdi.

Yusif müəllim öz xalqına, millətinə, elinə, obasına çox bağlı bir adam idi. Millətinin böyüklüyünü bilirdi, azərbaycançılıq ideologiyasını içində yaşadırdı, millətinin böyük oğulları ilə fəxr edirdi. Mən Yusif müəllimin aspirantı olduğum üçün onu daha yaxından tanıyırdım. Nədənsə, mənə inanırdı. Mən bilirdim ki, Yusif müəllimin Azərbaycan xalqının böyük oğluna, Heydər Əliyev cənablarına nə qədər böyük sayqısı, hörməti var. Böyük dövlət Adamı, dahi siyasətçi hələ Moskvada olarkən Yusif müəllim onun uğurlarını diqqətlə izləyirdi, tez-

tez Moskvaya teleqram göndərirdi. Azərbaycan xalqının o ağır günlərində də Yusif müəllim inanırdı ki, Heydər Əliyev tezliklə siyasi hakimiyyətə qayıdacaq, öz xalqına sahib çıxacaq, Azərbaycanı bu bəlalardan xilas edəcək. Yusif müəllim uzun illər gözlədiyi müstəqilliyin sevincini yaşayırdı, müstəqil Azərbaycanın gələcəyinə inanırdı, ulu öndərimizi müstəqil Azərbaycan dövlətinin qurucusu kimi görürdü. Ümummilli liderimizin layiqli davamçısı İlham Əliyev cənabları haqqında, onun dil siyasəti haqqında ilk yazanlardan biri də Yusif müəllimdir.

Yusif müəllim çox bütöv adam idi. Onu nəyəsə məcbur etmək, yolundan döndərmək mümkün deyildi. Kimlərsə Yusif müəllimin adından istifadə etmək istəyəndə də dərhal onların cavabını verər, mövqeyini bildirərdi.

Yusif müəllim xalqının acılarını öz acıları kimi qəbul edən böyük ziyalılardan idi. Siyasi prosesləri diqqətlə izləyərdi, tez-tez mətbuatda yazılarla çıxış edərdi. Yusif müəllim haqqa tapınan bir adam idi, haqq onun içində idi, haqqın, ədalətin öz yerini tapacağına inamını heç zaman itirməzdi. Yusif müəllim çox nurlu adam idi, ətrafına daim nur səpələyərdi.

Yusif müəllim çox sadə adam idi, uşaqla uşaq, böyüklə böyük idi. Ancaq Yusif müəllimin sadəliyi arxasında onun böyüklüyü, onun əzəməti dayanardı. Yusif müəllim bu böyüklüyü, bu əzəməti heç zaman itirmədi.

Yusif müəllim onu tanıyanların, keçmiş tələbələrinin xatirəsində hələ uzun illər yaşayacaq. Yusif müəllim onun yazılarını oxuyanların xatirəsində əbədi yaşayacaq, çünki Yusif müəllim öz sağlığında öz əlləri ilə öz tarixini yazmış insanlardandır.

***Məhəmməd Məmmədli,***
***BDU-nun Ümumi dilçilik kafedrasının dosenti***

# Bizim böyük müəllimimiz

Böyük alim, zəhmətkeş insan, öz məktəbi olan Yusif Seyidovu, hər şeydən əvvəl, Filologiya fakültəsində oxuduğum zaman tanıdığım alimlərdən biri kimi xatırlayıram.

Taleyinin əzab-əziyyətli tale yollarından keçərək böyük alim, böyük müəllim mərtəbəsinə qalxmış şan-şöhrət hissindən uzaq olan bu təvazökar insan haqqında çox danışmaq olar. Onun həm elmi, həm pedaqoji fəaliyyəti geniş araşdırmaların mövzusudur. 1965-ci ildə əsasını qoyduğu və əlli ilə yaxın uğurla başçılıq etdiyi kafedradakı fəaliyyəti haqqında da geniş söhbət açmaq olar. Yusif Seyidov onlarla kitabın, yüzlərlə məqalənin müəllifidir. Onun sırf dilçiliklə bağlı əsərləri istisna olmaqla, bütün əsərləri həyatı, dünyanı, aləmi dərindən duyan, sevən və dəyərləndirən kövrək və həssas insanın mənəvi dünyasını əks etdirir. Bu fikir, xüsusilə, «Şairin dərdi» kitabına aiddir. Yusif Seyidovun yaradıcılığında, bəlkə də həyatında böyük şairimiz Səməd Vurğun önəmli yer tutur, xüsusi məna kəsb edirdi.

«Şairin dərdi» kitabında böyük alim böyük şairin dərdinin motivlərini araşdırır, təhlil edir, eyni zamanda, özünün həyatı ilə, dərdi-kədəri ilə müqayisə edir. Çox erkən yaşlarından atasını itirən Yusif Seyidov, təsadüfi deyil ki, həmin kitabda özünün məşəqqətli həyatını şairin həyatı ilə müqayisə edərkən belə yazır: «Görünür bu ruhi - psixoloji səbəblər Səməd Vurğun şeirinin həmin cəhətlərini daha yaxından duymağa, şairin kədərini özümünkü kimi qəbul etməyə məni təhrik edən qüvvə olubdur. Elə bil, şüurla yox, hisslə belə qəbul etmişəm ki, o böyük sənətkarın böyük kədəri ilə adi bir insan olan

mənim həyatım arasında nə isə bir səsləşmə var». «Bar verən ağac» məsəlinə gözəl nümunə olan alimin özünü «adi insan» adlandırması onun mənəvi keyfiyyətlərindən xəbər verir. Dövlət Mükafatı laureatı, filologiya elmləri doktoru, professor Yusif Seyidov özünə, «adi insan» deməklə böyüklüyünü bir daha təsdiqləyir.

Səməd Vurğun yaradıcılığına, sözün əsil mənasında, vurğun olan Yusif müəllimi xatırlayanda, ilk növbədə, şairin bu misraları yada düşür:

*Bir də görürsən ki, açılan solur,*
*Düşünən bir beyin bir torpaq olur,*
*Bir yandan boşalır, bir yandan dolur,*
*Sirrini verməyir sirdaşa dünya.*

Bu, Yusif müəllimin çox sevdiyi şeirlərdən idi. Yusif müəllim şair təbiətli insan idi.

Yusif Seyidovun özəl keyfiyyətlərindən biri də doğulduğu torpağa bağlılığı idi. Ömür yolunun çox hissəsi Bakıda keçsə də, uşaqlıq illərinin doğma xatirəsini daşıyan Naxçıvan ona daha əziz idi. Ona görə də professor Yusif Seyidov dissertasiya işlərinin müdafiəsi ilə bağlı tez-tez Naxçıvana dəvət olunurdu. Hər gedişində doğma kəndinə baş çəkirdi. Onun doğmalarından kənddə heç kim qalmamışdı. Hər dəfə ata-anasının məzarını ziyarət edirdi. Sevdiklərinə bağlılıq bu insanda o qədər güclü idi ki, ora getmədən şəhərə dönməzdi. O, doğma kəndi haqqında danışanda gözlərində yaş donardı, uşaqlıq illərini kövrək hisslərlə yad edərdi.

Yusif Seyidovu «məhsuldar alim» adlandırmaq düzgün olar. Onu həmişə yazı masasının arxasında oturub işləyən görürdük. Yaddaşı gözəl idi, zəkası hamıdan fərqli idi. Son günlərinə kimi əlindən qələmi düşməyən bu alim-müəllimi daima hərəkətdə olan işıqlı bir planetə bənzətmək olardı. «Hər zaman işlərinizdə ciddi olun, diqqətli olun, tələbələri incitməyin» kimi məsləhətlər verən Yusif Seyidovun rəhbərlik etdiyi kafedranın müəllimləri bu işığın ətrafında toplanmışdılar və professionallıqla öz vəzifələrini yerinə yetirməyə çalışırdılar. Müəllimlər yeri düşəndə – «Hansı kafedrada işləyirsiniz?» sualına – «Yusif müəllimin kafedrasında» - cavabını verirdilər.

Yusif Seyidovun adı kafedraya xüsusi status verirdi. Kafedranın elmi-pedaqoji ab-havasını düzgün yönləndirən Yusif Seyidov həm də onun bütün sənədlərini, elmi işləri, məqalələri və digər yazı materiallarını şəxsən özü oxuyurdu, lazım gələrdisə, redaktə edirdi, məqalə müəlliflərinə tövsiyələrini verirdi. Onun zəkasının itiliyi, elmi səliqəsi və işgüzarlığı bizi heyrətə salırdı. O heç vaxt yorulmurdu sanki. Deyirlər ki, insanın iş qabiliyyəti yaşı ilə tərs mütənasib olur. Amma Yusif müəllimdə düz mütənasib idi. O, heç vaxt heç nədən şikayət etmirdi. Hətta xəstələnəndə də işə üzügülər gəlirdi, qızdırmalı olanda da işə gəlirdi. O, işləməyə bilmirdi. Onun beyni fenomenal idi, iradəsi də qeyri-adi dərəcədə güclü idi. Mənə elə gəlirdi ki, Yusif müəllimin iradəsi beynindən güc alırdı. Son illərdə fiziki cəhətdən zəifləmişdi və zəifliyin fonunda mənəvi gücü, daha parlaq, daha qabarıq görünürdü. O, əsil alim, əsil rəhbər idi.

Yusif müəllimin dünyasını dəyişməsindən artıq üç il keçib...

Mən Sizin haqqınızda yazmağa çətinlik çəkirəm. Böyük alim, zəhmətkeş insan! Ölüm başınızın üstünü alana qədər bir dəqiqə də olsun, qələmini əlindən qoymayan böyük insan! Həyatın və elmin yükünü çiyinlərində daşıya bilən, cüssəcə zəif, iradəcə polad möhkəmliyində olan İnsan! Kiçik bir otağın içərisində böyük məktəb yaradan Alim! Dünyanın dəbdəbəsinə, elmi şan-şöhrətinə uymayan, zəhməti və sadəliyi uca tutan İnsan! Hər kəsin və hər bir işin dəyərini, qiymətini düzgün meyarla ölçən Müəllim!

Deyirlər, alimin məqamı Allah yanında uca olur. Ondanmı, yoxsa seyid övladı olduğunuzdanmı, Yusif müəllim, ölüm tarixinizi də bilirdiniz. Son zamanlar daha çox işləyirdiniz. Bir gün özünüzü pis hiss etdiniz, səhhətinizlə bağlı, deyəsən, problem vardı. Müəllimlərdən biri- «Yorğunsunuz, bir az dincələsiniz bəlkə?!» – deyəndə belə cavab verdiniz: «Bilirəm, mən dekabr ayına kimi işləyə biləcəyəm». Sizin üçün işləmək yaşamaq demək idi!

Bu gün biz fəxarətlə deyirik ki, canlı klassikin yanında işləmişik, onun xeyir-duasını almışıq, onun məktəbini keçmişik.

İndi Sizin işlədiyiniz o kiçik otaqda böyük bir hüzur, şəxsiyyətinizə, elminizə hörmət var. Siz «Elm» adlı böyük bir dünyanın yükünü daşıyırdınız yorğun çiyinlərinizdə. Böyüklüyünüzü dərk edən hər kəs bütün zamanlarda Sizi hörmətlə yad edəcək!

«Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir...» (Qurani Kərim, Əl Bəqərə surəsi 269).

Allah rəhmət eləsin Sizə, böyük Müəllimimiz!

***Şəhla Əliyeva,***

***BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kiafedrasının dosenti,***

***pedaqoji elmlər namizədi***

# YUSİF SEYİDOVUN
# ƏSƏRLƏRİNDƏN SEÇİLƏN KƏLAMLAR

***Müdrik insanlar öz elm və ağılları ilə doğrunu tapıb onu hikməkli deyimlər və kəlamlar şəklində sonrakı nəsillərə çatdırmağı özlərinə borc bilirlər. Belə deyimlər, kəlamlar insan şüurunda, zehnində elə bir psixoloji aura yaradır ki, insanda həmin kəlamları əzbərləmək, onlardan faydalanmaq arzusu yaranır.***

***Hikmət sahibləri öz kəlamlarını hər hansı bir fərdə, hər hansı etnosa xidmət etmək üçün yaratmayıblar. Bu deyimlər, kəlamlar bəşəriyyətə ünvanlanmış mesajlardır.***

Hərə öz bacardığı işin dalınca getsin, elmə isə ürəyində, qəlbində elmə meylli insan gəlsin.

ꟷ

Elmi dərəcə fəxri ad, orden, medal deyil; bu ada çatmaq üçün gərgin elm yollarını keçmək, elmi dərəcədən əvvəl elmi səviyyəyə çatmaq lazımdır.

Hansı sahədə olur-olsun, istedad elmsiz, biliksiz parlaya bilməz.

Öz səviyyəsizliyini bilməyən adamlar həyatda ən dəhşətli adamlardır.

Paxıllıq istedadsızlığın doğma qardaşıdır.

Əsil müəllim gərək öz nüfuzunu, şərəf və ləyaqətini həmişə uca tutsun, qorusun!

Orta məktəbdə hər bir müəllim öz ixtisasını tədris etməklə bərabər, tədris etdiyi fəndən asılı olmayaraq, bir də “tərbiyə fənnini” tədris etməlidir.

Müəllim ən təminatlı şəxslərdən olmalıdır.

Ziyalı üç mühüm əlamətin daşıyıcısı olmalıdır: savad, əqli fəaliyyət və xalqın mədəni və intellektual inkşafı yolunda fədailik.

Söz klassik şeirin açarıdır.

ꕥ

Doğru söz qorxulu olduğu qədər də qüdrətlidir, hər şeyə qalib gələr, insanı qoruya bilər.

ꕥ

Hər şeyi vaxtında demək, vaxtında səs ucaltmaq nə qədər yaxşıdır.

ꕥ

Düşünə bilən insan daima yüklü olur.

ꕥ

Duyan-düşünən insanlar dünyanın dərdini çəkirlər.

ꕥ

İnsan dünyaya gəlir, böyüyür, qocalır, ömrün hansı çağındasa ruhlar aləminə qayıdır. Bu, həyatın dinamikasıdır, rəngləridir, yeni həyatın özüdür.

ꕥ

İnsan yaşlaşdıqca kövrək olur, xəyal aləmi onu çox uzaqlara çəkib aparır.

ꕥ

İçində ağlayıb, üzdə gülən insanlar əsl insanlardır.

ꕥ

Vətən, hər şeydən əvvəl, insanları ilə, xalqı, milləti ilə vətəndir.

ꕥ

İnsan, Vətən və ana dili anlayışları bir-birini şərtləndirir, bir yerdə gözəl olur. Bu vəhdət, bu əlaqə pozulanda, insan öz doğma dilindən ayrı düşəndə, faciələr başlanır.

ꕥ

Dilə qadağa qoyula bilməz (söhbət, ümumən, dildən gedir), qoyulsa, insanlıq məhv olar, sivilizasiya məhv olar.

ꕥ

Vətən sevdası cansız silaha da güc verir.

ꕥ

Həyat hiyləgər və məkrlidir.

Həyat və ölüm yolu ayrılmazdır, paralel xətlər üstündədir, hər ikisi eyni zamanda başladığı kimi, eyni zamanda da sona çatır.

Dünya bütün nəsillərin həyat yolunda daimi bir mehmanxana timsalındadır. Ancaq orada bir dəfə yaşamaq olar.

Ölüm adlı yenilməz qüvvə ilə insanın həyat eşqi qarşılaşdırılır.

Payız insanın yetkinlik yaşına bənzəyir.

Əgər başqasının qəlbində kiçik də olsa, bir işıq yandırmaq imkanınız varsa, onu əsirgəməyin.

Yaxşılıq etdiyim adamlardan pislik görməyəndə sevinmişəm.

ꕥ

Taleyin bəslədiyi musiqini hələ notlara salan olmayıb.

ꕥ

Aşıq sənəti, əslində, bir fərdin yaratdığı teatrdır.

ꕥ

Muğam vokal sənətində ağır artilleriya nisbətindədir.

ꕥ

Xalq-muğam qoşa yaşayır, qoşa ömür sürür.

ꕥ

“Sənsiz”in Nizami sözləri, Üzeyir musiqisi, Bülbül ifası birləşərək misli-bərabəri olmayan bir sənət möcüzəsi əmələ gəlmişdir.

ꕥ

Bayatı ilahi bir qüdrətin töhfəsi kimi dünyaya gəlir.

ꕥ

Bayatılarımız qan ağlamışdır.

ഇൽ

Bədii əsərin adı da özü kimi xüsusi yaradıcılıq işidir.

ഇൽ

Bədii dil ədəbi dilin bəzəkli qoludur.

ഇൽ

Tənqidi söyüşə çevirmək, tənqid əvəzinə təhqir demək demokratiya deyil.

ഇൽ

Demokratiya, qəribə olsa da, deməliyəm ki, dəmir intizam deməkdir, özbaşınalığın cilovlanması deməkdir. Əsil demokratiya insan demokratizmi ilə dövlət demokratizminin bir-birini tamamlamasıdır.

ഇൽ

Şeir yazmayıb mənən, daxilən şair olanların sayı şeir yazanlardan, bəlkə də, çoxdur.

ഇൽ

Şair, insanın özünü də özünə anladır və tanıdır; şair öz əsrdaşının daxili aləmini açıb onu özünə göstərir.

Qəm-kədər əsil şairə və şairliyə məxsus haldır.

Pisliyin, fitnə-fəsadın ömrü uzun olmur; xeyirxahlıq, sədaqət, düzlük daha güclüdür və son nəticədə məhz bu keyfiyyətlər üstün gəlir, bərqərar olur.

Yalançılıqlıa yaltaqlıq bir pulun iki üzüdür.

Daxili satqınlıq tarixin səhifələrində daima qara ləkə kimi anılır.

Tarix qəddarlığı ilə çox mütəfəkkirləri sınaqlara çəkibdir.

Əslində 20 Yanvar 28 Aprelin davamı və son akkordudur.

Yaltaqlıqla qəddarlıq bir xislətin iki tərəfidir, onlar bir-birini tamamlayır, biri fəaliyyətdə olanda o biri pusquda dayanır, biri o birinə "buyur, keç, irəli, indi sənin vaxtındır" – deyir.

ꙮ

O zaman ki, ordular üz-üzə gəlir, havadan qan qoxusu duyulur, o vaxt idraka ümid bəslənilir.

ꙮ

Fikir və xəyal dünyası, elmi və obrazlı təfəkkürü qoşa addımlayan şəxslər qocalmır.

ꙮ

İnsanı tənhalığa sürükləyən bəlaların ən qorxulusu şübhədir.

ꙮ

Tələsirəm. Tələsirəm ki, kitablarda, kitabxanalarda, evlərdə izlərim qalsın, kitab rəflərində üstündə adım yazılmış kitablarım görünsün, yad edilim, xatırlanım.

ꙮ

Nizami təkdir, əlçatmaz zirvədir, həm də sirli-soraqlı zirvə.

ꙮ

Nizaminin əsərləri birlikdə insan və cəmiyyət həyatının qomusu kimi səslənir.

ꕥ

Nəsimi dilində ümumxalq dilini, bu dilin ədəbi səviyyəsini şərtləndirən faktları zərrəbinlə axtarmaq lazım gəlmir. Hər şey sistem halındadır, təkrar-təkrar işlənir.

ꕥ

XIV əsrin böyük Azərbaycan şairi Nəsiminin sənət dünyası ilə üz-üzə durarkən özünü ümman kimi dərin idrakın və səma kimi əngin xəyalın vəhdətindən yaranmış sehrli bir məbədin astanasında hiss edirəm.

ꕥ

Füzuli elə bir dünyadır ki, hər adam ona yaxın düşə bilməz.

ꕥ

M.F.Axundov əlifbaya elmin, mədəniyyətin, təhsilin açarı kimi baxırdı.

ꕥ

Mirzə Cəlil dünyası zənginlik mənasında o qədər sirrli-soraqlıdır ki, hər tədqiqatçının o aləmə girməyə gücü çatmır.

ꕥ

Məmməd Arif ədəbi-bədi dilimizin rəngarəng çiçəklər açan bağında bir qayğıkeş bağban olmuşdur.

ꕥ

Mirzə İbrahimovun əsərlərinin dili öz bütövlüyü, tamlığı, parçalanmazlığı ilə fərqlənir; bu dil sapını çəkəndə çözələnib tökülə bilməz, ondan bir sözü, bir ifadəni götürsək, onun yeri görünər, bütövlüyə xələl gələr.

ꕥ

Məmməd Cəfər yaradıcılığını, onun əsərlərini bütöv Azərbaycan ədəbiyyatının güzgüsü hesab etmək olar; ümumən ədəbi-ictimai fikrin güzgüsü hesab etmək olar.

ꕥ

S.Vurğun Azərbaycan xalqının danışan dili, sızlayan qəlbi idi – o bütün Azərbaycan idi.

ꕥ

Səməd Vurğun özü bütöv Azərbaycanın söz tablosunu yaratmışdır.

ᘓᘐ

Səməd Vurğun sağlığında əfsanələşmişdir, əfsanəvi-tarixi şəxsiyyətə çevrilmişdir.

ᘓᘐ

B.Vahabzadənin dilində xüsusi yer tutan ifadələr yaranır və çox güman ki, bu ifadələr bir zaman bu və ya digər formada atalar sözü və məsəllər kimi, xalqın dilində səslənəcəkdir.

ᘓᘐ

1960-80-ci illərin poetik ədəbi prosesində Bəxtiyar dəsti-xətti, Bəxtiyar ədası, Bəxtiyar nəfəsi açıq və ya örtülü formada özünü göstərir və ya hiss edilir. “Şəbi-hicran”da Füzuli dühası ilə Vahabzadə sənəti qovuşur, həm düşündürür, ağıla-şüura təsir edir, həm də ürəyə dolur, hissə-qəlbə qida verir.

ᘓᘐ

XX əsr Azərbaycan poeziyası Məmməd Araz zirzəsi ilə yekunlaşır.

ᘓᘐ

XX əsr Heydər Əliyev kimi siyasət dahisi yetirdi.

ꕤ

Teymur Bünyadovun "Bilsəydim ayrılıqdır" kitabı bir sarı sim üstündə, poetik deyimlər üzərində qurulmuşdur. Bu deyimlərdə Azərbaycanın, klassik Azərbaycanın sözlə xəritəsi çəkilir.

ꕤ

Elçin epoxal yazıçıdır, dövrün və dövrlərin yazıçısıdır.

ꕤ

Sabir Rüstəmxanlının "Ömür kitabı" şairin tərcümeyi-halı deyil, onun xalqının mür kitabıdır.

ꕤ

Abbas Zamanov imperiya siyasətinə və bu siyasətə arxalanan ermənilərin ərazi iddialarına qarşı cəsarətlə səsini qaldıran, bununla da başına olmazın fəlakətlər gələn, olmazın əzablara məruz qalan, lakin sınmayan və nəhayət, həm mənən, həm də şəxsən qalib gələn Azərbaycan türk kişisi idi.

## MÜNDƏRİCAT

Ön söz .......................................................................... 3
Ömrün əsas illəri ............................................................ 25
Həyatından səhifələr ....................................................... 29

***Professor Yusif Seyidovun biblioqrafiyası***

Çap olunmuş əsərləri ...................................................... 49
Kitabları ........................................................................ 49
Məqalələri ...................................................................... 56
Redaktə etdiyi kitablar və proqramlar ................................ 83
Rəhbərlik etdiyi dissertasiya işləri ..................................... 92
Rəsmi opponent olduğu dissertasiya işləri ........................... 97
Məktubları ..................................................................... 101
Müsahibələri .................................................................. 104
Özü və əsərləri haqqında yazılanlar .................................. 106
Tərkibində olduğu redaksiya heyətləri ............................... 116

***Yusif Seyidov haqqında yazılanlardan seçmələr***

*İ.Həbibbəyli*
Böyük elmə bəxş edilmiş ömür ........................................ 117
*M.Qıpçaq*
Görkəmli alim, ustad pedaqoq, gözəl insan ....................... 128
*M.Abdullayeva*
Yusif Seyidovun ədəbi-bədii fikir dünyası ......................... 134
*R.Quliyeva*
Elm səmasında parlayan ömür .......................................... 142

***Yusif Seyidova ithaf olunmuş şeirlər***

*M.Qurbanova*
Mənim müəllimlərim ........................................................ 152
*M.Abdullayeva*
Yusif müəllimə ithaf ........................................................ 153
*Ə.Cavadov*
Müəllimim və ustadım Yusif Seyidovun əziz xatirəsinə ..... 154

***Xatirələr***

*A.Məhərrəmov*
Görkəmli alim, xeyirxah insan............................................ 155
*V.Məmmədəliyev*
Filologiya elmləri doktoru professor Yusif Seyidovun
əziz xatirəsinə.................................................................. 158
*T.Bünyadov*
Gözəl insan, böyük alim.................................................... 159
*Ə.Abdinov*
Ulduz ömürlü insan.......................................................... 161
*M.Mərdanov*
Professor Yusif Seyidov haqqında...................................... 168
*M.Nağısoylu*
Yusif Seyidov-dilçilik elmimizin parlaq siması,
gözəl və səmimi insan ....................................................... 171
*N.Cəfərov*
Yusif müəllim ................................................................... 174
*H.Əsgərov*
Məqsədi insanlıq olan insan.............................................. 179
*Ə.Qurbanov*
Bir kövrək xatirə işığında.................................................. 184

*İ.Rüstəmov*
Gözəl dilçi alim, sadə və zəngin mədəniyyətli insan, sevimli həmkarımız Y.Seyidov ........................................ 197
*Q.Hüseynov*
Elm və təhsilə həsr olunmuş ömür ........................................ 199
*A.Abasov*
Görkəmli dilçi alim, ustad müəllim, gözəl təşkilatçı ........... 201
*İ.Əliyeva*
Özü gedən, sözü qalan böyük ustad ........................................ 204
*A.Babayev*
Görkəmli alim, kamil şəxsiyyət ........................................ 212
*Ə.Əsgərov*
Elm ağsaqqalı? böyük ustad, nurlu insan, axirət dünyasına işıq saçan alim ........................................ 216
*M.Babayev*
Unudulmayan ziyalı Yusif Seyidov ........................................ 219
*C.Nağıyev*
Azərbaycan dilçiliyinin sonuncu mogikanı – Yusif Seyidov ........................................ 221
*İ.Məmmədli*
Azərbaycan dilçiliyinin ağsaqqallarından biri professor Yusif Mirəhməd oğlu Seyidov ........................................ 224
*M.Cəfər*
Müəllimlər müəllimi ........................................ 228
*Ramiz Əsgər*
Sonuncu mogikan ........................................ 231
*M.Məmmədli*
Yusif Seyidov və dil tarixi məsələləri ........................................ 235
*N.Xəlilov*
Yusif müəllim sağ olsaydı ........................................ 240

*S.İbrahimov*
Yusif müəllim əsil ziyalı idi ................................................ 242
Ə.Tanrıverdi
Görkəmli dilçi, ustad müəllim ............................................ 245
*M.Abdullayeva*
Yusif Seyidovun bədii-fəlsəfi düşüncələri ........................... 250
*R.Quliyeva*
Universitet onun məbədgahı idi ........................................... 267
*X.Məmmədova*
Elm, bilik, mənəviyyat müəllimimiz və
fədakar tədqiqatçı ................................................................ 272
*M.Vəliyev*
Mürşidimiz Yusif müəllim .................................................. 275
*E.Məmmədov*
Yusif Seyidov nuru ............................................................. 280
*C.Muradov*
Tikdim ki, izim qala ............................................................ 282
*M.Qurbanova*
Bizim Yusif müəllim… ........................................................ 284
*M.Osmanoğlu*
Yusif müəllimin «5»-I .......................................................... 290
*S.Seyidova*
Yusif Seyidov məktəbi ......................................................... 294
*Ş.Abdullayeva*
Mənim sevimli ustadım ....................................................... 301
*S.Əsgərzadə*
Böyük və sadə Yusif Seyidov .............................................. 311
*Ə.Cavadov*
Söz mülkünün şahı .............................................................. 315

*M.Məmmədov*
Böyük alim, böyük müəllim, bğyük insan ........................... 319
*Ş.Əliyeva*
Bizim böyük müəllimimiz .................................................. 322

***Yusif Seyidov yaradıcılığından seçilən kəlamlar*** ............... 327